METODİK VƏSAİT

# Ədəbiyyat

# 6



AFƏT SÜLEYMANOVA, TƏRANƏ BAĞIROVA

Ümumi təhsil müəssisələrinin

# ƏDƏBİYYAT

6-cı sinifləri üçün

fənni üzrə dərsliyin

## METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **tahsil_az@yahoo.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

## MÜNDƏRİCAT


Giriş ........................................................................................................5
Standartların reallaşma cədvəli ......................................................................48
6-cı sinif "Ədəbiyyat" dərsliyi üzrə illik planlaşdırma cədvəli..........................................51
**Rəşid bəy Əfəndiyev.** "Elm tükənməz xəzinədir", "Şah Abbas və iki vəzir" ..............68
**Yusif Balasaqunlu.** "Qutadqu bilik – səadət gətirən elm"
*(Oxu və yazı prosesi)* Oxu prosesi ......................................................................72
**Yusif Balasaqunlu.** "Qutadqu bilik – səadət gətirən elm"
*(Oxu və yazı prosesi)* Yazı prosesi ....................................................................74


### *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR*


**Mikayıl Rzaquluzadə.** "Vurğun baxışlarla" ("Gözəlliyin keşiyində" əsərindən)
*(Bədii əsərlərdə təsvirin müəyyən edilməsi)* .................................................76
**Bəxtiyar Vahabzadə.** "Qocalar"
*(Bədii əsərlərdə insanın təsviri) (İctimai varlıq kimi)*.......................................78
**Mirvarid Dilbazi.** "Müəllimim"
*(Bədii əsərlərdə insanın təsviri) (Xarici görkəmi)* ..........................................80
**Çingiz Aytmatov.** "Dəniz kənarıyla qaçan Alabaş" *(İnsanın təsviri)* .........................84
KSQ. **Abdulla Şaiq.** "Köç" hekayəsi *(Ayrım qızı)* ..................................................88
KSQ. **Abdulla Şaiq.** "Köç" hekayəsi *(Kərim baba)* ...............................................90
**Əliağa Kürçaylı.** "Vətən" *(Bədii əsərlərin ideyasının müəyyən edilməsi)* ..................92
Sinifdənxaric oxu. **Mustafa Çəmənli.** "Qurban bayramı" ........................................94
**Məmməd Araz.** "Azərbaycan – dünyam mənim"
*(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)* ......................................................96
**Məmməd Araz.** "Azərbaycan – dünyam mənim"
*(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)* ......................................................98
**Məmməd Araz.** "Azərbaycan – dünyam mənim"
*(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)* ......................................................100
**Hikmət Ziya.** "Qarabağda"
*(Bədii əsərlərdə təsvir vasitələrinin əlaqələndirilməsi)* .......................................... 102
**Aleksandr Düma.** "Qafqaz səfəri: Bakı"
*(Təsviri xarakterli bədii əsərlərin quruluşu:*
*əsərin hissələrinin müəyyən edilməsi)* ...........................................................104
**Aleksandr Düma.** "Qafqaz səfəri: Bakı"
*(Təsviri xarakterli bədii əsərlərin quruluşu:*
*əsərin hissələrinin müəyyən edilməsi)* ...........................................................106
**Aleksandr Düma.** "Qafqaz səfəri: Bakı"
*(Təsviri xarakterli bədii əsərlərin quruluşu:*
*əsərin hissələrinin müəyyən edilməsi)* ...........................................................108
**Aleksandr Düma.** "Qafqaz səfəri: Bakı"
*(Təsviri xarakterli bədii əsərlərin quruluşu:*
*əsərin hissələrinin müəyyən edilməsi)* ...........................................................114
Biz nə öyrəndik?
**Xəlil Rza Ulutürk.** "Gerbimiz – qəlbimiz" ..........................................................118

Yazaq, yaradaq: yazıya hazırlıq ........................................................................................122
Yazaq, yaradaq: yazı, qarşılıqlı yoxlama ........................................................................124
Essenin təqdimatı ............................................................................................................125

## *BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ*

Kimdir əlil. **Kamal Turan.** "Üç nəfərin imtahanı" *(Bədii əsərlərdə nəqletmə)* ...........128
Kimdir əlil. **Kamal Turan.** "Üç nəfərin imtahanı" əsərləri üzrə iş ...............................130
**Məmməd Namaz.** "Hamının günəşi"
*(Nəqli mətnin oxusunun təşkili: proqnozlaşdırma)* .......................................................132
"Ağıllı uşaq". *(Azərbaycan xalq nağılı)*
*(Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)* .......................................134
"Ağıllı uşaq" *(Azərbaycan xalq nağılı)*
*(Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)* .......................................140
"Ağıllı uşaq" *(Azərbaycan xalq nağılı)*
*(Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)* .......................................142
Sinifdənxaric oxu. **Nizami Gəncəvi.** *"Ovçu ilə itin və tülkünün hekayəti"* ..................148
**Nəriman Süleymanov.** "Birinci cığır"
*(Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi)* ...........................150
**Nəriman Süleymanov.** "Birinci cığır"
*(Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi)* ...........................152
**Nizami Gəncəvi.** "Yaralı bir uşağın dastanı"
**Mirmehdi Seyidzadə.** "Əqrəb və Çanaqlı bağa"
*(Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində*
*oxşar və fərqli cəhətlərin qarşılaşdırılması)* ..............................................................154
**Nizami Gəncəvi.** "Yaralı bir uşağın dastanı"
**Mirmehdi Seyidzadə.** "Əqrəb və Çanaqlı bağa"
*(Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində*
*oxşar və fərqli cəhətlərin qarşılaşdırılması)* ..............................................................156
**Sabir Əhmədli.** "Dərs"
*(Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri.*
*Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*.................158
**Sabir Əhmədli.** "Dərs"
*(Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri.*
*Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*.................160
Sinifdənxaric oxu. **Aşıq Ələsgər.** "Gərəkdi" ..............................................................168
"Xan sarayı" əfsanəsi
*(Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)* ................170
**Mir Cəlal.** "Dərsimi yaz" və **Zahid Xəlil.** "Zeynalabdin"
*(Nəqletmə xarakterli əsərlərin elementlərinin müqayisəsi)* ..........................................172
**İvan Krılov.** "Ağac"
*(Nəqletmə xarakterli əsərlərin nağıl edilməsi, nəticələrin çıxarılması)* .........................176
"Çahargah əfsanəsi" *(Müstəqil iş)* ..............................................................................184
KSQ. "İsgəndər quş dili öyrənir". *(Azərbaycan xalq nağılı)* ..........................................186
Nəqli essenin yazısına hazırlıq: mətnin elementlərinin yaradılması ..............................190
Nəqli essenin yazısının təşkili ........................................................................................191
Sinifdənxaric oxu. "Tülkü ilə qurd" *(təmsil)* ................................................................192

## *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR-NƏQLETMƏ*

**Əli Səmədli.** "Qanlı bənövşə" *(Bədii əsərlərdə təsvir və nəqletmə)*..............................194
**Cabir Novruz.** "Mən bizim anaları Günəşlə tən tuturam".
"Ana rəhmi" əfsanəsi
*(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*................................................................................196
**Cabir Novruz.** "Mən bizim anaları Günəşlə tən tuturam".
"Ana rəhmi" əfsanəsi
*(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*................198
**Cabir Novruz.** "Mən bizim anaları Günəşlə tən tuturam".
"Ana rəhmi" əfsanəsi
*(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*................200
"Koroğlu" dastanından "Düratın itməyi" qolu
*(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*........................202
"Koroğlu" dastanından "Düratın itməyi" qolu
*(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*........................204
"Koroğlu" dastanından "Düratın itməyi" qolu
*(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*........................206
KSQ. **İlyas Əfəndiyev.** "Zəmidə bir turac səslənirdi"..................................................208
Sinifdənxaric oxu. "İki qardaş" *(nağıl)*..............................................................210
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərin oxusu üzrə iş)*............212
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli əsərdə bədii nümunənin təhlili üzrə iş: ideyanın müəyyən edilməsi)*..........................................................................214
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili)*..........................................................................216
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili)*..........................................................................218
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərdə bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi)*........................................220
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli əsərin hissələri: hadisələrin ardıcıllığı və süjet)*....................226
"Kitabi-Dədə Qorqud". "Basatın Təpəgözü öldürdüyü boy"
*(Təsviri-nəqli xarakterli əsərin elementləri və nəqletmənin təşkili)*..............................228
LAYİHƏ..............................................................................................................230
Dərslik komplektində istifadə olunmuş ədəbiyyat............................................233
Əlavələr..............................................................................................................237

# GİRİŞ

Bildiyiniz kimi, ölkəmiz 20 ildən çoxdur ki, müstəqillik yoluna qədəm qoymuş və Azərbaycan Respublikasının Konstitusiyasında öz niyyətini bəyan etmişdir:

• Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
• Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
• vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
• xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
• ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
• ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Məhz bu niyyətlərin həyata keçməsini təmin edən bir çox qanunverici və strateji sənədlər ("Təhsil haqqında" – Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı, Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları və s.), habelə dünya birliyinin qəbul etdiyi və ölkəmizin qoşulduğu müxtəlif bəyannamələr və konvensiyalar (Ümumdünya İnsan Hüquqları haqqında Bəyannamə, Uşaq Hüquqları haqqında Konvensiya, Əlillərin Hüquqları haqqında Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya) təhsillə bağlı mühüm qərarlar qəbul edilərkən əldə rəhbər tutulmuş, milli-mənəvi və ümumbəşəri dəyərlər önə çəkilmişdir. Bu gün Azərbaycanda təhsilin məzmunu şagirdyönümlülük, tələbyönümlülük, nəticəyönümlülük, inkişafyönümlülük və inteqrativlik kimi prinsiplərə əsaslanır.

**Şagirdyönümlülük** – təhsilin məzmunu tərtib və tətbiq edilərkən hər bir şagirdin ehtiyac və maraqlarının nəzərə alınması, bütün öyrənənlərin təlim prosesinə fəal cəlb olunması;

**Tələbyönümlülük** – cəmiyyətdə gedən ictimai, iqtisadi dəyişikliklərin, elm və texnikanın inkişafının, habelə dünyada gedən qloballaşmanın həyat və məişətimizə gətirdiyi yeniliklərin nəzərə alınması;

**Nəticəyönümlülük** – nail olunması nəzərdə tutulan nəticələrin əvvəlcədən müəyyən olunması və təlimin təşkilində məhz həmin nəticələrin əldə rəhbər tutulması;

**İnkişafyönümlülük** – müxtəlif fənlər üzrə nəzərdə tutulan bilik və bacarıqların təhsilin inkişaf səviyyəsinə ardıcıl və davamlı şəkildə tətbiq olunması;

**İnteqrativlik** – ayrı-ayrı fənlər üzrə bilik və bacarıqların həm bir-biri, həm də həyatla əlaqəli olması.

Bu prinsiplər müasir metod və metodologiyanın fəlsəfi, hüquqi, psixoloji, pedaqoji və praktik əsasını təşkil edir. Tərəfimizdən yazılmış "Ədəbiyyat" dərsliyi də məhz bu tələblərə əsaslanır.

***I. "Ədəbiyyat" dərsliyinin hazırlanmasında aşağıda qeyd edilən hüquqi sənədlər əldə rəhbər tutulmuşdur:***

1. Azərbaycan Respublikasının Ümumi təhsil pilləsinin dövlət standartları və təhsil proqramları (kurikulumları) (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmişdir).
2. Ümumi təhsil sistemində dərslik siyasəti (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.01.2006-cı il tarixli 33 nömrəli əmri ilə təsdiq olunub).

**1. Azərbaycan Respublikasının Ümumi təhsil pilləsinin dövlət standartları və təhsil proqramları (kurikulumları)**

Ədəbiyyat fənn proqramında (kurikulumunda) fənnin məqsədi aşağıda qeyd edilən şəkildə müəyyən edilmişdir:

Ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnmələrinə nail olmaqdır.

Bu məqsədə çatmaq üçün təhsilin hər iki səviyyəsinə görə qarşıda duran vəzifələr müəyyən edilmişdir:

***Ümumi orta təhsil səviyyəsində:***

İncəsənətin bir növü kimi söz sənətinin – şifahi və yazılı ədəbiyyatın xalqın mənəvi sərvəti olması, həyatı, taleyüklü məsələləri özünəməxsus bədii vasitələrlə əks etdirməsi barədə şagirdlərdə dolğun təsəvvür yaradılır.

Milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir.

Ədəbiyyat nəzəriyyəsi üzrə zəruri biliklərə və mütaliə mədəniyyətinə yiyələnən şagirdlərdə konfliktlərə, problemlərə, ədəbi nailiyyətlərə əsaslandırılmış münasibətin formalaşması təmin edilir.

***Tam orta təhsil səviyyəsində:***

Şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişlər təkmilləşdirilməklə, tarixi-xronoloji ardıcıllıqla Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu, ədəbi ənənə və əlaqələri, Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr öyrədilir, ədəbiyyat

nəzəriyyəsinə dair məlumatlar genişləndirilir və şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin olunur.

Göründüyü kimi, təlimin tarixi-xronoloji ardıcıllıqla təşkil edilməsi ümumi orta təhsil səviyyəsi üçün zəruri hesab edilmir. Amma tam orta təhsil səviyyəsi üçün təlimin təşkilində belə bir ardıcıllığın əldə rəhbər tutulması zəruri hesab edilir.

## Standartların reallaşdırılması imkanları

VI sinif "Ədəbiyyat" dərsliyi məzmun standartlarının tələbləri baxımından tərtib edilmişdir. Həmin məzmun standartları aşağıdakılardan ibarətdir:

Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Ədəbiyyat və həyat həqiqətləri**

1.1. Bədii əsərlərin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir.

1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir.

1.2. Bədii əsərlərin təhlili üzrə bacarıqlarını nümayiş etdirir.

1.2.1. Bədii əsərləri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir.

1.2.2. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

1.2.3. Bədii əsərdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır.

1.2.4. Bədii əsərlərin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

2.1. Şifahi nitq bacarıqlarını nümayiş etdirir.

2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı diskussiya və təqdimatlarda istifadə edir.

2.1.2. Bədii əsərlərlə bağlı fikirlərini obrazlı sözlərdən və ifadələrdən istifadə etməklə şərh edir.

2.2. Bədii əsərlərin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir.

**3. Yazılı nitq**

3.1. Yazılı nitq bacarıqlarını nümayiş etdirir.

3.1.1. Mətni faktlarla, sitatlarla zənginləşdirir.

3.1.2. Bədii əsərdəki başlıca fikri anladığını nümayiş etdirir.

3.1.3. 1-1,5 səhifə həcmində rəy və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

## 2. "Ümumtəhsil sistemində dərslik siyasəti" sənədi

Müəllifi olduğumuz "Ədəbiyyat" dərsliyi tərtib edilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərişi ilə hazırlanmış, Maliyyə, Ədliyyə, İqtisadi İnkişaf, Mədəniyyət və Turizm nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, Standartlaşdırma, Meteorologiya və Patent üzrə Dövlət Komitəsi və Satınalmalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 23.01.2006-cı il tarixli 33 nömrəli əmrlə təsdiq olunmuş **"Ümumtəhsil sistemində dərslik siyasəti"**nin müasir dərsliyin məzmununa verdiyi tələblər nəzərə alınmışdır.

## 3. Dərsliklərin məzmununa verilən əsas tələblər

**3.1. Dərsliklərdə:**

– şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalar olmalıdır;

– şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri nəzərə alınmalıdır;

– dünyəvilik prinsipinə riayət edilməlidir;

– elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır;

– illüstrasiyalar yığcam və mövzulara uyğun olmalıdır;

– Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, ölkənin qoşulduğu beynəlxalq hüquqi aktlara zidd olan fikirlərə yer verilməməlidir;

– milli, dini, irqi, cinsi və siyasi ayrı-seçkilik təbliğ edən fikirlər, mübahisə doğuran məlumatlar olmamalıdır;

– elmi mübahisə doğuran məsələlərə yer verilməməlidir.

**3.2. Dərsliklər:**

– Dövlət Təhsil Standartları əsasında hazırlanmış kurikulumlara uyğun olmalıdır;

– şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılamalı, onları düşünməyə sövq etməli, məntiqi təfəkkürü inkişaf etdirməlidir;

– tətbiqi xarakter daşımalı, inteqrativ xüsusiyyətə malik olmalıdır;

– şagirdlərdə demokratik dünyagörüşü formalaşdırmalıdır.

***II. "Ədəbiyyat" fənni üzrə VI sinif dərsliyinin hazırlanmasının elmi-nəzəri və metodik əsası***

1. **Ədəbiyyatşünaslıq** – M.Paşayev, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları, "Maarif" nəşriyyatı, Bakı, 1988, 279 s.
2. **İdrak taksonomiyaları** – Bloom B.S., Max D.Engelhart, Edvard J.Furst., Walker H.Hill., David R. Krathwohl. Taxonomy of educational objectives. The classification of educational goals, Handbook I: Cognitive domain. New York: David McKay 1956, 370 p.
3. **Təhsilin cəmiyyətlə inteqrasiyası** – Diwey J A. School and society, The University of Chocago press, Chicago, 1962, 289 p.
4. **Oxu strategiyası** – Rachel Billmeyer. Strategic Reading in the Content Areas: Practical Applications for Creating a Thinking Enviroment, Rachel & Assosiates, Inc.17440 Rivera Drive, Omaha, 2004.
5. **Müxtəlif üsullarla dərketmə və ya müxtəlif zəka tipləri nəzəriyyəsi** – Gardner Howard, Frames of Mind: The Theory of Multiple Intelligences, Basic Books, 1993, 440 p.
6. **Mətn nəzəriyyəsi** – Вальгина Н.С. учебное пособие, Изд-во МГУП "Мир книги", 1998 – Всего страниц: 208 (Mətn Nəzəriyyəsi, dərs vəsaiti)
7. Student Center Activities: Comprehension: Narrative texst structure, 2007 The Florida Center for Reading Research http://www.fcrr.org/curriculum/ PDF/ G2-3/2-3Comp_1.pdf

***III. Azərbaycan və dünya klassiklərinin, həm də tanınmış müasir yazarların əsərləri***

## Bu "Ədəbiyyat" dərsliyinin əvvəlki "Ədəbiyyat" dərsliklərindən fərqi nədədir?

Hörmətli müəllimlər, istənilən yaradıcılıq işinə başlamazdan əvvəl araşdırmalar aparmaq bu prosesin tərkib və zəruri hissəsidir. Odur ki Azərbaycanın, ABŞ-ın, Türkiyənin, Rusiyanın məktəblərində tədris edilən "Ədəbiyyat" dərslikləri ilə yaxından tanış olmuş, bu dərsliklərdə daha çox əhəmiyyət verilən məsələləri araşdırmışıq. Eyni zamanda cəmiyyətdəki dəyişikliklər, elm-texnikanın inkişafı, dünyada gedən qloballaşma prosesi nəzərə alınmışdır. Fikrimizcə, bu addımları atmadan, yalnız mövcud təcrübəyə əsaslanaraq yeni fənn proqramının (kurikulumunun) reallaşmasına xidmət edən bir dərsliyin tərtibi mümkün olmazdı.

Diqqətinizə Ədəbiyyat fənninin iki cür fənn proqramından parçalar təqdim edilir. Birinci sütundakı proqram ənənəvi – fənyönümlü, ikinci sütundakı isə nəticəyönümlüdür.

*Cədvəl 1*

| Fənyönümlü proqram | Nəticəyönümlü proqram |
|---|---|
| **I. Azərbaycan şifahi xalq ədəbiyyatından seçmələr**<br>Layla və əzizləmə *(1 saat)*<br>Anaların övladla bağlı arzuları, körpələri bədii sözlə əzizləmə (oxşama) imkanları, bədii oxşama üsulları, beşik mahnıları<br>Ədəbiyyat nəzəriyyəsi: layla, əzizləmə<br>Sinifdənxaric oxu üçün: layla və əzizləmələr<br>**Əfsanələr. "Göyərçin", "Ana maral"** ***(2 saat)***<br>Əfsanələrdə xalqın dünyagörüşünün, həyata baxışının əks olunması. "Göyərçin" əfsanəsində ədalətsiz müharibələrə münasibət Əsərdə göyərçin sülh rəmzi kimi. "Ana maral" əfsanəsində yaxşılığın itməməsi ideyasının bədii ifadəsi<br>**Ədəbiyyat nəzəriyyəsi:** Əfsanə<br>Sinifdənxaric oxu üçün: "Simurq" əfsanəsi | **1. Ədəbiyyat və həyat həqiqətləri**<br>1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir.<br>1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.<br>1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.<br>1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |

Göründüyü kimi, birinci proqramda dərs ilinin sonunadək şagirdin bilməli olduğu fənn bilikləri əks etdirilmişdir. Diqqət edilməli məqam odur ki, dərs ili yekunlaşarkən şagirdin proqram materiallarını hansı səviyyədə mənimsədiyini qiymətləndirmək üçün heç bir mexanizm yoxdur. Sadəcə, fənn üzrə öyrəniləcək məsələlər və onların tədrisinə ayrılmış saat təqdim edilir.

İndi isə ikinci sütuna nəzər yetirək. Dərs ilinin sonunda şagirdin nəyi bilməli olduğu və bildiyini necə nümayiş etdirəcəyi standartda açıq-aydın əks etdirilib. Göstərilir ki, şagird əsərin təhlili ilə bağlı alt-standartlarda əksini tapmış fəaliyyətləri praktik şəkildə yerinə yetirə bilirsə, deməli, əsərin təhlili üzrə bacarıqları nümayiş etdirir. Standartdan belə məlum olur ki:

– Şagird bədii əsərləri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə etməlidir (1.2.1.).

– Şagird verilən bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirməlidir (1.2.2.).

– Bədii əsərdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırmalıdır. O, dərs ilinin sonunda verilən ixtiyari (janr məhdudiyyəti gözlənilməklə) bir əsəri oxuyub, oradakı təsvir və ifadə vasitələrini müəyyənləşdirməlidir. Fikri ifadə edərkən müəllifin həmin təsvir və ifadə vasitələrindən nə qədər ustalıqla istifadə etdiyini dəyərləndirməli və əsərdə onların konkret rolunu izah etməlidir (1.2.3.).

– Şagird bədii əsərlərin mövzusunu, ideyasını şərh edib, əsaslandırılmış münasibət bildirməlidir. Ümumiləşdirmələr apararkən diqqətli olmalı, əsərin ideyasını aydınlaşdırmalıdır. Sonda müəyyən etdiyi ideyaya münasibətini izah etməlidir (1.2.4.).

Standartlar əsasında tapşırıqlar hazırlanandan və şagirdlər tərəfindən yerinə yetiriləndən sonra onların hansı səviyyədə uğur qazandığı məlum olur. Bu əsasda şagirdin illik nəticəsi qiymətləndirilir.

Dərslikdə "öyrənməyi öyrətmək" şagirdin gündəlik praktik fəaliyyətində reallaşır. Dəqiq düşünülmüş təlimatlar addım-addım müstəqil şəkildə fikir yürütməyin yollarını öyrədir. Məhz bu xüsusiyyətinə görə dərslik, əslində, ədəbiyyatın tədrisinə tam yeni yanaşmadır. Şagirdlər verilən hər bir tapşırığın icrası üçün göstərişləri yerinə yetirirlər. Göstərişlərə müvafiq işin icrası həm hər bir şagirdi təlim prosesinə fəal cəlb edib onun öyrənməsinə şərait yaradır, həm də təlimi təşkil edən müəllimin və övladına dəstək olmaq istəyən valideynin işini xeyli asanlaşdırır. Əldə edilən, hətta ən kiçik nailiyyət belə şagirdin özünəinamını artırır və təlimə marağını yüksəldir. Bütün bunların nəticəsində isə şagird bədii təfəkkürü inkişaf etdirən əhəmiyyətli bacarıqlara yiyələnir. Yəni əsərin quruluşunu müəyyənləşdirməyi, onun ideyasını asanlıqla aydınlaşdırmağı bacarır. Əsərin ideyasını düzgün müəyyən edən şagird həyatda qarşılaşdığı müxtəlif situasiyaları dəyərləndirməyi, düzgün qərar qəbul etməyi öyrənir. Oxuduğu əsərin dil xüsusiyyətlərini mənimsəyib, şifahi və yazılı nitqinin zənginləşməsində ondan yetərincə bəhrələnən şagird, həmçinin əsərdəki obrazlarla real həyatdakı insanların xarakterindəki müsbət və mənfi cəhətləri qarşılaşdırıb müqayisə etməyi, onları tanımağın yollarını da bacarır. Şagird hər hansı məsələ ilə bağlı təlim fəaliyyətinə başlamazdan əvvəl həmin məsələnin icrasının onun üçün problem yaradacağını hiss edirsə, öz baza bilik və bacarığını səfərbər edir, problemin həllinə cəhdlər göstərir. Şagirdlərin cütlərdə və qruplarda fəaliyyətə cəlb edilməsi ilə bağlı dəqiq prosedurların verilməsi onların öz yoldaşları ilə səmərəli əməkdaşlığını təmin edir və hər bir şagirdin nailiyyət keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Bütün bu proseslərdə şagirdlər vacib və əhəmiyyətli həyati bacarıqlara sahib olur, müəllimlər isə bu məsələlərin keyfiyyətli tədris zamanı daha mükəmməl mənimsənilməsi üçün zəruri tövsiyələrlə təmin olunurlar.

İlin sonunda yekun nəticəyə nail ola bilmək üçün illik yük (standart) kiçik, gündəlik yüklərə (təlim-dərs məqsədlərinə) bölünür və ilboyu bu istiqamətdə işlər aparılır. Əlbəttə ki, bu işlər bir neçə standartı deyil, ilboyu reallaşdırılması nəzərdə tutulan bütün standartları əhatə etməlidir. Ona görə də müəllim və ya dərslik müəllifi hər bir standartın ilboyu kiçik dərs məqsədləri şəklində şagirdə çatdırılmasını təmin etmək üçün dəqiq illik planlaşdırma aparmalı və standartlara müvafiq proporsional vaxt bölgüsü etməlidir.

Diqqətinizi bir daha bir az əvvəl cədvəl 1-də təqdim edilmiş "Fənyönümlü proqram"a cəlb etmək istərdik. Yazılır: "Ana maral" əfsanəsində **"yaxşılığın itməməsi ideyasının bədii ifadəsi"**. Əsərin ideyası proqramda əks etdirilir: **"yaxşılığın itməməsi"**. Bu da həmin ideyanın dərslikdə müəllimə və şagirdə təqdim edilməsinə şərait yaradır. Beləliklə, şagird müstəqil düşünüb əsərin ideyasını müəyyən etmək imkanından məhrum olur. Onun üzərinə düşən vəzifə dərslikdə yazılanları oxuyub, yadında saxlayıb müəllimə təqdim etmək olur.

Müasir fənn proqramına (kurikuluma) əsasən yazılmış bu dərslikdə isə əsərlərin ideyası deyil, ideyanı müəyyən etməyin yolları, mexanizmi təqdim edilmişdir. (Doğrudur, müəllimə dəstək məqsədilə metodik vəsaitdə ayrı-ayrı əsərlərin ideyası ilə bağlı təxmini variantlar təklif edilmişdir. Lakin bunlar yalnız dəstək xarakterli tövsiyələrdir. Müəllim vəsaitdə təqdim ediləndən daha mükəmməl və daha uğurlu variantlar da tərtib edə bilər.)

Aparılan işin nəticəsində şagird dərs ilinin sonunda oxuduğu istənilən heca vəznli və sadə süjetli əsərin ideyasını müəyyən etməyi bacarmalıdır. Müdriklərin dediyi kimi, uşağa "balıq verilmir, balıq tutmağın yolları öyrədilir". Bu, ilin sonu üçün nəzərdə tutulan nəticənin – standartın tələbidir.

Dərslik tərtib edilərkən "İllik planlaşma" və "Standartların reallaşma xəritəsi" əldə rəhbər tutulmuş və müəllimlərin tədris prosesində mövcud tələblərə uyğun işləməsinə kömək məqsədilə onlara metodik vəsait də təqdim edilmişdir.

## Dərsliyin strukturu müəyyən edilərkən əldə rəhbər tutulan məsələlər

Dərslik üç fəsildən ("Bədii əsərlərdə təsvir". "Bədii əsərlərdə nəqletmə" və "Bədii əsərlərdə təsvir-nəqletmə") ibarətdir.

"Ədəbiyyat" fənn proqramı (kurikulumu) əsasında dərslik planlaşdırılarkən şifahi və yazılı nitq bacarıqları baxımından inkişafyönümlülüyün gözlənilməsini yoxlamaq məqsədilə ibtidai təhsil səviyyəsində tədris olunan "Azərbaycan dili" fənn proqramı (kurikulumu) araşdırılmışdır. Müəyyən edilmişdir ki, mətnlərin funksional-məna növlərinə dair ilkin bilik və bacarıqların təlimi birinci sinifdən dördüncü sinfə qədər məzmun standartlarında sistemli şəkildə öz əksini tapmışdır.

Beşinci sinifdə təhsil alan şagirdlər yeni fənn kurikulumları üzrə ibtidai təhsil səviyyəsini başa vurmuş, yəni bu məsələləri ibtidai səviyyədə mənimsəmişdir:

**I sinifdə**

3.1.6. Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır.

**II sinifdə**

3.1.5. Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli inşalar yazır.

**III sinifdə**

3.1.4. Təsviri və nəqli xarakterli inşalar yazır.

**IV sinifdə**

3.1.3. Mühakimə xarakterli kiçikhəcmli rəy-inşa yazır.

Yazılı nitqin inkişafı istiqamətində aparılan bütün bu işlərlə yanaşı, həm də şifahi nitqdə təsviri, nəqli, mühakimə xarakterli mətnlərin tərtibi ibtidai təhsil pilləsində nəzərdə tutulmuşdur:

**I sinifdə**

1.2.1.Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

**II sinifdə**

1.2.1. Müşahidə etdikləri, eşitdikləri, oxuduqları haqqında danışır.

**III sinifdə**

1.2.1. Müşahidə etdiklərini, oxuduqlarını, eşitdiklərini müqayisə etməklə nəql edir.

**IV sinifdə**

1.2.1. Müşahidə etdikləri, eşitdikləri, oxuduqları haqqında kiçik təqdimatlar edir.

1.2.2. Müşahidə etdikləri, eşitdikləri, oxuduqları haqqında mühakimə xarakterli fikirlər irəli sürür.

Məlum olduğu kimi, müşahidə etdikləri – təsviri, eşitdikləri – nəqli, müqayisə etdikləri, qarşılaşdırdıqları, əsaslandırdıqları – mühakimə xarakterli mətnlərdir.

Bildiyiniz kimi, "Ədəbiyyat" dərsliyinə daxil edilmiş əsərlər mətnlərdən ibarətdir. Mətnlərin də funksiyaları onların xüsusiyyətlərini müəyyən edir. "Mətnin səciyyəvi əlamətlərini onun sintaktik quruluşu deyil, funksiyası və mənası yaradır" (prof. N.S.Valqina, "Mətn nəzəriyyəsi", Moskva Dövlət Çap Universiteti). Oxunan mətnin funksiyası dəyişdikcə onun mahiyyətində, quruluşunda və s. dəyişikliklər baş verir. Bu dəyişiklikləri anlamadan şagird hər hansı məkanın gözəlliyini təsvir edən bir mətnlə keçmişdə baş verən bir hadisəni əks etdirən digər mətnin fərqini necə başa düşər? Hansı sistemdən çıxış edərək onun oxusunu təşkil edər, yaxud oxuduğunu qavrayar? Bu gün "oxu bacarığı" hərfləri hecalarda, hecaları sözlərdə birləşdirib bir dəqiqədə neçə söz oxumaq, yaxud mətnlə bağlı müəllifin hazırladığı 3–4 suala cavab vermək və oxuduğunu nəql etmək kimi dərk edilmir.

Bütün bu bacarıqlar "Azərbaycan dili" və "Ədəbiyyat" fənn proqramlarında (kurikulumlarında) nəzərdə tutulduğu, ildən-ilə ardıcıl, davamlı şəkildə həyata keçirildiyi təqdirdə məqsədimizə nail ola bilərik.

Şagird mətni oxuyarkən onun təsviri, ya nəqli xarakterli olduğunu anlamalı, esselər yazanda da həmin spesifik cəhətləri əldə rəhbər tutmalıdır. Bütün bu bilik və bacarıqların öyrədilməsinə addım-addım, kiçik təlimatlar vasitəsilə nail olunur. İldən-ilə dərsliklərdə mətnlərin digər funksional-məna növlərinə də (məzmun standartlarında təqdim edilən ardıcıllıqda) müraciət edilməsi nəzərdə tutulur.

## Dərslik hazırlanarkən hansı məsələlərə diqqət yetirilmişdir?

Hörmətli müəllimlər, dərslik hazırlanarkən "Ədəbiyyat" fənn proqramının (kurikulumunun) tələblərindən irəli gələn aşağıdakı məsələlərə xüsusi əhəmiyyət verilmişdir:

I. Dərsliyə həm şifahi, həm də yazılı ədəbiyyat nümunələri daxil edilmişdir. Bədii nümunələr seçilərkən təqdim edilən prosedurlar (mexanizmlər) üzrə sistemli şəkildə təhlillərin aparılması baxımından nə qədər məqsədəmüvafiq və təlim üçün yararlı olduğuna diqqət yetirilmişdir;

II. Bədii nümunələrin ideyası, bədii təsvir vasitələri, hisslərin və faktların təsviri, əsas obrazların səciyyəvi cəhətləri müəyyənləşdirilmiş, habelə əsərlərin quruluşu baxımından təhlili, həmin əsərlərin dəyərləndirilməsi və qiymətləndirilməsi təşkil edilmişdir;

III. Bütün bu fəaliyyətlər müəllim-şagird və şagird-şagird birgəfəaliyyətində baş verir ki, bu da şagirdin şifahi nitqinin, ünsiyyət mədəniyyətinin inkişafına xidmət edir.

IV. Təsviri və nəqli esselərin, habelə inşanın tərtibi mexanizmləri ilə bağlı şagirdlər addım-addım təlimatlandırılmış və janr xüsusiyyətlərinə cavab verən yazı nümunələri yaratmağa istiqamətləndirilmişlər.

V. Şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmış, dərsliyə daxil edilmiş bədii nümunələr ehtiyac yarandıqda ixtisar edilmiş, bəzən də sadələşdirilmiş və müasirləşdirilmişdir.

**I. Dərsliyə həm şifahi, həm də yazılı ədəbiyyat nümunələri daxil edilmişdir.**

| № | Müəllifin adı | Əsərin adı | Cəmi |
|---|---|---|---|
| **Azərbaycan şifahi xalq ədəbiyyatından nümunələr** | | | **10 əsər** |
| **1.** | Dastan | Kitabi-Dədə Qorqud dastanı.<br>Basatın Təpəgözü öldürdüyü boy | |
| **2.** | Dastan | Koroğlu dastanı. Düratın itməyi | |
| **3.** | Nağıl | Şah Abbas və iki vəzir | |
| **4.** | Nağıl | Ağıllı uşaq | |
| **5.** | Nağıl | İsgəndər quş dili öyrənir | |
| **6.** | Nağıl | İki qardaş | |
| **7.** | Əfsanə | Xan sarayı | |
| **8.** | Əfsanə | Çahargah | |
| **9.** | Əfsanə | Ana rəhmi | |
| **10.** | Təmsil | Tülkü ilə qurd | |

| № | Müəllifin adı | Əsərin adı | Cəmi |
|---|---|---|---|
| **Qədim və orta əsr Azərbaycan ədəbiyyatından nümunələr** | | | **3 əsər** |
| **11.** | Nizami Gəncəvi | Sirlər xəzinəsi: Yaralı bir uşağın dastanı | |
| **12.** | Nizami Gəncəvi | Sirlər xəzinəsi: Ovçu ilə itin və tülkünün hekayəti | |
| **13.** | Yusif Balasaqunlu | Qutadqu bilik – səadət gətirən elm | |
| **Yeni dövr Azərbaycan ədəbiyyatından nümunələr** | | | **2 əsər** |
| **14.** | Rəşid bəy Əfəndiyev | Elm tükənməz xəzinədir | |
| **15.** | Aşıq Ələsgər | Gərəkdi | |
| **Ən yeni dövr Azərbaycan ədəbiyyatından nümunələr** | | | **21 əsər** |
| **16.** | Mir Cəlal | Dərsimi yaz | |
| **17.** | İlyas Əfəndiyev | Zəmidə bir turac səslənirdi | |
| **18.** | Əli Vəliyev | Nənəmin söhbəti | |
| **19.** | Mirzə İbrahimov | Bağban Rövşən | |
| **20.** | Abdulla Şaiq | Köç | |
| **21.** | Mikayıl Rzaquluzadə | Vurğun baxışlarla ("Gözəlliyin keşiyində" əsərindən) | |
| **22.** | Məmməd Araz | Azərbaycan – dünyam mənim | |
| **23.** | Bəxtiyar Vahabzadə | Qocalar | |
| **24.** | Mirmehdi Seyidzadə | Əqrəb və Çanaqlı bağa | |
| **25.** | Mirvarid Dilbazi | Müəllimim | |
| **26.** | Əliağa Kürçaylı | Vətən | |
| **27.** | Xəlil Rza Ulutürk | Gerbimiz – qəlbimiz | |
| **28.** | Hikmət Ziya | Qarabağda | |
| **29.** | Nəriman Süleymanov | Birinci cığır | |
| **30.** | Sabir Əhmədli | Dərs | |
| **31.** | Cabir Novruz | Mən bizim anaları Günəşlə tən tuturam | |
| **32.** | Hüseyn Abbaszadə | Barıt iyi | |

| № | Müəllifin adı | Əsərin adı | Cəmi |
|---|---|---|---|
| **33.** | Məmməd Namaz | Hamının günəşi | |
| **34.** | Zahid Xəlil | Zeynalabdin | |
| **35.** | Əli Səmədli | Qanlı bənövşə | |
| **36.** | Sevinc Nuruqızı | Ağabəyim ağa | |
| | | **Dünya ədəbiyyatı** | **4 əsər** |
| **37.** | Aleksandr Düma | Qafqaz səfəri: Bakı | |
| **38.** | Çingiz Aytmatov | Dəniz kənarıyla qaçan Alabaş (parça) | |
| **39.** | İvan Krılov | Ağac | |
| **40.** | Kamal Turan | Üç nəfərin imtahanı | |
| | | **Cəmi:** | **40 əsər** |

**II. Bədii nümunələrin ideya, bədii təsvir vasitələri, hisslərin və faktların təsviri, əsas obrazların səciyyəvi cəhətləri, habelə quruluşu baxımından təhlili verilmiş, həmçinin əsərlərin dəyərləndirilməsi və qiymətləndirilməsi müəyyən edilmişdir.**

***1) Əsərin ideyasının müəyyən edilməsi və ona münasibətin bildirilməsi***

Əsərdə başlıca fikri – əsərin ideyasını müəyyən etmək kimi əsas bacarıq baxımından ibtidai təhsil səviyyəsində “Azərbaycan dili” fənn proqramı (kurikulumu) ilə “Ədəbiyyat” fənn proqramı qarşılaşdırılmış, bilik və bacarıqların davamlılıq və ardıcıllıq vəziyyəti yoxlanılmışdır. Müəyyən edilmişdir ki, həmin bacarığa ümumi təhsilin bütün səviyyələrində əhəmiyyət verilmişdir. İbtidai təhsil səviyyəsində bu bacarığın sinifdən-sinfə inkişafı aşağıdakı kimi nəzərdə tutulmuşdur:

**I sinifdə:** 2.2.8. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.
**II sinifdə:** 2.2.4. Mətndəki əsas fikrə münasibətini bildirir.
**III sinifdə:** 2.2.4. Mətndəki əsas fikri həyatla əlaqələndirir.
**IV sinifdə:** 2.2.4. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir.

Həmin bacarıq ümumi təhsilin növbəti səviyyəsinin V–VI siniflərində də izlənmişdir:

**V sinif:** 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir.

**VI sinif:** 1.2.4. Bədii əsərlərin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.
3.1.2. Bədii əsərdəki başlıca fikri anladığını nümayiş etdirir.

Göründüyü kimi, VI sinifdə bu fəaliyyət bir qədər də mürəkkəbləşdirilir. Belə ki şagird oxuduğu əsərin ideyasını müəyyən etməklə kifayətlənməməli, həm də ona öz münasibətini bildirməlidir. Yəni əsərdəki əsas fikirlə bağlı mühakimə yürütməlidir. Fəaliyyət baxımından yükün artırılması həm də məzmun baxımından mətnlərin ideya yükünün artırılması ilə müşayiət edilir. Bu səbəbdən VI sinifdə ideyanın müəyyən edilməsi kimi bir bacarığın tətbiqini tələb edən 1.2.4.; 3.1.2. alt-standartlarına "Ədəbiyyat" dərsliyində 36 dəfə müraciət edilmişdir. Bu ondan irəli gəlir ki, oxunmuş mətnin ideyasının müəyyən edilməsi müstəsna dərəcədə əhəmiyyətli bacarıqdır. Şagird oxuduğu əsərdə müəllifin nə demək istədiyini müəyyən edə bilməzsə, oxu özlüyündə əhəmiyyətsiz bir fəaliyyətə çevrilə bilər. Bu gün oxu hərfləri hecalarda, hecaları sözlərdə birləşdirməkdən ibarət deyil. Oxunan mətndə əsas fikir aşkar edilmirsə və oxucu həmin fikirdən bəhrələnmirsə, nəticə çıxarmırsa, bu oxu itirilmiş vaxtdan başqa bir şey deyil.

Göstərilənlərin V və VI siniflər üçün tərtib edilmiş "Ədəbiyyat" dərsliklərində inkişafyönümlülük, şagirdyönümlülük, nəticəyönümlülük prinsipləri gözlənilməklə necə əks etdirildiyini nəzərinizə çatdırırıq.

Ötən dərs ili istifadə etdiyiniz V sinif "Ədəbiyyat" dərsliyindən bir dərs nümunəsinə diqqət yetirək. Əslində, bir dərsdə əlaqəli standartlar qruplaşdırılaraq kompleks şəkildə tətbiq edilir. Amma məsələnin daha aydın təsəvvür edilməsinə nail olaq deyə, bir dərsdə bir standartın kiçik təlim məqsədinə necə çevrildiyinə və tətbiqinə diqqət edək:

İlin sonunda şagirdin nümayiş etdirməli olduğu bilik "1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir" kimi bir standartda nəzərdə tutulan nəticəyə yönəlmişdir və bütün təlim işi məhz bu prinsip üzərində – nəticəyönümlülük üzərində qurulmuşdur. Əvvəlcə şagirdin təlim marağını yüksəltmək üçün müvafiq iş aparılır:

**Müəllim: Uşaqlar, olubmu ki, kiminləsə söhbətin sonunda "Bununla nə demək istəyirsən?" sualını verəsiniz, yaxud da kimsə sizə belə bir sual versin? Bu sualı verməklə həmsöhbətiniz sizin ayrı-ayrı fikirlərinizdən gəldiyi qənaəti dəqiqləşdirməyə çalışır. Yəni sizin demək istədiyiniz, lakin açıq demədiyiniz əsas fikri müəyyənləşdirmək istəyir. Həm insanlarla ünsiyyətdə, həm də müxtəlif mətnlər oxuyarkən əsas fikrin müəyyən edilməsi zərurəti yaranır.**

Müəllim aydınlaşdırır ki, bu gün öyrəniləcək "Əsas fikrin – ideyanın müəyyən edilməsi" bacarığı onlara yalnız ədəbiyyat dərsində deyil, real həyatda hər gün lazım olan bacarıqdır. Ona görə də bu bacarığa yiyələnmək hər kəs üçün əhəmiyyətlidir. Buna nail olmaq üçün mətnin oxusu keçirilir.

1 oktyabr tarixində Beynəlxalq Ahıllar günü və 5 oktyabr tarixində Müəllimlər günü qeyd edildiyi ərəfədə Bəxtiyar Vahabzadənin "Ağ saçlar" şeirinin ideyasının müəyyən edilməsi dərsin mövzusudur. Şeirdə qocaman müəllimin təsvirinə yer verilmişdir. Bu mövzunun öyrənilməsi üçün 2 saat nəzərdə tutulmuşdur. Diqqətinizə çatdırmaq istəyirik ki, bu dərslərdə məqsəd "Ağ saçlar" şeirini əzbərlətmək deyil. Burada müəllimin qarşısında duran vəzifə şeirin mövzu-ideyasının müəyyən edilməsinə şərait yaradan təlimi təşkil etməkdir. Bunun üçün dərslikdə şagirdə müvafiq tapşırıqlar verilir. O, oxuya hazırlıq işləri aparandan sonra (dərslikdə bununla bağlı təlimatlar verilib) oxu istiqamətləndirilir. Şagirdlər oxu zamanı çərçivələrdə verilmiş suallar üzərində düşünməyə sövq edilir. Altı belə sualdan ikisi şagirdi birbaşa ideyanın üzərində düşünməyə yönəldir. Sualları cavablandırmaqla o, əsərin ideyası ilə bağlı ilkin fərziyyələrini yürüdür: "Bu şeirin ideyası nə ola bilər?", "Müəllif bu şeirlə oxucusuna nə demək istəmişdir?" Müvafiq qeydlər aparır. "Oxudan sonra" təlimatı yerinə yetirilir və növbəti dərsdə şagirdlər konkret mexanizmlərdən çıxış edərək əsərin ideyasını müəyyənləşdirməyə çalışırlar. Tapşırıq verilir: "Aşağıda təqdim edilən təlimata riayət etməklə "Ağ saçlar" şeirində nəzərdə tutulan ideyanı müəyyən edin". Bu tapşırığı yerinə yetirə bilsin deyə, fəaliyyətlər addım-addım şagirdə təqdim edilir. Təlimatı olduğu kimi nəzərinizə çatdırırıq:

**I.** "Ağ saçlar" şeirini bir daha diqqətlə oxuyun. Özünüzə sual verin. Bu mətndə nədən bəhs olunur? Nədən bəhs olunduğunu müəyyən etdikdə mətnin mövzusunu bilmiş olursunuz.

**II.** Şeirin hər bəndinə (oxuduğunuz mətn nəsr nümunəsi olduqda hər abzasına) başlıq verin. Mətnin hər hansı parçasına verilmiş başlıq söz, yaxud söz birləşməsi ilə ifadə edilir. Bu başlıqlar kiçik fikirlərdir.

**III.** Bəndlər (abzaslar) üzrə kiçik fikirlərə – başlıqlara baxın. Başlıqlar əsas ideyanı müəyyən etməkdə sizə kömək edəcək. Bütün kiçik fikirləri əhatə edən yekun, əsas fikir ideyanı formalaşdırmalıdır. Bunu riyazi ifadə kimi belə təsəvvür etmək olar:



Göründüyü kimi, dərslik müəllifi əsərin ideyası ilə bağlı öz subyektiv fikrini şagirdə təqdim etmir. Dərsdə həm fərdin, həm də cütlərin iş zamanı formalaşdırdığı əsas fikir ideyanı müəyyənləşdirir.

Şagirdlər verilən təlimata riayət etməklə şeirin mövzusunu, hər bənddə ifadə edilən kiçik fikirləri müəyyən edir. Sonda isə bütün bunları ümumiləşdirərək əsərin əsas ideyasını müəyyənləşdirirlər. (Bu zaman şagird şeirin oxusundan əvvəl və oxusu zamanı əsərin ideyası ilə bağlı irəli sürdüyü fərziyyələrin doğru olub-olmadığı üzərində düşünür. Bu proses şagirdi məlumatları yadda saxlayan oxucudan tənqidi düşünən oxucuya çevirir.) Hər bir şagirdin bu mühüm bacarığa necə yiyələnməsi ilin sonunda qiymətləndirildiyindən, şagirdlər tapşırığın icrasına fərdi şəkildə cəlb edilirlər. Fərdlər tapşırığı yerinə yetirəndən sonra əldə edilmiş nəticələrin müqayisəsi, oxşar və fərqli cəhətlərin aşkar edilməsi, müzakirələr zamanı özünüqiymətləndirmənin aparılması üçün şagirdlər cütlükdə fəaliyyətə cəlb edilir. İki şagird əldə etdiyi konkret nəticə ilə müzakirəyə başlayır. Hər kəs öz mövqeyini izah edir, ortaq məxrəcə gəlir, ideyaya münasibət bildirir, son təqdimatı da birgə edirlər. Bütün bunların həyata keçirilməsinə 2 dərs ayrılıb. Müəllim dərsin məqsədi baxımından hər bir şagirdin təlim prosesinin fəal iştirakçısı olmasını təmin etməli, həm də onlarla birgəfəaliyyət, fərqli fikrə hörmət, əməkdaşlıq kimi ictimai bacarıqların formalaşması istiqamətində işlər aparmalıdır.

VI sinif "Ədəbiyyat" dərsliyində bu bacarıqların əks olunduğu mətnlərin daha geniş yer alması üçün onlarca əsər araşdırılıb. Qeyd etmək lazımdır ki, V sinifdə şagirdlər yalnız təsviri mətnlərin ideyasını müəyyənləşdirməyə cəlb edilirdilərsə, VI sinifdə əldə edilmiş bacarıqlar bir qədər fərqli müstəvidə reallaşır və həyati nəticələr verir. Belə ki bu il şagirdləriniz eyni prinsiplə nəqletmə xarakterli əsərlərin əsas ideyasını müəyyənləşdirəcəklər. Bu dəfə ideyanın müəyyən edilməsi diaqramında "kiçik fikirlər" xanasına "I hadisə", "II hadisə" və s. daxil edilir. Şagird əsərdəki ayrı-ayrı hadisələrin altında yatan fikirləri müəyyən edir, onlara başlıq verir və başlıqları ümumiləşdirərək əsas fikri dəqiqləşdirir. Beləliklə, ideyanın müəyyənləşdirilməsi və ona əsaslandırılmış münasibət bildirilməsi kimi bir fəaliyyət həm təsviri, həm nəqli, həm də təsviri-nəqli mətnlər üzərində aparılır.

Dərslikdə bədii təsvir vasitələri, hisslərin və faktların təsviri, əsas obrazların səciyyəvi cəhətləri, əsərlərin quruluşunun müəyyən edilməsi, habelə həmin əsərlərin dəyərləndirilməsi və qiymətləndirilməsi üzrə təlim materialları və təlim prosesi müəyyənləşdirilərkən bilik və bacarıqların ardıcıllığı, davamlılığı – inkişafyönümlülüyü təmin edilmişdir.

## Dərslik hazırlanarkən interaktiv təlimə verilən tələblər əldə rəhbər tutulmuşdur

Fəal təlim nədir? Öyrənənin təlim prosesinə idraki, emosional və fiziki baxımdan fəal şəkildə cəlb olunması şəraitində baş verən təlimə aktiv təlim, fəal təlim deyirik. Əslində, bundan daha mütərəqqisi interaktiv təlimdir. Aktiv (fəal) təlimdə şagirdin təfəkkürü hər hansı problemin həlli üçün fəallaşdırılır və düşünməyə sövq edilir. İnteraktiv təlimdə isə şagird-şagird, şagird-müəllim düşüncələri qarşılıqlı şəkildə fəallaşdırılır ki, bu da birgəfəaliyyət, əməkdaşlıq şəraitində baş verir.




Dərsliyimiz nəinki aktiv təlimin tələblərini nəzərə almış, hətta onu aşaraq interaktiv təlimin prinsiplərini tam şəkildə ehtiva etmişdir. Bu məsələyə iki məqamdan yanaşmaq olar:

– Müəllimin idarə etdiyi təlim prosesində interaktiv təlim;

– Şagirdin müstəqil təlim mühitində həm aktiv (fəal), həm də interaktiv təlim.

Dərslikdə və müəllim üçün vəsaitdə bu iki proses qarşılıqlı əlaqəli şəkildə təqdim edilmişdir.

Aşağıda təqdim edilən cədvəldə bu iki proses arasındakı qarşılıqlı əlaqəni diqqətinizə çatdırırıq.

| Fəal dərsin mərhələləri | Müəllimin idarə etdiyi təlim prosesi | Şagirdin müstəqil təlim mühiti |
|---|---|---|
| **TƏLİMDƏN ƏVVƏL** | | |
| **Motivasiya** | • ***İlkin biliklər müəyyənləşdirilir***<br>Şagirdlər müəllim tərəfindən mövzu üzərində düşünməyə sövq edilir: bu dərsdə nədən bəhs edilə bilər? Bu (söz, hadisə, əşya) sizə nəyi xatırladır? Fərziyyələr, proqnozlar alınır. Bu mərhələdə beyin həmləsi, BİBÖ cədvəlinin birinci sütunu (Bilirəm), Klaster üzrə iş və uyğun digər üsullardan istifadə edilir.<br>• ***Suallar verməklə*** şagirdlər cavabını tapmaq istədikləri sualları, öyrənmək istədikləri məsələləri müəyyənləşdirmək üçün istiqamətləndirilir. BİBÖ cədvəlinin ikinci sütunu (İstəyirəm bilim) üzrə iş aparıla bilər, uyğun digər üsullardan da istifadə edilə bilər.<br>• ***Əlaqələndirmə*** prosesində şagirdlərə əldə etdikləri bilik və bacarıqları özlərinin, yaxınlarının həyatlarında, təbiət və cəmiyyətdə baş verən hadisələrlə əlaqələndirmək üçün müvafiq suallar verilir. Bu gün öyrəndiklərinin həyatda onlara necə gərək olacağı haqqında düşünməyə sövq edilir.<br>• ***Məqsədini müəyyənləşdirir***<br>Problem situasiya yaradılır. Bu gün öyrəniləcək məsələlərin həmin problemin həllində yararlı olduğu şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər yiyələnəcəkləri bilik və bacarıqların məqsədi üzərində düşünməyə kollektiv şəkildə sövq edilir. | • ***İlkin biliklər müəyyənləşdirilir***<br>Dərsin mövzusu və ya oxu materialının başlığı üzərində müstəqil düşünür: bu dərsdə, bu oxu materialında nədən bəhs edilə bilər? Mən bu barədə nə bilirəm? Fərziyyələr yürüdür, proqnozlar verir.<br>• ***Suallar verməklə*** təlim prosesində cavab tapmaq istədiyi sualları müəyyənləşdirir. Qeydlər aparır.<br>• ***Əlaqələndirmək***<br>Öyrəndiklərinizi indiyə qədər bildiklərinizlə, yaxınlarınızın təcrübəsi ilə, həyatla əlaqələndirin.<br>• ***Məqsədini müəyyənləşdirir***<br>Bu suallara nəyə görə cavab tapmalıyam? Bu mənə nə üçün lazım ola bilər? Bu öyrəndiklərimdən harada istifadə edə bilərəm? |

| Fəal dərsin mərhələləri | Müəllimin idarə etdiyi təlim prosesi | Şagirdin müstəqil təlim mühiti |
|---|---|---|
| | **TƏLİM PROSESİ** | |
| **Tədqiqatın aparılması** | • ***Dərketməni yoxlamaq***<br>Müəllim məqsədə çatmaq üçün bir az əvvəl yaratdığı problemin həllinə istiqamətlənmiş təlim tapşırıqlarını və problemin həlli üçün yararlı olan məlumatları, yaxud onların mənbələrini fərdlərə, cütlərə, qruplara təqdim edir. Bu prosesdə müəllim replika və suallarla şagirdlərin tədqiqat işinə müdaxilə edir, onları saxlayır, düşündürür. Dərk edib-etmədiklərini yoxlayır. Diqqətlərini xüsusi məqamlara yönəldir. Beləliklə, təlimdən əvvəl mərhələsində cavab tapılması nəzərdə tutulan sualların cavablandırılması təşkil edilir.<br><br>• ***Əldə edilən nailiyyəti yoxlamaq***<br>Cavabların nə qədər keyfiyyətli, anlaşıqlı və aydın olduğu barədə şagirdlər cüt və ya qrup müzakirələrində düşünməyə sövq edilir. Əvvəlcədən bütün sinfə təqdim edilmiş qiymətləndirmə meyarlarından şagird özünüqiymətləndirmə məqsədi ilə istifadə edir. | • ***Dərketməni yoxlamaq***<br>(Tapşırığı yerinə yetirərkən və ya mətni oxuyarkən düşünməni təmin edən, sistemləşdirən qrafiklər çəkin, yaxud icmal hazırlayın. Nəyisə dərk etmədiyinizi, anlamadığınızı hiss etsəniz, dayanın, tutduğunuz istiqamət üzərində düşünün. Seçdiyiniz yolun düzgünlüyünə əmin olandan sonra yenidən çalışın. Özünüzün əvvəlcədən hazırladığınız suallara cavab verin).<br><br>• ***Əldə edilən nailiyyəti yoxlamaq***<br>(Cavablarınızın nə qədər aydın və anlaşıqlı olduğunu yoxlayın. Boşluqlar hiss etdikdə həmin istiqamətdə işlər aparın). |

| Fəal dərsin mərhələləri | Müəllimin idarə etdiyi təlim prosesi | Şagirdin müstəqil təlim mühiti |
|---|---|---|
| **TƏLİMDƏN SONRA** | | |
| **Məlumat mübadiləsi** | • ***Yoldaşlarınızın fikirlərini öyrənmək*** Əldə edilən nəticələrin, gəlinən qənaətlərin fərdlər, cütlər və qruplar arasında mübadiləsi təqdimatların dinlənilməsi yolu ilə təşkil edilir. | • Yoldaşlarınızın fikirlərini öyrənin. Yoldaşlarınızla müzakirə edin. Fikirlərinizi bildirin. Onların da münasibətini öyrənin. |
| **Məlumatın müzakirəsi və təşkili** | • ***Səmərəli fikirlərdən yararlanıb işi təkmilləşdirmək*** Dinlənilən təqdimatlara digər şagirdlər tərəfindən münasibət bildirilməsi, əlavələr edilməsi, təqdimatçıların səmərəli fikirlərdən yararlanması təmin edilir. | • ***Səmərəli fikirlərdən yararlanıb işi təkmilləşdirmək*** Yoldaşlarınızın fikirlərindən yararlanın və işin keyfiyyətini yüksəldin. |
| **Nəticələrin çıxarılması** | • Müəllim tərəfindən dərsin ***ümumiləşdirilməsi və nəticələrə gəlmək*** | • Öyrəndiklərinizi ***ümumiləşdirin və nəticə çıxarın***. |
| **Yaradıcı tətbiqetmə** | • Sinifdə, sinifdənxaric, məktəbdənkənar şəraitdə qazanılmış bilik və bacarıqların ***yaradıcı tətbiqinə*** imkan yaradan tapşırıqlar verilir. | • ***Öyrəndiklərinizi tətbiq etmək*** üçün fərqli situasiya axtarın. |
| **Qiymətləndirmə, refleksiya** | • Fərdlərin, cütlərin, qrupların fəaliyyəti ***qiymətləndirilir***, habelə "Biz bu gün nə öyrəndik?" sualı üzərində bir daha düşünülür. | • Biz nə öyrəndik? Əvvəlcədən müəyyən etdiyim məqsədə çata bildimmi? – sualına cavab verin və ***nailiyyətinizi dəyərləndirin***. |

Cədvəldən göründüyü kimi, təlimin fəallığını, yəni aktivliyini (bizim dərslikdə isə interaktivliyini) təmin etmək üçün öyrənmənin üç mərhələdə həyata keçirilməsi zəruridir:

**1. Təlimdən əvvəl**
**2. Təlim prosesində**
**3. Təlimin sonunda**

***"Təlimdən əvvəl"*** aparılacaq işlərin fəal dərsin "Motivasiya" mərhələsində həyata keçirilməsi nəzərdə tutulur. Əslində, bu mərhələnin özü də dörd hissədən ibarətdir:

– İlkin biliklərin müəyyənləşdirilməsi;
– Sualların verilməsi;
– Əlaqələndirmə;
– Məqsədin müəyyənləşdirilməsi.

***"Təlim prosesi"*** mərhələsində aparılması nəzərdə tutulan işlər fəal dərsdə "Tədqiqatın aparılması" zamanı həyata keçirilməlidir. Bu mərhələ isə iki hissədən ibarətdir:

– Dərketmənin yoxlanılması;
– Əldə edilən nailiyyətin yoxlanılması.

***"Təlimin sonunda"*** mərhələsi fəal dərsin beş mərhələsini əhatə edir:

– Yoldaşlarının fikrini öyrənmək;
– Səmərəli fikirlərdən yararlanıb işini təkmilləşdirmək;
– Ümumiləşdirmə və nəticəçıxarma;
– Yaradıcı tətbiqetmə;
– Qiymətləndirmə.

İndi isə interaktiv təlimin mərhələləri gözlənilməklə həm V sinif, həm də VI sinif dərsliklərində şagirdə, müəllim üçün vəsaitdə isə müəllimə necə istiqamət verildiyini bir dərs nümunəsi üzərində nəzərdən keçirək:

## Mövcud təcrübənizdən çıxış edərək bəzi məsələlərə aydınlıq gətirək

### V SİNİF DƏRSLİYİ ƏSASINDA

Dərsin mövzusu: M.Çəmənli. “İgid Mübariz”. Əsərdə obrazların başlıca xüsusiyyətləri. “Başlıqdan məlum olur ki, bu dərsdə şagird hansı əsəri oxuyacaq və bu əsər üzərində iş aparmaqla hansı bacarığa yiyələnəcək. Bu baxımdan obrazın başlıca xüsusiyyətlərini müəyyən etmək mexanizmlərinin öyrənilməsi üçün “İgid Mübariz” əsəri tərəfimizdən uğurlu bədii nümunə hesab edildi. Qeyd edilməlidir ki, bir dərs əvvəl nəqletmə xarakterli əsərlərdə hadisələrin proqnozlaşdırılması bacarığının da təlimi bu əsərin əsasında aparılmışdır. Əsərin tədrisi Milli Qəhrəman Mübariz İbrahimovun doğum gününə təsadüf etdiyindən əsər üzərində işi davam etdirməyi, qəhrəmanın parlaq obrazı üzərində təhlillər aparmağı əhəmiyyətli hesab etdik. Müasiri olan həmvətəninin obrazını araşdırmağın şagirdlərin milli vətənpərvərlik ruhunda tərbiyəsinin təşkilinə böyük töhfələr verəcəyi şübhəsizdir.

Metodik vəsaitdə müəllimlərə **təlimdən əvvəl** aparılması zəruri olan işlərlə bağlı tövsiyələr, təlimatlar verilir. Oxucunun diqqətini bir məqama cəlb etmək istərdik: Metodik vəsaitdə müəllimə dərsin motivasiya hissəsində şagirdlərin təlim marağını yüksəltmək məqsədi ilə “Bu gün biz nə öyrənəcəyik?”; “Hansı mövzunu öyrənəcəyik?”; “Hansı əsəri öyrənəcəyik?” kimi məsələ deyil, “Bu gün biz nə etməyi öyrənəcəyik?; “Hansı bacarığı öyrənəcəyik?” məsələsini vurğulamaq tövsiyə edilir. Bu, təlimin nəticəyönümlülüyünü təmin edən şərtlərdəndir. Bu səbəbdən də motivasiyanın birinci hissəsinə əsasən şagirdlərin **ilkin bilikləri müəyyənləşdirilərkən** həmin bacarıqlar baxımından sinifdə mövcud vəziyyət araşdırılır. Şagirdlərin dərsdə öyrəniləcək məsələ baxımından fikirləri, düşüncələri, ilkin bilik səviyyəsi yoxlanılır, fərziyyələri toplanır. Bu işi təşkil etmək üçün metodik vəsaitdə verilən tövsiyəni (metodik vəsaitdə müəllimə verilən heç bir tövsiyə ehkam deyil, yalnız tövsiyə xarakteri daşıyır) nəzərinizə çatdırırıq:

*Müəllim: “Uşaqlar, həyatda müxtəlif insanlarla qarşılaşırıq. Onlarla ünsiyyətdə oluruq. Bəzən həmin insanlarla münasibətimizi düzgün qura bilmədiyimizdən ciddi problemlərlə üzləşirik. Bəs nəyə görə münasibətlərin qurulması belə çətin olur?”*

Fərziyyələr dinlənilir, yaxud yazılır.

Buradan motivasiyanın ikinci – **suallar verməklə** hissəsi başlanır. Bu hissədə şagirdlər öyrənmək istədikləri məsələlərlə bağlı suallar verir, onları təxmin

edir. Müəllim: *“Bəlkə də, səbəb odur ki, biz insanları yaxşı tanıya bilmirik. İnsanları tanımadan, müxtəlif xüsusiyyətlərini bilmədən onlarla ünsiyyətdə hər məqamı nəzərə almaq mümkün olmur. Bəs insanları necə tanıyaq?”*

Hansı məqamlardan çıxış edərək insanları tanımağın mümkün olması ilə bağlı şagirdlərin fikirləri, sualları dinlənilir, yaxud yazılır.

Bundan sonra motivasiyanın üçüncü – **əlaqələndirmə hissəsində** əldə edilən bilik və bacarıqların həyatla əlaqələndirilməsi üçün müvafiq işlər aparılır. Şagirdlər bu gün öyrəndiklərinin həyatda onlara necə gərək olacağı üzərində düşünməyə sövq edilirlər. Müəllim: “Bildiyiniz kimi, ədəbiyyat həyatı obrazlı şəkildə əks etdirir. Əsərlərdə müxtəlif xarakterli insanların obrazı ilə qarşılaşmaq olar. Belə obrazların xarakterindəki başlıca xüsusiyyətləri müəyyən etməklə onları yaxından tanıyırıq. Bu bacarıqdan həyatda qarşılaşdığımız insanları tanımaq üçün də istifadə edə bilərik. Bununla siz kiminlə necə ünsiyyət qura biləcəyinizi müəyyənləşdirə bilərsiniz”.

Motivasiyanın dördüncü hissəsi isə **məqsədin müəyyən** edilməsidir.

Bu gün öyrəniləcək məsələlərin konkret həyati problemlərin həllində yararlı olduğu şagirdlərin diqqətinə bir daha çatdırılır. Yiyələnəcəkləri bilik-bacarıqların məqsədi müəyyən edilir.

*Müəllim: “Hansı məsələlərə əhəmiyyət vermək lazımdır ki, insanın xarakterindəki başlıca xüsusiyyətləri müəyyən edə biləsiniz?”*

Əvvəlki mərhələdə daha çox müşahidə edilən müəllim-şagird qarşılıqlı fəaliyyəti interaktiv təlimin ikinci əsas mərhələsi olan “Təlim prosesi” mərhələsində öz yerini şagird-şagird qarşılıqlı fəaliyyətinə verir. Burada müəllim araşdırmaların gedişinə nəzarət edən, ehtiyac yarandıqda istiqamətverici replika və kiçik suallarla müdaxilə edən tərəfə çevrilir.

Əvvəlcədən qeyd edilmişdir ki, bu əsər üzərində bir dərs əvvəl hadisələrin proqnozlaşdırılması öyrənilərkən iş aparılmışdır. Odur ki əsər üzrə “Oxudan əvvəl”, “Oxu prosesində” və “Oxudan sonra” təlimatları artıq yerinə yetirilmişdir. Bu dərsdə isə məqsəd əsərdəki obrazın təhlili üzrə işin mexanizmlərini öyrənməkdən ibarətdir. Bu səbəbdən də şagirdlər oxuya hazırlıq işi aparmadan oxu məqsədini əks etdirən tapşırıq 1-i yerinə yetirirlər:

***Tapşırıq 1.***

1. “İgid Mübariz” mətnində əsas obrazın başlıca xüsusiyyətlərini müəyyən etmək üçün mətni yenidən oxu. Mübariz obrazını aşağıdakı məqamlar baxımından təsvir et.

2. Gəldiyin nəticələri qruplarda müzakirə et.

**NÜMUNƏ**




**"Təlim prosesi"** mərhələsinin **dərketmənin yoxlanılması** hissəsi üzrə tövsiyə müəllim üçün vəsaitdə yuxarıdakı şəkildə verilir:

Sinif cütlərlə işə cəlb edilir. Vaxt müəyyən edilir.

Şagirdlər xanada verilən məsələlərə aydınlıq gətirir, hər qrafada qeydlərini aparırlar. Tapşırıq yerinə yetirilən prosesdə hər bir şagird düşünməyə sövq edilir: "Obrazın başlıca xüsusiyyətləri ilə bağlı müvafiq qeydlər edə bildimmi?"; "Apardığım qeydlər nə qədər inandırıcıdır?"

Metodik vəsaitdə verilmiş bu tövsiyələr isə "Təlim prosesi" mərhələsinin ikinci – **əldə edilən nailiyyətləri yoxlamaq** hissəsində aparılacaq işlə əlaqədardır.

Belə ki cütlərlə iş başa çatandan sonra hər iki cüt bir qrupda birləşir. Qrupların işinə vaxt ayrılır. Hazırlanan variantlar müzakirə edilir. Son variant hazırlanır.

Bu fəaliyyət zamanı cütlərin artıq hazır nəticələri qarşılaşdırılır, cavabların aydın, ardıcıl olub-olmadığı yoxlanılır. Boşluqlar müəyyən edilir, aradan qaldırılır. Qrupda birləşmiş cütlər yoxlanmış iki nəticənin əsasında bir təkmilləşdirilmiş qrup təqdimatı hazırlayır.

**"Təlim prosesi"**nin ardınca interaktiv təlimin üçüncü əsas mərhələsi – **"Təlimdən sonra"** başlanır. **Yoldaşlarının fikrini öyrənmək** adlanan bu hissədə qrup təqdimatları dinlənilir. Bununla bağlı müəllimə aşağıdakı təlimat verilir:

Fikir mübadiləsi üçün qrup təqdimatları dinlənilir. Qrup üzvləri obrazların xüsusiyyətlərini göstərmək məqsədi ilə əsərdən sitatlar gətirir, fikirlərini əsaslandırırlar.

Təqdimatçı qrup yoldaşlarının səmərəli təkliflərini, əlavələrini dinləyir. Araşdırmaların nəticələrinin təkmilləşdirilməsi baxımından yararlı fikirlər seçi-

lir və **təqdimata əlavə edilir**. Qrupların təqdimatları başa çatandan sonra müəllim ümumiləşdirmə aparır. Bu istiqamətdə müəllim üçün vəsaitdə aşağıda qeyd edilən tövsiyə verilir:

Müəllim şəkli (dərslikdəki qrafiki) lövhəyə çəkir, ümumiləşdirmə üzrə iş aparılır, son versiya yaradılır. Qrafik lövhəyə çəkiləndən sonra qrup təqdimatlarında səslənən ən uğurlu fikirlər əsasında kollektiv şəkildə hər bir qrafa işlənir.

***Qeyd:*** *Bütün sinif tərəfindən yaradılmış son versiya qrup üzvlərinin öz təqdimatlarını* ***qiymətləndirmələri*** *üçün şablon xarakteri daşıyır.*

Bundan sonra isə dərsdənkənar vaxtda təlimin davam etdirilməsinə imkan verən tətbiqi tapşırıq şagirdlərə təqdim edilir.

***Yaradıcı tətbiqetmə***

Əlavə oxu materiallarından marağına uyğun olan bir mətni oxu. Əsas obrazı təqdim edilən iş vərəqinə əsasən təsvir et.

VI sinif "Ədəbiyyat" dərsliyində də interaktiv təlimə verilən tələblər, təbii ki, gözlənilmiş və "Müəllim üçün metodik vəsait"də hər bir dərsə aid verilən nümunədə müəllimin dərs zamanı bunu necə gözləməli olduğu ilə bağlı replikalar, izahatlar, şərhlər verilmişdir.

Həm V, həm də VI sinif "Ədəbiyyat" dərsliklərinə müxtəlif dövrlərdə yaşayan tanınmış qələm sahiblərinin əsərləri daxil edilmişdir. Hər hansı bir əsərin konkret dərsdə tədrisi bir neçə parametr üzrə üst-üstə düşəndən sonra onun dərsliyə salınması məqsədəuyğun hesab edilmişdir. Məsələn, V sinif "Ədəbiyyat" dərsliyinə Əliağa Kürçaylının "Bakı" şeiri daxil edilmişdir. Seçim nəyə görə Əliağa Kürçaylının məhz "Bakı" şeiri olmuşdur?

Məlumdur ki, "Bədii əsərlərdə təsvir" fəslinin tədris vahidlərindən biri də "Bədii əsərlərdə fikrin obrazlı ifadəsi"dir. Bu tədris vahidində bədii əsərlərdə təsvir vasitələri tədris edilir. Bu zaman şagird bədii əsərdə "epitet" və "təşbeh"i müəyyənləşdirir. Sonrakı mərhələdə isə həmin məcazların beş hiss üzvü (görmə, eşitmə, qoxu, dad, toxunma) vasitəsi ilə ətraf aləmdə dərk edilənlərin ifadəsində rolunu araşdırır. Bu məqsədlə "Hisslərin təsviri"ni öyrənmək üçün bütün hisslərin təsvirinə yer verilməli, uğurlu təsviri mətn seçilməli idi. Onlarla əsər araşdırılandan sonra bu məsələnin öyrədilməsi üçün münbit şərait yaradan əsər Əliağa Kürçaylının "Bakı" şeiri müəyyən edildi. Bu kiçik şeiri (təsvir edilmiş hissləri göstərməklə) təqdim edirik:

**BAKI**

Uzaqelli əziz dostum soruşdu:
– Sizin Bakı, söylə, necə şəhərdir?
Dedim: – Qardaş, mənim doğma şəhərim
Yazılmamış, oxunmamış əsərdir.

Çiçək desən, könül açan çiçəyi, *(görmə)*
Külək desən, ev uçuran küləyi, *(toxunma)*
Qasırğada ağ dalğalar ləçəyi, *(görmə)*
Sakit gündə gözü mavi Xəzərdir. *(görmə)*

Nəğməsidir zavodların fit səsi, *(eşitmə)*
Suya düşüb buruqların kölgəsi. *(görmə)*
Ətirlidir bağlarının meyvəsi, *(qoxu)*
Ağ şanısı elə bil ki şəkərdir. *(dad)*

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olur nifrəti,
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

***Əliağa Kürçaylı***

Şagirdlər bu şeiri oxuyub təqdim edilən tapşırığı yerinə yetirirlər:

***Tapşırıq 1***

Təqdim edilən mətni oxumazdan əvvəl oxuya hazırlıq işləri apar. Mətni qaydalara müvafiq oxu. Hisslərin təsvir edildiyi məqamları müəyyən et. Aşağıdakı cədvəldə onların hansı hiss ilə bağlı olduğunu da göstər.

| **Abzas, bənd** | **Nümunə** | **Təsvir edilən hiss (görmə, eşitmə, dad, qoxu, toxunma)** |
|---|---|---|
| | | |
| | | |

Məlum olduğu kimi, çiçəyin könülaçan, dalğaların ağ, Xəzərin mavi olduğunu, buruğun kölgəsinin suya düşdüyünü görməklə müəyyən etmək olur. Küləyin gücü toxununca dam uçar. Zavodun fit səsini eşitməklə, bağların meyvəsinin ətrini qoxulamaqla, ağ şanının şirinliyini dadmaqla dərk etmək olur. Bütün bu məqamlar çox sadə və dərkedilən şəkildə bu kiçik, lakin oxunaqlı şeirdə əks etdirilmişdir. Göründüyü kimi, bu həm də gözəl bir bədii nümunədir. Şeirdə paytaxtımızın bütün zənginliyinin içərisində xoşagələn şıltaqlığı, eyni zamanda insanlarının hörmətcil və qürurlu olduğu əks etdirilmişdir. Dərsliyə daxil edilən əsərlər seçilərkən onların bədii dəyərinə əhəmiyyət verməklə yanaşı, təlim məqsədinə nail olmaq baxımından səmərəliliyi də əsas şərt hesab edilmişdir. Yəni bir bədii nümunə seçilərkən üç parametrdən çıxış edilib: mətn nəqli deyil, təsviri olmalı idi, dəyərli bədii nümunə olmalı idi və əsərdə bütün hisslərin təsvirinə yer verilməli idi. Şagirdin müvafiq təlim fəaliyyətlərini yerinə yetirə bilməsi və öyrənmənin baş tutması baxımından bu parametrlərin hamısı son dərəcə əhəmiyyətlidir.

Elə mövzular da var ki, onların tədrisi təbiət və ya cəmiyyətdə baş verən hər hansı mühüm hadisə ərəfəsinə təsadüf edir. Məsələn: "Bədii əsərlərdə nəqletmə" fəsli üzrə şagird nəqletmə xarakterli əsərləri hissələrə ayırmaq üçün baş verən ayrı-ayrı hadisələri müəyyən etməyi öyrənməlidir. Bu bacarığın tədrisi Novruz bayramı ərəfəsinə təsadüf edir. Müvafiq bədii nümunə aşağıdakı parametrlər nəzərə alınmaqla seçilmişdir:

1. Əsər təsviri deyil, nəqletmə xarakterli olmalıdır;
2. Əsər qabarıq şəkildə təqdim edilən elə hadisələrdən ibarət olmalıdır ki, iki hadisə arasında sərhəd aydın görünsün. Bu, şagird üçün yeni bacarıqların tətbiqi imkanlarını maksimuma yüksəltmək məqsədi daşıyır;
3. Əsərin sadə süjeti olmalıdır;
4. Əsər nağıl, hekayə, əfsanə, yaxud təmsil janrlarından birində olmalıdır;
5. Əsər bahar mövzusunda olmalıdır.

Göründüyü kimi, elə hallar vardır ki, dərsliyə daxil ediləcək əsəri müəyyən edərkən artıq beş parametrdən çıxış edilmişdir. Əsərlərin seçimində yuxarıda göstərilən proses iş prinsipi olduğundan eyni qanunauyğunluğu VI sinif dərsliyində təqdim edilən hər bir əsərin seçimində də müşahidə edə bilərsiniz.

## OXUNUN İKİ MODELİ

| **Ənənəvi oxu** | **Strategiya ilə oxu** |
|---|---|
| | **Oxudan əvvəl** |
| Oxu tapşırığı verilir | Başlıqla tanışlıq, fərziyyələr irəli sürmə, düşünmə və məqsədi müəyyənləşdirmə: Burada söhbət nədən gedə bilər? Mən bu haqda nə bilirəm? Bu mətni oxumaqda məqsədim nədir? |
| | **Oxu zamanı** |
| Müstəqil oxu | İdarə edilən, fəal, sakit oxu |
| | **Oxudan sonra** |
| Oxu materialının əxz edildiyini yoxlamaq üçün müzakirələrin aparılması və tapşırıqların yerinə yetirilməsi | Oxuduğu mətn üzərində düşünmək: özünüqiymətləndirmək; ideyadan nəticə çıxarmaq |

## OXUCUNUN XÜSUSİYYƏTİ

| Beləliklə, oxucunu 4 qrupa ayırmaq olar: | |
|---|---|
| **I.** Mətnlə tanış olan oxucu | **azdanışan, sakit oxucu** |
| **II.** Mətndəki mənanı dərk edən oxucu | **məlumatlı oxucu** |
| **III.** Mətndəki ayrı-ayrı məsələləri tətbiq edən (mətndən istifadə edən) oxucu | **strategiya ilə oxuyan oxucu** |
| **IV.** Mətnaltı mənalara yaradıcı reaksiya verən (tənqidi yanaşan) oxucu | **düşünən oxucu** |

**I qrup: mətnlə tanış olan oxucu**
• Tanıdığı sözləri avtomatik oxuyur;
• Tanıdığı sözlər vasitəsilə mətnin mənasını dərk edir;
• Mənanı simvollarla ifadə edir;
• Məzmundan çıxış edərək sözlərin mənasını müəyyənləşdirir;
• Mətnin janrını tanıyır;
• Təşkili baxımından mətn nümunələrini fərqləndirir;
• Hekayənin elementlərini fərqləndirir;
• Mətni nəzərdən keçirir, onun forma və xüsusiyyətlərindən (xəritə, qrafik, illüstrasiya, şəkil) məzmunu anlamaq, dərk etmək və s. məqsədi ilə istifadə edir.
**II qrup: mətndəki mənanı dərk edən oxucu**
• Rastlaşdığı yeni sözlərin mənasını öyrənir;
• Oxu məqsədini müəyyən edir;
• İlkin bilikləri ilə əlaqələndirir;
• Oxudan əvvəl, oxu müddətində və oxudan sonra suallar verir;
• Oxudan əvvəl irəli sürdüyü fərziyyələri oxu müddətində yoxlayır;
• Oxuduqlarını müxtəlif formalarda vizuallaşdırır;
• Mətndən nəticələr çıxarır;
• Öz oxu prosesi üzərində düşünür.
**III qrup: mətndəki ayrı-ayrı məsələləri tətbiq edən oxucu**
• Tanış olmayan yeni anlayışları, yeni sözləri öyrənir;
• Müəllifin üslubu barədə məlumata malikdir;
• Müxtəlif yazı üslubları haqqında bilgiləri var;
• Mövzu ilə bağlı şərhləri əsas ideya ilə əlaqələndirir;
• Nəticələr çıxarır və dəstəkləyici məlumatlarla onları əsaslandırır;
• Oxunmuş məlumatları ümumiləşdirir;
• Mətni real həyat problemləri ilə əlaqələndirir;
• Yeni ideyaları daha geniş müstəvidə əlaqələndirir.
**IV qrup: mətnaltı mənalara tənqidi yanaşan oxucu**
• Sözlərdən istifadənin səmərəliliyi ilə bağlı fikirlər yürüdür;
• Fikirlərini əsaslandırmaqla mətnə münasibət bildirir;
• Müxtəlif mənbələrdəki məlumatlardan istifadə edərək yeni ideyalar irəli sürür;
• Mətndən əldə etdiyi nəticələri digər şəraitlərdə istifadə edir;
• Mətnlə bağlı müəllifə çoxlu suallar istiqamətləndirir;
• Məsələ ilə bağlı müxtəlif mövqeləri yoxlamaq üçün öz mövqeyini dəyişir, problemə həmin mövqelər baxımından yanaşır;
• Müxtəlif mədəniyyətlərdə üstünlük verilən məsələləri və maraqları tanıyır;
• Mətni öz təcrübəsi, başqa mətnlər və real həyatla əlaqələndirir.

# SİNİFDƏ MÜXTƏLİF QRUPLARIN TƏRKİBLƏRİ MÜƏYYƏNLƏŞƏRKƏN ŞAGİRD HAQQINDA MƏLUMATLARDAN İSTİFADƏ

| I. Şagirdlərin fiziki – fizioloji vəziyyəti nəzərə alınmaqla qrupların tərkibi | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Fiziki və fizioloji sağlamlığın** araşdırılması şagirdlərə fərdi yanaşma imkanı verən amillərdəndir. Şagirdlərin fiziki və fizioloji baxımdan sağlamlığında olan problemlər onların təlim keyfiyyətlərinə təsir göstərir. Onların zəif görməsi, pis eşitməsi, ürək çatışmazlığı, nitq qüsuru, xüsusi qayğıya ehtiyacının olması müəllimin diqqətindən kənarda qalmamalıdır. Şagirdlərin oturacağı sıranın və yerin müəyyən edilməsi, parta yoldaşının seçilməsi, digər uşaqların da həmin uşaqlarla pozitiv münasibətlərinin qurulmasının təşkili və prosesin nəzarətdə saxlanılması üçün bu məsələlərin ciddi araşdırılması çox vacibdir. Bu məsələlərə müəllimin diqqətsizliyi şagirdlərin mənəvi-psixoloji problemlərinin baş qaldırmasına səbəb ola bilər.

Hər qrupda eşitmə problemi olan uşağa yardım edən yaxşı eşidən, görmə problemi olan uşağa dəstək verən yaxşı görən, dayaq aparatlarında problemləri olan uşaqlara kömək edən sağlam uşaqlar birləşdirilir. Müəllim onların adlarını müəyyənləşdirərək yazır. Lazım olan məqamda siyahını oxumaqla və ya masaların üzərinə siyahıları qoymaqla "hər kəs öz yerini tapsın" komandası verir.

| II. Şagirdlərin sosial vəziyyəti nəzərə alınmaqla qrupların tərkibi | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

***Şagirdin sosial vəziyyəti:*** vaxtında və lazımınca qidalanmaması, mövsümə uyğun geyimlərlə, lazım olan məktəb ləvazimatı ilə, təlim üçün yararlı müasir texniki avadanlıqlarla təmin olunmaması onun nailiyyət keyfiyyətinə təsir edir. Maddi cəhətdən imkansız uşaqların aşkar edilməsi və onların dəstəklənməsi inkişafda olan insanın gələcəyinin təmin olunması üçün çox əhəmiyyətlidir. Buna nail olmaq üçün müəllim və şagird arasında isti və qayğıkeş münasibətlərin yaradılması vacibdir. Bu istiqamətdə fəaliyyətini düzgün qura bilməyən müəllim çox keçmədən təlimdə şagirdin geriləməsinin şahidi olacaqdır. Bu onun həm təlim nailiyyətində, həm də davranışında özünü büruzə verəcəkdir. Belə uşaqların valideynləri ilə əməkdaşlıq etməkdə də müəllimlər problemlərlə qarşılaşa bilərlər. Bu cür uşaqlar tapşırıqları yerinə yetirməyə, oxu və yazı bacarıqları baxımından geriləyə, ətrafdakılara qarşı aqressivlik göstərə, zorakılığa meyilli ola bilər və dərslərdən yayınma halları da baş verə bilər. Bu davranış təkcə həmin uşağın deyil, həm də sinifdəki digər şagirdlərin təlim və tərbiyəsinə mənfi təsir göstərir. Bu baxımdan müəllim şagirdin sinfə gətirdiyi müxtəlif problemlərə həssaslıq nümayiş etdirməlidir. Şagirdin sosial vəziyyətindən irəli gələn istər mənəvi, istər psixoloji, istərsə də intellektual fərqləri nəzərə almalı, onu inkişaf etdirib sinfin və məktəbin ümumi səviyyəsinə çatdırmaq üçün işlər aparmalıdır. Uşaqlar onların həyat səviyyəsindən fərqli olan həyat səviyyələrinin də mövcud olduğundan xəbərdar olmalı və bu şəraitdə bir-birinə qayğıkeşlik, tolerantlıq nümayiş etdirməlidirlər. Sosial səviyyəsi aşağı olan uşaqlarla sistemli və ardıcıl iş aparmaq üçün müəllimin fəaliyyət planında bu məsələlər öz əksini tapmalıdır. Bu baxımdan sosial vəziyyətləri nəzərə alınmaqla qarışıq qruplar yaradılmalıdır. Bir qrupda 1 yüksək, 2 orta, 1 aşağı sosial vəziyyətli uşaq ola bilər. Bu, sinifdəki şagirdlərin tərkibindən asılıdır. Müəllim bu məsələdə çox ehtiyatlı olmalıdır. Sinifdə sosial fərq nə qədər kəskindirsə, müəllimin bu parametr üzrə qruplaşmaya tez-tez müraciət etməsi daha vacibdir. Bu yanaşma sosial vəziyyətləri fərqli olan uşaqlar arasında sinifdə mövcud (əgər mövcuddursa) ziddiyyətləri aşkar edib onları aradan qaldırmaq istiqamətində işlər aparmaq üçün müvafiq şərait yaratmış olar.

| **III. (a) Şagirdlərin idrak səviyyəsi nəzərə alınmaqla qrupların tərkibi (uyğun idrak səviyyəli)** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| III. (b) Şagirdlərin idrak səviyyəsi nəzərə alınmaqla qrupların tərkibi (fərqli idrak səviyyəli) | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Şagirdlərin idrak səviyyəsini** müəyyən etmək üçün müəllim diaqnostik qiymətləndirmənin üsul və vasitələrindən istifadə edə bilər. Eyni zamanda formativ və summativ qiymətləndirmənin nəticələri də şagirdin idrak səviyyəsi haqqında qənaətlərə gəlməyə imkan verir. Şagirdin yaş səviyyəsinə uyğun intellektual testlər bu problemin həllində uğurlu vasitədir.

Təlim materialları və təlim üsulları seçilərkən şagirdin yaş səviyyəsinə və xüsusiyyətlərinə diqqət yetirilməlidir. Belə ki 1-ci sinifdə uğurla tətbiq edilən bir tapşırıq və ya üsul 4–5-ci siniflərdə özünü doğrultmaya bilər. Eləcə də aşağı sinif şagirdləri üçün maraqlı və əyləncəli görünən hər hansı təlim materialı yuxarı sinif şagirdləri tərəfindən məqbul qarşılanmaya bilər.

Bu araşdırmalar bir neçə mərhələdə aparılır:

I mərhələ: Şagirdin əqli inkişafındaləngimə müşahidə edilmir ki?

II mərhələ: Əqli inkişafında ləngimə müşahidə edilməyən şagirdin (Blumun İdraki taksonomiyaları vasitəsilə) idrakı hansı səviyyədə inkişaf etmişdir?

III mərhələ: Şagirddə hansı dərketmə üsulu (H.Qardner nəzəriyyəsi) daha çox inkişaf etmişdir?

Bu baxımdan sinif iki əsasda qruplaşdırıla bilər:

– Uyğun idrak səviyyəli uşaqlar;

– Fərqli idrak səviyyəli uşaqlar.

Elə problemlər vardır ki, onların həlli zamanı şagirdlərin öz potensial imkanı çərçivəsində həmin problemin sadə versiyaları üzərində olsa belə, düşünməsi və müvafiq qərarlar qəbul etməsi vacibdir. Bu baxımdan sinifdə araşdırılan problemin həllinə nail olmaq üçün həmin məsələ fərqli yüklü tapşırıqlar formasında tərtib edilir və müxtəlif səviyyəli qruplara müxtəlif yüklü tapşırıqlar verilir. Hər qrup öz vəzifəsini yerinə yetirəndən sonra birlikdə böyük iş görülmüş, problem həll edilmiş olur. Hər kəs özünü gərəkli, faydalı, işə yarayan hiss edir. Əqli inkişafında ləngimələr olan və ya aşağı idrak səviyyəli uşaqlar gücü çatan işi görərkən irəliyə doğru daha bir addım ataraq nailiyyət əldə edir və özlərini daha

inamlı hiss edirlər. Bu və bir çox digər məsələlər və idraki inkişafı baxımından şagirdlərin ayrı-ayrı qruplarda əməkdaşlıq etməsi və problemin həllinə nail olması təlim-tərbiyənin təşkilində böyük əhəmiyyət daşıyır.

Müəllim bir çox hallarda şagirdləri idrak səviyyəsinə görə qarışıq qruplarda fəaliyyətə cəlb edə bilər. Bu zaman müəllimin bircə təlimatı qrup daxilində güclü şagirdlərin zəif şagirdləri öyrətməsini təmin edə bilər. Müəllim tapşırığın icrası ilə bağlı təlimatlar verərkən, xüsusi qeyd edir ki, qrup işini təqdim edən şəxsi o özü müəyyən edəcək. Birgəfəaliyyətin nəticəsini kimin təqdim edəcəyi məlum olmadığından güclü şagirdlər məsələnin incəliklərini aşağı idrak səviyyəsi nümayiş etdirən yoldaşlarına səylə öyrədirlər. Bu zaman bütün şagirdlərin təlimə bərabər cəlb edilməsi təmin olunmaqla yanaşı, onlarda digər insani dəyərlər də formalaşır. Bu da birgəfəaliyyət, əməkdaşlıq, qayğıkeşlik, dəstək, özgəsinin uğuruna sevinmək və başqalarıdır.

Buna görə də müəllim idrak səviyyəsi baxımından həm uyğun, həm də fərqli qruplar müəyyən etməlidir.

| **III. (c) Şagirdlərin dərketmə üsulu nəzərə alınmaqla qrupların tərkibi (eyni tərkibli)** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| **III. (d) Şagirdlərin dərketmə üsulu nəzərə alınmaqla qrupların tərkibi (qarışıq tərkibli)** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

1. Fərdlərarası dərketmə üsuluna aid olan şagirdlər bütün qruplara paylanır. Onları ayrıca qruplaşdırmağa ehtiyac yoxdur. Fərddaxili dərketmə üsuluna aid olan şagirdlərin isə fərdi şəkildə işləməsinə şərait yaradılır.

2. Şagirdlərin hansı yaddasaxlama qabiliyyətinin daha fəal olduğunu müəllim əvvəlcədən araşdırmalı və təlim zamanı qrupları müəyyənləşdirərkən bu göstəriciləri nəzərə almalıdır. Belə ki görmə yaddaşı iti olan uşaqlar bir qrupa toplanaraq, onlara daha çox görüntülü, şəkilli materiallar təqdim edilir. Sual oluna bilər ki, şagirdlərin oxu, yazı, hesablama bacarıqlarının inkişafına yalnız şəkillər vasitəsi ilə necə nail olmaq olar? Bu, müəllimin yaradıcı təfəkküründən çox asılıdır. Belə ki görmə yaddaşı iti olan şagirdlər bir qrupa toplanarkən onlara təqdim edilən şəkil əsasında mətn tərtib edib yazmaq, yazdığı mətni oxumaq, yazdıqları ilə bağlı şərhlər vermək və ya təqdim edilən riyazi şəkillər əsasında məsələlər qurmaq, onları həll etmək kimi tapşırıqlar vasitəsi ilə şagirdlərin yazı, oxu, nitq, hesablama və s. bacarıqlarının inkişaf etdirilməsinə münbit şərait yaratmaq olar.

3. Eşitmə yaddaşı iti olan şagirdləri bir qrupa toplamaqla onlar üçün daha çox səsli tapşırıqlar tərtib edilməsi təlim materiallarını daha yaxşı mənimsəmələrinə uğurlu şərait yaradar. Əsrimiz texnologiya əsridir. Radio, maqnitofon, televizor, kompüter səsli informasiyaların çatdırılması üçün əlverişli vasitədir. Bəzən müəllimlər bölgələrdə texniki avadanlıqların kifayət qədər çatışmadığını və ya elektrik enerjisi ilə bağlı problemləri səbəb göstərməklə texnologiyaların təlim prosesində istifadəsinin çətin, hətta mümkünsüz olduğunu bildirirlər. Bütün göstərilənlər nəzərə alınsa belə, müəllim səsli informasiyaların şagirdlərə çatdırılması üçün optimal yollar tapa bilər. Belə ki linqvistik intellekti iti olan bir şagirdi səsli intellekti iti olan qrupa qoşmaqla, məlumatın digər qruplara mane olmamaq şərti ilə ucadan oxunmasını təşkil etməklə səs yaddaşı iti olan şagirdlərin səsli informasiyalarla təmin olunmasını təşkil edə bilər.

4. “Ana dili”, “Həyat bilgisi” dərslərində **linqvistik yaddaşı** iti olan şagirdlərə təlim materialları tərtib etmək sadə görünsə də, bu, riyaziyyat dərsində müəllimi düşünməyə vadar edir. Linqvistik yaddaşı iti olan şagirdlərə hesablama: toplama, çıxma, müqayisəetmə kimi tapşırıqların mətn şəklində təqdim edilməsi onların problemi daha dərindən dərk etməsinə xidmət göstərmiş olur. “Riyaziyyat” dərsliklərində verilən məsələlər də linqvistik yaddaşı iti olan şagirdlər üçün yararlı olan materiallardır.

5. **Riyazi yaddaşı** iti olan şagirdlər qruplaşdırılarkən müəllim onların tapşırıqlarında rəqəmlərin, həndəsi fiqurların yer tutmasına əhəmiyyət verməlidir. Məsələn, Azərbaycan dili dərsində kiçik mətn tərtib etməli olan şagirdlər qrupuna riyazi məsələni əks etdirən bir şəkil təqdim edilə bilər. Şagirdlərə həmin şəkil üzrə mətn tərtib etmək, mətni oxumaq və s. fəaliyyətlər tapşırıla bilər.

Şagirdlərin görmə, eşitmə, linqvistik, riyazi-məntiqi, təbiət, bədən-kinestik, fərddaxili, fərdlərarası yaddaşlarına əsasən qruplaşdırılması və təlim tapşırıq-

larının da bu baxımdan tərtib edilməsi, yaxud seçilməsi bütün dərslərdə tətbiq edilməli bir yanaşma deyil. Müəllim məqsəd baxımından dərsin forma və üsullarında dəyişikliklər etdiyi kimi, bu iş üsulunu da mütəmadi tətbiq etməməli, zərurət yarandıqda müraciət etməlidir. Müəllim sinfi qruplaşdırarkən şagirdlərin fərqli dərketmə üsullarından müxtəlif məqsədlərlə istifadə edir. Belə ki bir halda müəllim eyni dərketmə üsullarına aid olan şagirdləri qruplaşdırmaqla onların mürəkkəb problemləri həll etməsinə nail olar, digər halda isə bir üsulda dərketməsi daha çox inkişaf etmiş şagirdləri digər dərketmə üsullarına aid olan uşaqlarla bir qrupda əməkdaşlığa cəlb etməklə və müvafiq tapşırıqlar verməklə onlarda müxtəlif dərketmə üsullarını daha da inkişaf etdirə bilər.

| **IV. Şagirdlərin psixi inkişafı və mənəvi-psixoloji vəziyyəti nəzərə alınmaqla qrupların tərkibi** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Psixi inkişafdan geri qalma və mənəvi-psixoloji baxımdan** qeyri-stabillik şagirdin təlim nəticələrinə mənfi təsir göstərir. Bəzən şagird müxtəlif səbəblərdən yoldaşlarının istehza obyektinə çevrilir. Bu da onun mənəvi baxımdan sarsılması və məktəbdən yayınma cəhdləri ilə nəticələnir. Hər hansı şagirddə özünəqapanma və özünəinamsızlıq kimi halları aşkar edən müəllim bunun səbəbini dərhal araşdırmalıdır. Müəllim şagirdin ailəsi ilə yaxın təmas qurmalı, həyat şəraitini öyrənmək üçün yaşadığı evə getməli, valideynləri arasında münasibətləri araşdırmalıdır. Eləcə də həmin şagirdin sinif yoldaşları ilə münasibətlərini də tədqiq etməlidir. Problemin səbəbi aşkar ediləndən sonra şagirdlərlə işini qurarkən bu məsələləri nəzərə almalı, məktəb psixoloqunu da bu işə cəlb etməlidir.

***Psixi inkişafında ləngimələr olan uşaqlar:***

– Üzgünlük, taqətdən düşmə və nəticədə aşağı iş qabiliyyəti;
– Emosiyaların qeyri-yetkinliyi;
– İradənin zəifliyi;
– Psixopatiyaya bənzər davranış;
– Ümumi anlayışların və təsəvvürlərin məhdud ehtiyatı;

– Söz ehtiyatının kasadlığı;
– Səs analizinin çətinliyi;
– İntellektual fəaliyyət vərdişlərinin formalaşmaması;
– Yadda saxlamaq üçün köməkçi vasitələrdən istifadə bacarıqlarının olmaması;
– Sensor informasiyaların qəbulu və təhlilinə uzun müddətin lazım olması;
– Diqqətin davamsızlığı;
– Özünənəzarətin aşağı olması.

***Şagirdin mənəvi-psixoloji stabilliyinin təmin olunması və sağlam mənəvi-psixoloji iqlimin yaradılması üçün***

– Şagirdlərin qarşılıqlı münasibəti araşdırılmalı (müşahidə, söhbət);
– Valideynlərin mənəvi-psixoloji vəziyyəti araşdırılmalı və bunun valideyn-uşaq münasibətlərinə təsiri öyrənilməli;
– Müəllim-valideyn münasibətlərinin qurulması ilə uşaq-valideyn, sinifdə isə şagird-şagird münasibətləri tənzimlənməli.

| **V. Şagirdlərin maraqları nəzərə alınmaqla qrupların tərkibi** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Maraqların** nəzərə alınması da şagirdlərin təlimə cəlb edilməsi və nailiyyətlərin yüksəldilməsində mühüm hesab edilən amillərdəndir. Müxtəlif parametrlər baxımından şagirdlərin qruplaşdırılması və təlim fəaliyyətləri müəyyən edilərkən bu məsələlərin nəzərə alınmasının əhəmiyyəti haqqında fikirləri şagirdlərin maraqlarının nəzərə alınmasına da şamil etmək olar. Lakin buna nail olmaq üçün müəllim hər şagirdini tədqiqat obyektinə çevirməli, onların maraqlarını araşdırmalıdır. Maraqları uyğun gələn şagirdləri eyni qrupa cəlb etməlidir. Tapşırıqlar da məhz həmin maraq baxımından tərtib edilməlidir. Bir məsələyə fikir verək: insanın orqanizmində dəmir çatışmazlığı olarsa, müxtəlif xəstəliklər baş qaldıra bilər. Bu, insanın ehtiyacıdır, lakin həmin ehtiyacı ödəmək üçün insanlar dəmir yemirlər. Bu nə onların zövqü, nə də fiziki im-

kanları daxilindədir. İnsanların dəmirə olan ehtiyacı dadlı, ətirli alma ilə təmin olunmuşdur. Bu, ehtiyacların maraqlardan çıxış edərək ödənilməsində təbiətin qanunauyğunluğunu nümayiş etdirən bir nümunədir. Digər ehtiyacların, o cümlədən təlimin maraq və zövqdən çıxış edərək ödənilməsi də səmərəli nəticələr verə bilər. Bu baxımdan müəllim şagirdləri oxşar maraqlarına görə qruplaşdırmalı, məqsədəuyğun hesab etdiyi zaman həmin yanaşmadan istifadə etməlidir. Məsələn, şagirdlərin oxu bacarığının inkişaf etdirilməsini təşkil edən müəllim futbola maraq göstərən uşaqlara sinifdənxaric oxu zamanı futbol haqqında mətn oxumağı tapşıra bilər. "Müşahidə etdiyi əşya, hadisə, şəkillər üzrə danışır" kimi standartı da reallaşdıran müəllim maraq baxımından qruplaşdırılmış şagirdlərə futbol oyunu haqqında şəkil verməklə, onları şifahi mətn qurmaq kimi fəaliyyətə cəlb edə bilər və s.

| **VI. (a) Şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınmaqla qrupların tərkibi (uyğun səviyyələr)** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| **VI. (b) Şagirdlərin hazırlıq səviyyəsi nəzərə alınmaqla qrupların tərkibi (fərqli səviyyələr)** | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| VI. (c) Şagirdlərin inkişaf dinamikası nəzərə alınmaqla qrupların tərkibi (fərqli səviyyələr) | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Şagirdlərin hazırlıq vəziyyəti.** Summativ qiymətləndirmənin nəticələrinə görə hər bir şagirdin əldə etdiyi nailiyyətin səviyyəsi nəzərə alınmaqla uyğun səviyyəli və fərqli səviyyəli şagirdlərdən ibarət qruplar müəyyən edilir. Bu tərkibin idrak səviyyəsi baxımından müəyyən edilmiş qruplarla üst-üstə düşə bilməsi ehtimal olunsa da, bir sıra hallarda fərqlər də müşahidə edilir. Belə ki idraki imkanları geniş olan şagirdlərin baxımsızlıq və ya hər hansı digər səbəbdən summativ qiymətləndirmə zamanı aşağı nəticələr nümayiş etdirməsi halları tez-tez müşahidə edilir. Bu səbəbdən summativ qiymətləndirmənin nəticələri nəzərə alınmaqla yenə də həm uyğun, həm də fərqli səviyyəli uşaqlardan ibarət qruplar müəyyənləşdirilir və məqsədəmüvafiq təlim fəaliyyətlərinə cəlb edilməklə şagirdlərin potensial imkanlarının nəzərə alınması, yaxud yüksək nəticə nümayiş etdirənlərlə aşağı nəticə nümayiş etdirənlərin əməkdaşlığına şəraitin yaradılması kimi ciddi pedaqoji aktlar baş verir. Belə qruplaşma inkişaf dinamikası yüksək və aşağı olan uşaqlarla da nəzərə alınmalıdır. Aşağı dinamika ilə inkişaf edən uşaqların yüksək dinamika ilə inkişaf edən uşaqlarla bir qrupda təlim fəaliyyətinə cəlb edilməsi qarşılıqlı fəaliyyətin və ikincilərin inkişaf dinamikasının yüksəldilməsində böyük rol oynayır.

| VII. Şagirdlərin milli, etnik fərqləri nəzərə alınmaqla qrupların tərkibi | | | | |
|---|---|---|---|---|
| **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** | **V qrup** |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

Şagirdlər qarışıq qruplarda bir araya gətirilməlidir. Bu onlarda qələbə əzmi, birgəfəaliyyət, milli, etnik, irqi mənsubiyyətləri fərqli olsa da, vahid amal ətrafında birləşməyi bacarmaq kimi ümumbəşəri dəyərlər tərbiyə edir.

## İKT-nin multimedia imkanlarından istifadə etməklə layihələr üzrə təlimin təşkili

Yeni texnologiyaların tətbiqi təlimin formasını və məqsədini kökündən dəyişməklə bütün öyrənmə prosesini və pedaqoji fəaliyyəti yeni baxımdan təqdim edir və onu yeni bir hadisə kimi dəyərləndirməyə dəvət edir. Rabitəli nitqin inkişafına nail olmaq üçün müəyyən edilmiş essenin İKT vasitəsi ilə uğurla həyata keçirilməsi dərsin nəticə etibarilə səmərəliliyini artırır. Aparılan müşahidələr və araşdırmalar göstərir ki, layihələrə əsaslanan təlim prosesində də İKT-dən fəal istifadə edən əsas sima şagirddir. İKT-nin multimedia imkanları aşağıdakı yollarla təlimi təşkil etmək, şagirdləri kiçik layihələrə cəlb etmək imkanı verir:

– fotokompozisiyaların yaradılması;
– videolardan istifadə edərək xəbərlərin hazırlanması;
– şagird filmlərinin çəkilməsi;
– hər hansı mövzu ətrafında müsahibələrin yazılması;
– şagirdlərin tərtib və iştirak etdiyi tamaşaların, söylənilən şeirlərin rəqəmsal kamera vasitəsi ilə yazılması və işlənməsi.

Layihələr üzrə təlimin təşkili üçün müəllimin, şagirdin və ümumiyyətlə, məktəbin strateji, metodik və texniki baxımdan hazırlığı vacib şərt hesab edildiyindən orta ümumtəhsil məktəblərinin yararlı şəraiti olanlardan bir neçəsi seçildi. Seçim zamanı aşağıdakı meyarlar əldə rəhbər tutulmuşdur:

– müvafiq bilik və bacarıqlara malik müəllim;
– texniki avadanlıqlarla təmin edilmiş sinif otağı və ya kompüter laboratoriyası;
– texnologiyalarda çalışma vərdişlərinə malik şagirdlər;
– uyğun proqram təminatı;
– hər zaman yardımçı olmağa hazır olan mütəxəssislər, həmkarlar.

Dərs hazırlanmış plan üzrə həyata keçirilməzdən əvvəl məktəbin texniki bazası və şagirdlərin informasiya texnologiyalarından istifadə vərdişlərinin səviyyəsi yoxlanıldı. Texniki avadanlıqların imkan və vəziyyəti, məktəbin İnternet şəbəkəsi ilə əlaqəsi araşdırıldı.

Bu dərs ilkin mərhələdə yuxarı siniflərdə, yəni X–XI siniflərdə həyata keçirilmişdir. Həmin siniflərdə "İnformatika"nın bir fənn olaraq tədris edilməsi və şagirdlərin kompüter texnologiyalarından istifadə bacarıqlarının yüksək olması təlimin təşkilinə uğurlu şərait yaratmışdır. Şagirdlərin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək üçün müəllimlərlə məsləhətləşmələr zəruri sayılmış,

uğurlu dərsin təminatçısı ola biləcək İnternet səhifələrində ilkin məlumatların olması da yoxlanılmışdır.

İnternet səhifəsindəki informasiya qənaətbəxş hesab edilmədiyindən və şagird tədqiqatlarını yüksək səviyyədə təşkil etməklə bağlı problemlərlə qarşılaşmaq ehtimalı olduğundan tərəfimizdən hazırlanmış materiallar kompüterin yaddaşına yerləşdirilmişdir. Bundan əlavə, İnternetdən əldə edilməsi çətin olan materialların da ünvanları müəyyənləşdirilmişdir.

Dərsə başlamazdan əvvəl şagirdlərə texnologiyalardan istifadə etikası və onların məsuliyyəti haqqında məlumat verilmişdir. Dərs vaxtının əyləncə xarakterli proqramlara sərf olunmasının qarşısını almaq məqsədilə dünya təcrübəsində olduğu kimi, dərsin gedişi üçün təhlükəli sayılan saytlara filtr qoyulması təşkil edilmiş və şagirdlərin həmin səhifələrə çıxışının qeyri-mümkün olması təmin olunmuşdur. Beləliklə, nəzərdə tutulmuş dərs planı üzrə qarşıya qoyulan məqsədə çatmaq istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Dərsin mövzusuna açıqlama gətirilmiş və dərsin şərtləri aydınlaşdırılmışdır.

XI sinif ədəbiyyat proqramında göstərildiyi kimi, rabitəli nitqi inkişaf etdirmək üçün şagirdlərlə öyrədici yazı işi aparılmışdır. Yazı işinə 2 saat vaxt ayrılmışdır. Şagirdlərin qarşısına "Mənim qəsəbəm" mövzusu üzrə çəkiləcək filmin ssenarisini yazmaq vəzifəsi qoyulmuşdur. Bu dərs tədqiqat və yaradıcılıq məqsədi də daşıyırdı:

1. Doğma qəsəbəsinin tarixi, siyasi, iqtisadi, mədəni həyatında mühüm rol oynayan məkanlar və şəxsiyyətlər haqqında İnternet Exploring-də tədqiqatlar aparmaq, Word redaktorun yardımı ilə qeydlər etmək;

2. Fikirləri bədii şəkildə ifadə edərək Word redaktorda ssenari yazmaq.

Şagirdlər təqdim edilmiş mənbələrdən əldə etdikləri materialları öz qruplarında müzakirə edib, ümumi nəticəyə gələndən sonra ssenarini yazırlar.

Problemin qoyuluşu aşağıdakı kimi həyata keçirilir: "Siz yaşadığınız ərazinin həm tarixini, həm mədəniyyətini, həm də bugünkü vəziyyətini öyrənmək üçün tədqiqatlar aparacaq, əldə edilmiş məlumatlardan bəhrələnərək ssenari tərtib edəcəksiniz. Yazı nümunələrini elə tərtib etməlisiniz ki, onun əsasında öz filminizi yarada biləsiniz. Cümlələri düzgün tərtib etmək, sözləri dəqiq seçə bilmək və fikrinizin ifadəliliyinə nail olmaq da mühüm şərtdir. Bununla yanaşı, biz sizə fikirlərinizi müxtəlif yollarla ifadə etməkdə yardımçı olacağıq. Düşüncələrinizin ifadəsində texnologiyalardan istifadə etməyi bacarmaq mühüm şərtdir. Odur ki məsələyə ciddi yanaşmağınız vacibdir".

**Mənbədən istifadə:** Şagirdlər kompüterdən məharətlə istifadə edirlər.

**Yaradıcılıq:** Şagirdlər sinifdənxaric vaxtlarda çəkəcəkləri filmin ssenarisini yaradırlar.

**İnteqrasiya:** "Tarix", "İnsan və cəmiyyət", "İnformatika" fənləri ilə inteqrasiya edilməsi nəzərdə tutulub.

**Təlim fəaliyyətləri:** Mövzu ilə bağlı İnternet səhifələrində və məktəb kitabxanasında tədqiqatların aparılması, qrupdaxili müzakirələrin keçirilməsi, ssenarinin planının müəyyənləşdirilməsi, ssenarinin yazılması.

Filmin çəkilişinin dərsdənkənar vaxtlarda həyata keçirilməsi nəzərdə tutulmuşdur. Dərsdə şagirdlərin diqqəti doğma şəhərlərinin tarixinə və müasir həyatına cəlb edilməlidir. Onlar fikir və düşüncələrini bədii şəkildə ifadə etmək üçün fəal yaradıcı fəaliyyətə istiqamətləndirilməlidirlər. Qrup çalışmaları zamanı şagirdlər qəsəbənin baxımlı, eləcə də mühüm əhəmiyyət daşıyan yerləri haqqında məlumat toplamaq üçün icma ilə qarşılıqlı fəaliyyətə yönəldilir. Şagirdlər tədqiqatlar nəticəsində əldə etdikləri materiallar əsasında ssenari yaradırlar. Dərsdənkənar vaxtlarda həmin ssenari əsasında filmin çəkilişi və montajı həyata keçirilir.

Xəzər rayon 181, Qaradağ rayon 274, Sabunçu rayon 213 nömrəli tam orta məktəblərinin XI siniflərində rabitəli nitqin inkişafı məqsədilə dərsdənkənar vaxtlarda çəkiləcək "Mənim qəsəbəm" adlı şagird filminin ssenarisinin yazısı təşkil edildi. Müəllim dərsin mövzusunu şagirdlərə elan etdi. O, real çəkiliş imkanları verən ssenarilərin yazılmasının mühüm şərt olduğunu bildirdi.

Şagirdlər ssenari üzrə çalışmaq üçün qruplara bölündülər. Qruplar müəyyənləşdirilərkən müəllim aşağıdakı məsələlərin nəzərə alınması ilə bağlı təlimatlandırıldı:

– Qrup tərkibində müxtəlif cinsliliyin gözlənilməsi;
– Tədqiqat mövzusunun seçimində şagird marağının nəzərə alınması;
– Yetirən və az yetirən şagirdlərin sayında bərabərliyin gözlənilməsi;
– Texniki avadanlıqlardan istifadə vərdişləri;
– Nitq qabiliyyəti.

Müəllim qrup üzvlərinə vəzifə bölgüsü aparmağı və lider seçməyi tövsiyə etdi. Təlim fəaliyyəti əməkdaşlıq şəraitində həyata keçirilirdi. Ona görə də ümumi tapşırığı yerinə yetirmək üçün dörd kiçik tapşırıq müəyyənləşdirildi və hər qrupa bir tapşırığı yerinə yetirmək həvalə edildi. Şagirdlər aşağıdakı mövzularla bağlı araşdırmalar aparmalı və ssenari yazmalı idilər:

– Mərdəkanın tarixi abidələri;
– Mərdəkanın elm və təhsili;
– Mərdəkanın mədəniyyəti;
– Mərdəkanın idarəçilik orqanları.

Hər bir qrup özü üçün mövzu seçdi. Qrup üzvləri arasında vəzifə bölgüsü aparıldıqdan sonra hər kəs öz vəzifəsini yerinə yetirməyə başladı. Şagirdlər İnternet səhifələrində araşdırmalar apararaq, uyğun məlumatları bir yerə topladılar. Həmin materialları nəzərdən keçirdikdən sonra mövzunun planını əvəz edən "yaddaş xəritəsi" tərtib etdilər. Həmin "yaddaş xəritə"lərini aşağıda əks etdiririk:

## Hər qrup üzrə tərtib edilmiş "Yaddaş xəritəsi"

### I qrup




### II qrup




### III qrup




### IV qrup




Şagirdlər qruplarda işlənmiş plan üzrə ssenariləri Word redaktorda yazdılar. Ssenari hazır olandan sonra çap edildi. Müvafiq tərtibat işləri aparılandan sonra şagirdlər qruplarda yaratdıqları "yaddaş xəritələri"ni caladılar və bununla da filmin ssenarisinin ardıcıllığını müəyyən etdilər. Qrup liderləri xəritədən çıxış edərək təqdimat etdilər.

**“Mənim qəsəbəm” filminin çəkilişi üçün hazırlanmış “Yaddaş xəritəsi”**




Dərsin sonunda qrup təqdimatları, habelə təlim prosesində şagirdlərin qarşılıqlı münasibətləri (ictimai bacarıqları) qiymətləndirildi.

Ünsiyyət bütün digər ictimai bacarıqların önündə durur. Odur ki bu dərsdə rabitəli nitqin inkişafını təşkil edərkən digər ictimai bacarıqların da formalaşmasına nail olmaq məqsədi ilə əməkdaşlıq şəraitində İKT-nin geniş imkanlarından istifadə edilməsinə şərait yaradılmışdır. Müəllim dərsboyu şagirdlərin qarşılıqlı münasibətlərini, yaranmış vəziyyətdə onların birinin digərinə reaksiyasını müşahidə edir, ictimai bacarıq və vərdişləri ilə bağlı müvafiq qeydlər aparır.

Rabitəli nitqin inkişafına yazı fəaliyyəti vasitəsi ilə nail olmaqda film çəkilişi motivasiya xarakteri daşımış, şagirdlərin yazı bacarıqlarının inkişafında və yaradıcı təfəkkürünün formalaşmasında uğurlu nəticənin əldə etməsinin hərəkətvericisi olmuşdur. Təlimin növbəti mərhələsində yazılmış ssenari əsasında filmin çəkilişinin həyata keçirilməsi təlimin məqsədi olmuş, şagirdlərin maraqlarının düzgün istiqamətləndirilməsinə xidmət göstərmişdir. Xəzər rayonundakı 181 nömrəli tam orta məktəbin XI d sinfində ssenari yazmaq kimi təlim fəaliyyəti dərsdənkənar vaxtlarda şagirdlərin geniş maraq dairəsində olan film çəkilişi və onun İKT-nin müvafiq proqramları vasitəsi ilə montajı ilə müşayiət edilmişdir.

Şagirdlərə elan edilmişdi ki, yaratdıqları ssenari əsasında növbəti iki dərsdənkənar məşğələdə filmin çəkilişi və montajı həyata keçiriləcək. “Mənim qəsəbəm” adlı filmi çəkmək üçün təcrübə aparılmış, görüləcək işlər aşağıdakı kimi planlaşdırılmışdı:

1. Ssenariyə əsasən şagirdlər tərəfindən müstəqil film çəkiləcək:

– Filmin çəkilişində rəqəmsal videokameradan istifadə ediləcək.

2. Çəkilmiş film videokameradan kompüterə ixrac ediləcək və şagirdlər tərəfindən montaj ediləcək:

– Videokamera (rəqəmsal) – filmi ixrac etmək üçün;

– Movie Maker (iMovie) proqram təminatı – filmi montaj etmək üçün.

3. Hazır film İDVD proqramında yerləşdirilərək CD videoya köçürüləcək:

– İDVD proqram təminatı – filmin Movie Maker (iMovie)-dən ixrac edilməsi üçün;

– CD writer əsərin təqdimata hazırlanması üçün.

Çəkilişlərdən əvvəl şagirdlər yaradıcı heyəti seçdilər və vəzifə bölgüsü apardılar: rejissor, operator, diktor, montajçı, sinifdənxaric şəraitdə videokameranın qorunması üçün məsul şəxslər elan edildi.

Şagirdlər "yaddaş xəritəsi"ndə göstərilən bütün obyektlərdə çəkilişlər aparandan sonra məktəbə qayıtdılar və filmi kompüterə ixrac etdilər. Növbəti məşğələ filmin montajına həsr edildi. Şagirdlər məsləhətləşərək çalışır, keyfiyyətli və vacib kadrları saxlayır, lazımlı hesab etmədiklərini isə silirdilər. Hərəkətdə olan yazılar, musiqi və s. əlavələr də edildikdən sonra film hazır vəziyyətə gətirildi. Məşğələ boyu informatika müəllimi şagirdlərin fəaliyyətində onlara yaxından yardım edir, yadlarından çıxan məqamları xatırladırdı.

Məktəbin akt zalında filmin təqdimatı keçirildi. Təqdimata ədəbiyyat, tarix, coğrafiya, ingilis dili, informatika və digər fənn müəllimləri dəvət edildilər. Şagirdlərin yaşadıqları ərazinin tarixində, siyasi, iqtisadi, mədəni həyatında mühüm rol oynayan məkanlar və şəxsiyyətlər haqqında yaratdıqları bu film təhlil edildi. Müxtəlif fənn müəllimləri tədris etdikləri fənlər baxımından filmin əhəmiyyəti ilə bağlı fikirlərini bildirdilər. Filmin üstünlüklərini göstərməklə bərabər, iradlarını bildirdilər, tövsiyələr verdilər. Beləliklə, İKT-dən istifadə etməklə şagirdlərin maraqlarına uyğun təlim fəaliyyəti müəyyənləşdirildi. Keçirilmiş məşğələni aşağıdakı kimi dəyərləndirmək olar:

1. Təlim prosesi əməkdaşlıq şəraitində həyata keçirildi;

2. Müzakirələr və təqdimatlar zamanı şifahi və yazılı nitqin inkişafı təşkil edildi;

3. Tədqiqatlar və araşdırmalar nəticəsində informasiyalar əldə edildi;

4. Şagirdlərin ucadan düşünməsi təşkil edildi və informasiyalar təhlil edildi;

5. Yeni informasiyalar sintez edilərək calandı;

6. Qruplarda şagird əsərləri yarandı;

7. Qrup fəaliyyətlərinin nəticələri təqdim edildi;

8. Bütün şagirdlərin təlim prosesində fəal iştirakı təmin olundu.

Göstərilənlərdən belə nəticəyə gəlmək olar ki, bu məşğələ zamanı mühüm bilik, bacarıq və dəyərlərin inteqrativ şəkildə inkişafının təşkilinə nail olunmuşdur.

## Təlim prosesində nail olunmuş bilik, bacarıq və dəyərlər

| FƏALİYYƏT | | | | | |
|---|---|---|---|---|---|
| | **İdraki bacarıqlar** | **Araşdırma bacarığı** | **İctimai bacarıqlar** | **Maraqların düzgün istiqamətləndirilməsi** | **Dəyərlər** |
| Qəsəbənin tarixi | Məlumatlardan məzmun baxımından məqsədəuyğun olanlarını seçmək | Məlumat mənbələrinə daxil olmaq | Şifahi və yazılı nitq | Film çəkmək | Qarşılıqlı hörmət |
| Mədəniyyəti | Məlumatları qruplaşdırmaq | Məqsədəuyğun məlumatları seçmək | İştirakçılıq | Kompüterin müvafiq proqramında onu montaj etmək | Özünənəzarət |
| Elm və təhsili | Nəticələrə gəlmək | Seçilmiş məlumatların İnternet ünvanını, müəllifin adını sənədə əlavə etmək | Birgə-fəaliyyət | Fikirləri fərqli tərzdə ifadə etmək | Məsuliyyət |
| İdarəçilik orqanları | Nümunəni tərtib etmək | | Liderlik | | Fərqli fikirlərə dözümlülük |
| Yaradıcı insanları | Tərtib edilmiş materialı təqdim etmək (fikirlərini əsaslandırmaq) | | Filmin təqdimatı – auditoriya qarşısında çıxış | | Öz tarixinə və mədəniyyətinə bağlılıq |
| Qəsəbə haqqında yazılmış bədii və elmi əsərlər | | | | | |

Əldə edilən nəticələr göstərdi ki, bu təlim şagirdlərin yaradıcı, tənqidi və məntiqi təfəkkürlərinin inkişafı üçün optimal şərait yaratmışdır. Şagirdlər ssenari yazmaq üçün məlumatlar əldə etmiş, yəni tədqiqat aparmış, yeni informasiyaları araşdırarkən idraki fəaliyyətdə olmuş, əməkdaşlıq edərkən yoldaşları, müəllimləri və digər sakinlərlə ünsiyyət yaratmış, qarşılıqlı şəkildə fəaliyyət göstərmişlər. Şagirdlərin mənimsəməli olduqları bilik və bacarıqlar təlimin təşkili zamanı onların maraqları ilə əlaqəli şəkildə təqdim edildiyindən yüksək nəticələrə nail olunmuşdur.

| Standartların reallaşdırılması imkanları | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1.1.1.** | **1.1.2.** | **1.1.3.** | **1.1.4.** | **1.1.5.** | **1.2.1.** | **1.2.2.** | **1.2.3.** | **1.2.4.** | **2.1.1.** | **2.1.2.** | **2.2.1.** | **3.1.1.** | **3.1.2.** | **3.1.3.** |
| **32** | **31** | **27** | **7** | **28** | **6** | **20** | **26** | **42** | **17** | **39** | **48** | **7** | **43** | **6** |

# STANDARTLARIN REALLAŞMA CƏDVƏLİ

| Dərslər | 1.1.1. | 1.1.2. | 1.1.3. | 1.1.4. | 1.1.5. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 3.1.1. | 3.1.2. | 3.1.3. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | | | | | | | | | |
| 2 | ■ | ■ | | | | | | | | ■ | | ■ | | | |
| 3 | | | | | | | | | | | ■ | | ■ | ■ | ■ |
| 4 | ■ | | | | ■ | | | ■ | ■ | | | ■ | | ■ | |
| 5 | ■ | ■ | | | ■ | | ■ | ■ | ■ | | | ■ | | ■ | |
| 6 | ■ | ■ | | | ■ | | ■ | | ■ | | ■ | ■ | | ■ | |
| 7 | ■ | ■ | | | ■ | | | ■ | ■ | | ■ | | | ■ | |
| 8 | KSQ | | | | | | | | | | | | | | |
| 9 | ■ | ■ | | | ■ | | | ■ | ■ | ■ | ■ | ■ | | ■ | |
| 10 | | ■ | ■ | | | | | ■ | ■ | | | | | ■ | |
| 11 | ■ | ■ | | | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 12 | | | | | ■ | | ■ | ■ | | | ■ | ■ | | | |
| 13 | ■ | ■ | | | ■ | | | | ■ | | ■ | ■ | | ■ | |
| 14 | ■ | ■ | | | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 15 | | | ■ | | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 16 | | | ■ | | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 17 | KSQ | | | | | | | | | | | | | | |
| 18 | | | ■ | | ■ | | | | ■ | | | | ■ | ■ | ■ |
| 19 | | | ■ | ■ | | | | ■ | ■ | | | | | ■ | ■ |
| 20 | | | | | | | | | | | ■ | ■ | ■ | | ■ |
| 21 | ■ | ■ | ■ | | | | ■ | | ■ | | | | | ■ | |

| Dərslər | 1.1.1. | 1.1.2. | 1.1.3. | 1.1.4. | 1.1.5. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 3.1.1. | 3.1.2. | 3.1.3. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 22 | | | ■ | | | ■ | | | ■ | ■ | | ■ | | ■ | |
| 23 | ■ | | | | | | ■ | | ■ | | | ■ | | ■ | |
| 24 | ■ | ■ | | | | | ■ | | ■ | | | ■ | | ■ | |
| 25 | | | | | | ■ | ■ | | | ■ | ■ | ■ | | | |
| 26 | | | | | | | ■ | | ■ | ■ | | ■ | | ■ | |
| 27 | ■ | ■ | | | ■ | | ■ | ■ | ■ | | ■ | | | ■ | |
| 28 | ■ | ■ | | | | | ■ | | ■ | | ■ | ■ | | ■ | |
| 29 | | | | | | | ■ | | | ■ | | ■ | | | |
| 30 | ■ | | | ■ | | ■ | ■ | | ■ | | | | ■ | ■ | |
| 31 | | | | | | ■ | ■ | | ■ | ■ | | ■ | | ■ | |
| 32 | ■ | ■ | ■ | | | | | | | | | ■ | | | |
| 33 | | | ■ | | | | ■ | | ■ | | | | | ■ | |
| 34 | KSQ | | | | | | | | | | | | | | |
| 35 | ■ | ■ | | | ■ | | | ■ | ■ | ■ | ■ | ■ | | ■ | |
| 36 | ■ | | ■ | ■ | | | | | ■ | | ■ | ■ | | ■ | |
| 37 | ■ | ■ | ■ | | | | | | ■ | ■ | | ■ | | ■ | |
| 38 | | ■ | ■ | ■ | | ■ | | | ■ | ■ | | ■ | | ■ | |
| 39 | | | ■ | | | | | | ■ | | ■ | | | | |
| 40 | KSQ | | | | | | | | | | | | | | |
| 41 | | | ■ | | | | ■ | | ■ | | ■ | ■ | ■ | ■ | ■ |
| 42 | | | | | | | | | | | | ■ | ■ | ■ | ■ |
| 43 | | ■ | ■ | ■ | | | | | ■ | ■ | | ■ | | ■ | |

| Dərslər | 1.1.1. | 1.1.2. | 1.1.3. | 1.1.4. | 1.1.5. | 1.2.1. | 1.2.2. | 1.2.3. | 1.2.4. | 2.1.1. | 2.1.2. | 2.2.1. | 3.1.1. | 3.1.2. | 3.1.3. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 44 | ■ | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 45 | ■ | ■ | | | | | ■ | | | | ■ | | | | |
| 46 | | | | | ■ | | ■ | ■ | | ■ | ■ | | | | |
| 47 | | | | | | | | | | | ■ | ■ | | | |
| 48 | ■ | ■ | | | | | | | | | | ■ | | | |
| 49 | | | | ■ | ■ | | | ■ | | ■ | ■ | ■ | | | |
| 50 | | | ■ | | ■ | | ■ | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 51 | KSQ | | | | | | | | | | | | | | |
| 52 | ■ | ■ | ■ | ■ | | | | | ■ | ■ | | ■ | | ■ | |
| 53 | ■ | ■ | | | | | | | | | ■ | ■ | | | |
| 54 | | | | | | | | | ■ | | ■ | ■ | | ■ | |
| 55 | | | | | | | ■ | | | | ■ | ■ | | | |
| 56 | | | | | | | ■ | | | | ■ | ■ | | | |
| 57 | | | | | ■ | | | ■ | | ■ | ■ | ■ | | | |
| 58 | | | ■ | | | | | | | ■ | ■ | ■ | | | |
| 59 | | | ■ | | ■ | | | ■ | | ■ | ■ | ■ | | | |
| L60-67 | ■ | ■ | ■ | | ■ | | | ■ | ■ | | ■ | ■ | | ■ | |
| 68 | KSQ | | | | | | | | | | | | | | |

# 6-cı SİNİF "ƏDƏBİYYAT" DƏRSLİYİ ÜZRƏ İLLİK PLANLAŞDIRMA CƏDVƏLİ

## I yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **FƏNNİN TƏLİMİNƏ GİRİŞ** | | | | | | | | | |
| **Həftə 1** | **15 sentyabr Bilik günü** | **Rəşid bəy Əfəndiyev** "Elm tükənməz xəzinədir" "Şah Abbas və iki vəzir" İndiyə qədər hansı oxu bacarıqlarına yiyələnmişik | 1 saat | | | Yoxlama, Fərdi iş | Dərslik, test vərəqləri | | Diaqnostik qiymətləndirmə, oxu testi |
| | | **Yusif Balasaqunlu** "Qutadqu bilik – səadət gətirən elm" (poemadan bir parça) Oxu və yazı prosesi (Oxu prosesi) | 1 saat | 1.1.1.; 2.1.1.; 2.2.1.; 1.1.2. | H.b. 3.1.1 | Cütlərlə iş, Cütlərlə oxu üsulu, Problemin həlli | Dərslik, cədvəl | Fərdlərarası zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| **Həftə 2** | | **Yusif Balasaqunlu** "Qutadqu bilik – səadət gətirən elm" poemasından parçanın təhlili üzrə inşa yazı. Oxu və yazı prosesi (Yazı prosesi) | 1 saat | 3.1.1.; 3.1.3.; 3.1.2.; 2.1.2. | Azərb.dili: 2.2.3.; 4.1.1.; İnf. 3.1.3.; 3.2.2.; 3.3.1. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl | Dərk edərək oxunun təşkili cədvəli – məntiqi zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | **BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR** | | | | | | | |
| | | **Mikayıl Rzaquluzadə** "Vurğun baxışlarla" ("Gözəlliyin keşiyində" əsərindən) Bədii əsərlərdə təsvirin müəyyən edilməsi | 1 saat | 1.2.4.; 3.1.2.; 1.1.1.; 1.1.5.; 1.2.3.; 2.2.1. | Azərb.dili: 2.2.3.; 4.1.1.; İnf. 3.1.3.; 3.2.2.; 3.3.1.; 4.1.1.; 4.1.2. | Qruplarla iş, Venn diaqramı, NOYÇ – nəzər sal, oxu, yoxla, çalış | Dərslik, Venn diaqramı | Diaqram – məntiqi, linqvistik zəka tipi | Stimullaşdırma. Formativ qiymətləndirmənin holistik sxemi |

**I yarımil**

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 3** | **1 oktyabr Beynəlxalq Ahıllar günü**<br>**5 oktyabr Müəllimlər günü** | **Bəxtiyar Vahabzadə**<br>"Qocalar"<br>Bədii əsərlərdə insanın təsviri (ictimai varlıq kimi) | 1 saat | 1.1.5.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.2.1.; 1.2.2.; 1.1.2.; 1.1.1. | Azərb.dili: 2.2.3.;<br>Mus.: 2.1.1.;<br>İnf.: 3.1.3.; 3.2.2.;3.3.1.; 4.1.1.; 4.1.2. | Qruplarla iş,<br>Kollektiv iş,<br>Beyin həmləsi,<br>Problemin həlli,<br>Oxu strategiyası | Dərslik, cədvəl | İnsanın təsviri (ictimai varlıq) cədvəli-məntiqi, linqvistik, vizual zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | **Mirvarid Dilbazi**<br>"Müəllimim"<br>Bədii əsərlərdə insanın təsviri (xarici görkəmi) | 1 saat | 1.1.5.; 1.1.2.; 1.1.1.; 1.2.2.; 2.1.2.; 1.2.4.; 3.1.2.; 2.2.1. | Mus.: 2.1.1.;<br>İnf.: 4.1.1.; 4.1.2. | Cütlərlə iş,<br>Kollektiv iş,<br>Oxu strategiyası | Dərslik, cədvəl | İnsanın təsviri (xarici görkəm)- linqvistik, məntiqi zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| **Həftə 4** | | **Çingiz Aytmatov**<br>"Dəniz kənarıyla qaçan Alabaş" əsərindən bir parça (insan təsviri) | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.5.; 1.2.3.; 2.1.2.; 1.2.4.; 3.1.2. | İnf.: 4.1.1.; 4.1.2. | Qruplarla iş,<br>Beyin həmləsi,<br>Oxu strategiyası | Dərslik, cədvəl, lüğət | İnsanın təsviri- linqvistik, fərdlərarası zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | **Abdulla Şaiq**<br>"Köç" hekayəsindən "Ayrım qızı", "Kərim baba" parçaları<br>**KSQ** | 1 saat | | Azərb.dili: 2.2.3.;<br>Mus.: 2.1.1.;<br>H.b.: 3.1.1.;<br>İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Fərdi iş | Dərslik | Linqvistik, vizual, fərdlərarası zəka tipi | Fərdi qiymətləndirmə |

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 5** | **18 oktyabr Müstəqillik günü** | **Əliağa Kürçaylı** “Vətən” Bədii əsərlərin ideyasının müəyyən edilməsi | 1 saat | 1.2.4.; 3.1.2.; 1.1.5.; 1.2.3.; 2.1.1.; 2.1.2.; 1.1.2.; 1.1.1.; 2.2.1. | H.b.: 3.1.1.; Mus.: 2.1.1. | Qrupla iş, Kollektiv iş, Oxu strategiyası, Cütlərlə oxu üsulu | Dərslik, diaqram | Linqvistik, vizual, fərdlərarası zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | Sinifdənxaric oxu **Mustafa Çəmənli** “Qurban bayramı” | 1 saat | 1.1.3.; 1.1.2.; 1.2.3.; 1.2.4.; 3.1.2. | H.b.: 3.3.1.; Az.tar.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; 1.2.2. | Qruplarla iş | Dərslik, məktəb kitabxanasından bədii ədəbiyyat, İnternet sayt səhifələri, kompüter | Linqvistik zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| **Həftə 6** | | **Məmməd Araz** “Azərbaycan – dünyam mənim” Bədii əsərlərdə təsvir və ifadə vasitələri | 1 saat | 1.1.1.; 1.1.5.; 1.1.2.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | Mus.: 2.1.1. | Kollektiv iş, Qruplarla iş, Beyin həmləsi, Oxu strategiyası | Dərslik, cədvəl, lüğət | Məntiqi, fərdlərarası zəka tipi | Qarşılaşdırma. Formativ və fərdi qiymətləndirmənin holistik sxemi |
| | | **Məmməd Araz** “Azərbaycan – dünyam mənim” Bədii əsərlərdə təsvir və ifadə vasitələri | 1 saat | 1.1.5.; 1.2.2.; 1.2.3.; 2.1.2.; 2.2.1. | Tex.: 1.3.1.; 1.3.2.; T.i.: 2.1.1.; Mus.: 2.1.1. | Cütlərlə iş, Qruplarla iş, Beyin həmləsi, Cütlərlə oxu üsulu | Dərslik, qarşılaşdırma-müqayisəetmə cədvəli, lüğət | Məntiqi, fərdlərarası zəka tipi | Özünüqiymətləndirmə. Formativ qiymətləndirmənin holistik sxemi |

## I yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| Həftə 7 | | **Hikmət Ziya** "Qarabağda" Bədii əsərlərdə təsvir vasitələrinin əlaqələndirilməsi | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.5.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | Mus.: 2.1.1; 2.2.2. | Cütlərlə iş, Beyin həmləsi, Fərdi oxu, Kollektiv oxu, Cütlərlə oxu üsulu | Dərslik, cədvəl, lüğət, kompüter | Linqvistik, məntiqi zəka tipi | Qarşılıqlı qiymətləndirmə. Formativ qiymətləndirmənin holistik sxemi |
| | | **Aleksandr Düma** "Qafqaz səfəri: Bakı" *(ixtisarla)* Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.5.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | Az.tar.: 2.1.1.; Üm.tar.: 5.1.2. | Qruplarla iş, Beyin həmləsi, Oxu strategiyası | Dərslik, lüğət | Dərk edərək oxunun təşkili cədvəli-məntiqi zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| Həftə 8 | 9 noyabr Bayraq Günü<br>12 noyabr Konstitusiya günü | **Aleksandr Düma** "Qafqaz səfəri: Bakı" *(ixtisarla)* Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi | 1 saat | 1.1.3.; 1.1.5.; 1.2.3.; 1.2.4.; 2.1.2.; 2.2.1.; 3.1.2. | İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1.; Azərb.dili: 2.2.3. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Linqvistik, məntiqi zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | **Aleksandr Düma** "Qafqaz səfəri: Bakı" *(ixtisarla)* Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi | 1 saat | 1.1.3.; 1.1.5.; 1.2.3.; 1.2.4.; 2.1.2.; 2.2.1.; 3.1.2. | İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. Azərb.dili: 2.2.3. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Linqvistik, məntiqi zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| Həftə 9 | | **Xəlil Rza Ulutürk** "Gerbimiz – qəlbimiz" Biz nə öyrəndik? **KSQ** | 1 saat | | Mus.: 2.1.1. | Fərdi iş | Dərslik, cədvəl, lüğət, diaqram | Məntiqi, fərddaxili zəka qrupu | Fərdi qiymətləndirmə |

## I yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 9** | | Yazaq, yaradaq: yazıya hazırlıq | 1 saat | 1.1.5.; 1.1.3.; 1.2.4.; 3.1.2.; 3.1.1.; 3.1.3. | Azərb.dili: 2.2.3.; 2.1.3.; 4.1.4.; 4.1.1.; İnf.: 4.1.1.; 4.1.2. | Qruplarla iş, Karusel üsulu | Dərslik, şəkillər | Vizual, fərdlərarası zəka tipi | Qarşılıqlı qiymətləndirmə, holistik sxem |
| **Həftə 10** | | Yazaq, yaradaq: yazı, qarşılıqlı yoxlama | 1 saat | 1.1.3.; 1.1.4.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 3.1.3. | | Qruplarla iş, Karusel üsulu | Şəkillər | Vizual, fərdlərarası zəka tipi | Qarşılıqlı və formativ qiymətləndirmənin holistik sxemi |
| | | Essenin təqdimatı | 1 saat | 3.1.1.; 2.2.1.; 3.1.3.; 2.1.2. | Azərb.dili: 2.2.3.; 4.1.1. İnf. 3.1.3.; 3.2.2.; 3.3.1. | Qruplarla iş, Karusel üsulu | Şəkillər, lüğət | Vizual, fərdlərarası zəka tipi | Sertifikat vermək, Formativ qiymətləndirmənin holistik sxemi |

## I yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ** | | | | | | | | | |
| **Həftə 11** | **3 dekabr Ümumdünya əlillər günü** | "Kimdir əlil?" **Kamal Turan** "Üç nəfərin imtahanı", Bədii əsərlərdə nəqletmə | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.3.; 1.2.2.; 1.2.4.; 3.1.2. | Az tar.: 1.1.1.; 1.1.2. İnf.: 1.2.1; 1.2.2.; 4.1.1.; 4.1.2. | Qruplarla iş, Beyin həmləsi, Cütlərlə oxu | Dərslik, lüğət, cədvəl | Venn diaqramı-məntiqi zəka tipi | Fərdi qiymətləndirmə. Holistik qiymətləndirmə sxemi üzrə |
| | | "Kimdir əlil?" **Kamal Turan** "Üç nəfərin imtahanı" əsərləri üzrə iş | 1 saat | 1.1.3.; 1.2.1.; 1.2.4.; 3.1.2.; 2.2.1.; 2.1.1. | Azərb.dili: 2.2.3.; 3.1.3.; 4.1.1.; Az.tar.: 1.1.1.; 1.1.2.; İnf.: 3.1.3.; 3.2.2; 3.3.1.; H.b.: 3.1.1. | Cütlərlə iş, Qruplarla iş, Beyin həmləsi, Venn diaqramı, Qarşılaşdırma-müqayisəetmə | Dərslik, lüğət, Venn diaqramı | Linqvistik, vizual zəka tipi | Fərdi qiymətləndirmə. Holistik qiymətləndirmə sxemi üzrə |
| **Həftə 12** | **12 dekabr Milli Liderin Anım günü** | **Məmməd Namaz** "Hamının Günəşi" Nəqli mətnin oxusunun təşkili: proqnozlaşdırma | 1 saat | 1.1.1.; 1.2.2.; 1.2.4.; 3.1.2.; 2.2.1. | | Kollektiv iş, Oxu strategiyası (ucadan düşün), Beyin həmləsi | Dərslik, İKT | Linqvistik zəka tipi | Özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə, holistik qiymətləndirmə |

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 12** | | “Ağıllı uşaq” (Azərbaycan xalq nağılı) Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri | 1 saat | 1.1.1.; 1.1.2.; 1.2.2.; 1.2.4.; 3.1.2.; 2.2.1 | H.b.: 3.1.1. | Qruplarla iş, Beyin həmləsi, Kollektiv oxu | Dərslik, cədvəl | Məntiqi, linqvistik zəka tipi | Stimullaşdırma, qarşılaşdırmaqla qiymətləndirmə. Holistik qiymətləndirmə meyarları |
| **Həftə 13** | | “Ağıllı uşaq” (Azərbaycan xalq nağılı) Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri | 1 saat | 1.2.1.; 1.2.2.; 2.2.1.; 2.1.1.; 2.1.2. | H.b.: 3.1.1. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, İKT | Linqvistik, məntiqi, vizual zəka tipi | Holistik qiymətləndirmə sxemi üzrə |
| | | “Ağıllı uşaq” (Azərbaycan xalq nağılı) Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri | 1 saat | 1.2.2.; 1.2.4.; 2.1.1.; 2.2.1.; 3.1.2. | H.b.: 3.1.1. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, iş vərəqləri | Vizual, fərdlərarası zəka tipi | Qarşılıqlı qiymətləndirmə, formativ qiymətləndirmənin sxemi üzrə, analitik qiymətləndirmənin sxemi üzrə, problem həlli |

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| Həftə 14 | | Sinifdənxaric oxu **Nizami Gəncəvi** “Ovçu ilə itin və tülkünün hekayəti” | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.5.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2. | | Fərdi, cütlərlə, qruplarla, kollektiv iş | Dərslik, kompüter | Vizual, məntiqi zəka tipi | Venn diaqramı |
| | | **Nəriman Süleymanov** “Birinci cığır” Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi | 1 saat | 1.1.1.; 1.1.2.; 1.2.2.; 1.2.4.; 2.1.2.; 2.2.1.; 3.1.2. | Azərb.dili: 2.2.3.; 4.1.1.; H.b.: 3.1.1.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Cütlərlə iş, Qruplarla iş, Cütlərlə oxu üsulu, Qarşılaşdırma və müqayisəetmə | Dərslik, sxem, iş vərəqləri | | Holistik qiymətləndirmə meyarları |
| Həftə 15 | | **Nəriman Süleymanov** “Birinci cığır” Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi | 1 saat | 1.2.2.; 2.1.1.; 2.2.1. | Azərb.dili: 2.2.3.; 4.1.1.; H.b.: 3.1.1.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Cütlərlə iş, Beyin həmləsi | Dərslik, qarşılaşdırma və müqayisəetmə sxemi | Vizual, məntiqi, linqvistik zəka tipi | Qarşılıqlı qiymətləndirmə. Formativ holistik sxem |

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 15** | | **Nizami Gəncəvi** “Yaralı bir uşağın dastanı” **Mirmehdi Seyidzadə** “Əqrəb və Çanaqlı bağa” Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində oxşar və fərqli cəhətlərin qarşılaşdırılması | 1saat | 1.1.1.; 1.1.4.; 1.2.1.; 1.2.2.; 1.2.4.; 3.1.2.; 3.1.1. | Azərb.dili: 2.2.3.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Kiçik qruplarla iş, Oxu strategiyası, Qarşılaşdırma-müqayisəetmə | Dərslik, sxem, iş vərəqləri lüğət | Linqvistik, məntiqi zəka tipi | Qarşılıqlı qiymətləndirmə. Holistik sxem |
| **Həftə 16** | **20 Yanvar** | **Nizami Gəncəvi** “Yaralı bir uşağın dastanı” **Mirmehdi Seyidzadə** “Əqrəb və Çanaqlı bağa” Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində oxşar və fərqli cəhətlərin qarşılaşdırılması | 1 saat | 1.2.1.; 1.2.2.; 1.2.4.; 3.1.2.; 2.1.1.; 2.2.1. | Azərb.dili: 2.2.3.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Kiçik qruplarla iş, Kollektiv iş, Müzakirə, Qarşılaşdırma-müqayisəetmə | Dərslik, sxemlər, İKT | Linqvistik, məntiqi zəka tipi | Qarşılaşdırmaqla qiymətləndirmə. Holistik qiymətləndirmə sxemi |
| | | **Sabir Əhmədli** “Dərs” Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri. Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.3.; 2.2.1. | H..b.: 4.3.1.; Az.tar.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; 1.2.2. | Qruplarla iş, Beyin həmləsi | Dərslik, sxem, lüğət | Vizual, məntiqi zəka tipi | Holistik qiymətləndirmə sxemi. Özünüqiymətləndirmə |
| **Həftə 17** | | **Sabir Əhmədli** “Dərs” Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri. Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi | 1 saat | 1.1.3.; 1.2.4.; 1.2.2.; 3.1.2. | Az. tar.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; 1.2.2. | Qruplarla iş, Kollektiv iş, Ucadan oxu üsulu, Qarşılaşdırma-müqayisəetmə üsulu | Dərslik, sxem, lüğət | Vizual, məntiqi, fərdlərarası zəka qrupu | Holistik qiymətləndirmə sxemi. Özünüqiymətləndirmə |
| | | **KSQ** | 1 saat | | | | | | |

## II yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 18** | | Sinifdənxaric oxu **Aşıq Ələsgər** "Gərəkdi" | 1 saat | 1.1.1.; 1.1.5.; 1.1.2.; 1.2.4.; 3.1.2.; 1.2.3.; 2.1.1.; 2.1.2.; 2.2.1. | Azərb.dili: 2.2.3.; Mus.: 2.1.1.; H.b.: 3.1.1.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Qruplarla iş, Cütlərlə iş, Beyin həmləsi | Dərslik, məktəb kitabxanasından bədii ədəbiyyat, internet sayt səhifələri, kompüter | Linqvistik, fərddaxili və fərdlərarası zəka tipi | Formativ qiymətləndirmənin holistik sxemi |
| | | "Xan sarayı" əfsanəsi Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi | 1 saat | 1.1.1.; 1.1.3.; 1.1.4.; 1.2.4.; 3.1.2.; 2.2.1.; 2.1.2. | Az.tar.: 1.1.1.; 1.1.2. İnf.: 1.2.1; 1.2.2. | Fərdi oxu, Qruplarla iş, Kollektiv iş, Müzakirə üsulu | Hadisələrin ardıcıllığının müəyyən edilməsi sxemi, dərslik, sxem, lüğət | Linqvistik, vizual, fərddaxili zəka tipi | Holistik sxem |
| **Həftə 19** | | **Mir Cəlal** "Dərsimi yaz" **Zahid Xəlil** "Zeynalabdin" Nəqletmə xarakterli əsərlərin elementlərinin müəyyən edilməsi | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.3.; 1.2.4.; 3.1.2.; 2.2.1.; 2.1.1. | Azərb.dili: 3.1.3.; İnf.: 1.2.1.; 1.2.2.; Az.tar.: 1.1.1.; 1.1.2. | Qruplarla iş, Oxu strategiyası, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Vizual, linqvistik, məntiqi zəka tipi | Holistik sxem |
| | | **İvan Krılov** "Ağac" Nəqletmə xarakterli əsərlərin nağıl edilməsi, nəticələrin çıxarılması | 1 saat | 1.1.2.; 1.1.3.; 1.1.4.; 1.2.1.; 1.2.4.; 3.1.2.; 2.1.1.; 2.2.1. | Azərb.dili: 3.1.3.; Az.tar.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; 1.2.2.; H.b.: 3.1.1. | Kollektivlə iş, Qruplarla iş, Oxu strategiyası, Beyin həmləsi | Dərslik, cədvəl, iş vərəqləri, lüğət | Vizual, məntiqi zəka tipi | Holistik sxem |

## II yarımil

| Tarix (həftə-lərlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 20** | | "Çahargah" əfsanəsi Müstəqil iş | 1 saat | 1.1.3.; 1.2.4.; 2.1.2. | Azərb.dili: 3.1.3.; 2.2.3.; 4.1.1.; Az.tar.1.1.1.; 1.1.2.; İnf. 1.2.1.; 1.2.2.; 3.1.3.; 3.2.2.; 3.3.1. | Fərdi iş, Müstəqil iş, Müzakirə | Dərslik, cədvəl, iş vərəqləri, lüğət | Vizual, linqvistik, fərddaxili zəka tipi | Diaqnostik qiymət-ləndirmədə əldə edilən faiz göstəriciləri |
| | | **KSQ** "İsgəndər quş dili öyrənir" (Azərbaycan xalq nağılı) | 1 saat | | | Fərdi iş | Qiymətlən-dirmə vasitəsi | Məntiqi, fərddaxili zəka tipi | Fərdi qiymətlən-dirmə |
| **Həftə 21** | **26 fevral Xocalı soyqırımı** | Nəqli essenin yazısına hazırlıq: mətnin elementlərinin yaradılması | 1 saat | 1.1.3.; 1.2.2.; 1.2.4.; 2.1.2.; 3.1.2.; 2.2.1.; 3.1.1.; 3.1.3. | Azərb.dili.: 3.1.3.; Az. tar.: 1.1.1.; 1.1.2.; İnf.: 1.2.1.; 1.2.2. | Fərdi iş | Cədvəl | Məntiqi, linqvistik | Holistik qiymət-ləndirmə sxemi üzrə özünüqiy-mətləndir-mə |
| | | Nəqli essenin yazısının təşkili **KSQ** | 1 saat | 3.1.2.; 2.2.1.; 3.1.1.; 3.1.3. | Azərb.dili: 3.1.3.; 2.2.3.; 4.1.1.; Az. tar.: 1.1.1; 1.1.2.; 1.2.1; 1.2.2.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Cütlərlə iş | Cədvəl | Məntiqi, fərddaxili zəka tipi | Qarşılıqlı və holistik qiymət-ləndirmə sxemi |

## II yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 22** | | Sinifdənxaric oxu “Tülkü ilə qurd” (təmsil) | 1 saat | 2.1.1.; 1.1.2.; 1.1.3.; 1.1.4.; 3.1.2.; 2.2.1.; 1.2.4. | H.b.: 3.1.1.; İnf.: 1.2.1.; 1.2.2. | Fərdi iş, Cütlərlə iş, Beyin həmləsi | Dərslik, kompüter, kitabxanadan əldə edilmiş məlumat mənbələri | Linqvistik, məntiqi, fərddaxili zəka tipi | Fərdi stimullaşdırma yolu ilə, holistik sxem |
| **BƏDİİ ƏSƏRDƏ TƏSVİR-NƏQLETMƏ** | | | | | | | | | |
| **Həftə 22** | | **Əli Səmədli** “Qanlı bənövşə” Bədii əsərlərdə təsvir və nəqletmə | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.5.; 1.2.1.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | H.b.: 4.3.1. | Kollektiv iş, Cütlərlə iş, Müzakirə, Oxu strategiyası, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | İstedadlı və təlimdə çətinliyi olan uşaqlarla iş | Holistik qiymətləndirmə sxemi |
| **Həftə 23** | **8 Mart Beynəlxalq Qadınlar Günü**<br>**10 mart Milli Teatr günü** | **Cabir Novruz** “Mən bizim anaları Günəşlə tən tuturam”, “Ana rəhmi” əfsanəsi Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri | 1 saat | 1.1.1.; 1.1.2.; 2.1.2.; 1.2.2. | Azərb.dili: 2.2.3.; H.b.: 3.1.1.; Təs.in. 3.1.1.; İnf. 3.1.3.; 3.2.2.; 3.3.1. | Fərdi iş, Böyük və kiçik qruplarla iş, Oxu strategiyası, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Vizual, linqvistik, məntiqi | Qruplararası qiymətləndirmə, holistik qiymətləndirmə sxemi |
| | | **Cabir Novruz** “Mən bizim anaları Günəşlə tən tuturam”, “Ana rəhmi” əfsanəsi Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri | 1 saat | 1.1.5.; 1.2.2.; 2.1.2.; 1.2.3.; 2.1.1. | Azərb.dili: 2.2.3.; H.b.: 3.1.1.; Təs.in.: 3.1.1.; İnf.: 3.1.3.; 3.2.2.; 3.3.1. | Kollektiv iş, Qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Vizual, linqvistik, məntiqi | Holistik qiymətləndirmə sxemi |

## II yarımil

| Tarix (həftə-lərlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətlən-dirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 24** | **21 Mart Novruz bayramı** | **Cabir Novruz**<br>“Mən bizim anaları Günəşlə tən tuturam”, “Ana rəhmi” əfsanəsi Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri | 1 saat | 2.1.2.; 2.2.1. | H.b.: 3.1.1.; Təs.in.: 3.1.1.; Az.tar.: 1.2.2. | Qruplarla iş, Kiçik qruplarla iş, Beyin həmləsi | Dərslik, cədvəl, lüğət | Məntiqi, fərdlərarası zəka tipi | Özünüqiy-mətlən-dirmə, holistik qiymət-ləndirmə |
| | | “Koroğlu” dastanından “Düratın itməyi” qolu Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri | 1 saat | 1.1.1.; 1.1.2.; 2.2.1. | İnf.: 4.1.1.; 4.1.2. | Kollektiv iş, Beyin həmləsi. Oxu strategi-yası: kollektiv oxu üsulu | Dərslik, cədvəl, lüğət, iş vərəqləri | Məntiqi, vizual, linqvistik, fərdlərarası zəka tipi | Holistik qiymət-ləndirmə sxemi |
| **Həftə 25** | **31 mart Azərbaycanlıların soyqırımı günü** | “Koroğlu” dastanından “Düratın itməyi” qolu Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri | 1 saat | 1.1.4.; 1.1.5.; 1.2.3.; 2.1.1.; 2.2.1.; 2.1.2. | | Kiçik və böyük qruplar-la iş, Oxu strategiyası, Beyin həmləsi, Müzakirə | Dərslik, cədvəl, kompüter, lüğət | Məntiqi, vizual, linqvistik, fərdlərarası zəka tipi | Holistik qiymət-ləndirmə sxemi |
| | | “Koroğlu” dastanından “Düratın itməyi” qolu Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri | 1 saat | 1.1.5.; 1.1.3.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | İnf.: 1.2.1.; Az tar.: 1.1.1.; 1.1.2. | Qruplarla iş, Problem həlli, Müzakirə | Dərslik, cədvəl, İKT | Məntiqi, linqvistik zəka tipi | Holistik qiymət-ləndirmə sxemi |

## II yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 26** | **7 aprel Sağlamlığın mühafizəsi günü** | **İlyas Əfəndiyev** “Zəmidə bir turac səslənirdi” **KSQ** (təsviri-nəqletmə xarakterli əsərlər həm təsviri, həm də nəqli mətnlərin xüsusiyyətlərinin daşıyıcısı kimi) | 1 saat | | | Fərdi iş, Əsər, Test | Qiymətləndirmə vasitəsi | Məntiqi, linqvistik, vizual | Fərdi qiymətləndirmə |
| | | Sinifdənxaric oxu “İki qardaş” (nağıl) | 1 saat | 1.1.1.; 2.1.1.; 1.1.2.; 1.1.3.; 1.2.4; 3.1.2.; 1.1.4.; 2.2.1. | H.b.: 3.1.1.; İnf.: 1.2.1.; 1.2.2. | Fərdi iş, Cütlərlə iş, Beyin həmləsi | Dərslik, kompüter, kitabxanadan əldə edilmiş məlumat mənbələri | Linqvistik, məntiqi, fərddaxili zəka tipi | Fərdi stimullaşdırma yolu ilə, holistik sxem |
| **Həftə 27** | **12 aprel Kosmonavtika günü** | “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərin oxusu üzrə iş | 1 saat | 1.1.1.; 1.1.2.; 2.1.2.; 2.2.1. | İnf.: 4.1.1.; 4.1.2. | Oxu strategiyası, Kollektiv oxu, Beyin həmləsi | Proqnozlaşdırma sxemi, dərslik, cədvəl, lüğət, İKT | Linqvistik, vizual zəka tipi | Holistik qiymətləndirmə sxemi |
| | | “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: ideyanın müəyyən edilməsi | 1 saat | 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | H.b.: 4.1.1.; İnf.: 4.1.1.; 4.1.2. | Kollektiv müzakirə, Qruplarla iş | Dərslik, sxem, lüğət | Məntiqi, linqvistik | Holistik qiymətləndirmə sxemi |
| **Həftə 28** | **18 aprel Tarixi abidələrin mühafizəsi günü** | “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” Təsviri-nəqli xarakterli əsərdə bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili | 1 saat | 1.2.2.; 2.1.2.; 2.2.1. | İnf.: 4.1.1.; 4.1.2. | Qruplarla iş | Dərslik, cədvəl | Fərdlərarası zəka tipi | Formativ-holistik qiymətləndirmə sxemi |

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 28** | **22 aprel Beynəlxalq Yer kürəsi günü** | "Kitabi-Dədə Qorqud" "Basatın Təpəgözü öldürdüyü boy" Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili | 1 saat | 1.2.2.; 2.1.2.; 2.2.1. | | Kollektiv iş, Beyin həmləsi, Oxu strategiyası, Kollektiv oxu üsulu | Dərslik, cədvəl | Məntiqi, linqvistik zəka tipi | Formativ, holistik qiymətləndirmə sxemi |
| **Həftə 29** | **30 aprel Analar günü** | "Kitabi-Dədə Qorqud" "Basatın Təpəgözü öldürdüyü boy" Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərdə bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi | 1 saat | 1.1.5.; 1.2.3.; 2.1.1.; 2.1.2.; 2.2.1. | | Kollektiv iş, Qruplarla iş, Beyin həmləsi, Problem həlli, Müzakirə | Dərslik, cədvəl, sxem | Məntiqi, linqvistik zəka tipi | Formativ, holistik qiymətləndirmə sxemi |
| | | "Kitabi-Dədə Qorqud" "Basatın Təpəgözü öldürdüyü boy" Təsviri-nəqli xarakterli əsərin hissələri: hadisələrin ardıcıllığı və süjet | 1 saat | 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.1. | Az.tar.: 1.1.1;1.1.2.; H.b.: 3.1.1.; İnf.: 1.2.1.; 1.2.2. | Böyük və kiçik qruplarla iş, Problem həlli | Dərslik, cədvəl, iş vərəqi, hadisələrin ardıcıllığı sxemi | Məntiqi, fərdlərarası zəka tipi | Formativ, holistik qiymətləndirmə sxemi |
| **Həftə 30** | | "Kitabi-Dədə Qorqud" "Basatın Təpəgözü öldürdüyü boy" Təsviri-nəqli xarakterli əsərin elementləri və nəqletmənin təşkili | 1 saat | 1.1.3.; 1.1.5.; 1.2.3.; 2.1.1.; 2.1.2.; 2.2.1. | Azərb.dili: 3.1.3.; Az.tar.: 1.1.1; 1.1.3.; H..b.: 3.1.1.; İnf.: 1.2.1.; 1.2.2. | Böyük və kiçik qruplarla iş, Problem həlli | Dərslik, cədvəl | Fərdlərarası zəka tipi | Formativ, holistik qiymətləndirmə sxemi |

| Tarix (həftə-lərlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətlən-dirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 30** | **9 May Faşizm üzərində Qələbə Günü**<br>**10 may Ümummilli Lider H.Əliyevin doğum günü** | **LAYİHƏ**<br>Əsərin oxusu və tam təhlili (Kiçik qruplarla)<br>**Sevinc Nuruqızı**<br>"Ağabəyim ağa<br>**Mirzə İbrahimov**<br>"Bağban Rövşən"<br>**Əli Vəliyev**<br>"Nənənin söhbəti"<br>**Hüseyn Abbaszadə**<br>"Barıt iyi" | 1 saat | 1.1.1.; 1.1.2.; 1.1.3.; 1.1.5.; 1.2.3.; 1.2.4.; 3.1.2.; 2.1.2.; 2.2.1. | Azərb. dili: 3.1.3.; İnf.: 1.2.1.; 1.2.2.; 3.1.3.; 3.2.2.; 3.3.1.; 4.1.1.; 4.1.2.; Az.tar.: 1.1.1.; 1.1.2.; Təs. in.: 3.1.1. | Qruplarla iş, Oxu strategiyası | Dərslik, lüğət, cədvəl | Linq-vistik və məntiqi, fərdlər-arası zəka tipi | |
| **Həftə 31** | **22 may Ümumdünya bioloji müxtəliflik günü** | **Sevinc Nuruqızı**<br>"Ağabəyim ağa"<br>**Mirzə İbrahimov**<br>"Bağban Rövşən"<br>**Əli Vəliyev**<br>"Nənənin söhbəti"<br>**Hüseyn Abbaszadə**<br>"Barıt iyi"<br>Əsərin təhlili üzrə işin davam etdirilməsi | 2 saat | | | Qruplarla iş | | Linq-vistik və məntiqi, fərdlər-arası zəka tipi | Holistik qiymətlən-dirmə sxemi |

## II yarımil

| Tarix (həftələrlə) | Mühüm hadisələr | Mövzular | Mövzuya ayrılmış vaxt | Mövzular üzrə reallaşdırılan standartlar | İnteqrasiya | Strategiyalar: iş formaları, iş üsulları | Resurslar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Həftə 32** | **28 May Respublika Günü** | **Sevinc Nuruqızı** "Ağabəyim ağa"<br>**Mirzə İbrahimov** "Bağban Rövşən"<br>**Əli Vəliyev** "Nənənin söhbəti"<br>**Hüseyn Abbaszadə** "Barıt iyi"<br>Təqdimatların dinlənilməsi | 2 saat | | | Qruplarla iş | | Fərdlər-arası zəka tipi | Holistik qiymətləndirmə sxemi |
| **Həftə 33-34** | | **Sevinc Nuruqızı** "Ağabəyim ağa"<br>**Mirzə İbrahimov** "Bağban Rövşən"<br>**Əli Vəliyev** "Nənənin söhbəti"<br>**Hüseyn Abbaszadə** "Barıt iyi"<br>**Sevinc Nuruqızı** "Ağabəyim ağa"<br>Təqdimatların dinlənilməsi<br>**Sevinc Nuruqızı** "Ağabəyim ağa"<br>**Mirzə İbrahimov** "Bağban Rövşən"<br>**Əli Vəliyev** "Nənənin söhbəti"<br>**Hüseyn Abbaszadə** "Barıt iyi" | 3 saat | | | | | | |
| | | **KSQ** | 1 saat | | | | | | |

# Rəşid bəy Əfəndiyev. "Elm tükənməz xəzinədir" "Şah Abbas və iki vəzir"

*(İndiyə qədər hansı oxu bacarıqlarına yiyələnmişik?)*

– Əziz uşaqlar, ötən dərs ilində siz həm təsviri, həm də nəqli mətnlərin xüsusiyyətləri ilə bağlı bacarıqlara yiyələndiniz. Cari dərs ilində bu bacarıqları daha da inkişaf etdirəcəksiniz. İndi isə gəlin əvvəlcə özümüzü yoxlayaq, görək ötən dərs ili boyu öyrəndiklərimizi nə qədər mənimsəyə bilmişik? Hansı məsələlərdə çətinlik çəkirik? Bu dərs ili hansı bacarıqların möhkəmləndirilməsinə daha çox ehtiyac olacaq? Bu işi yerinə yetirmək üçün əvvəlcə materiallarımızı müəyyən edək.

Məlum olduğu kimi, diaqnostik qiymətləndirmə fərdi şəkildə aparılır və hər bir şagirdin inkişaf dinamikasının sonrakı mərhələdə yoxlanılması təmin edilir.

Mətnlərdən biri nəqli, digəri isə təsviri xarakterli olduğundan şagirdlər hər iki mətn üzrə iş aparır. Əvvəlcə, "oxunun təsnifi qaydalarına" riayət etməklə mətn oxunsun. Özünüqiymətləndirmə tapşırığı şagirdlərə təqdim olunsun.

Özünüqiymətləndirmə tapşırığını yerinə yetirən və vərəqi təhvil verən şagird əsərin müəllifi ilə tanışlığa cəlb edilir.

**Özünüqiymətləndirmə tapşırığı**

1. Oxuduğunuz əsərdə mətnin növünü müəyyən edin (nəqli, təsviri).
2. Bu mətnin mövzusu qeyd edilənlərdən biridir: elmin yayılması, elmin çoxluğu, elmin zərəri, elmin dəyəri. Doğru cavab hansıdır?
3. Mətndə əsas fikrə zəmin yaradan cümləni tapın.
4. Mətndəki təşbehləri müəyyənləşdirin.
5. Mətndəki "ziyadə" sözünün mənasını lüğətdən tapın.
6. Mətndəki bədii təsvir vasitələrini müəyyənləşdirin.
7. Mətndə hansı hisslərin təsvirinə yer verilib?
8. Əsərdə "fəzilət" sözünün mənasını lüğətdən tapın.
9. Mətnin hissələrini müəyyən edin.
10. Mətnin ideyasını müəyyən edin.

10

**Özünüqiymətləndirmə tapşırıqlarının cavabları**

1. **Cavab:** Təsviri
2. **Cavab:** Elmin dəyəri
3. **Cavab:** Elmin qədir və qiyməti hər şeydən alidir.
4. **Cavab:** Hər bir alim bir şama bənzər ki, ondan neçə-neçə şamlar yandırmaq müyəssərdir.
5. **Cavab:** Artıq
6. **Cavab:** Elm bir dövlətdir ki, onu itirmək, oğurlatmaq mümkün deyil
7. **Cavab:** Görmə
8. **Cavab:** Mərifət, kamal, mənəviyyat
9. **Cavab:** Giriş: 1-ci abzas; Əsas: 1-ci, 2-ci abzas; Nəticə: 2-ci abzas
10. **Cavab:** Elm ona sahib olanların dəyərini yüksəldir.

**Özünüqiymətləndirmə tapşırığı**

1. Əsərdə əsas fikri müəyyən edin.
2. Sizcə, vəzirlərin cavabından sonra Şah Abbas hansı qənaətə gələ bilər?
3. Mətndəki “ar bilmək” sözünün mənasını lüğətdən tapın.
4. Sizcə, Şah Abbasın məqsədi nə idi?
5. Mətndə hadisələrin baş verdiyi məkanı və zamanı müəyyən edin.
6. Mətndə nədən bəhs edildiyini müəyyənləşdirməklə mövzusunu tapın.
7. Mətnin hissələrini göstərin.
8. Mətndə hadisələrin baş vermə ardıcıllığını göstərin.
9. Oxuduğunuz əsərdə mətnin növünü müəyyən edin (nəqli, təsviri)
10. Sizcə, gəzintinin sonunda Şah Abbas hansı hissləri keçirdi?

12

**QİYMƏTLƏNDİRMƏ**

Qiymətləndirmə faizi

Özünüqiymətləndirmənin nəticələri aşağıda təqdim edilən göstəricilərə əsasən qiymətləndirilir:
30-dək (daxil olmaqla) olan ballar “2” qiyməti ilə;
30-dan 60-dək (daxil olmaqla) olan ballar “3” qiyməti ilə;
60-dan 80-dək (daxil olmaqla) olan ballar “4” qiyməti ilə;
80-dən 100-dək (daxil olmaqla) olan ballar “5” qiyməti ilə.

## Özünüqiymətləndirmə tapşırıqlarının cavabları

1. **Cavab:** Həqiqi alimin əxlaqı elmi qədər gözəldir
2. **Cavab:** Vəzirlərinin yüksək mənəviyyata sahib olduğuna
3. **Cavab:** Əskiklik bilmək
4. **Cavab:** Hər iki vəzirin mənəviyyatını yoxlamaq istəyirdi.
5. **Cavab:** Gəzintidə
6. **Cavab:** Elmli insanların müdrikliyi
7. **Cavab:** Giriş: 1-ci abzas; Əsas: 2-ci abzas; Nəticə: 6-cı abzas
8. **Cavab:**
   1. Şah Abbasın vəzirləri ilə gəzintisi
   2. Şah Abbasın vəzirlərini sınamaq qərarına gəlməsi
   4. Şah Abbasın Mir Damədlə söhbəti
   3. Şah Abbasın Bəhayi ilə söhbəti
9. **Cavab:** Nəqli
10. **Cavab:** Qürur

Tapşırığın nəticələri müəllim tərəfindən yoxlanılır. Şagirdlərin hər suala doğru və ya yanlış cavab verməsini əks etdirən cədvəl tərtib edilir. Əgər cavab doğrudursa **d**, cavab yanlışdırsa **y** hərfini qeyd edin. Hər şagirdin doğru cavab kimi seçdiyi variantı cədvələ daxil edin. Bu cədvəl elektron versiyada hazırlanıb monitorda da təqdim edilə bilər. Sinif otağında kompüter olmadığı halda, A4 vərəqini yapışdırıb cədvəli çəkməklə də nümayiş etdirilə bilər.

| **№** | **Özünüqiymətləndirmə tapşırığı** / **Şagirdin adı, soyadı** | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | | | | | |
| 2 | Namiq Əliyev | d | y | d | d | y | d | y | d | d | y |
| 3 | | | | | | | | | | | |
| 4 | | | | | | | | | | | |
| 5 | | | | | | | | | | | |
| ... | | | | | | | | | | | |
| 20 | Sinifdəki şagirdlərin sayı qədər artırıla bilər | | | | | | | | | | |
| Doğru cavab yazan şagirdlərin sayı | | | | | | | | | | | |
| Yanlış cavab yazan şagirdlərin sayı | | | | | | | | | | | |

Müəllim tədris prosesinin növbəti mərhələsində hər bir şagirdin zəif nəticə nümayiş etdirdiyi məsələləri nəzərə alır, həmin bilik və bacarıqların inkişafını təmin etmək üçün fəaliyyətini planlaşdırır.

Sonda hər suala doğru və yanlış cavab verən şagirdlərin sayı hesablanıb cədvəldə verilən xanalara daxil edilir.

Bu cədvəl oxunun təşkili baxımından müxtəlif bacarıqlar üzrə şagirdlərin mövcud vəziyyətini dəyərləndirməyə imkan verir. Beləliklə, müəllim oxu bacarığı baxımından hansı suala daha çox yanlış cavab verildiyini müəyyənləşdirəcək və nəticələri aşağıdakı şəkildə qruplaşdıracaq.

| № | Səviyyə | Özünüqiymətləndirmə tapşırığının nömrələri | Şərh |
|---|---|---|---|
| I | Ən çox çətinlik çəkilən sual | 4, 5-ci suallar | Bu, sinfin 80% və daha çox hissəsinin cavab verə bilmədiyi suallardır |
| II | Çətinlik çəkilən sual | | Bu, sinfin 60%–70%-nin cavab verə bilmədiyi suallardır |
| III | Bir qədər çətinlik çəkilən sual | | Bu, sinfin 40%–50%-nin cavab verə bilmədiyi suallardır |
| IV | Ən az çətinlik çəkilən sual | 1, 9-cu suallar | Bu, sinfin 30% və daha az hissəsinin cavab verə bilmədiyi suallardır |

Bu araşdırmalar növbəti dərsdə ilkin bilik və bacarıqların müəyyən edilməsi mərhələsində məlumat mənbəyi kimi istifadə ediləcək. Bu da interaktiv təlimin motivasiya mərhələsinin I pilləsidir.
Biz hansı oxu bacarıqlarına yiyələnmişik? Bu cədvəl həm də cari və sonrakı dərslərdə öyrənilməsi lazım olan məsələləri önə çəkmək imkanı verir. Şagirdlərin 60% və daha çox hissəsinin cavab verə bilmədiyi suallar onların həmin bacarıqları baxımından iş aparılmasına ehtiyac olduğunu önə çəkir.
Bununla şagirdin öyrənməsi lazım olan məsələlər onlara təqdim edilir və şagirdlərə öz ehtiyaclarını müəyyənləşdirməyə imkan yaradılır. Beləliklə də, həmin məsələləri şagirdin "öyrənmək istədiyi" məsələyə çeviririk.

## Yusif Balasaqunlu. “Qutadqu bilik – səadət gətirən elm”
### *(Oxu və yazı prosesi)*
### Oxu prosesi

**Təlim məqsədi**

1. “Qutadqu bilik – səadət gətirən elm” əsərini ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 2. Tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırır (1.1.1.). 3. Öyrəndiyi yeni sözləri bədii əsərlə bağlı müzakirələrdə istifadə edir (2.1.1.). 4. Nəticələri yoldaşları ilə müzakirə edir, onların fikirlərindən faydalanaraq təqdimatında təkmilləşmə işləri aparır (2.2.1.).

Aparılan test yoxlamalarının nəticələri şagirdlərə təqdim edilir. Ən çox səhv cavab verilən suallar oxunur. Həmin suallar üzrə yoxlanılan oxu bacarıqları qeyd edilir. Bu proses şagirdə öz oxu bacarıqlarında olan boşluqları və nailiyyətləri görməyə, səviyyəni müəyyənləşdirməyə imkan verir. (Bu, interaktiv təlimin motivasiya mərhələsinin 1-ci ilkin bilik-bacarıqların müəyyən edilməsi mərhələsidir.) Şagirdlərin diqqəti problemlərə yönəldilir. Bununla müəllim şagirdləri aşağıdakı məsələlərə doğru istiqamətləndirir:
– həmin məsələlərin öyrənilməsinə olan ehtiyacı hiss etsinlər;
– onu öyrənmək istəsinlər. (Bu da interaktiv təlimin motivasiya mərhələsinin II mühüm pilləsidir.)

**OXU VƏ YAZI PROSESİ**



*Oxunun və yazının təşkili barədə nə bilirik?*

Məktəbli dost! Siz artıq beşinci sinifdə oxunu təşkil etməyin yolları ilə bağlı müəyyən bilik və bacarıqlara yiyələnmisiniz. Bədii nümunələri oxumazdan əvvəl, oxuyarkən və oxuyandan sonra hansı işlərin aparılmasının əhəmiyyətli olduğunu öyrənmiş və bunu təcrübədə də tətbiq etmisiniz.

Siz hər hansı hadisəni nağıl etməyin yollarını öyrənmiş, təsvir xarakterli bədii nümunələri verilən təlimatların yardımı ilə oxuyub araşdırmısınız.

Bu dərs ilində də həm bu xüsusiyyətlərə malik bədii nümunələr üzərində iş aparacaq, həm də bu istiqamətdə bilik və bacarıqlarınızın dairəsini genişləndirəcəksiniz. Mühakimə xarakterli mətnlər (inşalar) yazmağı öyrənmək məqsədilə əvvəlcə belə mətnlərin xüsusiyyətləri və quruluşu barədə bilik və bacarıqlara yiyələnəcəksiniz. Bu bacarıqlar sizə həm də dərslikdə verilən digər məlumatlandırıcı və şərhedici mətnləri asanlıqla dərk etməkdə yardımçı olacaqdır.

**YUSİF BALASAQUNLU. “QUTADQU BİLİK – SƏADƏT GƏTİRƏN ELM”**
**(OXU PROSESİ)**

**Yadda saxlayın!** Bu təlimatlar ədəbiyyat dərslərində oxuduğunuz bədii nümunələri dərk etməkdə sizə yardımçı olacaq. Bununla həm də başqa fənlərdə oxuduğunuz mətnləri asanlıqla başa düşərsiniz. Oxu səmərəliliyini yüksəltməyə nail olarsınız. Oxu prosesinin üç mühüm mərhələsini əhatə edən bu təlimatlar “Oxunun təşkili cədvəli”ndə təqdim edilmişdir.

13

Bu günlərdə müəyyən oxu bacarıqlarının möhkəmləndirilməsi və inkişaf etdirilməsi üzrə işlərin aparılacağı şagirdlərin diqqətinə çatdırılır: “Bu işin təşkili üçün müxtəlif bədii nümunələr üzrə çalışmaq olar. Amma dərsliyimizdə Yusif Balasaqunlunun “Qutadqu bilik – səadət gətirən elm” əsəri üzrə iş aparmaq tövsiyə edilir. Sizcə, nə üçün?”
Şagirdlər ona istiqamətləndirilir ki, bu günlərdə Bilik günü qeyd edilmişdir. Bu əsərlə hər kəsin diqqəti elmin, biliyin insan həyatında əhəmiyyətinə cəlb edilir. (Bu, motivasiyanın III mərhələsi olan əlaqələndirmə pilləsidir.)
Sonda müəllim şagirdlərə “bu gün biz nə etməyi öyrənəcək, yaxud inkişaf etdirəcəyik?” – deyə dərsin öyrənmə məqsədini aydınlaşdırır. Şagirdlərin inkişaf etdirilməsinə ehtiyac duyularsa, faktları sadalayın. Dərs ili boyu həmin bacarıqlarının inkişafı üzrə işlər aparacağıq. (Bu, motivasiyanın IV – məqsədin müəyyən edilməsi mərhələsidir.)

Tapşırığın icrası cütlərlə iş formasında aparılır. Cütlərlə oxu üsulundan istifadə edin. Öyrənmə materialı üzərində işləmək üçün şagirdlərin hər ikisi oxudan əvvəl fəaliyyətini yerinə yetirir.
Şagirdlərdən biri oxuyur, o biri isə məsləhətçi kimi "oxu zamanı" fəaliyyət cədvəlini yerinə yetirir. Sonra ikinci tapşırığın icrasına başlanır.
Cədvəldə təqdim edilən suallara cavab tapıb tanış olmayan sözlərin mənasını sonra aydınlaşdırmaq üçün qeyd edir və s.

**QUTADQU BİLİK — SƏADƏT GƏTİRƏN ELM**
*(poemadan bir parça ixtisarla)*

*Tərcümə edəni: X.R.Ulutürk*

Bilirsən qəsdimi, ey ulu alim,
Elmdən, zəkadan, idrakdan deyim.
Zülmət bir gecədə məşəldir zəka,
Elmdir nur salan kor qaranlığa.
Elm ilə, idrakla yüksəlir insan,
Qədir-qiymətini elminlə qazan.
Yad et zəka tacı Nuşirəvanı,
Necə işıqlatdı əqli cahanı.
Səadət gətirdi xaqan millətə,
Adını həkk etdi əbədiyyətə.
Elmdir yaradan qədir-qiyməti,
Savadsız adamın nə mərifəti?
Zəkalı kişilər nə bəxtiyarmış,
Deməli, əsli də, nəsli də varmış.
İdrakı olanın nəcabəti var,
İdrakı olanlar bəylik qazanar.
Üzüb qara yerdən əlini insan,
Saçdı kainata elm ilə **ürfan**.
Zəkadan saçılır aləmə şölə,
Bəylər xalq işini görür əql ilə.
Dünyada nə qədər gözəl sənət var,
İdrak sayəsində yaranmış onlar.
Nə böyük **matahdır**, demə, təfəkkür,
Hələ zərrəsinin hökmü böyükdür.
Elm gül suyuna bənzəyir bir az,
Nə elmi, nə ətri gizlətmək olmaz.
Gülabı gizlətsən, gələcək ətri,
Dilə od vuracaq elmin hər sətri.
Elm sənin öylə sərvətindir ki,
**Darta, çala** bilməz bir oğru-əyri.
Müdrik insanlara sər-sanbal gərək,
Ay və Günəş kimi nur camal gərək.
İnsan* — xoşqılıqlı, mülayim, mətin,
Çırağı olmalı mədəniyyətin.
İnsan zəki gərək — iş görə bilsin,
Elmini ellərə pay verə bilsin.

Sizcə, elm insana nə üçün lazımdır?

Sizcə, insan elmi ilə qədir-qiyməti necə qazana bilər?

Bu sözün mənasını lüğətdən tapın.

Siz hansı sənəti sevirsiniz?

Bu sözün mənasını lüğətdən tapın.

Sizcə, bu sözlərin mənası nədir?

* Mənanın eyniliyi nəzərə alınaraq bəzi yerlərdə "kişi" sözü "insan" sözü ilə əvəz edilib.

16

Fəaliyyət bitəndən sonra cütlərin "oxudan əvvəl" və "oxu zamanı" apardıqları qeydləri qarşılaşdırılır və "oxudan sonra" cədvəli üzrə iş aparmaq üçün qruplaşırlar. Qrup təqdimatı hazırlanır, təqdimatlar dinlənilir. Qiymətləndirmə meyarlarında "Yeni sözlərdən nitqdə istifadə" meyarı şagirdlərin diqqətinə xüsusilə çatdırılır, bu stimullaşdırma məqsədli replika lüğət ehtiyatının zənginləşdirilməsi baxımından əhəmiyyətlidir.

Təqdimatlar hansı texnologiya ilə dinlənilir? İşin həcmi böyük olduğundan 4–5 qrupun təqdimatını dinləmək çox vaxt aparar. Bu səbəbdən 1 qrup məsələ təqdim edir. Hansı qrupun həmin konkret məsələ baxımından fikri fərqlidirsə, o qrupun üzvləri öz variantlarını səsləndirirlər. Həmin məqamlar cədvələ əlavə edilir və bu yolla ümumiləşmə aparılır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İfadəli oxu | | | | | |
| 2. | Lüğət üzrə iş | | | | | |
| 3. | Yeni sözdən nitqdə istifadə | | | | | |
| 4. | Birgəfəaliyyət | | | | | |

## Yusif Balasaqunlu. “Qutadqu bilik – səadət gətirən elm”
*(Oxu və yazı prosesi)*
## Yazı prosesi

**Təlim məqsədi**

1. “Qutadqu bilik – səadət gətirən elm” əsəri üzrə 1–1,5 səhifə həcmdə rəy-inşa yazır (3.1.3.). 2. Əsərdə başlıca fikri anladığını nümayiş etdirir (3.1.2.). 3. Mətni sitatlarla zənginləşdirir (3.1.1.). 4. Fikirlərini çatdırarkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.).

Müəllim bu dərsdə test yoxlamalarının nəticələrini təqdim edir.
Şagirdlərin hansı yazı bacarıqlarının olduğu onların nəzərinə çatdırılır. Oxu prosesində aparıldığı formada nəticələrin təhlili aparılır.
Məlum olduğu kimi, insanlar fikirlərini şifahi çatdıra bildikləri qədər yazılı şəkildə də çatdırmağı bacarmalıdırlar. Həyatda bir çox hallarda bu bacarığımız aşağı olduğundan ciddi çətinliklərlə üzləşirik. Biz hər hansı təşkilata rəsmi müraciət edərkən, ehtiyaclarımızı təsvir edərkən, hər hansı yaranmış vəziyyətə münasibət bildirərkən, yaxud yaddaqalan bir hadisə ilə bağlı xatirələri yazarkən çətinliklər hələ də olur. Bu səbəbdən bu gün bu barədə rəy, inşa yazmağı öyrənəcəyik. Burada insanlar hər hansı hadisəyə, problemə, məsələyə münasibətini, rəyini, fikrini əsaslandırılmış şəkildə bildirməlidir.



*Müəlliflə tanışlıq*

***Yusif Balasaqunlu***

*...Bir dəfə Türkiyədə mənə “Qutadqu biliy”in son tərcümələrindən birini bağışlamışdılar. Mən əlimdə kitab dayandığım zaman böyük türk alimi mərhum Bahəddin Ögəl əlimdəki kitabın adını soruşdu. Mən dedim: “Qutadqu bilik – səadət gətirən elm”. O gülümsəyib: “Yox, oğlum, o kitabın adı “Dövlət kitabı”dır, “Dövlətnamə”dir. Türk dövləti, fəlsəfəsi, düşüncəsi haqqında ən böyük söz də bu kitabdadır. Azərbaycanın bu kitaba ehtiyacı çoxdur”.*

*Müdrik alimin sözlərindəki həqiqəti inkar etmək mümkün deyil. Bu möhtəşəm abidənin müəllifi türk-islam ədəbiyyatının ilk böyük sənətkarı Yusif Balasaqunludur. Əsərdə türklərin mənəvi tərəfi, ictimai-siyasi görüşləri öz əksini tapmışdır. Əsər Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürk tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.*

**Kamil Vəli Nərimanoğlu**

**YAZI PROSESİ**
**(Rəy-inşa)**

***Tapşırıq.***

I. Yusif Balasaqunlunun “Qutadqu bilik — səadət gətirən elm” poemasından verilmiş parçaya bir daha nəzər salın. Təqdim edilən mövzuların biri üzrə (1—1,5 səhifə həcmində) rəy-inşa yazmaq üçün dərsliyin 19—22-ci səhifələrindəki “Oxunun və yazının təşkili formalarını əks etdirən cədvəl”dən istifadə edin. İnşanın mövzusu ilə mətnin təşkili formalarını əlaqələndirin. Unutmayın ki, hər bir mövzu yalnız bir forma ilə əlaqəlidir.
1. Əsərdə elm yazıçı tərəfindən necə təsvir edilmişdir?
2. İnsan elmə sahib olmaq üçün həyatda hansı işləri görməlidir?
3. Elmli və elmsiz insan barədə müəllifin fikirlərini qarşılaşdırın və müqayisəli şəkildə şərh edin.
4. Elm insanın həyatında hansı dəyişikliklər edir?
5. İnsanların elmə marağını yüksəltmək üçün nə etmək lazımdır?

II. Rəy və inşanı yazan zaman fikirlərinizi əsaslandırmaq üçün fakt və sitatlardan istifadə edin.

III. Yazı zamanı öyrəndiyiniz yeni söz və ifadələrdən istifadə edin.

18

Cədvəllərə nəzər salmaq tapşırığı verilir: – “Qutadqu bilik – səadət gətirən elm” əsəri ilə bağlı inşa yazarkən kim hansı cədvəl üzrə işləmək istərdi?
Cədvəllərlə tanış olmaq üçün şagirdlərə 5 dəqiqə vaxt verilir.

Seçimlər edildikdən sonra şagirdlər qruplaşdırılır. Əgər bir cədvəli 5–6 deyil, 12 nəfər seçibsə, siz həmin cədvəl üzrə inşa yazı üçün 1 deyil, 2 qrup da yarada bilərsiniz. Çalışın ki, mətnin təşkilinin bütün formalarından istifadə edilsin. Amma 5 deyil, 4 forma seçilərsə, şagirdlərin iradəsinə qarşı getməyin.

Mətnin təşkili formalarına əməl etməklə təqdim edilən suallara əsasən açar sözləri nəzərə almaq və inşanı yazmaq tövsiyə edilir. Bunun üçün vaxt müəyyənləşdirilir.
Yazı başa çatandan sonra qruplar nəticələrini təqdim edir.
Nəticələr meyarlar baxımından qiymətləndirilir.

| Mətnin mövzusu və təşkili forması arasında əlaqə | |
|---|---|
| **Rəy-inşanın mövzusu** | **Mətnin təşkili forması** |
| 1. Əsərdə elm yazıçı tərəfindən necə təsvir edilmişdir? | Anlayışı təyinetmə |
| 2. İnsan elmə sahib olmaq üçün həyatda hansı işləri görməlidir? | Ardıcıllıq |
| 3. Elmli və elmsiz insan barədə müəllifin fikirlərini qarşılaşdır və müqayisəli şərh et. | Qarşılaşdırma-müqayisəetmə |
| 4. Elm insanın həyatında hansı dəyişikliklər edir? | Səbəb-nəticə |
| 5. İnsanların elmə marağını yüksəltmək üçün nə etmək lazımdır? | Problemin həlli forması |

Rəy-inşa yazıya başlamazdan əvvəl təqdim edilən formalarla işin təşkili üzrə şagirdlərə müvafiq təlimatlar verilir və nümunələr təqdim edilir. “Zəlzələ” anlayışının təyin edilməsi üzrə cədvəl diqqətinizə çatdırılır.

**Nümunə** — **Anlayışı təyinetmə forması**

| Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar | Müzakirə zamanı istifadə edilən açar sözlər | Araşdırma zamanı istifadə edilən sxem |
|---|---|---|
| 1. Bu nə deməkdir? Yeraltı tavaların hərəkətindən yaranan təkanlardır.<br>2. Bunu hansı qrup insanlara, yaxud əşyalara aid etmək olar? Təbiət hadisəsidir.<br>3. Anlayışın əsas xüsusiyyətləri nədən ibarətdir? Güclü zəlzələ dağıdıcı təsirə malikdir.<br>4. Ondan necə istifadə edilir? —<br>5. O nə üçün lazımdır? Landşaftı dəyişə bilər.<br>6. Bu anlayışlara hansı sahələrdə rast gələ bilərsiniz? Təbiət hadisələri və təhlükəsizlik qaydaları.<br>7. Hansı nümunələr var ki, bəzi xüsusiyyətləri uyğun gəlir, bəziləri yox? —<br>8. Onun gözlənilməyən nəticələri (faydası, zərəri) olurmu? Yeni coğrafi obyektlər yarana bilər (Göygöl) | 1. Xüsusiyyətlər təhlükəlidir, dağıdıcıdır və yaradıcıdır. Gözlənilməzdir, nəticələrini proqnozlaşdırmaq olmur.<br>2. Qruplar təbii fövqəladə hadisə<br>3. Atributlar dağıntı, kədər<br>4. Nümunələr Türkiyə, Şamaxı, Gəncə<br>5. İstifadə üsulları —<br>6. İstifadə məqsədi — |  <br>ANLAYIŞ-TƏYİNETMƏ |

Müəllim yalnız qrup işi zamanı şagirdin aşağıdakı bacarıqlarını qiymətləndirə bilər:
1. Ünsiyyət mədəniyyəti;
2. Fərdi fikirlərə hörmətli olması;
3. Liderlik bacarığı.

Bu iş forması, həmçinin özünəinamsız, özünəqapanmış şagirdlərin də müəyyən edilməsinə şərait yaradır. Onların gələcək inkişafı ilə bağlı müəllim öz fəaliyyətini planlaşdırmalıdır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İnşanın yazılması (1–1,5) | | | | | |
| 2. | Başlıca fikrin aydınlaşdırılması | | | | | |
| 3. | Sitatların yerində işlənməsi | | | | | |
| 4. | Forma ilə uyğunluq | | | | | |
| 5. | Fikrin obrazlı ifadəsi | | | | | |

# *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR*
## Mikayıl Rzaquluzadə. "Vurğun baxışlarla"
## ("Gözəlliyin keşiyində" əsərindən)
### *(Bədii əsərlərdə təsvirin müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. "Vurğun baxışlarla" parçasında tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə müəyyən edir (1.1.1.). 2. Əsərdə bədii təsvir vasitələrini müəyyənləşdirir (1.1.5.). 3. Əsərdə təsvir vasitələrinin rolunu aydınlaşdırır (1.2.3.). 4. Əsərin ideyasına əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 5. Müzakirələrdə yoldaşlarının faydalı fikirlərindən yararlanır (2.2.1.).

Şagirdlərə xatırladılır ki, ötən dərs ili onlar bədii əsərlərdə təsvir və bədii əsərlərdə nəqletmə ilə tanış olmuşlar.
Bunlara aid müxtəlif maraqlı bədii nümunələr oxunmuşdur. Bu zaman hər hansı məkanın təsviri zamanı əhəmiyyət verilməli məsələlər araşdırılmışdır. Şagirdlər bu iki anlayışı qarşılaşdırmağa sövq edilir. Venn diaqramı çəkilir və şagirdlər təsviri və nəqli əsas nümunələrin oxşar və fərqli cəhətləri üzərində düşünməyə istiqamətləndirilir.




Bu zaman şagirdlərin təsviri xarakterli bədii nümunələrin səciyyəvi cəhətləri ilə bağlı ilkin bilik səviyyəsi müəyyən edilir.

*BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR*

Siz beşinci sinifdə məkanın təsvirinə dair bədii nümunələrlə tanış olmusunuz. Həmin əsərlərin ideyasını, təsvir vasitələrini və quruluşunu müəyyənləşdirmisiniz. Siz təsvir xarakterli esselər də yazarkən bu təcrübədən çıxış etmisiniz. Bu dərs ilində də əldə etdiyiniz bilik və bacarıqları həm təkmilləşdirəcək, həm də inkişaf etdirəcəksiniz. Siz yalnız məkanın deyil, insanın da təsviri ilə bağlı aşağı siniflərdə əldə etdiyiniz öz bilik və bacarıqlarınızı artıracaqsınız.



**MİKAYIL RZAQULUZADƏ. "VURĞUN BAXIŞLARLA"**
**("GÖZƏLLİYİN KEŞİYİNDƏ" ƏSƏRİNDƏN)**
**(BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİRİN MÜƏYYƏN EDİLMƏSİ)**

***Tapşırıq 1.***

1. Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın ("Oxudan əvvəl"). Əsəri oxuyarkən "Oxu zamanı" təlimatına da əməl edin (cədvəl 1, 2, səh. 14, 15).

2. Doğrudanmı, bu əsər təsviri xarakterlidir? Əsərdən verilən parçanın nəqli deyil, təsviri xarakterli olduğunu sübut edin. Fikirlərinizi əsaslandırmaq üçün qarşılaşdırmalar aparmalısınız. Buna nail olmaq üçün "Qarşılaşdırma-müqayisəetmə forması"ndan (cədvəl 6, səh. 20) istifadə edə bilərsiniz.

23

Şagirdlər NOYÇ üsulundan istifadə edir.
Bu üsulu nəzərdən keçir və oxu mərhələləri iş formasında; "Yoxla", "Çalış" mərhələləri isə qruplarla iş formasında yerinə yetirilə bilər.
NOYÇ üsulu oxudan əvvəl, oxu zamanı, oxudan sonra proseslərini tam şəkildə əhatə edir. Bu üsul tətbiq edilən zaman şagirdlərin həmin fəaliyyətə təkrar cəlb edilməsinə ehtiyac yoxdur.

**Nəzərdən keçir.** – Mətni şagirdlərə təqdim edin. – Oxudan əvvəl mətnin başlığı, verilmiş şəkil və s. üzərində düşünməyi xahiş edin. – Mətndən birinci və sonuncu abzası oxumağı xahiş edin. – Cavab tapmaq istədikləri sualları tərtib etməyi xahiş edin (nəzarət edin ki, suallar mətnin təsviri olub-olmadığını aşkar etməyə imkan versin, çünki oxunun məqsədi əsərin təsviri olub-olmadığını müəyyən etməkdir). – Özünüz əvvəlcədən nümunəvi suallar tərtib edin ki, lazım gəldikdə onlara istiqamət verəsiniz və ya onların nəticələrini doğru dəyərləndirə biləsiniz.

**Oxu.** – Şagirdləri qarşılaşdıqları yeni sözlərin mənasını araşdırmaq üçün lüğətdən istifadəyə istiqamətləndirin.

– Mətni oxuyarkən özlərinin əvvəlcədən hazırladıqları suallara cavab verməyə sövq edin.

– Oxu zamanı yeni suallar yarana bilər. Şagirdləri həmin suallara cavab verməyə həvəsləndirin.

**VURĞUN BAXIŞLARLA**

*(İxtisarla)*

*Kəsin eyşi-nuşu, gələnlər sussun,*
*Yorğanı dumandan, döşəyi yosun,*
*Bir yorğun pəri var, bir az uyusun,*
*Uyusun dağların maralı Göygöl.*

**Əhməd Cavad**

Ucal gözlərinə inanmadı... Yerindəcə donub qaldı.

Sizcə, bu əsərdə nədən bəhs olunacaq?

Bu nə gözəllikdi, bu nə möcüzə idi?!

O, Göygölün şəkillərini çox-çox görmüşdü. Ən adlı-sanlı rəssamların çəkdikləri lövhələrdə də, rəngli kino ekranlarında da, hətta konfet, şokolad qutularının və rəngbərəng şüşələrin üstündə də... Bütün bu şəkillərin ən gözəlləri, hətta zərli çərçivələrə salınmış ən bəzəkli-düzəkliləri də bu mənzərənin qarşısında, Günəş qarşısında şam işığı kimi görünürdü.

Bu barədə nə bilirsiniz?

Bu nə gözəllikdi... Belə gözəl mənzərəni ancaq ən böyük ustad — ana təbiət yarada bilərdi.

Səhər şəfəqlərinin zərif göyümtül-bənövşəyi işığında dağların sərin nəfəsi gölün üzərindəki incə tül pərdəni ağır-ağır qaldırdıqca güzgü suların qoynunda başqa bir aləm canlanırdı. Ən gözəl nağıllarda, ən şirin röyalarda canlanan əfsanələr aləmindən daha gözəl bir aləm...

Göygöl haqqında daha nələri bilmək istərdiniz?

Tünd-yaşıl məxmər ətəklərini göldə yuyan gözəllər kimi halay vurmuş cərgə-cərgə şam ağacları pillə-pillə ucalır, vüqarlı Kəpəzin yalçın qayaları sıyrılmış xəncərlər kimi bu gözəlləri, bu gözəlliyi sanki yadlardan-yağılardan qoruyurdu...

Tanış olmayan sözlərin mənasını lüğətdən tapın.

Gölün büllur suları **pənbə** buludları, qızıl şəfəqləri, yaşıl təpələri, yastı qayaları qoynuna alıb ağır-ağır **ləngər** vurduqca sədəf kimi min rəngə çalırdı...

Təsvir vasitələrini müəyyən edin.

Yox... yox... İndi Ucalın gözləri qarşısındakı bu mənzərəni təsvir etməyə nə rənglər, nə sözlər çatışar... Bu ucsuz-bucaqsız səmanın dərinliyini, bu dağ havasının ətirli sərinliyini, bu əlvan çiçəklərin, rəngbərəng kəpənəklərin

24

**Yoxla.** Bu mərhələdə şagirdlər öz yazdıqları cavabların nə qədər keyfiyyətli, aydın, anlaşıqlı olduğunu yoxlayırlar. – Şagirdlərin nə yazdıqlarını, cavabları haradan və necə əldə etdiklərini müəyyənləşdirmək üçün müəllim onlarla əks əlaqə yaratmalıdır.

**Çalış.** Bu mərhələdə şagirdlər vahid qrup təqdimatı hazırlamaq üçün müzakirələr aparır, ən uğurlu variantı müəyyən edirlər.

Sinif üçün tədqiqat sualı, şagird üçün oxu məqsədi tapşırıq 1-in 2-ci bəndində təqdim edilir.

– Təqdimatdakı fikirləri ümumiləşdirmək üçün müəllim təsviri mətnə verilən tələbləri şagirdlərə təqdim edir.

Təqdimatlar bitəndən sonra müəllim sinfə sual verir. Deməli, bu əsər təsviridir, ya təsviri deyil?

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | Təsvir vasitələrinin müəyyən edilməsi | | | | | |
| 3. | Təsvir vasitələrinin rolunun aydınlaşdırılması | | | | | |
| 4. | Əsərin ideyasının sxemdə göstərməklə müəyyən edilməsi | | | | | |
| 5. | Müzakirələrdə qarşılıqlı faydalanma | | | | | |

## Bəxtiyar Vahabzadə. "Qocalar"
### *(Bədii əsərlərdə insanın təsviri)*
### *(İctimai varlıq kimi)*

**Təlim məqsədi**

1. "Qocalar" şeirini ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 2. Tanış olmayan söz və ifadələrin mənasını lüğətdən aydınlaşdırır (1.1.1.). 3. Əsərdə təsvir vasitələrini müəyyənləşdirir (1.1.5.). 4. Əsərin qəhrəmanını davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 5. Əsərdəki təsvir vasitələrinin rolunu izah edir (1.2.3.). 6. Əsərin ideyasını müəyyən edir, əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 7. Yoldaşlarının fikrindən faydalanır (2.2.1.).

– Uşaqlar, kimin babası, nənəsi var?
– Bəs kimin ata-anasının bibisi, xalası, əmisi, dayısı var?
– Kimin qoca baba, ya da qoca nənə qonşuları var?
– Uşaqlar, bu günlərdə siz heç onların yanına gedib, onları təbrik etmisiniz?
Səbəb məlum deyilsə, gəlin təqvimə baxaq.
– **1 oktyabr** biz hansı günü qeyd edirik?
**1 oktyabr** Beynəlxalq Ahıllar günüdür.

**BƏXTİYAR VAHABZADƏ. "QOCALAR"**
**(BƏDİİ ƏSƏRLƏRDƏ İNSANIN TƏSVİRİ. İCTİMAİ VARLIQ KİMİ)**



*Nə öyrənəcəksiniz?*
- İnsanın ictimai varlıq kimi təsviri yollarını müəyyən edəcəksiniz;
- İnsanın hiss üzvləri baxımından təsviri ilə bağlı fikirlər yürüdəcəksiniz.

Siz artıq təsviri xarakterli yazılarla tanışsınız. Bilirsiniz ki, belə mətnlərin yaranmasında əsas məqsəd hər hansı əşya, hadisə və ya məkanın insan şüurunda təsvirini yaratmaqdan ibarətdir. Elə təsviri yazılar da var ki, orada yalnız təbiət mənzərələri deyil, həm də insanlar təsvir edilir. Belə yazılarda insanların xarici görkəminin, daxili dünyasının, hiss və düşüncələrinin təsvirinə yer verilir.

Xatırlayırsınızsa, ötən il siz nəqletmə xarakterli bədii nümunələrdə obrazları təhlil edərkən onların xarici görkəminin, düşüncələrinin necə təsvir edildiyinə dair araşdırmalar aparırdınız. Bu il insan təsvirinin əhəmiyyətli məqamlarını daha dərindən öyrənəcək, esselər yazanda da bu bacarıqlardan istifadə edəcəksiniz.

İnsanı təsvir edərkən daha çox onu digərlərindən fərqləndirən xüsusi cəhətlərin təsvirinə üstünlük verilir. Yəni insanın təsviri kəmiyyətlə deyil, keyfiyyətlə dəyərləndirilir.

Təsvir edərkən dialekt və şivələrdən, jarqonlardan, yaxud anlaşıqlı olmayan sözlərdən istifadə etmək nöqsan hesab edilir.

İnsanın təsviri ilə bağlı olan mətnlər, bir qayda olaraq, indiki zamanda yazılır. Ona görə ki, bu sanki kiminsə təsvir edilən insana baxması nəticəsində baş verir. Məhz bu səbəbdən də mətn həm də üçüncü şəxsin dilindən yazılır.

Oxucu sanki təsvir edilən insanı oxu zamanı müşahidə edir.

İnsanlar iki cəhətdən təsvir edilə bilər:
— insanın ictimai varlıq kimi səciyyəvi cəhətləri;
— insanın xarici görkəmi baxımından səciyyəvi cəhətləri.

Qarşıdan gələn dərslərdə hər iki baxımdan maraqlı bədii nümunələr üzrə araşdırmalar aparacaqsınız.

27

**İlkin biliklərin müəyyən edilməsi:**
– Ahıllar haqqında nə bilirsiniz?
– Onlar necə görünürlər?
– Onlar nə ilə məşğul olurlar?

**Əlaqələndirmə:**
– Heç qoca insanlarla söhbət etmisiniz?
– Sizə onlarla söhbət etmək maraqlıdır?

**Şagirdin bilmək istədiyi sualların verilməsi:**
– Qocalar haqqında nəyi bilmək istərdiniz?

Bu gün biz birlikdə ahıllarımıza həsr edilmiş gözəl bir şeirlə tanış olacağıq. Bu şeirdə qocaların ictimai varlıq olaraq davranış əməlləri və digər məsələlər baxımından necə təsvir edildiyini araşdıracağıq.

**QOCALAR**

Çənə əl üstündə, əl çomaq üstə
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında.

> Sizcə, bu təsviri bütün qocalara şamil etmək olar?

Yaşıdlar köç edib, cavanlar işdə
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında
Tutur əllərindən əl ağacları.
Yumub gözlərini düşünür onlar,
Durur göz önündə ötən zamanlar.

> Sizin nənəniz, babanız varmı? Varsa, onları yalqız qoymamaq üçün nə edirsiniz?

Yerdə çuxur açır çomağın ucu,
Sonuncu həddinə dirənib ömür.
**Dünyadan aldığı, dünyaya borcu**
**Nəymiş?**
Düşüncənin sonu görünmür.

> Bu misranı necə başa düşürsünüz?

---

**Qeyd:** **Mətnin ifadəli oxusuna dair nümunə.**

Çənə əl üstündə, || əl çomaq üstə
Qocalar əyləşir || tin başlarında.
Sinə bayatılı, || könül şikəstə,
Ömür varaqlanır || yaddaşlarında.

> İşarələrə əməl etməklə ifadəli oxuyun.



29

Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki bilinmir yönü,
Çırpınır, çıxammır ancaq sahilə.

Onlar düşündükcə boşalar, dolar,
Fikrin nə sonu var, nə də əvvəli.
Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!

> Bəndlərdə verilən təsvir vasitələri hansı məqsədlə işlənmişdir?

Əvvəllər deyərdim, onlar bu qədər
Bekarca oturub darıxmır məgər?
Kitab oxuyardım darıxmamaqçün
Onların yerinə olsaydım əgər.

> Bu misralar əsərin ideyası ilə necə bağlıdır?

Bir qalın kitabmış hər ömür, demə,
Oxumaq istəsən, yum gözlərini.
Bekar deyilmişlər...
Ürəklərində
Onlar oxuyurmuş öz-özlərini.

***Bəxtiyar Vahabzadə***

***Tapşırıq 2.*** Aşağıdakı cədvəli diqqətlə nəzərdən keçirin. Həmin cədvəldə insanın ictimai varlıq kimi təsvirinin əsas göstəriciləri təqdim edilmişdir. "Qocalar" şeirindəki obrazların verilən göstəricilərə uyğunluq baxımından necə təsvir edildiyini araşdırın. Nəticə ilə bağlı fikir mübadiləsi aparın.

*Cədvəl 9*

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Nümunələr** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | |

30

Əsərin ifadəli oxusu təşkil edilir. İfadəli oxu bacarığı üzrə fərdi qiymətləndirmə aparılır. Yardımçı sualların cavablandırılmasında xüsusilə diqqətli olun. Bu suallar interaktiv təlimin üç (təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra) mərhələsi baxımından tərtib edilmişdir. Tanış olmayan sözlər üzrə də iş aparılandan sonra şagirdlər qoca obrazının ictimai varlıq kimi necə təsvir edildiyini araşdırmaq üçün cədvəllərlə işə cəlb edilirlər.

Qrup təqdimatları dinlənilir. Hər dörd məqam üzrə qrupların gəldikləri nəticələr müəllim tərəfindən ümumiləşdirilir. Şagirdlər əsərin ideyası üzərində düşünməyə sövq edilir.

**Qocalıq mövzusunda**
- **Tənhalıq**
- **Düşüncələr**
- **Dəryada gəmi**
- **Düşüncə heykəli**
- **Kitablaşan ömür**

= **Qocalar canlı kitabədir, həyat məktəbidir**

**!** 5-ci və 6-cı dərslər üzrə şagirddən gözlənilən nəticələri metodik vəsaitin 21–23-cü səhifələrində əldə edə bilərsiniz.

**Ev tapşırığı:** Qonşunuz, dostunuz və qohumlarınız arasından bir nəfəri ictimai varlıq olaraq səciyyələndirin və təsvir edən esse yazın (3.1.1., 3.1.2., 3.1.3.).

**Dərsin forma və üsulları.** Dərsdə cütlərlə iş, qruplarla iş və kollektiv iş formalarından istifadə nəzərdə tutulmuşdur.
Dərsdə "beyin həmləsi", "problem həlli" üsulundan istifadə edilməsi nəzərdə tutulmuşdur.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | Yeni sözlərdən nitqdə istifadə | | | | | |
| 3. | Obrazla davranış və əməlinə görə qiymətləndirmə | | | | | |
| 4. | Təsvir vasitəsi rolunun şərhi | | | | | |
| 5. | Əməkdaşlıq | | | | | |

## Mirvarid Dilbazi. “Müəllimim”
### *(Bədii əsərlərdə insanın təsviri)*
### *(Xarici görkəmi)*

**Təlim məqsədi**

1. Əsəri ideya-məzmununa görə ifadəli oxuyur (1.1.2.). 2. M.Dilbazinin “Müəllimim” şeirində tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırır (1.1.1.). 3. Əsərdə əsas obrazların səciyyəvi cəhətlərini təsvir edir, təsvir vasitələrinin rolunu izah edir (1.2.2., 1.1.5.). 4. Əsərin ideyasına əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 5. Fikirlərini obrazlı sözlərdən istifadə etməklə şərh edir (2.1.2.). 6. Yoldaşları ilə fikir mübadiləsi aparır (2.2.1.).

Sinifdə İKT-dən istifadə imkanı varsa, müəllim bir insanın şəklini böyük formatda monitora gətirir və şagirdlərə müraciət edir:
– Uşaqlar, gəlin bu insanı təsvir edək.
Müəllim variantları dinləyir və qeydlər edir. Qeydlər başa çatandan sonra müəllim soruşur: “Təsvir etmədiyiniz heç bir məqam qalmadı ki?” Uşaqların nə cavab verdiyindən asılı olmayaraq onları dərslikdə 32-ci səhifəyə yönəldir.

– Gəlin yoxlayaq görək qeyd edilməyən məqam qalıb, ya yox.
Kollektiv şəkildə dərsliyə baxışdan sonra qarşılaşdırma aparılır. Əgər yeni fikirlər səslənərsə, onlar bir kənarda əlavə edilir.
Beləliklə, yoxlama başa çatdırılır.

**MİRVARİD DİLBAZİ. “MÜƏLLİMİM”**
**(ƏSƏR ÜZƏRİNDƏ İŞ)**

O elə şəfqətli, elə gözəldi,
Yox idi gözümdə heç bərabəri.
O bir arzu idi, xoş bir əməldi,
Yaşayır könlümdə illərdən bəri...

Sizcə, bu şeirdə müəllimin daha hansı cəhətləri təsvir edilir?

Təsvir vasitəsinin rolunu müəyyən edin.

Necə məlahətli, qəşəngdi səsi
Axan saf suların təranəsitək;
Necə də istiydi doğma nəfəsi,
Necə də böyükdü köksündə ürək!

Bu misraları sizin ilk müəlliminizə aid etmək olarmı?

Qarlı qış axşamı soyuq küləklər
Körpə ürəklərə gətirəndə qəm,
Onun bir sözüylə açar çiçəklər,
Nura qərq olardı elə bil aləm!

Necə olur ki, müəllimin bir sözü ilə aləm nura qərq olur?

Min nəğmə gələrdi qulağımıza
Daim çiçəklənən könül bağından.
Elə bil çıxırdıq təzə bir yaza
Soyuq, cansıxıcı qış otağından.

O bizim şəfqətlə sığallayanda
Hərdən başımızı bir ana kimi,
Onun ətrafında biz də bu anda
Olardıq nur görmüş pərvanə kimi.

Sizcə, “nur görmüş pərvanə” ifadəsi bu şeirdə hansı mənada işlənmişdir?

Heyif ki, əl çatmaz o gözəl günə,
Aradan keçmişdir neçə qış, bahar!

32

Oxuya hazırlıq işlərindən sonra əsərin kollektiv şəkildə cütlərlə oxusu keçirilir. Yardımçı suallar üzrə iş aparılır. Yardımçı sualların üzərində işə xüsusi əhəmiyyət verilir. Bu suallar interaktiv təlimin mərhələlərinə müvafiq sistemli şəkildə işlənmişdir. Bu, şagirdlərin oxu materialı üzərində fəal düşünərək iş aparmasını təmin edir. Oxu zamanı şagirdlərin ifadəli oxunun tələblərinə əməl etmələrinə diqqət yetirin.

Oxu başa çatandan sonra şagirdlər dərsliyin 41-ci səhifəsində təqdim edilən cədvəl üzrə işə cəlb edilir. Təqdimatlar dinlənilir. Ümumiləşdirmə aparılır.

“Oxudan sonra” fəaliyyətindən sonra şagirdlər əsərin ideyası üzərində düşünməyə sövq edilir.

Ancaq saçlarımın üstündə yenə,
Sanki o əllərin hərarəti var.

Bu misralarda hansı hiss təsvir edilmişdir?

Ah, ey uşaqlığın gözəl günləri,
Əziz müəlliməm, hardasınız siz?
O məktəb illərim dönsəydi geri,
Önündə hörmətlə indi çöküb diz —

Bu bəndlərdə hansı misralar əsas ideyanı qüvvətləndirir?

Deyərdim: — Bu şeirim, sənətim üçün
Həmişə, həmişə borcluyam sənə.
Şərəflə keçirib ömrünü bütün,
Nəsillər böyütdün doğma vətənə.

Sözü inci kimi düzdün dilimə,
Öyrətdin düşünüb cümlə qurmağı.
Qələmi bir dayaq edib əlimə,
Çox usta çıxartdın uca bir dağı.



33

**Müəllim müqəddəsdir**

- **Unudulmaz**
- **Doğma**
- **Nurlu**
- **Könülləri isidən**
- **İkinci ana**
- **Xatirələrdə yaşayan**
- **Şərəfli ömür yaşayan**
- **Həyat bələdçisi**
- **Qəlblərdə məskunlaşan**
- **And yeri**

Biz ailədə dostlarımızı, dostlarımız isə bizə öz ailə üzvlərini qiyabi tanıdarkən onları təsvir etmək ehtiyacı yaranır. Bu zaman hər hansı sistemə əsasən iş aparılarsa, təsvir daha mükəmməl olar.

Bildiyiniz kimi, bu günlərdə Müəllimlər günü qeyd edilir. Gəlin görək görkəmli şairimiz Mirvarid Dilbazi öz müəllimini necə təsvir edib?

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | İfadəli nitq | | | | | |
| 3. | Obrazın səciyyələndirilməsi | | | | | |
| 4. | İdeyaya münasibət | | | | | |
| 5. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 6. | Fikir mübadiləsi | | | | | |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **B.Vahabzadə. "Qocalar"** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | a) Yaşıdlar köç edib, cavanlar işdə,<br>Tək-tənha oturmaq son əlacları.<br>b) Həyatın amansız yalqızlığında<br>Tutur əllərindən əl ağacları.<br>c) Yerdə çuxur açır çomağın ucu,<br>Sonuncu həddinə dirənib ömür.<br>Dünyadan aldığı, dünyaya borcu<br>Nəymiş?<br>Düşüncənin sonu görünmür.<br>d) Çomağın ucuna dikib gözünü,<br>Onlar saatlarla oturar belə.<br>Fikir bir gəmi ki, bilinmir yönü,<br>Çırpınır, çıxammır ancaq sahilə. |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | a) Çənə əl üstündə, əl çomaq üstə,<br>Qocalar əyləşir tin başlarında.<br>b) Yaşıdlar köç edib, cavanlar işdə,<br>Tək-tənha oturmaq son əlacları.<br>d) Çomağın ucuna dikib gözünü,<br>Onlar saatlarla oturar belə. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | a) Çənə əl üstündə, əl çomaq üstə,<br>Qocalar əyləşir tin başlarında.<br>a) Yumub gözlərini düşünür onlar,<br>Durur göz önündə ötən zamanlar.<br>a) Bir qalın kitabmış hər ömür, demə,<br>Oxumaq istəsən, yum gözlərini. |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | a) Onlar düşündükcə boşalar, dolar,<br>Fikrin nə sonu var, nə də əvvəli.<br>Doqqazlar başında bizim qocalar<br>Düşüncə heykəli, fikir heykəli!<br>c) Çomağın ucuna dikib gözünü,<br>Onlar saatlarla oturar belə. |
| **Müəllifin bunlara münasibəti** | | Əvvəllər deyərdim, onlar bu qədər<br>Bekarca oturub darıxmır məgər?<br>Kitab oxuyardım darıxmamaqçün<br>Onların yerinə olsaydım əgər.<br>Bir qalın kitabmış hər ömür, demə,<br>Oxumaq istəsən, yum gözlərini.<br>Bekar deyilmişlər...<br>Ürəklərində<br>Onlar oxuyurmuş öz-özlərini. |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **M.Dilbazi. "Müəllimim"** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | a) O, bir arzu idi, xoş bir əməldi.<br>d) Necə də böyükdü köksündə ürək<br>d) Onun bir sözüylə açar çiçəklər,<br>Nura qərq olardı elə bil aləm!<br>ə) Ancaq saçlarımın üstündə yenə,<br>Sanki o əllərin hərarəti var.<br>ə) Elə bil çıxardıq təzə bir yaza<br>Soyuq, cansıxıcı qış otağından. |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | a) O elə şəfqətli, elə gözəldi,<br>a) O bizim şəfqətlə sığallayanda<br>Hərdən başımızı bir ana kimi<br>a,b) Necə məlahətli qəşəngdi səsi |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | c) Sözü inci kimi düzdün dilimə,<br>Öyrətdin, düşünüb cümlə qurmağı,<br>Qələmi bir dayaq edib əlimə<br>Çox usta çıxardın uca bir dağı |
| **Müəllifin bunlara münasibəti** | | Ah, ey uşaqlığın gözəl günləri,<br>Əziz müəlliməm, hardasınız siz?<br>O məktəb illərim dönsəydi geri,<br>Önündə hörmətlə indi çöküb diz –<br><br>Deyərdim: – Bu şeirim, sənətim üçün<br>Həmişə, həmişə borcluyam sənə.<br>Şərəflə keçirib ömrünü bütün,<br>Nəsillər böyütdün doğma vətənə.<br><br>Sən uşaq könlümün eşqi, ilqarı,<br>Andıydın, ustadım, dostum, yoldaşım!<br>Bununçün bu adı daşıyanların<br>Önündə hörmətlə əyilir başım. |

## Çingiz Aytmatov. “Dəniz kənarıyla qaçan Alabaş”
### *(İnsanın təsviri)*

**Təlim məqsədi**

1. Ç.Aytmatovun “Dəniz kənarıyla qaçan Alabaş” əsərində tanış olmayan sözlərin mənasını lüğətdən aydınlaşdırır (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii təsvir vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 4. Əsərin ideyasına əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 5. Fikir mübadiləsi zamanı obrazı söz və ifadələrdən istifadə etməklə çatdırır (2.1.2.).

Dərsliyin 36-cı səhifəsində verilən dərsə girişə yaradıcı yanaşmaqla müəllim şagirdlərin məsələ baxımından əldə etdikləri bilik və bacarıqları xatırladır. Həmin bacarıqların kompleks şəkildə inkişafına nail olmaq üçün “Dəniz kənarıyla qaçan Alabaş” əsərinin uğurlu bir bədii nümunə olduğunu göstərir. Bu əsərdən bir parça üzrə iş aparacaqlarını şagirdlərin diqqətinə çatdırır. Şagirdlər oxuya hazırlıq fəaliyyətinə istiqamətləndirilir. Oxu zamanı yardımçı suallar üzrə şagirdlərin dinlənilməsi təmin edilir. Bu suallar interaktiv təlimin mərhələləri nəzərə alınmaqla tərtib edilir, ona görə də düşünən oxucunun formalaşması baxımından əhəmiyyətlidir.

**ÇİNGİZ AYTMATOV. “DƏNİZ KƏNARIYLA QAÇAN ALABAŞ”**
**(BƏDİİ ƏSƏRLƏRDƏ İNSANIN TƏSVİRİ. XARİCİ GÖRKƏMİ)**



*Nə öyrənəcəksiniz?*
- İnsanı fiziki göstəriciləri baxımından təsvir etməyin yollarını.

Siz artıq öyrəndiniz ki, bədii əsərlərdə məkanların təsviri ilə yanaşı, insanların da təsvirinə yer verilir. Siz indi insanı ictimai varlıq kimi təsvir etməyi də bacarırsınız. İnsanın təsvirində digər mühüm amillər də vardır ki, bu məsələləri siz bu dərsdə öyrənəcəksiniz.

*Cədvəl 10*

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | |
|---|---|
| **Xarici görkəmi** | Təsvir edilən insanın xarici görünüşündən danışılır. Yəni onun boyu, çəkisi, dərisinin, saçlarının, gözlərinin rəngi, saç düzümü və bədən üzvlərinin xüsusi diqqət cəlb edən digər xüsusiyyətlərindən söz açılır. Danışarkən istifadə etdiyi jest və mimikalar, onun duruşu, yerişi, digər hərəkətləri təsvir edilir. Bütün bunlar təsvir edilən insan haqqında ətraflı fikir yaradır. Yazıçı həm də bu insanı görəndə nə hiss etdiyini təsvir edir. İnsanın görünüşü təsvir edilərkən başdan ayağa doğru ardıcıllığına üstünlük verilir.  |
| **Səsi** | İnsanın necə danışdığı, səsinin başqa səslərə bənzəməsi və müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, zarıyarkən, qışqırarkən və s.) necə eşidildiyi haqqında danışılır. Həmin insanın səsini eşidəndə ətrafdakılara necə təsir bağışladığı da təsvir edilir. |

36

Sinif 4 qrupa ayrılır:
**I qrup.** Qoca Orqan ictimai varlıq kimi
**II qrup.** Oğlan ictimai varlıq kimi
**III qrup.** Qoca Orqanın xarici görkəmi
**IV qrup.** Oğlanın xarici görkəmi

**!**

**Qeyd:** Şagirdlərin qrup fəaliyyəti müddəti müəllim üçün istirahət vaxtı deyil. Bu müddət ərzində müşahidəyə əsaslanaraq bir çox bacarıqlar baxımından formativ qiymətləndirmə aparılır, inkişafa təkan vermək üçün müvafiq sual və replikalar verilir.

Cədvəllərin işlənmiş variantı növbəti səhifəyə daxil edilib. Şagirdlərin nəticələrini yoxlamaq üçün həmin cədvəllərdən yararlana bilərsiniz.

Cədvəl 11 şagirdlərin diqqətinə çatdırılır. Onlar dərslikdə səh. 41-i açır. Müəllimin kserosurət çıxarma imkanı varsa, cədvəl artırılıb qruplara verilir. Belə bir imkan yoxdursa, şagirdlər adi vərəqdə bu cədvəlin şəklini çəkir, parametrləri köçürmədən "a", "b", "c", "d" və s. göstərməklə səciyyəvi cəhətlər daxil edirlər.

| | |
|---|---|
| **Təması** | İnsana toxunan zaman aşkar edilən keyfiyyətlər barədə danışılır. Təsvir edilən insanın dərisinin kobud, ya zərif olması, qarşı tərəfin təmasının sərt, yaxud yumşaq, kəskin və ehtiyatlı olması qeyd edilir. İnsanın güclü, ya zəif olduğu təsvir edilir. Bu məsələlər baxımından müəllifin təəssüratları da əks etdirilir. |
| **Qoxusu** | İnsandan peşə məşğuliyyətindən asılı olaraq təmasda olduğu əşyaların qoxusu gəlir (aşpazdan ədva, həkimdən dərman, dülgərdən taxta (yonqar və s.).<br>İnsanın təsviri zamanı bu məqamların nəzakətlə qeyd edilməsi oxucunun təsəvvürünü daha da genişləndirir və dəqiqləşdirir. |

***Tapşırıq 1.***

1. Əvvəlcə oxuya hazırlıq işləri aparın (cədvəl 1, səh. 14).
2. Oxu zamanı mətnin kənarlarında verilmiş yardımçı suallar üzərində düşünün. Bu suallar sizin fəal düşünən oxucu olmağınıza kömək edər.
3. Əsərdəki başlıca obrazların səciyyəvi cəhətlərini həm xarici görkəmi baxımından, həm də ictimai varlıq olaraq müəyyənləşdirin və 11—12-ci cədvəllər üzrə iş aparın (səh. 41, 42).

37

Ç.Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş" əsərindən parça üzrə şagirdlərin qruplarda apardıqları araşdırmaların nəticələrini alıb sabit qrupların portfoliolarında saxlayın. "Ağıllı uşaq" nağılının tədrisi zamanı bu araşdırmalar sizə gərək olacaq. Vərəqlərində qrup üzvlərinin adları qeyd edilsin. Çünki nəzərdə tutulan dərsdə şagirdlər öz işlərini keçmiş işləri ilə qarşılaşdıracaqlar. Qrup tərkibi eyni olsa, daha yaxşı olar.

**Ev tapşırığı.** Summativ qiymətləndirmədən sonra sinifdənxaric oxu dərsi olacağı bildirilir. Bu məqsədlə kitabxanadan insanın ya xarici görkəminin, ya ictimai fəaliyyətinin, ya da hər ikisinin təsvirinə yer verilmiş bədii nümunələr seçib növbəti dərsdə sinfə gətirin.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Bədii təsvir vasitələrinin rolunun şərhi | | | | | |
| 4. | İdeyaya münasibət bildirmə | | | | | |
| 5. | Fikir mübadiləsi | | | | | |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | c) günəş şüasını əks etdirən sulara baxmaq üçün gözünü qıymaq | b) tələş keçirirdi<br>b) zəhmli ağsaqqalın acığını tutdurmamaq üçün özünü güclə saxlayırdı<br>b) həyəcandan burun pərələri körük kimi qalxıb-yatır, üzünə xəfif çillər çıxırdı<br>a) yerindən qalxmaq, avar çəkənləri tələsdirmək, dəniz heyvanlarını ovlayacaqları adalara tez çatmaq üçün kürəklərdən yapışmaq<br>d) qəlbini coşduran sevinc və qürur |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | c) gülümsəmək istədi, lakin xəfif təbəssümü gizlətdi<br>c) zəhmli ağsaqqal | a) altdan-altdan böyüklərə baxır<br>a) cüllüt kimi başını o tərəf-bu tərəfə çevirirdi<br>d) səbirsizlikdən yerində qurcalanırdı |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | a) çubuğunu ağır-ağır sümürmək | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | a) qayığın sükanını idarə edir<br>c) qayığın hərəkətlərinə kor-koranə istiqamət vermək | b) ovçuluq peşəsinə alışırdı<br>a) peşəkar ovçularla ova gedir<br>b) dəniz ovçusu həyatına başlamalı idi |
| **Müəllifin bunlara münasibəti** | | | Ağıl – göydən,<br>səriştə – uşaqlıqdan.<br>Çörək gətirməyən oğul nəslə yükdür. |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | c) qəhvəyi sifətli<br>e) arıq,iri hülqumlu<br>c) saç-saqqalı çallaşmışdı, ağarmışdı<br>c) çal qaşları<br>c) yaşaran, qan sağılmış gözlər<br>f) gözlərini adəti üzrə qıymaq<br>e) baxışları hərarət saçırdı | i) 11–12 yaşlarında<br>c) qaragözlü<br>h) kayakın lap burnunda oturmuşdu<br>c) sağlam, qarabuğdayı yanaqları qıpqırmızı olmuşdu<br>c) vəcdə gəlmiş, fərəhnak, saf uşaq gözləri |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | d) iri, kələ-kötür əlləri<br>a) boynunu dərin qat-qırış basmış<br>c) əlləri çat-çat olmuş | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

## KSQ
## Abdulla Şaiq. "Köç" hekayəsi
### *(Ayrım qızı)*

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Ayrım qızı** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | a) çalışqan, namuslu<br>a) Kərim babaya acı dərs vermək qəsdi ilə yumrubaşlı, iri çomağı götürüb özünü naxıra yetirmişdi. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | c) gündüzləri bir yandan bizim evdə çalışıb-çapalayar, bir yandan da öz evinin işlərini görərdi.<br>c) meşədən şələ-şələ odun daşıyar, sac asar, xörək bişirər, özgələrinin inəklərini, qoyunlarını sağar, nehrə çalxalayar. |
| **Müəllifin bunlara münasibəti** | | |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Ayrım qızı** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | a) qısaboylu<br>b) kök bir qadın idi<br>c) kiçik qumral gözləri<br>e) ay kimi yuvarlaq üzü var idi<br>e) kişilərə məxsus bir heybət vardı |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | b) Gurlayan səsini hər kəs eşitsə idi, onun bir kişi olduğuna inanardı.<br>c) Əlində çomaq o inəyin, bu öküzün arxasınca bağıra-bağıra qalırdı. |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | |
| **Müəllifin bunlara münasibəti** | | |

## Abdulla Şaiq. "Köç" hekayəsi
*(Kərim baba)*

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Kərim baba** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və ya soyuq münasibət | d) Kərim babanın inəkləri özbaşına buraxması sahiblərinin xoşuna gəlməzdi; lakin o bunlara heç əhəmiyyət verməyib nəşəsini pozmaz. |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | a) İnəkləri cüzi ayıqlıqla güdərdi. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | a) Oğul-uşaq zoğal, fındıq, moruq dərməyə gedərkən Kərim baba da sıradan qalmazdı.<br>a) Fikri-zikri daima ovda və şikarda idi.<br>c) Tütək çalardı.<br>a) Sümsü qayırardı.<br>c) Bayatı şikəstəsi də ağzından düşməzdi. |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | c) Tüfəngini hər zaman özü ilə gəzdirər və bir an yanından ayırmazdı.<br>c) Tüfəngini hər gün silər, təmizlər və arabir dərənin içinə enərək, bir yeri nişan alardı.<br>c) Hər gün inəkləri bir yamaca yayıb obaya qayıdardı. |
| **Müəllifin bunlara münasibəti** | | |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Kərim baba** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | i) altmış yaşlarında<br>a) qısaboylu<br>e) köksü və kürəkləri enli bir qoca idi<br>c) gözünün yanları iri cizgilərlə örtülmüş və kiçilmişdisə də, yenə parlaq idi.<br>e) Söz söylədiyi zaman daima kiçik gözləri, qalın və iri dodaqları gülərdi.<br>i) yaşlı<br>e) üzü ətli<br>c) yanaqları qıpqırmızı<br>e) canı sapsağlam idi<br>h) igid və qoçaq |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | |
| **Müəllifin bunlara münasibəti** | | |

## Əliağa Kürçaylı. “Vətən”
### *(Bədii əsərlərin ideyasının müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. Ə.Kürçaylının “Vətən” şeirində lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii təsvir vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən öyrəndiyi yeni sözlərdən, obrazlı söz və ifadələrdən istifadə edir (2.1.1., 2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Bu günlərdə bütün xalqımız möhtəşəm bir tarixi günü qeyd etdi. – Kim deyər, o hansı tarixi gündür? – Müstəqillik günü haqqında kim əlavə məlumat verə bilər? Bu gün hansı tarixi hadisə ilə əlaqədardır? Şagirdlərin fikirləri dinlənilir. Cavab qənaətbəxş olmazsa, müəllim hazırladığı elektron materialı şagirdlərə təqdim edir və ya şifahi məlumat verir.

1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd – Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib. Sənədlə müstəqil Azərbaycan dövləti 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan edilib. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə səs verib. *(Əlaqələndirmə)*

**ƏLİAĞA KÜRÇAYLI. “VƏTƏN”**
**(BƏDİİ ƏSƏRLƏRİN İDEYASININ MÜƏYYƏN EDİLMƏSİ)**



*Nə öyrənəcəksiniz?*
- İdeyanın müəyyən edilməsi mexanizmlərindən istifadə etməklə əsərdə əsas fikri müəyyənləşdirəcəksiniz.

Təsviri xarakterli bədii əsərlərdə əsas ideya açıq-aşkar təqdim edilmir. Yazıçı əşya, məkan, insan, hadisə barədə fikirlərini təsvir vasitələrinin yardımı ilə ifadə edir. Bununla da haqqında danışılanlar barədə oxucusunun fikirlərini, təsəvvürlərini formalaşdırır.

Aşağıdakı suallar da sizi əsərin əsas ideyasını müəyyən etməyə istiqamətləndirə bilər:
- Bu əsərdə nədən bəhs edilir?
- Bu əsərdə əsas fikir nədən ibarətdir?

***Tapşırıq 1.***

1-ci cədvəl üzrə oxuya hazırlıq işləri aparın. “Oxu zamanı” təlimatına əməl edin, sualları cavablandırın (səh. 14, 15).

**VƏTƏN**

“Zümrüd meşələr”, “dilbər guşələr” ifadələrində müəllifin məqsədini izah edin.

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Vətənin belə məkanları haqqında nə bilirsiniz?

Mən səndən adicə həyat istədim,
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun **ənginliklərə**.

Tanış olmayan sözün mənasını lüğətdən tapın.

46

**İlkin biliklərin müəyyən edilməsi:** Müstəqil Azərbaycanımız haqqında nə oxumusunuz? Dəyərli qələm sahiblərimiz vətənimiz haqqında saysız-hesabsız əsərlər yazıblar. Siz ötən dərs ilində də Azərbaycana həsr edilmiş bədii nümunələrlə tanış oldunuz. Həmin əsərlərin ideyasını müəyyən etdiniz. Müəlliflərin öz oxucularına nə demək istədiklərini aydınlaşdırdınız. Azərbaycan haqqında daha nə öyrənmək istərdiniz? Cavablar yazılır ***(Öyrənmək istədikləri məsələlər qeyd edilir)***.

**Oxu məqsədinin müəyyən edilməsi:** Müstəqillik günü ərəfəsində müstəqil Azərbaycanımıza həsr edilmiş daha bir gözəl şeirlə tanış olacaq, onun ideyasını müəyyən edəcəyik.
Əsərin oxusu kollektiv formada keçirilir. Yardımçı suallar, yeni söz və ifadələr üzərində iş aparılır. Şagirdlər cütlərlə oxu üsuluna əsasən əsərin ideyasını müəyyən edirlər.

Siz Vətəndən nə istərdiniz? Vətənə nə vermək istəyirsiniz?

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsil yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət.
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Burada hansı misralar ideyanı qüvvətləndirir?

Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət, vüqar.
Mən də başıaçıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə, buna görə əzəmətlisən —
Nəyin var vermisən əsirgəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən!

***Əliağa Kürçaylı***



47

**Cütlərlə oxu:** Şagirdlərdən biri bənd-bənd şeiri oxuyur, o biri şagird müzakirə etmədən bəndlərə başlıq verir. Sonra cütlüyün digər tərəfi şeiri oxuyur, birinci tərəf bəndlərə başlıq verir. Hər kəs öz qeydlərini ümumiləşdirib, əsərin mövzusunu da nəzərə almaqla əsas ideyanı müəyyən edir. Cütlər fərqli fikirləri müzakirə edib vahid fikrə gəlir və son versiyanı tərtib edirlər. Hazır versiyaları böyük qrupda müzakirə etmək üçün 3 cütlük bir qrupda birləşir. Qiymətləndirmə meyarları bir daha şagirdlərə xatırladılır və 4, 5-ci meyarlar xüsusilə diqqətə çatdırılır. Təqdimat zamanı öyrəndikləri yeni söz və ifadələrin, bədii ifadə vasitələrindən istifadənin zəruriliyi qeyd edilir. Nəticədə vahid qrup variantı hazırlanır.

Təqdimatlar dinlənilir, ümumiləşdirilir, nəticə çıxarılır.

**Sənə borcluyam**
- **Yurdum, yuvam**
- **Zirvələrə səsləyənim**
- **Çiçəklənən könlüm**
- **Xoşbəxtlik bəxş edənim**
- **Əzəmətin səxavətindəndir**

= **Səxavəti bol Vətənim**

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 5. | Nitqdə yeni sözlərdən istifadə | | | | | |
| 6. | Əməkdaşlıq | | | | | |

## Sinifdənxaric oxu
## Mustafa Çəmənli. "Qurban bayramı"

**Təlim məqsədi**

1. Dərsdənkənar vaxtda oxuduğu əsərin xəritəsini tərtib edir (1.1.2., 1.1.3., 1.2.4., 3.1.2.). 2. Yoldaşlarına oxuduğu əsər haqqında qısa məlumat verir (3.1.2.). 3. Dərslikdə təqdim edilən əsəri oxuyur (1.1.2.). 4. Əsərin ideyasına münasibətini bildirir (1.2.4.). 5. Əsərdə bədii təsvir və bədii ifadə vasitələrini müəyyənləşdirir (1.2.3.).

Müəllim bir dərs əvvəl qabaqlayıcı tapşırıq da verə bilər. Şagirdlər məktəb kitabxanasından, internetdəki elektron kitabxanalardan mövzu ilə bağlı bədii nümunələr əldə edirlər.

Dini bayramlar təqvim etibarilə ildən-ilə dəyişildiyinə görə onların ardıcıllıq baxımından yerini müəyyən etmək çətinliklər yaradır. Bu səbəbdən dini bayramlarla bağlı mətnin oxusu sinifdənxaric oxu materiallarının sırasına daxil edilib. Bu il Qurban bayramına qədər şagirdlər əsərin ideyasının müəyyən edilməsi, bədii təsvir və bədii ifadə vasitələrinin müəyyənləşdirilməsi, əsərin quruluşu kimi məsələləri artıq öyrənmişlər. Müəllim də əsərin oxusunu tapşıranda həmin məsələləri nəzərə alır. Beləliklə, hər il dini bayramların tarixlərindəki bu yerdəyişmə dərslikdəki mövzu ilə əlaqələndirilərək tədris edilir.

**QURBAN BAYRAMI**

*(Hekayə)*

Mən babamın yeganə nəvəsi idim. Atam Qarabağ savaşında şəhid olmuşdu. Babam bu qanlı savaşda oğlunu itirib, məni tapmışdı. Atam şəhid olanda mən iki yaşındaymışam. Mən atamın yoxluğunu beş yaşımda olanda başa düşdüm. Babam hərdən mənim əlimdən tutub kəndimizin məscidinə aparardı. O, orada taytuşları ilə söhbətləşəndən sonra məscidin minarəsinə çıxardıq. Babam əlimdən bərk-bərk yapışardı ki, minarənin dolama pillələrindən yıxılmayım. Minarənin başına çatanda babam xeyli tövşüyərdi. Mənim də alnıma tər gələrdi. Babam dəsmalını çıxarıb alnımdakı təri silərdi.

– Bura Allahın evidi, – deyərdi, – müqəddəsdi, böyüyəndə tez-tez gəlib ibadət edərsən.

– Niyə, baba?

– Çünki Allah ona sədaqətli olan insanları çox sevir, – deyə babam köks ötürərdi. Sonra babam səssizcə dayanıb gözləri yaşa-

206

Daha çox son günlərdə öyrənilən oxu bacarıqları ilə əlaqədar məsələlər ətrafında şagirdləri düşündürmək, müzakirələr açmaq məsləhətdir. Sinifdənxaric oxu dərslərini əsərin nağıl edilməsinə sərf etməyin. Şagirdlərə tapşırıq verin ki, onlar təqdim edilən şablonlar üzrə əsər haqqında xülasə hazırlasınlar və sinfə məlumat versinlər.

**Əsərdə hadisələr** ______________________(məkanda)
______________________(zamanda) **baş verir.**

**Əsərdəki əsas o** ______________________

**Hadisələr ondan başlanır ki,** ______________________

**Əsərdə əsas ziddiyyət** ______________________

**Əhvalat belə oldu ki,** ______________________

**Sonra** ______________________

**Daha sonra** ______________________

**Sonda** ______________________

**Ziddiyyət belə həll olur ki,** ______________________

keçmişdə İbrahim peyğəmbərə Allahdan bir qoç gəlib ki, onu kəsib yoxsullara paylasın. O, qoçu kəsib kasıblara, qonşulara paylayır. Bax o zamandan müsəlmanlar hər il Qurban bayramı keçirir, qoç kəsib qohuma-qonşuya paylayırlar. Mən bir də sənə orta məktəbi bitirib, ali məktəbə qəbul olunanda qurban kəsəcəm.

Babam sözlərini bitirib Qaşqanı başıma hərlədi, ovcundakı duzu ona yaladıb kəsmək üçün yerə yıxanda evimizin arxasına qaçdım. Hiss etdim ki, mənim bu hərəkətimə gülüşdülər. Amma mən çox sevdiyim Qaşqanın başının kəsilməsinə tamaşa edə bilməzdim.

Bir azdan məni çağırdılar, babam barmağını qana batırıb alnıma xal qoydu. O, içində yeddi pay ət olan məcməyini mənə verdi ki, yeddi qapıya gedib qonşulara paylayım. Mən məcməyini götürüb getdim. Hər kəs məndən payı alanda alqış edib deyirdi:

— Eldəniz, qurbanın qoyun olsun, Allah səni qorusun!

O gün mən qonşularımızın məhəbbətini qazanmışdım. Babam mənə Allaha sədaqətli, insanlara qarşı mərhəmətli olmağın yolunu göstərmişdi.

***Mustafa Çəmənli***

*Müəlliflə tanışlıq*



***Mustafa Çəmənli***

*Mustafa Çəmənli yaradıcılığının yetkinləşən çağında özünəməxsus yol seçdi: o, mədəniyyətimizin görkəmli simalarından bəhs edən onlarla kitab yazdı. Musiqi sənətimizin korifeylərinin həyat yolu onun qələmindən çıxan kitablarda əbədiyyət qazandı. Sonralar bu yaradıcılıq yolu müxtəlif istiqamətlərə haçalandı. Xalqımızın igid oğullarından, onların qəhrəmanlıq dolu həyatından bəhs edən kitabları işıq üzü görəndə o özünü sənədli povest yazıçısı kimi də təsdiq etdi.*

*Mustafa Çəmənli həmişə həqiqətə can atır. Bu onun yaradıcılığında müstəsna yer tutan tarixi romanlarında da öz əksini tapır. Təsadüfi deyil ki, Mustafa Çəmənli "Ölüm mələyi" tarixi romanına görə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatına layiq görülmüşdür.*

209

**Hörmətli müəllimlər!**
Şagirdlərin hamısının məktəb kitabxanasının üzvü olmasına nəzarət edin. Sinifdənxaric oxu dərslərində onlara kitabxanada işləməyi tapşırın. Ümumiyyətlə, bu dərslərin kitabxanada keçilməsi daha məqsədəuyğundur. Lakin belə hallarda müəllim əvvəlcədən mövzu ilə bağlı kitabxanada hansı ədəbiyyatın olduğunu özü araşdırmalıdır ki, dərsin vaxtı yalnız əsər axtarmağa sərf edilməsin.

**Tapşırıq**
1. Kitabxanadan və ya İnternet səhifələrindən Qurban bayramı mövzusunda bədii nümunə əldə edin.
2. Əsər haqqında məlumat vermək üçün onun xəritəsini hazırlayın. *(Ötən dərs ilində siz bunu öyrənmisiniz. Sxem dərsliyin sonuna əlavə edilmişdir.)*
3. Əsərdə yazıçının öz oxucusuna nə demək istədiyini də göstərin və buna münasibət bildirin.
4. Fikrin obrazlı ifadəsi üçün istifadə olunan bədii ifadə və təsvir vasitələrinə bir neçə nümunə göstərin.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Ən maraqlı əsər seçimi | | | | | |
| 2. | Əsər haqqında məlumatın çatdırılması | | | | | |
| 3. | Fikrin ifadəsi | | | | | |
| 4. | Əsərin ideya və dil xüsusiyyətlərinə münasibət | | | | | |

## Məmməd Araz. “Azərbaycan – dünyam mənim”
## *(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)*

**Təlim məqsədi**

1. Tanış olmayan sözlərin mənasını aydınlaşdırır (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii təsvir vasitələrini müəyyənləşdirir (1.1.5.). 4. Şeirdə bədii ifadə vasitələrinin rolunu aydınlaşdırır (1.2.3.). 5. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 6. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 7. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 8. Ümumi rəyə gəlir (2.2.1).

Biz Vətən mövzusunda bir çox maraqlı bədii nümunələrlə tanış olmuşuq. Azərbaycançılıq ideyalarının yorulmaz carçısı olan Məmməd Arazın vətən mövzusunda yazdığı daha bir şeiri də bu gün araşdıracağıq. Əvvəlcə şeirə nəzər salın və müəyyənləşdirin: “Bu şeir təsviri, ya nəqletmə xarakterli bədii nümunədir?” Şagirdlərə 3–5 dəqiqə vaxt verilir. Cavablar dinlənilir. Nəyə görə belə qərara gəldikləri soruşulur. ***(Təsviri yazılarla bağlı ilkin biliklər müəyyən edilir.)*** Şagirdlər əsərdə bədii təsvir vasitələrinin, hisslərin və faktların təsvirinə geniş yer verildiyini, əsərin quruluşunu göstərməlidirlər. Çətinlik çəkdikləri təqdirdə, istiqamətləndirici kiçik suallarla onlara yardımçı olun. Məs.: təsviri yazının dili nəqli yazının dilindən nə ilə fərqlənir? və s.

**MƏMMƏD ARAZ. “AZƏRBAYCAN – DÜNYAM MƏNİM”**
**(BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİ)**



*Nə öyrənəcəksiniz?*
- Bədii ifadə vasitələri nədir?
- Bədii təsvir vasitələrini bədii ifadə vasitələrindən hansı xüsusiyyətlər fərqləndirir?

Siz artıq beşinci sinifdən təşbeh və epitet kimi bədii təsvir vasitələri ilə tanışsınız. Həmçinin hisslərin və faktların da təsviri imkanları ilə bağlı xeyli məlumatınız var. İndi isə həm öyrəndiyiniz məsələlərə dair bilik və bacarıqlarınızı inkişaf etdirəcək, həm də bədii nümunələrdə bədii ifadə vasitələri və onların rolunu araşdıracaqsınız.

***Tapşırıq 1.***

“Oxudan əvvəl” və “Oxu zamanı” təlimatına əməl etməklə əsəri oxuyun (cədvəl 1, 2, səh. 14, 15).

**AZƏRBAYCAN – DÜNYAM MƏNİM**

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan dünyasından dünyaya baxsanız, nə görərsiniz?

Azərbaycan – mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
AZƏRBAYCAN deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Bu ifadələr reallığa nə dərəcədə uyğundur?

49

Gəlin əsəri oxuyaq və müəyyən edək: hansı bədii təsvir vasitələrinə, hisslərin və faktların təsvirinə yer verilmişdir? Əvvəlcə əsər kollektiv şəkildə oxunur. Şagirdlər yardımçı suallar üzərində düşünməyə sövq edilir. Tanış olmayan sözlərin mənası lüğətdən aydınlaşdırılır. Bundan sonra şagirdlər qruplara bölünür.

Qrup daxilində vəzifə bölgüsü aparmaq tövsiyə edilir. Qrupdaxili vəzifə bölgüsü apararkən şagirdlərdən 1–2 nəfər bədii təsvir vasitələrinə (təşbeh, epitet), 1–2 nəfər hisslərin təsvirinə, digər 1–2-si faktların təsvirinə dair nümunələri şeirdən tapır. Nəticələr bir araya gətirilməklə qrup təqdimatı hazırlanır.
Hər qrup öz tədqiqatının nəticələrini yoldaşlarına təqdim edir. Yoldaşlarının fikrini dinləyir və onlardan yararlılarından bəhrələnir. Sonda müəllim ümumiləşdirmə aparır.

Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin bəbəklərində
Qütb ulduzu, dan ulduzu gözəlləridir.

Bu bənddə hansı bədii ifadə vasitəsindən istifadə edilmişdir? Onların rolunu izah edin.

İllər olub kürələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od gölündə, buz gölündə gəmi olmuşuq,
Biz Bakının ilk səadət carçılarıyıq.

Bu bənddə şair "biz" sözünü kimə, yaxud nəyə bənzədir?

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı,
Dağılanda qoca Şərqin duman dünyası.

Bu misraların mənasını şərh edin.

Azərbaycan — mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
AZƏRBAYCAN deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər!

***Məmməd Araz***



50

Göründüyü kimi, əsərdə bir çox təsvir vasitələrinə yer verilmişdir. Lakin bu, təsviri xarakterli bədii əsərlərdə fikrin obrazlı ifadə edilməsini təmin edən yeganə vasitə deyil. Bunun üçün digər vasitələr də vardır ki, bunları sizinlə növbəti dərsdə araşdıracağıq. Bundan sonra "oxudan sonra" təlimatı üzrə iş təşkil edilir.

Əsərdəki bədii təsvir vasitələri, hisslərin və faktların təsviri ilə bağlı hazırlanmış cavablar metodik vəsaitin 100-cü səhifəsinə daxil edilib.

Bu dərsdə iki qiymətləndirmə formasından istifadə edilir:
• qrup qiymətləndirilməsi forması
• fərdi qiymətləndirmə forması

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İfadəli oxu | | | | | |
| 2. | Təsvir vasitələrinin müəyyən edilməsi | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 5. | Əməkdaşlıq | | | | | |

## Məmməd Araz. “Azərbaycan – dünyam mənim”
### (*Bədii əsərlərdə təsvir və ifadə vasitələri)*

**Təlim məqsədi**

1. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir (1.1.5.). 2. Şeirdə bədii ifadə vasitələrinin rolunu aydınlaşdırır (1.2.3.). 3. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.). 5. Müzakirələrdə ümumi rəyə gəlmək bacarığı nümayiş etdirir (2.2.1).

Ötən dərs Məmməd Arazın “Azərbaycan – dünyam mənim” şeirinin oxunması və təsvir vasitələrinin müəyyən edilməsi şagirdlərə bir daha xatırladılır. Bu dərsdə isə əsərdə bədii ifadə vasitələrinin müəyyən edilməsi üzrə işlər aparacağıq. Sinif cütlərə bölünür. Tapşırığın icrasını həyata keçirmək üçün nəzəri materiallardan bəhrələnmək tövsiyə edilir. Şagirdlərlə işin gedişinə ciddi nəzarət edilməlidir. Nəzəri məsələlərdə problemlərlə qarşılaşan şagirdlərə dəstək olmaqla təlimin səmərəliliyini təmin etmiş olarsınız.

Araşdırmaları aparan zaman işin düzgün təşkil edilməsini təmin etmək üçün cütlərin vəzifə bölgüsü aparması ilə bağlı tövsiyələr verin: *Cütlükdəki bir şagird mübaliğə və bədii suala dair nəzəri məlumatı yoldaşının eşidə biləcəyi tonda oxuyur, birlikdə düşünürlər. Hər ikisi məsələni anladıqlarına əmin olandan sonra şagirdlərdən digəri şeiri sakit tonda (yoldaşlarına mane olmamaq üçün) oxuyur, əsərdən mübaliğə və bədii sualı müəyyənləşdirib cədvələ daxil edirlər.*

***Bunu bilməlisiniz!***

***Bədii sual*** əsərin emosional təsirini artırmaq üçün fikrin sual tərzində ifadə olunmasına deyilir. Adi qrammatik sualdan fərqli olaraq, bədii sualda cavab alıb hansısa məlumatı dəqiqləşdirmək məqsədi güdülmür.

*Ey fəzalarda gülümsər əbədi şeri-xəyal,*
*O nə qüdrət? O nə həşmət? O nə ahəngi cəlal?!*

**Hüseyn Cavid**

***Mübaliğə*** sözünün lüğəvi mənası “şişirtmə” deməkdir. Təsvir edilən əşya və ya hadisənin mənası, gücü, ölçüsü şişirdilmiş şəkildə təqdim olunur. Bədii sual və mübaliğə bədii ifadə vasitələridir.

*Mən dizimə döyüb zar-zar ağladım,*
*Çöllər göz yaşımdan gölmə-gölmədi.*

**Bəxtiyar Vahabzadə**

***Tapşırıq 2.***

Əsərdəki mübaliğə və bədii sualları müəyyən edin. Həmin nümunələri verilən cədvəldə müvafiq sütunlara daxil edin.

| Mübaliğə | Bədii sual |
|---|---|
| | |

***Tapşırıq 3.***

“Oxu və yazı prosesi” bəhsindən “Qarşılaşdırma-müqayisəetmə” cədvəli (səh. 20) ilə artıq tanışsınız. Həmin cədvəldən istifadə etməklə bədii təsvir vasitələri ilə bədii ifadə vasitələrini qarşılaşdırın. Onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirin. Nəticələrinizi yoldaşlarınızın nəticələri ilə müqayisə edin.

***Bunu bilməlisiniz!***

**Bədii ifadə vasitələri** bədii əsərin tərkib hissəsidir. Daşıdığı vəzifəyə görə məcazlara oxşayır. Bütöv cümlə və ya misra şəklində ola bilər. Bədii ifadə vasitələrində sözün məcazi mənada işlənməsi zəruri deyil. Onlardan istifadə etməklə yazıçı fikrin təsir gücünü artırır.

51

Araşdırmalar başa çatandan sonra cütlərin təqdimatları dinlənilir. Belə təqdimatlar bir qədər artıq vaxt aparır. Amma daha çox şagirdin fəal fikir yürütmə imkanı yaranır.

Dərsin növbəti mərhələsində müəllim şagirdləri qruplaşdıraraq mübaliğə, yaxud bədii suallarla təşbeh və epitetin oxşar, həmçinin fərqli cəhətləri üzərində düşünməyə cəlb edir. Bunun üçün onlara qarşılaşdırma-müqayisəetmə cədvəlindən istifadə etməyi tövsiyə edir.

QARŞILAŞDIRMA – MÜQAYİSƏETMƏ

Oxşar

Fərqli

***Tapşırıq 5.***

1. “Oxudan sonra” təlimatı üzrə iş aparın (cədvəl 3, səh. 17).
2. İdeya və məzmununu müəyyənləşdirdikdən sonra şeiri yenidən ifadəli oxuyun.

***Tapşırıq 6.***

Şeiri oxuyarkən təsəvvürünüzdə canlandırdığınız Azərbaycan mənzərəsi ilə bağlı kiçik bir rəsm çəkin və ya aplikasiya hazırlayın.

***Müəlliflə tanışlıq***



***Məmməd Araz***

*Sənətkarın tərcümeyi-halı, taleyi və həyatı daha çox onun yaradıcılığında öz əksini tapmışdır. Bunu Xalq şairi Məmməd Araz özü də etiraf edirdi. Kitablarından birinə yazdığı müqəddimədə deyilir: “Əsl tərcümeyi-hal şairin şeirləridir... Şair çox halda öz yazılarının baş qəhrəmanı ola bilir...”*

*Məni şeirimdə gəz, bir insan kimi,*
*Qəlbimdə nə varsa, ona demişəm.*
*Anadan-bacıdan gizlətdiyimi*
*Kağızdan, qələmdən gizlətməmişəm.*

*Məmməd Araz şeiri qaynar həyat seli, sehrli mənəvi dirilik çeşməsidir. Dünənimizdən ibrət dərsi almaq, bu günümüzün ab-havası ilə yaşamaq, sabahımızın mənzərəsini ayın-şayın görmək, amalımızı, məqsədimizi müəyyən etmək üçün Məmməd Araz poeziyası ən etibarlı və ağıllı bələdçidir.*

*Azərbaycanın Xalq şairi, Əməkdar incəsənət xadimi Məmməd İnfil oğlu İbrahimov – Məmməd Araz milli şeirimizin ağsaqqalı, şeir-sənət ustadı kimi tanınmış və sevilmişdir. Vətənpərvər şair öz əsərləri ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.*

53

Tapşırığın icrası başa çatandan sonra təqdimatlar dinlənilir və ümumiləşdirmələr aparılır. Şagirdlərdən gözlənilən cavablar metodik vəsaitin növbəti səhifəsinə daxil edilibdir. Müəllim tərəfimizdən təqdim edilən doğru cavabı şablon olaraq şagirdlərə göstərib onları özünüqiymətləndirməyə cəlb edə bilər.

Meyarlara əsaslanan qiymətləndirmə aparmaq üçün isə aşağıda holistik qiymətləndirmə sxemi təqdim edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Bədii ifadə vasitələrinin rolunun müəyyənləşdirilməsi | | | | | |
| 2. | Nitqin ifadəliliyi | | | | | |
| 3. | Müzakirələrdə fəallıq | | | | | |
| 4. | Ümumi rəyə gəlmə | | | | | |

**Məmməd Araz. "Azərbaycan – dünyam mənim"**
***(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)***

| Bənd, misra | Nümunə | Təsvir vasitəsinin növü |
|---|---|---|
| 1-ci, I misra | Azərbaycan – qayalarda bitən bir çiçək | təşbeh |
| 1-ci, II misra | Azərbaycan – çiçəklərin içində qaya | təşbeh |
| 2-ci, I misra | Azərbaycan – mayası nur, qayəsi nur ki | təşbeh |
| 2-ci, II misra | Hər daşından alov dilli ox ola bilər | epitet |
| 3-cü, I misra | Oğulları Kür gəzdirər biləklərində | mübaliğə |
| 3-cü, IV misra | Qütb ulduzu, dan ulduzu gözəlləridir | təşbeh |
| 4-cü, I misra | İllər olub kürələrdə dəmir olmuşuq | təşbeh |
| 4-cü, II misra | Sərhədlərdə dayanmışıq küləkdən ayıq | təşbeh |
| 4-cü, III misra | Od gölündə, buz gölündə gəmi olmuşuq | I epitet, II təşbeh |
| 5-ci, IV misra | Dağılanda qoca Şərqin duman dünyası | epitet |
| ***Təsvir edilən hiss (görmə, eşitmə, qoxu, dad, toxunma)*** | | |
| 1-ci, IV misra | Azərbaycan dünyasından baxar dünyaya | görmə |
| ***Faktların (şəxs, zaman, məkan) təsviri*** | | |
| 2-ci, III misra | Azərbaycan deyiləndə ayağa dur ki | məkan |
| 2-ci, IV misra | Füzulinin ürəyinə toxuna bilər | ad |
| 4-cü, IV misra | Biz Bakının ilk səadət carçılarıyıq | ad |
| 5-ci, I misra | Min illərlə zülmətlərə yollar açıqdı | say |
| 5-ci, II misra | Dalğalandı Sabirlərin ümman dünyası | ad |
| 5-ci, III misra | Azərbaycan qatarı da yollara çıxdı | məkan |

**Bədii təsvir vasitələri ilə bədii ifadə vasitələrini qarşılaşdırıb müqayisə edərkən şagirdlər sizə təqribən bu cavabı gətirəcəklər**

**Bədii ifadə vasitələri** də bədii əsərin əsas tərkib hissəsi kimi onun emosionallığını, təsir gücünü artırır. Bədii ifadə vasitələri daşıdığı vəzifəyə görə bədii təsvir vasitələrinə (məcazlara) oxşayır. Lakin bədii ifadə vasitələri özünəməxsus xüsusiyyətləri ilə məcazlardan fərqlənir. Birincisi, məcazlar daha çox ayrı-ayrı söz və ya ifadələrdən ibarət olur. Bədii ifadə vasitələri isə bütöv cümlə və ya misra ilə bağlı olur. Bu xüsusiyyətlərinə görə bədii ifadə vasitələrinə poetik sintaksis, sintaktik fiqurlar da deyilir. İkincisi, məcazlarda söz yalnız məcazi mənada işlənir. Bədii ifadə vasitələrində isə sözün məcazi mənada işlənməsi zəruri deyil. Qarşılaşdırma-müqayisəetmə cədvəli daxil edilir.

**Bədii təsvir və bədii ifadə vasitələrinin müqayisə və qarşılaşdırılması**

**Bədii təsvir və bədii ifadə vasitələrinin oxşar cəhətləri**
Bədii ifadə vasitələri də bədii təsvir vasitəsi kimi bədii əsərin əsas tərkib hissəsi olub onun emosionallığını, təsir gücünü artırır.

**Bədii təsvir vasitəsi**
Ayrı-ayrı söz və ya ifadələrdən ibarət olur;
Söz yalnız məcazi mənada işlədilir.

**Bədii ifadə vasitələri**
Bütöv cümlə və ya misra ilə bağlı olur. Buna görə onlara sintaktik fiqurlar da deyilir;
Sözün məcazi mənada verilməsi zəruri deyil.

## Hikmət Ziya. “Qarabağda”
### *(Bədii əsərlərdə təsvir vasitələrinin əlaqələndirilməsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir (1.1.5.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Şagirdlərə xatırladılır ki, onlar əvvəlki dərslərdə təsvir vasitələri və bədii ifadə vasitələrini araşdırıblar. Bundan sonra cari dərsdə araşdıracaqları H.Ziyanın “Qarabağda” şeirindən bir bənd təqdim edilir:

**A**

Dağlarının başında **Şuşa zümrüd tacıdır**,
**Bərdə, Ağdam, Füzuli** daim **qardaş-bacıdır**.
Qəlbim bu xoş yerlərin həmişə möhtacıdır,
Hər daşını görənlər dirçələr Qarabağda,
**Min ilin yorğunu da dincələr Qarabağda.**

Gəlin bu bənddəki bədii ifadə və təsvir vasitələrini müəyyən edək. Şagirdlərin fikirləri dinlənilir və lövhədə qeyd edilir *(mövcud vəziyyət öyrənilir, həmçinin əvvəlki dərsdə öyrəndikləri ilə əlaqələndirilir)*. Şagirdlər şeirin bəndində tünd rənglə verilmiş ifadələri səsləndirməzlərsə, müəllim onların diqqətini həmin ifadələrə yönəldir. Həmin ifadələr üzərində iş davam etdirilir: – Sizcə, **“Şuşa zümrüd tacıdır”** hansı təsvir vasitəsinə aiddir? Şagirdlərdən bəziləri onun fakt, bəziləri isə epitet olduğunu bildirə bilər. Müzakirələrlə müəllim şagirdləri bu nümunədə həm faktın, həm də epitetin olduğunu anlamağa istiqamətləndirir.

**HİKMƏT ZİYA. “QARABAĞDA”**
**(BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VASİTƏLƏRİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ)**

**B**




Məktəbli dost! Bədii nümunələrdə əşya və hadisələr təsvir edilərkən ayrı-ayrı məqamların təsviri yolları ilə tanış oldunuz.

Öyrəndiniz ki, bədii təsvirin, hisslərin və faktların təsviri yazının əsas şərtlərindəndir. Bədii əsərlərdə hansı məqamın təsvir edildiyini müəyyən etmək istərkən bəzən suallar qarşısında qalırdınız. Görəsən, “Şiş qayalardan şırıltı ilə tökülən şəlalənin səsindən qulaq tutulurdu” cümləsində hansı məqam təsvir edilib? Düşündürücüdür. “Şiş” epitetdir, yəni bədii təsvirdir, “şırıltı ilə axan şəlalə” hissin təsviridir, eşitmə ilə bağlıdır. Bu cümləni hansı təsvirə aid etmək olar? Əlbəttə ki, hər ikisinə. Yəni təsvir edilən ayrı-ayrı məqamlar bir fikirdə əlaqələndirilib.

***Tapşırıq 1.***

1-ci cədvəldən istifadə etməklə oxuya hazırlıq işləri aparın (səh. 14). Əlaqələndirilmiş təsvir vasitələrini müəyyən etmək məqsədilə əsəri diqqətlə oxuyun. Belə nümunələri aşkar etdikcə 14-cü cədvələ uyğun qeydlər aparın.

*Cədvəl 14*

| | |
|---|---|
| Hiss və bədii təsvir | |
| Fakt və bədii təsvir | |
| Fakt və hissin təsviri | |
| Hiss, fakt və bədii təsvir | |

54

Müəllim bildirir ki, ayrı-ayrı bədii nümunələrdə belə əlaqələndirilmiş təsvir və ifadə vasitələrinə çox rast gəlmək olar. İstəyirsinizmi araşdıraq görək bu əsərdə daha hansı əlaqələndirilmiş təsvir vasitələri vardır? **(Öyrənmək istədikləri müəyyən edilir.)**

**B**

Araşdırmalara başlamazdan əvvəl müəllim şagirdləri mövzunun əvvəlində əlaqələndirilmiş təsvir vasitələrinə dair təqdim edilən sxemi müşahidə etməyə və məlumatı oxumağa dəvət edir (fərdi oxu). Sonra oxudan əvvəl və oxu zamanı fəaliyyətlərinə əməl etməklə əsərin kollektiv oxusu keçirilir.

Əsərin oxusu və tapşırığın icrası üçün şagirdlər cütlərə bölünür. Oxuya hazırlıq fəaliyyəti yerinə yetiriləndən sonra “Cütlərlə oxu” (üsulla bir daha tanış olun) üsulu ilə iş aparılır. Bu zaman dərsliyə daxil edilmiş cədvəldən istifadə edilir.

**Cütlərlə oxu.** Cütlükdə birinci tərəf əsəri oxuyur, ikinci tərəf verilən cədvəli dəftərinə çəkib həmin cədvəl üzrə qeydlərini aparır. Oxu bitdikdən sonra ikinci tərəf nəticələrini birinci tərəfə göstərmir. Bu dəfə ikinci tərəf əsəri oxuyur, birinci tərəf cədvəl üzrə işləyir. Oxu bitəndən sonra cütlükdəki tərəflər nəticələri qarşılaşdırır, müzakirə edir, ən gözəl variantları seçərək orta təqdimat hazırlayırlar. Gələnən nəticələr sinfə təqdim edilir.

**QARABAĞDA**

A

Qarabağ təbiətin sərvətidir, varıdır,
Azərbaycan yurdunun solmayan gülzarıdır.
Hüsnü yaşıl bağları, vüqarı dağlarıdır...
Başqa ətirlə açır qönçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

*Qarabağ haqqında nə bilirsiniz?*

*Qarabağ haqqında daha nə bilmək istərdiniz?*

Dağlarının başında Şuşa zümrüd tacıdır,
Bərdə, Ağdam, Füzuli daim qardaş-bacıdır.
Qəlbim bu xoş yerlərin həmişə möhtacıdır,
Hər daşını görənlər dirçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

*Bu yerlər haqqında televizorda, yaxud həyatda nə eşitmisiniz, oxumusunuz?*

Bu yerdə Vaqifimin müqəddəs türbəsi var,
Natəvanın, Zakirin pozulmayan izi var,
Üzeyirin nəfəsi, Bülbülümün səsi var...
Cabbar, Xan, Rəşid, Səid, Zülfü zəngulәsi var,
Yetişibdir gör necə incilər Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

*Sizcə, burada əlaqələndirilmiş təsvir vasitələri hansılardır?*



55

Təqdimatlar dinlənilir. Kollektiv müzakirə nəticəsində seçilmiş ən uğurlu variantlar lövhəyə çəkilmiş və ya İKT vasitəsilə lövhədə əks etdirilmiş cədvələ daxil edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Təsvir vasitələrinin müəyyənləşdirilməsi | | | | | |

| | |
|---|---|
| **Hiss və bədii təsvir** | Hüsnü yaşıl bağları, vüqarı dağlarıdır<br>Yenilməz abidəmdir yerdən göyə ucalan Şirin sözü, ləhcəsi ürəklərə yol eylər. |
| **Fakt və bədii təsvir** | Dağlarının başında Şuşa zümrüd tacıdır.<br>Bərdə, Ağdam, Füzuli daim qardaş-bacıdır.<br>Bülbültək ötür, hətta sərçələr Qarabağda<br>Saflıq çeşmələridir Turşsu, İsa bulağı. |
| **Fakt və hissin təsviri** | Başqa ətirlə açır qönçələr Qarabağda.<br>Bu yurdda Vaqifimin müqəddəs türbəsi var.<br>Natəvanın, Zakirin pozulmayan izi var.<br>Üzeyirin nəfəsi, Bülbülümün səsi var.<br>Cabbar, Xan, Rəşid, Səid, Zülfü zəngulәsi var. |
| **Hiss, fakt və bədii təsvir** | Bülbültək ötür, hətta sərçələr Qarabağda.<br>Bu yurdda Vaqifimin müqəddəs türbəsi var<br>Natəvanın, Zakirin pozulmayan izi var.<br>Üzeyirin nəfəsi, Bülbülümün səsi var.<br>Cabbar, Xan, Rəşid, Səid, Zülfü zəngulәsi var.<br>Yetişibdir gör necə incilər Qarabağda.<br>Saflıq çeşmələridir Turşsu, İsa bulağı. |

| | |
|---|---|
| **Bədii ifadə və təsvir vasitələri** | Dağlarının başında Şuşa zümrüd tacıdır.<br>Bülbültək ötür, hətta sərçələr Qarabağda |
| **Bədii ifadə vasitələri** | |
| **Mübaliğə** | Dünya gözəllərini qamətiylə lal eylər.<br>Beli üzükdən keçən incələr Qarabağda.<br>Havası qocanı da gənc edər Qarabağda.<br>Gözlərinə ağ gələr bu yerdən pay umanın.<br>Min ilin yorğunu da dincələr Qarabağda! |
| **Bədii sual** | |

## Aleksandr Düma. “Qafqaz səfəri: Bakı”
### *(Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii ifadə və təsvir vasitələrini müəyyənləşdirir, onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim: – Uşaqlar, artıq neçə ildir görkəmli qələm sahiblərimizin doğma Azərbaycanımıza həsr edilmiş bir-birindən gözəl əsərlərini oxuyur, müxtəlif məsələlər baxımından həmin əsərləri tədqiq edirik. Deyə bilərsinizmi bunlar hansı əsərlərdir? ***(Cavab alınır. Bu, motivasiya mərhələsinin ilkin biliklərin müəyyən edilməsi pilləsidir.)*** Bilmək istəyirsinizmi əsərlərin müəllifləri hansı yazıçı və şairlərdir? Onlar Azərbaycan haqqında necə əsərlər yazıblar? ***(Cavab alınır. Bu, motivasiya mərhələsinin öyrənmək istədiyini müəyyənləşdirmə pilləsidir.)*** Ana vətənimiz haqqında böyük şair və yazıçılarımız ölməz əsərlər yaradıblar. Amma Azərbaycan o qədər gözəl diyar, xalqı o qədər saf, qonaqpərvərdir ki, onun haqqında həm də dünya şöhrətli yazıçı və şairlər gözəl bədii nümunələr yaratmışlar. Bəlkə, sizlərdən kimsə belə əsərlərlə qarşılaşıb və ya oxuyub? ***(Cavab alınır. Motivasiya mərhələsinin əlaqələndirmə pilləsidir.)***

**ALEKSANDR DÜMA. “QAFQAZ SƏFƏRİ: BAKI”**
**(TƏSVİRİ XARAKTERLİ BƏDİİ ƏSƏRLƏRİN QURULUŞU: ƏSƏRİN HİSSƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ)**



*Nə öyrənəcəksiniz?*
- Təsviri mətnin hissələrinə verilən tələblər baxımından əsərin hissələrini müəyyən edəcəksiniz.

Məktəbli dost! Mətnin quruluşu haqqında məlumatlı olduqda oxunun təşkili xeyli asanlaşır. Məsələn, tutaq ki, siz təsviri xarakterli hər hansı bir bədii nümunə ilə tanış olursunuz. Belə əsərlərin ideyası kiçik fikirlər şəklində əsər boyu paylanır. Bu zaman siz bəndlərdə, abzaslarda ifadə olunmuş kiçik fikirləri aşkar edərək müvafiq qeydlər aparmaqla oxumalısınız. Oxunun sonunda isə həmin kiçik fikirləri ümumiləşdirərək başlıca fikri — əsərin ideyasını müəyyən edirsiniz. Oxunun əsas məqsədi də bundan ibarətdir. Məqsədə çatmaq və müəllifin nə demək istədiyini müəyyənləşdirmək üçün mətnin quruluşu ilə yaxından tanış olmaq lazımdır.

***Tapşırıq 1.***

1. “Oxunun təşkili” cədvəlindən istifadə etməklə “Oxudan əvvəl”, “Oxu zamanı” və “Oxudan sonra” təlimatlarına əməl edin və əsəri oxuyun. Dəftərinizdə müvafiq qeydlər aparın.

*Cədvəl 15*

| OXUNUN TƏŞKİLİ CƏDVƏLİ (DƏRK EDƏRƏK OXU) | | |
|---|---|---|
| **Təlimatlar** | | **Qeydlər** |
| **Oxudan əvvəl** | | |
| 1. | Fikrinizi bir yerə cəmləşdirin. Mətnin başlığını oxuyun. | |
| 2. | **Fikirləşin:** Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişini izləmişəm? Bu barədə nə bilirəm? | |

58

Bu gün biz birlikdə böyük fransız yazıçısı Aleksandr Dümanın “Qafqaz səfəri” əsərindən “Bakı” parçasını araşdıracaq, həmin mətnin quruluşunu müəyyən edəcəyik. ***(Bu, motivasiya mərhələsinin oxu məqsədinin müəyyən edilməsi pilləsidir.)***
Şagirdlər “Dərk edərək oxunun təşkili” cədvəlini yerinə yetirmək məqsədilə əsəri kiçik qruplarda oxuyurlar. Oxu zamanı şagirdər yardımçı suallar üzrə düşünməyə sövq edilirlər.

Şagirdlər qrupda fəaliyyət göstərərkən əvvəlcə onlara yaxınlaşın. Prosesi müşahidə edin:

- Kim liderdir?
- Vəzifə bölgüsü necə aparılır?
- Hamı fəaldırmı?
- Araşdırma düzgün istiqamətdə aparılırmı?
- Fikirlərini aydın ifadə edə bilirlərmi?
- Fərqli fikirlər necə qarşılanır?

Cədvəl üzrə iş başa çatandan sonra qrup təqdimatları dinlənilir. Bir məsələyə ayrı-ayrı qrupların fərqli fikirləri səslənərsə, həmin fikirlər müzakirə mövzusuna çevrilir. Şagirdlər tərəfindən ən uğurlu variant müəyyən edilir.

| | Təlimatlar | Qeydlər |
|---|---|---|
| 2. | Mətndə haqqında danışılan məsələdən nəticələr çıxardın. | |
| 3. | **Dəqiqləşdirin:** Müəllif bu əsərdə oxucusuna nə demək istəyirdi? | |
| 4. | O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi? Nəyə görə belə düşünürsünüz? | |
| 5. | Oxunu uğurla təşkil edə bildinizmi? Özünüzü qiymətləndirin (yüksək, yaxşı, orta, zəif). | |

**QAFQAZ SƏFƏRİ: BAKI**

*(İxtisarla)*

Sizcə, yazıçı iki əsr əvvəlki Bakını necə təsvir edə bilər?

Səhər açılar-açılmaz yuxudan oyanıb ətrafa nəzər saldıq. Nə azərbaycanlılar, nə də onların dəvələri vardı. Lələ köçüb, yurdu qalmışdı. Çöl də dəniz kimi bomboş idi. Gəmisiz dəniz nə dənizdir? Mən bundan ağır, bundan kədərli heç nə təsəvvürümə gətirə bilmirəm. Biz hələ durmamış atları hazırlamışdılar. Bircə onları faytonlara qoşub yola düşmək qalırdı.

Ətrafı bürümüş ağımtıl duman çox yaxşı hava olacağından xəbər verirdi. Dumanın arasından bərk qaçdıqlarından sanki ayaqları yerə toxunmayan dağkeçiləri görünürdü. O qədər ürkək, o qədər qorxaq idilər ki, bir az yaxınlaşıb bircəciyini də vura bilmədim. Dağların güneyi çəhrayı, quzeyi isə bənövşəyi rəngə çalırdı. Qəribə bir mənzərə ilə qarşılaşmışdıq. Bir yanda qızıl kimi parıldayan qum səhrası, o yandan mavi Xəzər!

Biz Bakıya qədər bu mavi dənizi — gəliş-gedişi az olan, unudulmuş, itirilmiş, insanlara az bəlli olan, ünvanına çox böhtanlar yağdırılan yazıq və məsum Xəzəri bir daha görməyəcəkdik.

Lüğətdən bu məkan haqqında məlumat əldə edin.

Əslində isə Abşeron yarımadasının elə bir nöqtəsinə çatmışdıq ki, Qızılburundan bura qədər yol Xəzər dənizinin sahili boyu uzanıb gəlirdi. Buradan yol gözlənilmədən sağa burulub çöllüyə sarı irəliləyir və sanki nizə şəkilli yarımadanı dənizdən asılı qoyurdu. Beş-altı kilometr hamar yoldan sonra enişlər, yoxuşlar gəlirdi. Hiss olunurdu ki, Qafqaz sıra dağlarının son aşırımlarını arxada qoyuruq. Bizim **Burqund yaylasına** bənzəyən

61

***Diqqət!*** Qrupların təqdimatları yığılıb saxlanılır. Gələcək dərslərdə bu təqdimatlar sizə məlumat mənbəyi kimi lazım olacaq.

Şagirdlərdən alınması gözlənilən cavabları əks etdirən "Oxu zamanı" cədvəli dərslikdə səh. 15-də təqdim edilmişdir. Həmin cədvəllə dərsdən əvvəl diqqətlə tanış olun ki, şagirdlərin gətirdikləri cavablara münasibət bildirərkən inamlı olasınız.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 4. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 5. | Təsvir vasitələrinin müəyyən edilməsi | | | | | |
| 6. | Müzakirə mədəniyyəti | | | | | |

## Aleksandr Düma. “Qafqaz səfəri: Bakı”
### *(Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. A.Dümanın “Qafqaz səfəri” əsərindən “Bakı” parçasını hissələrə ayırır, plan tərtib edir (1.1.3.). 2. Əsərdə bədii ifadə vasitələrini və təsvir vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Biz artıq A.Dümanın “Qafqaz səfəri” əsərindən “Bakı” parçasını oxuduq. “Dərk edərək oxunun təşkili” cədvəli üzrə iş apardıq. Ona görə bu fəaliyyəti yerinə yetirdik ki, əsərin quruluşu araşdırılandan sonra həmin cədvəli əsərin quruluşu ilə qarşılaşdıracağıq.

– Siz ötən dərs ilində Sabir Əhmədlinin “Şəhidlər xiyabanı” əsərinin quruluşunu müəyyən edərkən hansı məsələlərə əhəmiyyət vermişdiniz? *(Cavablar alınır. İlkin biliklərin müəyyən edilməsi)*

bu yerlərdə yolboyu kiçik kəndlər vardı. Evlərin bacalarından tüstü çıxır, biçənəkdə sürülər otlayırdı. Arpa-buğda cücərib qalxmışdı. Orda-burda boz dağların döşünə elə bil qeyri-bərabər biçimdə xalılar döşənmişdi.

Hər halda bu, mədəniyyət idi. Əkin-biçin, qorxusuz otlayan sürülər, evlər, sakitlik insanların dinc həyat sürdüyünə dəlalət edirdi.

Dərindən nəfəs aldım. Neçə vaxt idi ki, mədəniyyət barədə heç bir söz eşitməmişdim. Özümü rahat hiss etdim.

— Görəsən, yolun mənzərəli və təhlükəli hissəsi birdəfəlik arxadamı qaldı?

— Bəli, — deyə azərbaycanlı bələdçimiz cavab verdi.

Lakin Qafqaz dağlarının o biri ətəyində biz gözəl mənzərələr və təhlükə məfhumlarının ikili xarakter daşıdığını duyub razı qaldıq. Təhlükə, qorxu yolçunun qəribə bir yol yoldaşıdır. Əvvəlcə adam çəkinir, çalışır ki, qorxuyla üz-üzə gəlməsin. Sonra ona alışır və nəhayət, onun yaxında olmasını arzulayır. Bu elə bir təsiredici qüvvəyə malikdir ki, yaxında olanda insan hər şeyin qiymətini, dəyərini ikili duyur. Təhlükənin olmasına adam sevinir, o sovuşanda təəccüblənir. Hətta yolunu dəyişib təhlükəli, qorxulu yolla getmək istəyir.

Biz istəməzdik ki, onunla birdəfəlik vidalaşaq. Ona görə də “hələlik” deyirəm...

Yol elə bayaqdan gəldiyimiz kimi davam edirdi. Enişlər, yoxuşlar...

Burada hansı tarixi abidələr təsvir edilə bilər?

Birdən qarşımıza əvvəlkilərdən daha dik və çətin bir yoxuş çıxdı. Yoxuşda atların işini asanlaşdırmaq üçün yox, Bakını bizdən gizləyən bu axırıncı təpənin başına tez çatmaq üçün faytonlardan yerə tullandıq. Yoxuşun lap başına çatanda uzaqda Xəzər dənizini gördük. Bizimlə dəniz arasında bəzi yerləri çökəkliklərdə gizlənən Bakı şəhəri yerləşirdi. Lakin tezliklə Bakı bütün gözəlliyi ilə gözümüz önünə gəldi. Elə bil şəhərə göydən düşmüşdük. İlk baxışdan adama elə gəlirdi ki, Bakı iki hissədən ibarətdir: Ağ şəhər, Qara şəhər. Bakı Rusiyanın tərkibinə daxil olandan sonra şəhər ətrafında meydana gələn tikililər Ağ şəhəri təşkil edir. Qara şəhər isə şəhərin qədim hissəsidir. Bu şəhər də Dərbənd kimi divarlarla əhatə olunmuşdur. Dərbənd qalasının divarları qədər gözəl və mənzərəli olmasalar da, bu divarların özünəməxsus xüsusiyyətləri var. Aydın məsələdir ki, bu divarlar artilleriyadan deyil, soyuq silahdan müdafiə olunmaq üçün ucaldılmışdır.

62

– Bu barədə daha nələri öyrənmək istərdiniz? *(Cavab verilir. Öyrənmək istədiyi məsələləri şagird sadalayır)*. Sizcə, əsərin quruluşunu öyrənmək bizə nə üçün lazımdır? Bu bacarıqlar harada bizə yararlı ola bilər? *(Cavab verilir. Əlaqələndirmə)*

Müəllim keçən dərsdəki qrupların tərkibini dəyişmədən şagirdləri qruplaşdırır. Qrupların tərkibi ona görə dəyişdirilmir ki, bu dərslər ərzində şagirdlər hamısı birlikdə böyük bir tapşırığın ayrı-ayrı kiçik hissələrini yerinə yetirirlər. Hər növbəti dərsdə əvvəlki dərsdə aparılan işin məntiqi davamı üzrə iş aparılır.

Qruplara cədvəllər təqdim edilir. Şagirdlər tapşırığın icrasına cəlb edilirlər. Tapşırığın icrası prosesində şagirdlərin fəaliyyətinə müəllim tərəfindən nəzarət edilir ki, mətnin quruluşunu müəyyən edərkən yanlış istiqamət tutmasınlar. Əgər səhvlərə yol verildiyini aşkar etsəniz, şagirdlərin diqqətini mətnin həmin hissəsinin xüsusiyyətlərinə cəlb edin.

Şəhərin mərkəzində nəzəri Xan sarayı cəlb edirdi. Buradan qədim məscidin əyilmiş minarəsini və ayağını Xəzərin suları yuyan Qız qalasını da görmək olur.

Bakıya daxil olmaq orta əsrlərin alınmaz qalalarından birinə girmək təsiri bağışlayır. Divarları üçqat olan qalanın qapıları o qədər dardır ki, üç at qoşulmuş arabanı qapıdan keçirmək üçün yan atı açmalı olduq. Şəhərin Şimal qapıları yanında böyük bazar, Şərq memarlıq üslubundan daha çox Qərb memarlıq üslubuna yaxın, daha doğrusu, Avropasayağı tikilmiş binalar və sağ tərəfdə xristian kilsəsi vardır. Bizi birbaşa M.Piqulevskinin iqamətgahına apardılar. O, qapının ağzında bizi salamladı, lakin evə dəvət edə bilmədi. Çünki evində iki azərbaycanlı qadın qonağı vardı. Müsəlman dini qadınların yad kişilər yanında üzü açıq oturub söhbət etməsinə yol vermir. Bu yandan da bizə uzun səfərdən sonra yuyunub-rahatlanmaq vacib idi. Bizi öz adamlarından biri ilə yaşayacağımız "Avropa klubu"na yola salan M.Piqulevski yuyunub-rahatlandıqdan sonra onunla nahar etməyimizi xahiş etdi.

Xristian kilsəsinin yanında şəhərin ən mənzərəli yerlərindən birində yerləşən bu klubun salon və otaqlarını mənim sərəncamıma vermişdilər.

Göstərilən qonaqpərvərlik üçün söz tapa bilmirəm. Bircə onu deyə bilərəm ki, bütün yolboyu bizə göstərilən qonaqpərvərlik gözlədiyimizdən də üstün idi.

Bakını heç vaxt görməyən oxucusunda yazıçı hansı təəssüratları oyada bilmişdi?

Yuyunub-rahatlanmaq üçün M.Piqulevskinin bizə çox vaxt verməsinə ürəkdən sevinirdik. Lakin yenicə yuyunmuşduq ki, Piqulevski özü iki faytonla arxamızca gəldi. **Azərbaycanlı xanımlar öz milli və dini qanunlarını pozaraq mütləq məni görmək istəyirdilər.** Biz hazırlaşana qədər M.Piqulevski gözlədi.

Sizcə, bu xanımlar kim ola bilərdilər?

O, gözəl adam idi. Onun haqqında bir neçə kəlmə deməyə dəyər.

M.Piqulevskinin təsvirinə diqqət edin.

O, Bakının həm bələdiyyə, həm polis rəisi, həm də hakimi idi. Bu ucaboy, enlikürək adamın qırx yaşı olardı. Əynində rus forması, başında azərbaycanlı papağı vardı. Xəz papağını gözlərinin üstünə elə basmışdı ki, alışıb-yanan və gülümsəyən gözlərini güclə görmək olurdu. Gözlərindən səmimilik oxunurdu. Dolu sifəti, mir-

63

Qrup işi başa çatdıqdan sonra şagirdlərə özünüqiymətləndirmə imkanı yaradın. Metodik vəsaitin 108–113-cü səhifələrindəki şablonun surətini çıxarıb qrupa bir dəst verin. Qruplar öz hazırladıqları variantla şablonu qarşılaşdırır, qırmızı qələmdən istifadə etməklə oxşar və fərqli məqamları qeyd edir, boşluqları aşkar edirlər.

Sinfin hazırlıq səviyyəsindən asılı olaraq, müəllim tapşırığın icrasına ayrılmış vaxtı artıra və ya azalda bilər.

***Diqqət!*** Qrupların təqdimatları yığılıb saxlanılır. Gələcək dərslərdə bu təqdimatlar sizə məlumat mənbəyi kimi lazım olacaq.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Əsərin hissələrə ayrılması, quruluşunun müəyyən edilməsi | | | | | |
| 2. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 3. | Obrazlı nitq | | | | | |
| 4. | Əməkdaşlıq | | | | | |

## Aleksandr Düma. “Qafqaz səfəri: Bakı”

### *(Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi)*

| OXUNUN TƏŞKİLİ CƏDVƏLİ (DƏRK EDƏRƏK OXU) | | |
|---|---|---|
| **№** | **Təlimatlar** | **Qeydlər** |
| | **Oxudan əvvəl** | |
| 1. | Fikrini bir yerə cəmləşdir. Mətnin başlığını oxu. | |
| 2. | **Fikirləş:** “Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişinə tamaşa etmişəm. Yəni “Mən bu barədə nə bilirəm?” | |
| 3. | “Bu mətni nə üçün oxuyuram? Bildiklərimdən əlavə daha nələri öyrənmək maraqlı olardı?” – deyə oxu məqsədini müəyyən et. | |
| 4. | Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara ötəri nəzər sal. | |
| 5. | Əldə etdiyin bu ilkin məlumatlara əsasən çalış ki, mətndə nədən bəhs olunduğu barədə əvvəlcədən fərziyyələr irəli sürəsən. Həmin fərziyyələri qeyd et. | |
| | **Oxu zamanı** | |
| 6. | Oxu prosesində qarşılaşdığın tanış olmayan sözlərin mənasını aydınlaşdır ki, müəllifin fikrini tam şəkildə anlaya biləsən. | |
| 7. | Oxu zamanı əsərdə yazıçının nə demək istədiyini (əsərin əsas ideyasını) müəyyən etməyə çalış. | |
| 8. | Mətnin necə təşkil edildiyinə fikir ver. Bəzən mətndə əvvəlcə hadisələrin baş vermə səbəbləri verilir, sonra isə həmin hadisələrin nə ilə nəticələndiyi göstərilir. Ya da hadisələr əhəmiyyətlilik baxımından düzülür: əvvəlcə daha əhəmiyyətli məsələlər, sonra az əhəmiyyətli məsələlər gəlir. Yaxud əksinə olur. Bunları bilmək sizə əsas ideyanı (fikri) dəstəkləyən kiçik fikirlərin müəyyən edilməsində kömək edər. | |
| 9. | İmkan olduqca əsərdəki hadisələri özünün və ya yaxınlarının həyatında baş vermiş hadisələrlə əlaqələndir. | |
| 10. | Əgər nəyisə anlamadığını və ya səhv oxuduğunu hiss etsən, dayan. Yenidən oxu. | |
| 11. | Mətndəki fikirlərin qrafikini və ya cədvəlini dəftərə çəkməyə çalış. | |
| | **Oxudan sonra** | |
| 12. | Mətni oxudun. Dəqiqləşdirilməsinə və ya genişləndirilməsinə ehtiyac hiss etdiyin məsələləri müəyyənləşdir. Onlarla bağlı mətnə bir daha nəzər sal. | |
| 13. | Yazıçının haqqında danışılan məsələyə münasibəti barədə nəticələr çıxart. | |
| 14. | Dəqiqləşdir: “Yazıçı bu əsərdə oxucusuna nə demək istəyirdi?” | |
| 15. | O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi? Nəyə görə belə düşünürsən? | |
| 16. | Oxunu uğurla təşkil edə bildinmi? Özünü qiymətləndir (ən yüksək, yüksək, yaxşı, orta, zəif). | |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| *I. Giriş*<br>– Təsvir ediləcək əşya və ya hadisə ilə tanışlıq<br>– Əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi | *1. Oxucunun hazırlanması*<br>Təsvir edilən əşya və ya hadisə haqqında oxucuda maraq doğuran cümlələr yazılıbmı?<br><br>*2. Əsas fikrin təqdim edilməsi*<br>Əvvəlcədən əsas fikrə zəmin yaradılıbmı? Mətndə əsas fikirlə əlaqəsi olmayan məsələlərə yer verilməyib ki? Təsvir ediləcək məsələlər barədə oxucuda ilkin təsəvvürlər yaradılıbmı? | 1. Səhər açılar-açılmaz yuxudan oyanıb ətrafa nəzər saldıq. Nə azərbaycanlılar, nə də onların dəvələri vardı. Lələ köçüb, yurdu qalmışdı. Çöl də dəniz kimi bomboş idi. Gəmisiz dəniz nə dənizdir? Mən bundan ağır, bundan kədərli heç nə təsəvvürümə gətirə bilmirəm. Biz hələ durmamış atları hazırlamışdılar. Bircə onları faytonlara qoşub yola düşmək qalırdı. Ətrafı bürümüş ağımtıl duman çox yaxşı hava olacağını xəbər verirdi. Dumanın arasından bərk qaçdıqlarından sanki ayaqları yerə toxunmayan dağ keçiləri görünürdü. O qədər ürkək, o qədər qorxaq idilər ki, bir az yaxınlaşıb bircəciyini də vura bilmədim. Dağların güneyi çəhrayı, quzeyi isə bənövşəyi rəngə çalırdı. Qəribə bir mənzərə ilə qarşılaşmışdıq. Bir yanda qızıl kimi parıldayan qum səhrası, o yandan mavi Xəzər!<br>Biz Bakıya qədər bu mavi dənizi gəliş-gediş az olan, unudulmuş, itirilmiş, insanlara az bəlli, ünvanına çox böhtanlar yağdırılan yazıq və məsum Xəzəri bir daha görməyəcəkdik.<br>Əslində isə Abşeron yarımadasının elə bir nöqtəsinə çatmışdıq ki, Qızılburundan bura qədər yol Xəzər dənizinin sahili boyu uzanıb gəlirdi. Buradan yol gözlənilmədən sağa burulub çöllüyə sarı irəliləyir və sanki nizə şəkilli yarımadanı dənizdən asılı qoyurdu. Beş-altı kilometr hamar yoldan sonra enişlər, yoxuşlar gəlirdi. Hiss olunurdu ki, Qafqaz sıra dağlarının son aşırımlarını arxada qoyuruq. Bizim Burqund yaylasına bənzəyən bu yerlərdə yol boyu kiçik kəndlər vardı. Evlərin bacalarından tüstü çıxır, biçənəkdə sürülər otlayırdı. Arpa-buğda cücərib qalxmışdı. Orda-burda boz dağların döşünə elə bil qeyri-bərabər biçimdə xalılar döşənmişdi.<br>2. Hər halda bu, mədəniyyət idi. Əkin-biçin, qorxusuz otlayan sürülər, evlər, sakitlik insanların dinc həyat sürdüyünə dəlalət edirdi.<br>Dərindən nəfəs aldım. Neçə vaxt idi ki, mədəniyyət barədə heç bir söz eşitməmişdim. Özümü rahat hiss etdim.<br>– Görəsən, yolun mənzərəli və təhlükəli hissəsi birdəfəlik arxadamı qaldı? |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
| --- | --- | --- |
| | | – Bəli, – deyə azərbaycanlı bələdçimiz cavab verdi. Lakin Qafqaz dağlarının o biri ətəyində biz gözəl mənzərələr və təhlükə məfhumlarının ikili xarakter daşıdığını duyub razı qaldıq. Təhlükə, qorxu yolçunun qəribə bir yol yoldaşıdır. Əvvəlcə adam çəkinir, çalışır ki, qorxuyla üz-üzə gəlməsin. Sonra ona alışır və nəhayət, onun yaxında olmasını arzulayır. Bu elə bir təsiredici qüvvəyə malikdir ki, yaxında olanda insan hər şeyin qiymətini, dəyərini ikili duyur. Təhlükənin olmasına adam sevinir, o sovuşanda təəccüblənir. Hətta yolunu dəyişib təhlükəli, qorxulu yolla getmək istəyir.<br>Biz istəməzdik ki, onunla birdəfəlik vidalaşaq. Ona görə də "hələlik" deyirəm...<br>Yol elə bayaqdan gəldiyimiz kimi davam edirdi. Enişlər, yoxuşlar...<br>Birdən qarşımıza əvvəlkilərdən daha dik və çətin bir yoxuş çıxdı. Yoxuşda atların işini asanlaşdırmaq üçün yox, Bakını bizdən gizləyən bu axırıncı təpənin başına tez çatmaq üçün faytonlardan yerə tullandıq. Yoxuşun lap başına çatanda uzaqda Xəzər dənizini gördük. |
| *II. Əsas hissə* – Əşya, hadisə, insan və məkanla bağlı təsvirlərin ardıcıllıq (uzaqdan yaxına və ya əksinə, ümumidən xüsusiyə və ya əksinə; insan təsvirində başdan-ayağa və ya əksinə və s.), yaxud əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi | 1. *Təsvir ediləcək məsələlərin müəyyən edilməsi və sıra ilə düzülməsi*<br>Yalnız bədii ifadə və təsvir vasitələrinə deyil, həm də hisslərin və faktların təsvirinə yer verilibmi? Məsələlər haqqında danışılıb, yoxsa onların necə olduğu sözlə göstərilib? "Otağın təmiri köhnə idi" kimi deyilib, ya "Döşəmənin rəngi bir çox yerlərdə getmişdi. Nəmişlikdən divar kağızları qopub geriyə qatlanmışdı" kimi təqdim edilib? Nümunələr göstərin. | 1. Bizimlə dəniz arasında bəzi yerləri çökəkliklərdə gizlənən Bakı şəhəri yerləşirdi. Lakin tezliklə Bakı bütün gözəlliyi ilə gözümüz önünə gəldi *(Yer, görmə).* Elə bil şəhərə göydən düşmüşdük. İlk baxışdan adama elə gəlirdi ki, Bakı iki hissədən ibarətdir: Ağ şəhər, Qara şəhər. Bakı Rusiyanın tərkibinə daxil olandan sonra şəhər ətrafında meydana gələn tikililər Ağ şəhəri təşkil edir. Qara şəhər isə şəhərin qədim hissəsidir. Bu şəhər də Dərbənd kimi divarlarla əhatə olunmuşdur. Dərbənd qalasının divarları qədər gözəl və mənzərəli olmasalar da, bu divarların özünəməxsus xüsusiyyətləri var. Aydın məsələdir ki, bu divarlar artilleriyadan deyil, soyuq silahdan müdafiə olunmaq üçün ucaldılmışdır *(Yer, görmə).*<br>Şəhərin mərkəzində nəzəri Xan sarayı cəlb edirdi. Buradan qədim məscidin əyilmiş minarəsini və ayağını Xəzərin suları yuyan Qız qalasını da görmək olur *(Yer, görmə).*<br>Bakıya daxil olmaq orta əsrlərin alınmaz qalalarından birinə girmək təsiri bağışlayır. Divarları üçqat olan qalanın qapıları o qədər dardır ki, üç at qoşulmuş arabanı qapıdan keçirmək üçün yan atı açmalı olduq. Şəhərin Şimal qapıları yanında böyük bazar, |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| | 2. *Düşüncə və hisslərin təqdim edilməsi*<br>Yazı bədii nümunə olduğundan təsvir edilən məkan haqqında müəllif öz düşüncə və hisslərini oxucu ilə paylaşıbmı? | Şərq memarlıq üslubundan daha çox Qərb memarlıq üslubuna yaxın, daha doğrusu, Avropasayağı tikilmiş binalar və sağ tərəfdə xristian kilsəsi vardır *(Ardıcıllıq – ümumidən xüsusiyə).* Bizi birbaşa M.Piqulevskinin iqamətgahına apardılar. O, qapının ağzında bizi salamladı, lakin evə dəvət edə bilmədi. Çünki evində iki azərbaycanlı qadın qonağı vardı. Müsəlman dini qadınların yad kişilər yanında üzü açıq oturub söhbət etməsinə yol vermir. Bu yandan da bizə uzun səfərdən sonra yuyunub, rahatlanmaq vacib idi. Bizi öz adamlarından biri ilə yaşayacağımız "Avropa klubu"na yola salan M.Piqulevski yuyunub-rahatlandıqdan sonra onunla nahar etməyimizi xahiş etdi.<br>Xristian kilsəsinin yanında şəhərin ən mənzərəli yerlərindən birində yerləşən bu klubun salon və otaqlarını mənim sərəncamıma vermişdilər.<br>2. Göstərilən qonaqpərvərlik üçün söz tapa bilmirəm. Bircə onu deyə bilərəm ki, bütün yolboyu bizə göstərilən qonaqpərvərlik gözlədiyimizdən də üstün idi. |
| | 3. *Oxucunun irəliyə doğru istiqamətləndirilməsi*<br>Oxucu təsvir edilən əşya və hadisəyə doğru istiqamətləndirilibmi? Məsələlərin ardıcıllığı əşyaların yerləşməsi baxımından müəyyənləşib, ya hadisələrin əhəmiyyətliliyi baxımından düzülüb? | 3. Yuyunub-rahatlanmaq üçün M.Piqulevskinin bizə çox vaxt verməsinə ürəkdən sevinirdik. Lakin yenicə yuyunmuşduq ki, Piqulevski özü iki faytonla arxamızca gəldi. Azərbaycanlı xanımlar öz milli və dini qanunlarını pozaraq mütləq məni görmək istəyirdilər. Biz hazırlaşana qədər M.Piqulevski gözlədi.<br>O, gözəl adam idi. Onun haqqında bir neçə kəlmə deməyə dəyər.<br>O, Bakının həm bələdiyyə, həm polis rəisi, həm də hakimi idi. Bu ucaboy, enlikürək adamın qırx yaşı olardı. Əynində rus forması, başında azərbaycanlı papağı vardı. Xəz papağını gözlərinin üstünə elə basmışdı ki, alışıb-yanan və gülümsəyən gözlərini güclə görmək olurdu. Gözlərindən səmimilik oxunurdu. Dolu sifəti, mirvari kimi ağ dişləri, gözəl dodaqları gözləri ilə tamamilə həmahəng idi *(Ardıcıllıq – insan təsvirində başdan-ayağa – təşbeh).* Fransızca bir kəlmə də bilmirdi. Rusca isə elə aydın, elə ifadəli danışırdı ki, nə demək istədiyini tamamilə başa düşürdük. Onun sifətindən xoşbəxtlik yağırdı. Elə bil Babil qülləsinin dağıldığı gündən bu günə qədər alimlərin yaratmaq arzusunda olduğu beynəlxalq əlifbanın ilk hərflərini bu xoşbəxt adam kəşf etmişdi *(Yer, mübaliğə).* |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| *III. Nəticə* Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması | 1. *Gözəl bir sonluğun verilməsi* Əsas fikir yenidən vurğulanıbmı? Təsvir etdiyiniz əşya və hadisə ilə bağlı fikirlər tamamlanıbmı? | Faytonlara əyləşib M.Piqulevskinin iqamətgahına gəldik. Mən onun üz-gözündəki sevinci indi anladım. Onun on altı yaşında gül kimi zərif və gözəl qızı, otuz iki-otuz dörd yaşında, anadan çox öz qızının bacısına oxşayan çox cazibədar bir qadın əlimizi sıxaraq bizi salamladı *(Təşbeh, say)*. Ailənin iki-üç uşağı vardı *(Fakt, say)*. Heç vaxt ağrı-acı dadmamış bu ailə həyatın pillələriylə dərdsiz-qəmsiz irəliləyirdi.<br>Səbirsizliklə gözləndiyimiz, hörmətlə qəbul olunduğumuz bu məclisdə bizi görmək istəyən iki azərbaycanlı xanım və onlardan birinin – gənc xanımın əri də iştirak edirdi. Çadra örtmüş bu xanımların biri Qarabağın axırıncı xanı Mehdiqulu xanın arvadı, o biri qızı idi *(Yer, ad)*. Anaya qırx, qızına isə iyirmi yaş vermək olardı. Hər ikisi milli geyimdə idi. Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da vardı. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu, böyük, qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə nənəsinin dizinə sıxılmış və sövq-təbii ilə kiçik əlini belindən asılan xəncərin üstünə qoymuşdu *(Ardıcıllıq – insan təsvirində başdan-ayağa)*. Mən mat qalmışdım. Bu, fransız qadınının uşağın oynamasına icazə verə biləcəyi oyuncaq xəncər deyildi, oğlanın belindəki əsl iti xəncər idi. Azərbaycanlı qadınlar üçün bu birinci uşaq oyuncağı hesab olunurdu.<br>Gənc xanımın həyat yoldaşı Xasay xan Usmiyev ürəyəyatan, gözəl insanlarla yolda baş çəkdiyimiz Andreyevo kəndində anadan olmuşdur *(Yer, ad)*. Otuz beş yaşlı Xasay xan qədd-qamətli idi. Alışıbyanan gözlərində nəsə bir narahatlıq duyulurdu. Qapqara saqqalı onun dişlərini daha ağ göstərirdi. Başına qıvırcıq quzu dərisindən tikilmiş gözəl papaq qoymuşdu. Uzun, qara çərkəzi çuxa geyinmişdi. Çuxaya qızıl sapla naxış vurulmuş, yaxasında ətrafı qızıl və gümüşlə haşiyələnmiş iki patrondaş, belində saf qızıldan olan gözəl kəmər vardı. Kəmərdən fil sümüyü və qızılla işlənmiş zərif bir |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| | | xəncər asılmışdı. Əynindəki şalvar İran qumaşından tikilmişdi. Dağlılar arasında dəbdə olan qumaş şalvarı dizdən aşağı sıxmışdı. Fransızca parislilərdən heç də pis danışmayan Xasay xan ləyaqətli adam idi. Mən onun mədəniyyətinə, ağlına, fransızca təmiz danışmağına heyran qalmışdım *(Ardıcıllıq – insan təsvirində başdan-ayağa).*<br>1. Xanımlar əvvəlcədən nahar etmələrinə baxmayaraq, məclisi tərk etmədilər. Onlar bizim söhbətimizə diqqətlə qulaq asırdılar. Deyilənləri onlara hərdənbir Xasay xan tərcümə etsə də, nahar başlanandan qurtarana qədər dilmancımız M.Piqulevskinin gözəl qızı idi. |

## Aleksandr Düma. “Qafqaz səfəri: Bakı”
### *(Təsviri xarakterli bədii əsərlərin quruluşu: əsərin hissələrinin müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. A.Dümanın “Qafqaz səfəri” əsərindən “Bakı” parçasını hissələrə ayırır, plan tərtib edir (1.1.3.). 2. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim dərslikdə verilən əlaqələndirmə məqsədli şərhə yaradıcı yanaşaraq dərsin sistemini dərk etməkdə şagirdlərə yardım edir. Onlara ötən il təsviri xarakterli bədii nümunələrin quruluşunu müəyyənləşdirdikləri, həmin əsərlərin giriş, əsas hissə və nəticəsində əhəmiyyət verilən məsələləri araşdırdıqları xatırladılır. Onların bir daha yadına salınır ki, oxuduqları mətnin növü və onun quruluşu haqqında məlumatlılıqları onun məzmununun dərk edilməsində və ideyasının müəyyən edilməsində əhəmiyyətli rol oynayır. Bu səbəbdən də oxunu təşkil edərkən mətnin quruluşuna əhəmiyyət verilir. Şagirdlər beşinci sinifdən üzərində işlər apardığınız iki cədvəli qarşılaşdırıb, onlar arasında əlaqələri müəyyənləşdirsinlər deyə, tapşırıq üzrə təlim fəaliyyətinə cəlb edilirlər.



*Aleksandr Düma ilə birgə Azərbaycanda olmuş fransız rəssamı J.P.Moynenin Xurşidbanu Natəvanla görüşündən xatirə rəsmi*

saqqalı onun dişlərini daha ağ göstərirdi. Başına qıvırcıq quzu dərisindən tikilmiş gözəl papaq qoymuşdu. Uzun, qara çərkəzi çuxa geyinmişdi. Çuxaya qızıl sapla naxış vurulmuş, yaxasında ətrafı qızıl və gümüşlə haşiyələnmiş iki patrondaş, belində saf qızıldan olan gözəl kəmər vardı. Kəmərdən fil sümüyü və qızılla işlənmiş zərif bir xəncər asılmışdı. Əynindəki şalvar İran qumaşından tikilmişdi. Dağlılar arasında dəbdə olan qumaş şalvarı dizdən aşağı sıxmışdı. Fransızca parislilərdən heç də pis danışmayan Xasay xan ləyaqətli adam idi. Mən onun mədəniyyətinə, ağlına, fransızca təmiz danışmağına heyran qalmışdım.

Xanımlar əvvəlcədən nahar etmələrinə baxmayaraq, məclisi tərk etmədilər. Onlar bizim söhbətimizə diqqətlə qulaq asırdılar. Deyilənləri onlara hərdənbir Xasay xan tərcümə etsə də, nahar başlanandan qurtarana qədər dilmancımız M.Piqulevskinin gözəl qızı idi.

***Aleksandr Düma***

65

Əvvəlki iki dərsdə qruplaşdıqları kimi şagirdlər yenidən qruplaşdırılır. Mövzu ilə bağlı ilk iki dərsdə aparılan araşdırmaların nəticələrini əks etdirən təqdimatlar şagirdlərə verilir.

Əvvəlki iki dərsdə şagirdlərin qrup işlərinin nəticələri olan təqdimatların saxlanılması tövsiyə edilmişdir. Bu dərslər zamanı apardıqları işlərin nəticələri qruplara qaytarılır və onlara mətnləri qarşılaşdırmaq və onlar arasındakı əlaqələri müəyyən etmək tapşırığı verilir.

Şagirdlərin sizə gətirəcəyi cavablar təqribən növbəti səhifədə təqdim edilən kimi olmalıdır. Burada hər iki cədvəldə əlaqəli məsələlər eyni rəngə boyanmışdır. Əlaqəsi müəyyən edilməyən məsələlər isə olduğu kimi saxlanılmışdır.

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| | *3. Oxucunun irəliyə doğru istiqamətləndirilməsi* Oxucu təsvir edilən əşya və hadisəyə doğru istiqamətləndirilibmi? Məsələlərin ardıcıllığı əşyaların yerləşməsi baxımından müəyyənləşib, ya hadisələrin əhəmiyyətliliyi baxımından düzülüb? | |
| *III. Nəticə* Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması. | *1. Gözəl bir sonluğun verilməsi* Əsas fikir yenidən vurğulanıbmı? Təsvir etdiyiniz əşya və hadisə ilə bağlı fikirlər tamamlanıbmı? | |

Təsviri xarakterli bədii nümunələrin quruluşunun müəyyənləşdirilməsində, onun giriş, əsas hissə və nəticəsində əhəmiyyət verilən məsələlərin araşdırılmasında müəyyən təcrübəniz var. İndi siz iki cədvəli qarşılaşdıracaq və onlar arasında əlaqələri müəyyənləşdirəcəksiniz.

***Tapşırıq 3.***

1. 15 və 16-cı cədvəlləri qarşılaşdırın. Hər iki cədvəldə əlaqəli məsələləri müəyyən edin və qarşılarında sadə karandaşla "+" işarəsi yazın. Bir cədvəldə verilmiş, digər cədvəldə öz əksini tapmayan məsələlərin qarşısında isə "–" işarəsi yazın. Cədvəllər arasında əlaqəlilik səviyyəsinə dair təqdimat edin. Nitqinizdə yeni öyrəndiyiniz sözlərdən istifadə edin.

2. Natəvan və onun ailə üzvləri ilə bağlı parçanı təkrar ifadəli oxuyun.

***Müəlliflə tanışlıq***



***Aleksandr Düma***

*Fransız yazıçısı Aleksandr Düma Azərbaycanı gəzərkən Şamaxıda da olmuşdur. Bu barədə Düma yazır: "...Şamaxıda mənə, Avropanın uzaq diyarından gəlmiş qonağa göstərilən ehtiram və hörməti ifadə etmək üçün söz tapmaqda çətinlik çəkirəm".*

*Azərbaycan, onun təbiəti və insanları yazıçının ürəyində dərin izlər qoyur. "Nə olaydı, mənə bir də bu yerlərə gəlmək qismət olaydı!" – deyir.*

67

1) Təqdimat zamanı fəal şagirdlərin həmişə qrup işini təqdim etməsi aşağı fəallıq nümayiş etdirən şagirdlərdə arxayınlıq hissi yaradır. Belə şagirdlər tapşırığın icrası prosesində də passiv iştirak edirlər.

2) Şagirdin təqdimat bacarığı qiymətləndirmə meyarının bir maddəsi kimi daim holistik qiymətləndirmə sxemində öz əksini taparsa, onun ünsiyyət mədəniyyətinin davamlı inkişafı təmin edilər. Təqdim edən şagird aşağıda qeyd edilən məqamların natiq üçün əhəmiyyətli olduğu barədə hər dəfə məlumatlandırılır:

– səs tonu;
– auditoriya ilə təması, göz kontaktı, təbəssüm, jest və mimika;
– qrupun hazırladığı təqdimat vərəqi ilə sinif şagirdləri arasında vasitəçilik, inandırıcılıq.

Ev tapşırığı verilir. XIX əsrin Bakısı haqqında təsviri yazını oxudunuz. XXI əsrin Bakısını təsvir etmək məqsədilə esse yazın (3.1.1., 3.1.2., 3.1.3.).

**!** Stimullaşdırma məqsədilə növbəti dərsdə 3 şagirdi qalib elan etməyi unutmayın.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Əsəri hissələrə ayırır | | | | | |
| 2. | Bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır | | | | | |
| 3. | Fikirlərini əsaslandırır | | | | | |
| 4. | Fikirlərini obrazlı ifadə edir | | | | | |
| 5. | Birgəfəaliyyət | | | | | |
| 6. | Təqdimat | | | | | |

| *Cədvəl 1* | |
|---|---|
| **TƏSVİRİ XARAKTERLİ ƏSƏRİN QURULUŞU** | |
| **Plan** | **Nəzərə alınmalı məsələlər** |
| *I. Giriş*<br>– Təsvir ediləcək əşya və ya hadisə ilə tanışlıq<br>– Əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi | *1. Oxucunun hazırlanması*<br>**Təsvir edilən əşya və ya hadisə haqqında oxucuda maraq doğuran cümlələr varmı?**<br>*2. Əsas fikrin təqdim edilməsi*<br>**Əvvəlcədən əsas fikrə zəmin yaradılıbmı?**<br>**Mətndə əsas fikirlə əlaqəsi olmayan məsələlərə yer verilməyib ki? Təsvir ediləcək məsələlər barədə oxucuda ilkin təsəvvürlər yaradılmışdırmı?** |
| *II. Əsas hissə*<br>– Müxtəlif məqamların təsviri (bədii, hiss, fakt)<br>– Düşüncələrin və hisslərin əks etdirilməsi<br>– Əşya, hadisə, insan və məkanla bağlı təsvirlərin ardıcıllıq (uzaqdan yaxına və ya əksinə; ümumidən xüsusiyə və ya əksinə; insan təsvirində başdan-ayağa və ya əksinə və s.), yaxud əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi | *1. Təsvir ediləcək məsələlərin müəyyən edilməsi və sıra ilə düzülməsi*<br>Əsərdə bədii ifadə və təsvir vasitələri ilə yanaşı, həm də hisslərin və faktların təsvirinə yer verilibmi? Məsələlər haqqında danışılıb, yoxsa onların necə olduğu sözlə göstərilib? “Otağın təmiri köhnə idi” kimi deyilib, ya “Döşəmənin rəngi bir çox yerlərdə getmişdi. Nəmişlikdən divar kağızları qopub geriyə qatlanmışdı” kimi təqdim edilib? Nümunələr göstərin.<br>*2. Düşüncə və hisslərin təqdim edilməsi*<br>**Bu bədii nümunədə müəllif təsvir edilən məkan haqqında öz düşüncə və hisslərini oxucu ilə paylaşıbmı?**<br>*3. Oxucunun irəliyə doğru istiqamətləndirilməsi*<br>**Oxucu təsvir edilən əşya və hadisəyə doğru istiqamətləndirilibmi? Məsələlərin ardıcıllığı əşyaların yerləşməsi baxımından müəyyənləşib, ya hadisələrin əhəmiyyətliliyi baxımından düzülüb?** |
| *III. Nəticə*<br>Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması | *1. Gözəl bir sonluğun verilməsi*<br>**Əsas fikir yenidən vurğulanıbmı? Təsvir etdiyiniz əşya və hadisə ilə bağlı fikirlər tamamlanıbmı?** |

**!**

Hər iki cədvəldə məlumatların eyni rənglə göstərilməsi onlar arasında əlaqəni əks etdirir.

*Cədvəl 2*

| | |
|---|---|
| **OXU PROSESİ** | |
| **Oxudan əvvəl** | |
| 1. | Fikrini bir yerə cəmləşdir. Mətnin başlığını oxu. |
| 2. | **Fikirləş:** "Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişinə tamaşa etmişəm. Yəni "Mən bu barədə nə bilirəm?" |
| 3. | **"Bu mətni nə üçün oxuyuram? Bildiklərimdən əlavə daha nələri öyrənmək maraqlı olardı?" – deyə oxu məqsədini müəyyən et.** |
| 4. | **Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara ötəri nəzər sal.** |
| 5. | **Əldə etdiyin bu ilkin məlumatlara əsasən çalış ki, mətndə nədən bəhs olunduğu barədə əvvəlcədən fərziyyələr irəli sürəsən. Həmin fərziyyələri qeyd et.** |
| **Oxu zamanı** | |
| 1. | Oxu prosesində qarşılaşdığın tanış olmayan sözlərin mənasını aydınlaşdır ki, müəllifin fikrini tam şəkildə anlaya biləsən. |
| 2. | **Oxu zamanı əsərdə yazıçının nə demək istədiyini (əsərin əsas ideyasını) müəyyən etməyə çalış.** |
| 3. | **Mətnin necə təşkil edildiyinə fikir ver. Bəzən mətndə əvvəlcə hadisələrin baş verməsəbəbləri verilir, sonra isə həmin hadisələrin nə ilə nəticələndiyi göstərilir. Bəzən də hadisələr əhəmiyyətlilik baxımından düzülür: əvvəlcə daha əhəmiyyətli məsələlər, sonra az əhəmiyyətli məsələlər gəlir. Yaxud əksinə olur. Bunları bilmək sənə əsas ideyanı (fikri) dəstəkləyən kiçik fikirlərin müəyyən edilməsində kömək edər.** |
| 4. | İmkan olduqca əsərdəki hadisələri özünün və ya yaxınlarının həyatında baş vermiş hadisələrlə əlaqələndir. |
| 5. | Əgər nəyisə anlamadığını və ya səhv oxuduğunu hiss etsən, dayan. Yenidən oxu. |
| 6. | **Mətndəki fikirlərin qrafikini və ya cədvəlini dəftərə çəkməyə çalış.** |
| **Oxudan sonra** | |
| 1. | **Mətni oxudun. Dəqiqləşdirilməsinə və ya genişləndirilməsinə ehtiyac hiss etdiyin məsələləri müəyyənləşdir. Onlarla bağlı mətnə bir daha nəzər sal.** |
| 2. | **Yazıçının haqqında danışılan məsələyə münasibəti barədə nəticələr çıxart.** |
| 3. | **Dəqiqləşdir: "Yazıçı bu əsərdə oxucusuna nə demək istəyirdi?"** |
| 4. | **O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi? Nəyə görə belə düşünürsən?** |
| 5. | Oxunu uğurla təşkil edə bildinmi? Özünü qiymətləndir (ən yüksək, yüksək, yaxşı, orta, zəif). |

## Biz nə öyrəndik?

## Xəlil Rza Ulutürk. “Gerbimiz – qəlbimiz”

1. Şagirdlərə “Oxu testləri üzrə işin təşkili” təlimatı ilə bir daha tanış olmaq üçün vaxt verilir. Fərdi şəkildə tapşırıqları yerinə yetirmək üçün testlər şagirdlərə təqdim edilir.

### TEST

**1. Bənddə hansı bədii təsvir və ifadə vasitələri verilmişdir?**

*Qabaran tunc köksümüzdür qalxanımız, sipərimiz,*
*Əvvəl-axır qıracağız qart düşmənin belini biz.*
*Alovlarda, çovğunlarda daim yaşa dolasıyıq,*
*Od yurdunda od tükənsə, özümüz od olasıyıq.*

A. Təşbeh, bədii sual
B. Epitet, mübaliğə, bədii sual
C. Təşbeh, epitet, mübaliğə
D. Təşbeh, epitet, bədii sual

**2. Mətndə verilmiş *“ərz”* sözünün mənası nədir?**

A. Dəniz B. Yer C. Od D. Göy

**3. Bəndin hansı misralarında bədii təsvir və ifadə vasitəsi işlənmişdir?**

*Yalnız qızıl alovlarla bəzəmədik gerbimizi*
*Aləm üçün, bəşər üçün məşəl tutduq qəlbimizi.*
*Dedik: Bu Yer kürəsində nə qan, nə bir məzar olsun,*
*Məzarlara gül qoymayaq, cahan özü gülzar olsun!*

A. 1 və 2-ci misralarda
B. 1 və 3-cü misralarda
C. 3 və 4-cü misralarda
D. 2 və 4-cü misralarda

**4. Mətnin növünü müəyyənləşdir:**

A. Nəqli B. Təsviri C. Mühakimə D. Məlumatlandırıcı

**5. Misraların hansında epitet işlənmişdir?**

A. Göy rəngimdə türklük yaşar – millətimin amalıdır
B. Qızıl sünbül soraq verir xırman-xırman bərəkətdən
C. Sən şəkil yox, nəfəsimsən, axan qansan varlığımda
D. Vətənimə can verməli mənim əzmim, mənim işim

**6. Şeirin 2-ci bəndində verilmiş *“əzm”* sözünün mənası nədir?**

A. Ehtiyat B. Qətiyyət C. Güc D. Ucalıq

**7. Aşağıdakı misralarda hansı bədii təsvir və ifadə vasitələri verilmişdir?**

*Cavan palıd mən özüməm, kökü ərzin mərkəzində,*
*Kökü burda, budaqları xan Arazın o üzündə.*

A. Epitet, bədii sual — B. Təşbeh, bədii sual
C. Təşbeh, mübaliğə — D. Epitet, mübaliğə

**8. "Gerbimiz – qəlbimiz" şeirinin əsas mövzusu ilə bağlı fikri müəyyənləşdir:**

A. Bayrağımızdakı rənglərin mənasından danışılır.
B. Xalqımızın tarixindən danışılır.
C. Dövlətimizin müasirliyindən söhbət açılır.
D. Dövlətimizin rəmzi olan gerbimizdən danışılır.

**9. Aşağıdakı misralarda hansı təsvir vasitəsi və fakt əlaqələndirilmişdir?**

*Səkkizguşə ulduzumda səkkiz cənnət qapısı var,*
*Yalnız oğul qeyrətiylə açılacaq bu qapılar.*

A. Təşbeh, say
B. Epitet, yer
C. Təşbeh, ad
D. Epitet, tarix

**10. "Gerbimiz – qəlbimiz" şeirinin ideyası ilə bağlı fikri müəyyənləşdir:**

A. Gerbimiz millətimizin tarixidir.
B. Gerbimiz mərd oğulların gücü, qüvvəsidir.
C. Gerbimiz müqəddəs məmləkətin bərəkətidir.
D. Gerbimiz xalqımızın şərəf və vüqarıdır.

***Tapşırıq 1.*** Əsərin əsas ideyasını müəyyən et.

**Dövlətimizin rəmzi olan gerbimizdən danışır** + [**millətimin məsləki, amalı** / **qədim tariximiz və müasir bu günümüz** / **mənəvi qələbəmiz, maddi zənginliyimiz** / **qalib məmləkətim**] = **Şərəf və vüqar**

**insanlığı sevirik**

**"Gerbimiz – qəlbimiz" mətni üzrə testin doğru cavabları:**

1 – C   2 – B   3 – A   4 – B   5 – B   6 – B   7 – C   8 – D   9 – A   10 – D

2. Əsərdə nəyin təsvir edildiyini göstərin. İstifadə edilən təsvir və ifadə vasitələrini müəyyən edin. Əlaqələndirilmiş təsvir vasitələrinə aid nümunələri seçib yazın.

| Abzas, bənd | Nümunə | Təsvir və ya ifadə vasitəsinin növü |
|---|---|---|
| *Bədii təsvir vasitələri* | | |
| 1-ci, I misra | Sən şəkil yox, nəfəsimsən, axan qansan varlığımda | təşbeh |
| 2-ci, III misra | Cavan palıd mən özüməm, kökü ərzin mərkəzində | təşbeh |
| 3-cü, I misra | Səkkizguşə ulduzumda səkkiz cənnət qapısı var | təşbeh |
| 3-cü, III misra | Qızıl sünbül soraq verir xırman-xırman bərəkətdən | epitet |
| 5-ci, I misra | Yalnız qızıl alovlarla bəzəmədik gerbimizi | epitet |
| *Bədii ifadə vasitələri* | | |
| 2-ci, IV misra | Kökü burda, budaqları xan Arazın o üzündə | mübaliğə |
| 5-ci, II misra | Aləm üçün, bəşər üçün məşəl tutduq qəlbimizi | mübaliğə |
| *Təsvir edilən hiss (görmə, eşitmə, qoxu, dad, toxunma)* | | |
| | | |
| *Faktların (şəxs, zaman, məkan) təsviri* | | |
| 1-ci, II misra | Hansı rənglər çiçəklənir gör üçrəngli bayrağımda | say |
| | | |
| *Əlaqələndirilmiş* | | |
| 4-cü, I misra | Qabaran tunc köksümüzdür qalxanımız, sipərimiz | epitet, təşbeh |
| 4-cü, IV misra | Od yurdunda od tükənsə, özümüz od olasıyıq | epitet, mübaliğə |

**Dərslikdəki yardımçı suala dair nümunə**

Bənddəki hansı misraları bədii sual şəklində istifadə etmək olar?

Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalıdır,
Göy rəngimdə türklük yaşar – millətimin amalıdır.

Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalımı?
Göy rəngimdə türklük yaşar – millətimin amalımı?

3. Əsərin quruluşunu müəyyənləşdirin.

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| *I. Giriş*<br>– Əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi | *1. Oxucunun hazırlanması*<br>Təsvir edilən əşya və ya hadisə haqqında oxucuda maraq doğuran cümlələr varmı?<br>*2. Əsas fikrin təqdim edilməsi*<br>Əvvəlcədən əsas fikrə zəmin yaradılıbmı? Mətndə əsas fikirlə əlaqəsi olmayan məsələlərə yer verilməyib ki? Təsvir ediləcək məsələlər barədə oxucuda ilkin təsəvvürlər yaradılmışdırmı? | 1. Sən şəkil yox, nəfəsimsən,<br>axan qansan varlığımda.<br>Hansı rənglər çiçəklənir gör<br>üçrəngli bayrağımda.<br>2. Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalıdır, Göy rəngimdə türklük yaşar – millətimin amalıdır.<br>Qırmızılıq – simvoludur<br>çağdaşlığın, yüksəlişin,<br>Vətənimə can verməli mənim<br>əzmim, mənim işim. |
| *II. Əsas hissə*<br>– Əşya, hadisə, insan və məkanla bağlı təsvirlərin ardıcıllıq (uzaqdan yaxına və ya əksinə; ümumidən xüsusiyə və ya əksinə; insan təsvirində başdan-ayağa və ya əksinə və s.), yaxud əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi | *1. Təsvir ediləcək məsələlərin müəyyən edilməsi və sıra ilə düzülməsi*<br>Əsərdə bədii ifadə və təsvir vasitələri ilə yanaşı, həm də hisslərin və faktların təsvirinə yer verilibmi? Məsələlər haqqında danışılıb, yoxsa onların necə olduğu sözlə göstərilib? “Otağın təmiri köhnə idi” kimi deyilib, ya “Döşəmənin rəngi bir çox yerlərdə getmişdi. Nəmişlikdən divar kağızları qopub geriyə qatlanmışdı” kimi təqdim edilib. Nümunələr göstərin.<br>*2. Düşüncə və hisslərin təqdim edilməsi*<br>Bu bədii nümunədə müəllif təsvir edilən məkan haqqında öz düşüncə və hisslərini oxucu ilə paylaşırmı?<br>*3. Oxucunun irəliyə doğru istiqamətləndirilməsi*<br>Oxucu təsvir edilən əşya və hadisəyə doğru istiqamətləndirilibmi? Məsələlərin ardıcıllığı əşyaların yerləşməsi baxımından müəyyənləşib, ya hadisələrin əhəmiyyətliliyi baxımından düzülüb? | Cavan palıd mən özüməm, kökü<br>ərzin mərkəzində *(təşbeh)*<br>Kökü burda, budaqları xan<br>Arazın o üzündə *(mübaliğə, məkan)*<br>Səkkizguşə ulduzumda səkkiz<br>cənnət qapısı var *(təşbeh, say)*<br>Qızıl sünbül soraq verir xırman-<br>xırman bərəkətdən *(epitet)*<br>Ərzə bəhrə-bar gedəcək bu<br>müqəddəs məmləkətdən.<br>Qabaran tunc köksümüzdür<br>qalxanımız, sipərimiz *(epitet, təşbeh)*<br>Əvvəl-axır qıracağız qart<br>düşmənin belini biz.<br>Alovlarda, çovğunlarda daim yaşa<br>dolasıyıq,<br>Od yurdunda od tükənsə, özümüz<br>od olasıyıq *(epitet, mübaliğə)*<br>Ardıcıllıq *(uzaqdan yaxına)* |
| *III. Nəticə*<br>Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması | *1. Gözəl bir sonluğun verilməsi*<br>Əsas fikir yenidən vurğulanıbmı? Təsvir etdiyiniz əşya və hadisə ilə bağlı fikirlər tamamlanıbmı? | Yalnız qızıl alovlarla bəzəmədik<br>gerbimizi,<br>Aləm üçün, bəşər üçün məşəl tutduq<br>qəlbimizi.<br>Dedik: – Bu Yer kürəsində nə qan,<br>nə bir məzar olsun,<br>Məzarlara gül qoymayaq, cahan özü<br>gülzar olsun! |

## Yazaq, yaradaq: yazıya hazırlıq

**Təlim məqsədi**

1. Essenin planını tərtib edir (1.1.3.). 2. Essedə istifadə edəcəyi bədii ifadə və təsvir vasitələrini tərtib edir (1.1.5.) 3. Essenin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Mətni zənginləşdirmək üçün faktları müəyyən edir (3.1.1.). 5. Mövzu ilə bağlı fikirlərini ardıcıllıqla təqdim edir (3.1.3.).

Müəllim şagirdlərə xatırladır ki, 12 noyabr tarixində bütün demokratik cəmiyyətimiz Konstitusiya Gününü, 17 noyabr tarixində isə xalqımız Dirçəliş Gününü qeyd etdi. Bu tarixi günlər hər bir azərbaycanlı üçün böyük əhəmiyyət daşıyır. Elm adamlarımız həmin günləri tarixi əhəmiyyəti baxımından araşdırır. Sənət adamlarımız da bu günlərə özlərinin ən gözəl sənət əsərlərini həsr edirlər. Bu günlər haqqında nə bilirsiniz? *(İlkin bilik)* Daha nə bilmək istərdiniz? *(Öyrənmək istədikləri məsələlər)* Bu barədə hansı əsərləri oxumusunuz, televiziyada, internet səhifələrində nə görmüsünüz? *(Əlaqələndirmə)* Şagirdlərə xatırladılır ki, ötən dərs ilində onlar bir çox esse nümunələri yaradıblar və esse yazıya verilən tələblərlə tanışdırlar. Hər ehtimala qarşı şagirdlər dərsliyin "Əlavə" bölməsində esse yazı haqqında məlumatla tanış olmağa cəlb edilirlər.

**YAZAQ, YARADAQ: YAZIYA HAZIRLIQ, YAZI, QARŞILIQLI YOXLAMA, TƏQDİMAT**



Məktəbli dost! Siz ibtidai siniflərdə inşa, esse yazmısınız. Ötən il isə bu nümunələri yazmağı daha yaxşı öyrəndiniz. Siz artıq bilirsiniz ki, esse ədəbiyyatda bir janr olub, müəllifin hər hansı mövzu ilə bağlı düşüncələrini və hisslərini şərh edən kiçik bədii nümunədir. Onun dili həm obrazlıdır, həm də danışıq dilinə yaxındır. Yəqin, unutmamısınız ki, təsviri esse yazmazdan əvvəl ətrafdakı əşya və hadisələri diqqətlə müşahidə etmək, fikirlərin ifadəsi zamanı isə müxtəlif bədii təsvir vasitələrindən istifadə etmək lazımdır. Bu dərs ilində təsviri esse yazı haqqında bilik və bacarıqlarınızı daha da artıracaq, yeni-yeni nümunələr yaradacaqsınız.

***Unutmamısınız ki?!***

Bütün uğurla yazılmış nümunələr kimi, təsviri esse də quruluş baxımından düzgün tərtib edilməlidir. Esse yazıya giriş hissə ilə başlanır. Burada siz təsvir etdiyiniz əşya, hadisə, insan və ya məkana öz münasibətinizi bildirin.

Əsas hissədə təsvir edilən subyektin səciyyəvi cəhətləri müxtəlif təsvir vasitələrinin yardımı ilə təqdim edilir. Əgər siz insanı təsvir edirsinizsə, esseyə daha üç abzas daxil etməlisiniz. Birinci abzasda insanın gəlişi, ikinci abzasda onun şəxsiyyəti, əsas xüsusiyyətləri, üçüncü abzasda isə marağı və istedadından söz açmalısınız.

Essenin nəticə hissəsində mövzu ilə bağlı təəssüratlarınızı təqdim etməli, fikirlərinizi əsaslandırmalısınız.

Təsviri yazıda təsvir vasitələrindən istifadəyə xüsusi əhəmiyyət verilir. Yazıda təşbeh və epitetlərdən, habelə faktlardan istifadə olunsa, təsvir edilən subyekt haqqında daha ətraflı fikir yaranar.

70

İndi isə təqdim edilən şəkilləri müşahidə edib, verilən mövzuları əhatə edən təsviri esselərinizi yazacaqsınız. Bu fəaliyyəti qruplarda yerinə yetirəcəksiniz. Hansı qrupda vəzifə bölgüsü düzgün aparılmasa və kimsə vəzifəsiz qalsa, bu, tərəfimizdən nəzərə alınacaq.

Şagirdlər qruplarda iş apardıqca müəllim onların fəaliyyətini izləyir, dərslikdə verilən göstərişlərə əməl edilib-edilmədiyinə, müşahidə etdikləri şəkillərə əsasən qeydlərin dəqiq və hərtərəfli aparılmasına nəzarət edir. Prosesdə müşahidə etdikləri ilə bağlı qeydlər aparır.

Subyektin xarici görkəmini və səciyyəvi cəhətlərini təsvir edərkən onun yaxşı və pis, yaxud oxşar və fərqli cəhətləri qruplaşdırılır. Oxşar cəhətləri təsvir edərkən "həmçinin", "eləcə də", "bundan əlavə" bağlayıcı vasitələrdən istifadə etmək olar. Ziddiyyətli cəhətləri təsvir edərkən isə "eyni zamanda", "buna baxmayaraq", "bununla yanaşı" və s. kimi ifadələr işlətmək olar.

**YAZIDAN ƏVVƏL**

***Tapşırıq 1.***

Dərsliyə daxil edilən şəkillərdən istifadə etməklə, yaxud mövzuya uyğun gələn digər rəsmlərdən, fotoşəkillərdən və s. yararlanmaqla insanın təsvirinə geniş yer verilmiş esse yazın. Yazınızda şəkildə gördüyünüzün əşya, insan və məkanı da təsvir etməyə çalışın.



**"Dostlar"**

71

Şagirdlər apardıqları müşahidələrə, araşdırdıqları mənbələrdən əldə etdikləri məlumatlara əsasən essenin ideyasını yaradan kiçik fikirləri müəyyən edir və bunun əsasında essenin planını tərtib edirlər. Nəzərdə tutulmuş ideyanı qüvvətləndirmək və fikirləri obrazlı ifadə etmək üçün bədii ifadə və təsvir vasitələrinə aid nümunələr tərtib edilir.

Bu proses "karusel" üsulu vasitəsilə həyata keçirilərsə, bütün qruplar digər qrupların yaratdığı təsviredici esseni oxuya və qarşılıqlı bəhrələnə bilərlər.

Şagirdlər qrupda hazırladıqları esse planları yoldaşlarına təqdim edirlər. Müzakirə zamanı yoldaşlarının fikirlərini dinləyirlər. Faydalı hesab edilən fikirlərdən yararlanırlar. Tövsiyələr verilir. Meyarlar üzrə qiymətləndirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Essenin planını tərtib edir | | | | | |
| 2. | Ünsiyyət mədəniyyəti | | | | | |
| 3. | Fərqli fikirlərə hörmətli olması | | | | | |
| 4. | Fikirləri aydın və ardıcıl ifadə etməsi | | | | | |
| 5. | Təqdimat | | | | | |

## Yazaq, yaradaq: yazı, qarşılıqlı yoxlama

**Təlim məqsədi**

1. Fikirlərini plana əsasən ardıcıllıqla təqdim etməklə esseni yazır (1.1.3.). 2. Tərtib etdiyi bədii ifadə və təsvir vasitələrindən essedə istifadə edir (1.2.3.). 3. Essenin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. 1–1,5 səhifə həcmində təsvir xarakterli esse yazır (3.1.3.). 5. Janr xüsusiyyətini müəyyən edir (1.1.4.).

Şagirdlər bundan əvvəlki dərsdə qruplaşdırıldıqları tərkibdə yenidən qruplaşdırılır. Müəllim uğurlu hesab etdiyi bir esse nümunəsi oxuyur. Sonra şagirdlər tərtib etdikləri plan əsasında esseni yazırlar. Müəllim diqqətli olmalıdır ki, şagirdlər essenin ideyasını kiçik fikirlər vasitəsilə qura bilsinlər. Lazım gəldikdə onlara istiqamət və tövsiyələr verir. Bu yazı yoxlama deyil, öyrədici xarakter daşıyır. Odur ki proses də öyrədici olmalıdır. Mətndə bədii təsvir vasitələrinə, hiss və faktların təsvirinə, bədii ifadə vasitələrinə yer verilməsinə də diqqət edin. Ən mühümü isə odur ki, şagirdlər təsviri esse ilə nəqli esseyə verilən tələbləri qarışdırmasınlar.

Şagirdlər 1–1,5 səhifə həcmində esse yazmalıdırlar.



"Sərhədimi qoruyuram"



"Hər şey vətəndaş üçün"

72

| № | Təqdimat mədəniyyəti | | | | |
|---|---|---|---|---|---|
| 1. | Siniflə təmas | | | | |
| 2. | Göz kontaktı | | | | |
| 3. | Təbəssüm | | | | |
| 4. | Jest və mimika | | | | |
| 5. | İnandırıcı nitq | | | | |

## Essenin təqdimatı

**Təlim məqsədi**

1. Mətni faktlarla və sitatlarla zənginləşdirir (3.1.1.). 2. Ümumi rəyə gəlmək bacarığı nümayiş etdirir (2.2.1.). 3. Yazdığı esseni təqdim edir (3.1.3., 2.1.2.).

Şagirdlər yazını bitirdikləri zaman "Essenin yoxlanması üzrə I cədvəl"ə əsasən yoxlama və təkmilləşdirmə işlərinə başlanır. Onlar dərsin sonuna qədər bu prosesi davam etdirirlər.



"Məktəbdə"

**YAZI PROSESİ**

***Tapşırıq 1.***

1. Tapşırığın hər bir bəndinə əməl etməklə esseni yazın.
2. Öz müşahidələrinizə əsasən topladığınız məlumatları qruplaşdırın. Onlara başlıq verin. Bu başlıqlar yazacağınız essenin əsas ideyasını təşkil edəcək kiçik fikirlərdir. Sonra həmin kiçik fikirləri ardıcıllıqla ifadə edin.
3. Fikirlərinizi ifadə edərkən düşünün:

— Hansı təsvir vasitələri fikirlərimin daha yaxşı çatdırılmasına kömək edər?

— Gördüklərimi canlı çatdırmaqda hansı hisslərin (görmə, eşitmə, qoxu, dad, toxunma) təsviri mənə kömək edər?

73

**Növbəti** dərsdə şagirdlər "Essenin yoxlanmasının II cədvəl"i üzrə iş aparırlar. Düzəliş və təkmilləşdirmə işləri başa çatandan sonra qruplar artıq hazır esseni yoldaşlarına təqdim edirlər.

Müəllim əvvəlcədən hazırlayıb çap etdiyi 3–5 sertifikata qalib qrupun şagirdlərinin adını, soyadını, atasının adını yazıb, tutduğu yeri göstərib, sinifdə təntənəli şəkildə onlara təqdim edir. Bu, sertifikat almış şagirdlərin gələcəkdə siniflərarası "Ən yaxşı təsviri esse" məktəb müsabiqəsini keçirmək üçün bir zəmindir. Sertifikat nümunəsi təqdim edilir. ***Qeyd:*** Hörmətli müəllim, siz bundan daha yaxşı sertifikat nümunəsi hazırlaya bilərsiniz.

**SERTİFİKAT**

______________________

təltif edilir ______________

mövzusunda Ən yaxşı təsviri esse yazdığına görə

Müəllim ________

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Essenin ideyası | | | | | |
| 2. | Essenin dilinin obrazlılığı | | | | | |
| 3. | Təsviri essenin quruluşu | | | | | |
| 4. | Fikirlərin ardıcıllığı | | | | | |
| 5. | Essenin həcmi | | | | | |
| 6. | Təqdimat mədəniyyəti | | | | | |



**“Dostlar”**



**“Sərhədimi qoruyuram”**



**“Hər şey vətəndaş üçün”**



**“Məktəbdə”**

## *BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ*

### Kimdir əlil?
### Kamal Turan. “Üç nəfərin imtahanı”
### *(Bədii əsərlərdə nəqletmə)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsərləri məzmun və ideyalara uyğun ifadəli oxuyur (1.1.2.) 3. Mətnləri hissələrə ayırır (1.1.3.). 4. Mətnlərin mövzusunun ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.).

**A**

Verilmiş məlumata yaradıcı yanaşmaqla motivasiya məqsədlərində istifadə edə bilərsən.

– Uşaqlar, siz ötən dərs ili nəqletmə xarakterli bədii nümunələr haqqında xeyli maraqlı məsələlər öyrənmisiniz. Belə mətnlərin səciyyəvi cəhətləri haqqında nə deyə bilərsiniz? *(İlkin biliklər)* Nəqletmə xarakterli bədii nümunələr haqqında daha nələr öyrənmək istərdiniz? *(Sual)* Siz təqdim edilən iki mətni oxuyacaqsınız. Bunlar “Kimdir əlil” və “Üç nəfərin imtahanı” mətnləridir. Siz həyatda, televizorda əlil insan görmüsünüz? *(Əlaqələndirmə)* Bu gün də biz bu barədə oxuyacağıq. Çünki bu gün 3 dekabr Beynəlxalq Əlillər günüdür. Siz həmin mətnləri oxuyacaq, onlar arasında oxşar və fərqli cəhətləri müəyyən edəcəksiniz *(Oxunun məqsədi)*.

*BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ*

**“KİMDİR ƏLİL?”**
**KAMAL TURAN. “ÜÇ NƏFƏRİN İMTAHANI”**
**(BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ)**



**A**

*Nə öyrənəcəksiniz?*
- Nəqletmə xarakterli bədii mətnlərin oxusunun və yazısının təşkilinə dair bilik və bacarıqlarınızı inkişaf etdirəcəksiniz.

Məktəbli dost! Boş vaxtınızda digər əyləncə növləri ilə yanaşı, televiziya, yaxud internet səhifələrində maraqlı bir film izləməkdən imtina etməzsiniz, elədirmi? Siz cizgi, bədii filmlərə tamaşa edərkən əylənməklə yanaşı, müxtəlif məsələlərlə bağlı həyat dərsi də alırsınız. Təsəvvür edin ki, 60—70 il əvvəl nə televizor, nə də internet var idi. Bu gün mövcud olan əyləncə növlərinin əksəriyyəti də o zaman yox idi. Bəs əsrlərlə insanlar boş vaxtlarını necə keçiriblər, necə əyləniblər?

O zaman oxu və yazı bacarıqları olmayan, lakin yaxşı hafizəsi və nəqletmə bacarıqları olan insanlar eşitdiklərini başqalarına danışmışlar. Savadı olanlar isə yazılı bədii nümunələri oxuyaraq digər insanlara nəql etmişlər. Qədim dövrlərdən başlayaraq nağıllar, əfsanələr, rəvayətlər, sonralar ayrı-ayrı yazıçı və şairlər tərəfindən qələmə alınmış əvəzsiz nəqletmə xarakterli bədii nümunələr məhz bu ehtiyacdan yaranmışdır. Belə əsərləri oxuyan oxucu həm əylənir, oxuduğu əsərdən zövq alır, həm də məlumatlanır.

Siz elm və texnologiya erasının sakinlərindənsiniz. Bu gün mövcud texnologiyalar daha təkmil, onlardan istifadə daha rahat ola bilər. Amma bütün bunlar oxunun və oxudan alınan bədii zövqün əhəmiyyətini azalda bilməz. Bir hekayəni oxumaqla onun əsasında çəkilmiş

79

Şagirdlər oxunun təşkili qaydalarına riayət etməklə cütlərdə mətnlərin oxusuna cəlb edilir. Oxu zamanı tanış olmayan sözlərlə qarşılaşdıqda onların mənasını lüğətdən tapın və mətnin lüğətini tərtib edin. Bu, təqdimata əlavə ediləcək.

Dərs prosesində xüsusi fəallıq nümayiş etdirən şagirdlər fərdi şəkildə qiymətləndirilir. Qrup işlərinin nəticəsi isə holistik qiymətləndirmə cədvəli üzrə qiymətləndirilir.

Cütlərdə oxunun təşkili ilə bağlı müəllim təlimat verir: əvvəlcə cütlüyün birinci tərəfi birinci mətni oxuyur. İkinci tərəf həmin mətnin xəritəsini tərtib edir. Sonra cütlüyün ikinci tərəfi ikinci mətni oxuyur. Birinci tərəf ikinci mətn üzrə dinlədiyinə əsasən digər xəritəni yerinə yetirir.

Mətnlərin ideyalarının müəyyən edilməsi də tapşırığın tərkib hissəsi kimi şagirdlərə təqdim edilir.

### KİMDİR ƏLİL?

Əlil deyəndə ağlımıza əlsiz-qolsuz, danışa, görə bilməyən insanlar gəlir. Amma xəstəlik və ya əmək qabiliyyətini itirən, həmçinin anadangəlmə fiziki qüsuru olan şəxslər də əlil hesab edilir.

Əlil insanlar xüsusi qayğıya ehtiyacı olan insanlardır. Bəzən elə olur ki, insanlar haradasa bir əlil görəndə onu barmaqla göstərir, ətrafına yığışıb baxır, müşahidə aparırlar. Biri onun halına acıyır, digəri yardım etmək istəyir. Ancaq elə insanların çarəsiz hesab edilməsi doğru deyil. Bu, çox xoşagəlməz bir haldır. Əlil insanlar olduqları vəziyyətdə belə həyatın müxtəlif sahələrində yüksək nəticələr əldə edə bilərlər.

Əlillik insanları cəmiyyətdən təcrid olunmuş hala gətirir. Onlar həddindən artıq utancaq olurlar, insanların arasına çıxmaqdan çəkinirlər. Lakin fiziki əlil hələ mənəvi əlil deyil. Əslində, bunlar zahiri əlillikdir. Gerçək əlillər iradəsiz, aciz, yaşamaq üçün hər cür cəhddən, zəhmətdən, çalışqanlıqdan imtina edənlərdir. Gerçək əlillik başqasına yük olmaqdır və bu haldan xoşlanmaqdır. Görəsən, belələri əlləri, ayaqları, dili, gözü, qulağı və s. sağlam yarandığına görə nə qədər şükür etməli olduqlarını anlayırlarmı? Özlərinə və ətrafdakılara faydalı ola bilmək üçün nə qədər geniş imkanları olduğu barədə fikirləşirlərmi? Ya sağlam və gümrah olduqları üçün qürur duyurlar? Belələri varsa, onda o insanlar əsl əlildir — mənəvi əlil.



*Paraolimpiyaçı İlham Zəkiyev Beynəlxalq yarışlarda Azərbaycanın şərəfini qoruyur*

81

Şagirdər mətnlərin xəritələrini tərtib edirlər. Həmçinin hər iki mətndə qarşılaşdıqları tanış olmayan sözlərin mənasını lüğətdən müəyyən edirlər. Həmin sözlər də təqdimata əlavə edilir. Hansı qrup lüğətin tərtibi baxımından daha çox və dərin araşdırmalar aparıbsa, qiymətləndirmə zamanı bu, nəzərə alınmalı və xüsusilə qeyd edilməlidir. Xəritənin son elementi olan əsərin süjetinin müəyyən edilməsində də diqqətli olun. Görün şagirdlər mətnlərdən birinin nəqli olmadığını təxmin ediblərmi?

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğət tərtibi | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Mətnin hissələrə ayrılması | | | | | |
| 5. | Təqdimat | | | | | |

## Kimdir əlil?
## Kamal Turan. “Üç nəfərin imtahanı” əsərləri üzrə iş

**Təlim məqsədi**

1. Mətnlərin hissələrini qarşılaşdırır (1.1.3.). 2. Mətnlərin mövzusuna və ideyasına əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 3. Bədii əsərləri janr xüsusiyyətləri baxımından müqayisə edir (1.2.1.). 4. Öyrəndiyi yeni sözləri müzakirələrdə, təqdimatlarda istifadə edir (2.1.1.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 6. Ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir (2.2.1.).

Bundan əvvəlki dərsdə iki əsər üzərində şagirdlərin araşdırmalar apardıqları onlara xatırladılır. Araşdırmalar zamanı nə aşkar etdiniz? *(Mətnlərlə bağlı mövcud biliklər alınır.)* Bu əsərlərlə bağlı daha nələri öyrənmək istərdiniz? *(Versiyalar yazılır. Bu, dərsin motivasiya mərhələsinin sual vermə bölməsidir.)* Göründüyü kimi, mətnlər üzrə xeyli tədqiqat aparmısınız. Bu gün siz hər iki mətnin xəritələrini qarşılaşdıracaq, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirəcəksiniz. Bu tapşırığı yerinə yetirmək üçün siz qruplarda fəaliyyət göstərəcəksiniz.

Mətnlərin ideyalarına münasibət bildirmək üçün şagirdlərə müvafiq şərait yaradılır. Şagirdlərin münasibətinə ümumiləşdirmə aparılan zaman istinad edilir.

**ÜÇ NƏFƏRİN İMTAHANI**

Sizcə, bu hekayədə nədən bəhs edilir?

Qədim vaxtlarda üç adam var idi. Bunlardan birinin bütün bədəni dəri xəstəliyinə tutulmuşdu. Digərinin bütün saçları tökülmüşdü. Üçüncüsünün isə gözləri görmürdü. Bu vəziyyət onlar üçün ciddi çətinliklər törədirdi. Çünki insanlar onlardan daim uzaq gəzirdilər. Haqq-taala əvvəlcə dəri xəstəliyi olan adama bir mələk göndərdi. O vaxt bu adam bir ağacın altında oturmuşdu və için-için ağlayırdı. Mələk ona yaxınlaşdı:

— Hazırda ən çox istədiyin şey nədir? Bu xəstəlikdən xilas olmaq və insanlar arasında əvvəlki etibarını qazanmaq istəyirsənmi? — deyə sual etdi.

— Sən məni bu dərddən qurtara bilərsən ki?

— Mən Allahın mərhəmət edib sənə göndərdiyi bir mələyəm. Dediklərimi Allahın icazəsi ilə edə bilərəm.

Siz bu haqda nə fikirləşirsiniz?

— Elədirsə, bu xəstəlikdən xilas olmaq, gözəl və hamar dəriyə sahib olmaq istəyirəm. İnsanları məndən uzaqlaşdıran bu halımın düzəlməsini istəyirəm.

Mələk “Bismillah” deyərək adamın bədəninə toxundu və adamın xəstəliyi birdən-birə yox oldu. Həmin adam sevincindən az qala uçacaqdı. Mələk onun bu sevincini görüb:

— İnsanlara möhtac olmayacaq qədər var-dövlət sahibi olmaq istəyirsənmi?

O, sevinclə:

— Bəli, — dedi.

— Necə var-dövlət istəyirsən?

— Dəvə istəyirəm. Çünki dəvə burada ən qiymətli heyvandır.

Mələk ona tezliklə balası olacaq bir dəvə verdi:

— Al! Sənin üçün xeyirli olsun!

Həyatda belə insanlarla rastlaşmısınızmı?

Sonra mələk dərdi olan başqa bir adamın yanına getdi. Bu adamın saçlarının hamısı tökülmüşdü. Çox kədərli görünürdü. Zibilliyin kənarında oturub yeməyə bir şey axtarırdı. Milçəklər başının üzərində uçuşur, o isə əlini başına aparıb qovmağa belə səy göstərmirdi. Mələk ona yaxınlaşdı:

— Səni bu haldan qurtarmağımı istəyirsənmi?

— Çox yaxşı fikirdir. Amma sən bunu edə bilərsənmi?

— Mən mələyəm, sənin yanına bu iş üçün göndərilmişəm.

— Elə isə çox gözəl saçlar istəyirəm.

82

Oxu bitəndən və xəritələr işlənəndən sonra hazır xəritələr qarşılaşdırılır və Venn diaqramına əsasən müqayisə aparılır. Mətnlərin oxşar və fərqli cəhətləri müəyyən edilir. Cütlər bir qrupda birləşib (2 cüt birləşib kiçik qrup, 3 cüt birləşib böyük qrup yarada bilər) gəldikləri nəticələri qarşılaşdırır, müzakirə edir və son variantı hazırlayırlar.



Qrup üzvləri mətnlərin ideyaları üzərində birlikdə düşünür və gəldikləri qərarı işçi vərəqə əlavə edirlər. Qrup təqdimatları dinlənilməzdən əvvəl qiymətləndirmə meyarı cədvəlindəki 1-ci meyar şagirdlərə bir daha xatırladılır. Mətndə qarşılaşdıqları və mənasını aydınlaşdırdıqları yeni sözlərin nitqdə istifadəsinin lüğət ehtiyatının zənginləşməsində mühüm rol oynadığı qeyd edilir. Təqdimatlar qiymətləndirilərkən həmin məsələyə xüsusi diqqət yetiriləcəyi onların nəzərinə çatdırılır. Şagirdlər təqdimata münasibət bildirir, fikir mübadiləsi edilir.

vardı. Qoyunlarını özü güdür, onlarla özü məşğul olurdu. Mələk ona da kasıb bir adam surətində göründü:

— Mən kasıb bir yolçuyam. Neçə gündür yollardayam. Sığınacaq bir yer, bir qaşıq isti yemək tapmadım. Sənə gözlərini bəxş edən və bu qədər mal verən Allah xətrinə mənə bir qoyun versən, çətin günlərim sona çatar, mən də sənə dua edərəm.

— Düz deyirsən. Mənim əvvəllər gözüm görmürdü. Allah gözlərimə nur, özümə çoxlu mal verdi. Ey qərib adam, bir halda ki Allah adına istəyirsən, onda bir deyil, istədiyin qədər qoyun sənindir, yerdə qalan mənə bəsdir. Çünki bunların hamısı Allahın mənə verdiyi nemətdir.

— Malların mübarək olsun. Allah səninlə birgə üç adamı imtahan etdi. Səndən başqa hər ikisi keçmişini yaddan çıxarıb malları ilə təkəbbürə qapıldılar, — mələk dedi.

Bu hekayədə baş verən hadisələr haqqında nə düşünürsünüz?

Dəvə sahibinin o hərəkətindən sonra dəvələrinə yoluxucu xəstəlik düşdü. Sürülər bir-bir tələf oldu. Özü də yenidən köhnə xəstəliyinə tutuldu.

İnək sahibinin də axırı bədbəxt yoldaşınınkı kimi oldu. Bir gün qapqara buludlar çəmənliyin üstünü aldı. Şiddətli yağış yağdı və qabağına gələn hər şeyi silib-süpürən selə çevrildi. İnək sürüləri suda boğuldu. Bu ani fəlakət qarşısında adam dəli oldu və saçları birdən-birə töküldü. Yəni köhnə xəstəliyinə tutuldu. Sonra onu yenə zibilliklərdə yemək axtaran gördülər.

***Kamal Turan***

***Tapşırıq 2.***

1. Əsərdən əldə etdiyiniz nəticələri "Qarşılaşdırma-müqayisəetmə" sxeminə əsasən müqayisə edin. Qənaətlərinizi yoldaşlarınızla müzakirə edin. Nitqinizdə öyrəndiyiniz yeni sözlərdən istifadə edin. 2. "Oxudan sonra" təlimatı üzrə oxu fəaliyyətinizi yekunlaşdırın.

***Tapşırıq 3.*** Mətndən mübaliğələrə aid nümunələr seçin.

***Tapşırıq 4.*** Bu əsərdə siz hansı janrlara məxsus xüsusiyyətləri müşahidə etdiniz?

*Müəlliflə tanışlıq*



***Kamal Turan***

*Müasir türk yazıçısı Kamal Turanın hekayələrində həyatı dərindən dərk etmək üçün zəngin material vardır. Onun hekayələri insanı ən müqəddəs varlığa – Tanrıya bağlayır. Kamal Turan sübut etməyə çalışır ki, həyatda hər kəs öz əkdiyini biçəcəkdir. Yazıçının hekayələri sanki qaranlıqlara işıq saçır, insanı həyata bağlayır.*

85

Müəllim dərsi ümumiləşdirərkən şagirdlərin nəzərinə bir daha çatdırır ki, 3 dekabr Beynəlxalq Əlillər günüdür. Əslində, bütün insanların bir-birinə qayğıkeş və həssas olması çox vacibdir. Amma xüsusi qayğıya ehtiyacı olan insanlara həssaslıq göstərmək, onların qayğısına qalmaq hər bir insanın mənəvi borcudur. Əks təqdirdə, gördüyünüz kimi, insanlar özləri bir vaxt halına biganə qaldığı insanların yaşadığı acını yaşamalı olurlar. Bu, dünyanın yazılmamış qanunlarındandır. Müəllim şagirdlərə həmişə həssas və qayğıkeş olmağın sevincini yaşamağı arzu edir.

Dərs prosesində xüsusi fəallıq nümayiş etdirən şagirdlər fərdi şəkildə qiymətləndirilir. Qrup işlərinin nəticəsi isə holistik qiymətləndirmə cədvəli üzrə qiymətləndirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Yeni sözlərdən nitqdə istifadə | | | | | |
| 2. | İdeyaya münasibət | | | | | |
| 3. | Mətnin hissələrinin qarşılaşdırılması, müqayisəsi | | | | | |
| 4. | Əsərlərin müqayisəsi | | | | | |
| 5. | Təqdimat mədəniyyəti | | | | | |
| 6. | Ümumi rəyə gəlmə | | | | | |

**Tapşırıq**

Köməyə ehtiyacı olan insana yardım etməyin vacibliyi haqqında nəqli esse yazın (3.1.1., 3.1.2., 3.1.3.).

**!**

3 ən yaxşı esse müəllifini stimullaşdırmağı unutmayın.

## Məmməd Namaz. "Hamının günəşi"
*(Nəqli mətnin oxusunun təşkili: proqnozlaşdırma)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsas obrazlara münasibət bildirir (1.2.2.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Siz artıq ötən ildən nəqli mətnlərin oxusu zamanı növbəti mərhələdə baş verəcək hadisələri proqnozlaşdırmış, oxu zamanı da həmin proqnozlarınızın doğru olub-olmadığını yoxlamısınız. – Kim deyə bilər proqnozlaşdırma nədir? O sizə nə üçün lazımdır? *(İlkin biliklər)* Öz təcrübənizdən çıxış edərək deyin, sizlərdən hansınız hər zaman daha dəqiq proqnozlar verirsiniz? İndi gəlin birlikdə bir proqnozlaşdırma ilə bağlı tapşırıq yerinə yetirək.

Müəllim əsəri ucadan oxuyur. Şagirdlər kitabdakı cədvəli dəftərlərinə çəkirlər. Müəllim yeri gəldikcə suallar verir və proqnozlaşdırma üçün şərait yaradır. Şagirdlər proqnozları ucadan səsləndirmədən dəftərlərinə yazırlar. Oxu davam etdikcə ikinci sütunda mətndəki variant yazılır.

Oxu bitəndən sonra müəllim şagirdlərə sual verir: "Uşaqlar, indi siz bildinizmi Fidan mahnının sözlərini nə üçün dəyişmişdi?" Cavab alandan sonra: "Sizcə, nəyə görə bu gün biz məhz bu əsər üzrə iş apardıq?" – deyə soruşur. Şagirdlərin fikirləri dinlənilir.

### HAMININ GÜNƏŞİ

Bakıda məktəblilərin mahnı festivalı keçirilirdi. Burada Sumqayıtdan gəlmiş Fidan adlı balaca, arıq, qarayanız bir qız da çıxış etməli idi. Mahnı festivalında dahi rəhbər də iştirak edirdi və bu, balaca müğənnini çox həyəcanlandırmışdı. *(Sizcə, dahi rəhbər nə üçün uşaq festivalında iştirak edirdi?)* Həm də Fidan dahi rəhbərin ən çox xoşladığı mahnını oxuyacaqdı. *(Sizcə, bu hansı mahnı olacaq?)* Bu, Azərbaycanın xalq şairi Məmməd Arazın sözlərinə bəstələnmiş "Dünya sənin, dünya mənim" mahnısı idi.

Fidan səhnəyə çıxdı. O elə ürəkdən, elə gözəl oxudu ki, dinləyənlər hamısı qalxıb onu ayaqüstə alqışladılar.

Mahnının nəqarəti belə olmalı idi:

Dünya sənin,<br>Dünya mənim,<br>Dünya heç kimin...

Amma Fidan mahnının nəqarətini dəyişib oxudu:

Dünya sənin,<br>Dünya mənim,<br>Dünya hamının. *(Fidanın yerinə olsaydınız, siz bunu necə dəyişərdiniz?)*

Çalışmalar yekunlaşdırılıb, oxudan sonra fəaliyyətləri yerinə

Müəllim ya İKT vasitəsilə Milli Lider haqqında elektron material nümayiş etdirir, ya da texniki imkanlar məhdud olduqda şagirdlərlə birlikdə bu barədə söhbət aparır, Milli Liderin Anım gününü xatırladır. Bundan sonra tapşırığın icrası davam etdirilir.

Heydər Əliyev yerindən qalxıb səhnəyə çıxdı. Fidanı qucaqlayıb üzündən öpdü. Bu an kimsə rəhbərin adından qızcığaza gözəl bir gül dəstəsi verdi. Rəhbər soruşdu: *(Sizcə, rəhbər ondan nə soruşdu?)*

— Sənin adın nədir?

Qız utana-utana dilləndi:

— Adım Fidandır.

— Haradan gəlmisən, qızım?

— Sumqayıtdan gəlmişəm, — qız dedi.

— Fidan, bəs mahnının sözlərini niyə dəyişmisən? Məncə, axı orda sözlər başqa cürdür.

— Mahnının sözlərini bilirəm, sözləri mən özüm dəyişdim. *(Qız nə üçün mahnının son misrasını dəyişib oxudu?)*

— Niyə?

— Belə yaxşıdır! Mən istəyirəm ki, dünya hamının olsun: günəş kimi, bahar kimi və... — Fidan balaca əlləri ilə rəhbərin boynunu qucaqladı: — Və sizin kimi!

***Məmməd Namaz***

yetirilir. Şagirdlər əsərin ideyası üzərində düşünürlər.

Qarşılıqlı qiymətləndirməyə şərait yaradılır. Hər şagird proqnozlaşdırma apardığı cədvəli yanındakı yoldaşları ilə dəyişir və fərqli rəngdə qələmlə qarşılıqlı yoxlama aparılır. Lövhəyə verilən cədvəl çəkilir. Hər sual səsləndirilir. Şagirdlər proqnozları oxuyur. Dəyərləndirilir və şagirdin adı müvafiq xanaya qeyd edilir.

Müzakirələr zamanı yalnız istedadlı, fəal şagirdlərin məsələyə münasibət bildirməsi ilə kifayətlənməyin. Bu proses həm də təlimdə çətinlikləri olan, fikrini ifadə etməkdə problemlərlə qarşılaşan şagirdləri aktivləşdirmək üçün çox əhəmiyyətlidir.

| Sıra №-si | Ən dəqiq proqnoz | Ən yanlış proqnoz |
|---|---|---|
| 1. | Şagirdlərin adı | |
| 2. | | |
| 3. | | |
| 4. | | |

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 3. | Obrazlara münasibət | | | | | |
| 4. | Ümumi rəyə gəlmə | | | | | |

## **“Ağıllı uşaq”**

*(Azərbaycan xalq nağılı)*

***(Nəqli məntnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)***

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Əsərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

– Uşaqlar, kim deyər, siz ağıllı uşaqlarsınız? Cavab alınır. “Nə üçün sən özünü ağıllı hesab edirsən?” (Konkret şagirdə müraciət edilir.) Özünü ağıllı hesab etməyənə də (əgər beləsi varsa) müraciət edilir: “Sən nə üçün özünü ağıllı hesab etmirsən?” Deməli, sizcə, ağıllı uşaq necə olmalıdır? *(İlkin biliklər)* Daha ağıllı olmaq üçün nə etmək lazımdır? *(Sual vermə)* Heç olubmu ki, siz ağlınızın köməyi ilə ailə üzvlərinizin, dostlarınızın hər hansı probleminin həllinə yardım edəsiniz? *(Əlaqələndirmə)* Cavablar dinlənildən sonra müəllim: “Gəlin bir ağıllı uşaq haqqında nağıl oxuyaq. Görək o nə edib ki, insanlar onun haqqında nağıl qoşub, bir-birinə danışıblar”.

**“AĞILLI UŞAQ”**
**(Azərbaycan xalq nağılı)**
**(NƏQLİ MƏTNLƏRDƏ OBRAZLAR VƏ ONLARIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ)**

***Gəlin düşünək!***

Aşağıda təqdim edilən iki məqama diqqət edin. Onlar arasında oxşar və fərqli cəhətlər üzərində düşünün. Fərziyyələrinizi qeyd edin. Yoldaşlarınızla müzakirə edin:

— Bədii əsərdə insanın təsviri;
— Bədii əsərdə obrazın təhlili.

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq işləri aparın. Əsəri oxuyun. Oxuyarkən diqqət edin: bu əsərdə insanın təsvirinə yer verilmişdirmi?
2. 11—12-ci cədvəllərdən istifadə etməklə (səh. 41,42) qoca və oğlan obrazlarının xarici görkəmləri və ictimai varlıq olaraq səciyyəvi cəhətlərinin təhlili ilə bağlı qeydlər aparın.

**AĞILLI UŞAQ**
*(Azərbaycan xalq nağılı)*

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir xan var idi. Xan hər dəfə bir bəhanə eləyib yan-yörədəki kəndləri, şəhərləri talan eləyir, əhalinin var-yoxunu əlindən alırdı. Xan yaşadığı şəhərə bitişik bir kənd var idi. Oranı tutmaq çox çətin idi, çünki kənddə dünyagörmüş, ağıllı qocalar xanın hiylələrinə hər dəfə cavab verir, onu məğlub edirdilər.

Sizcə, bu nağılda nədən bəhs edilə bilər?

Günlərin birində xan öz adamlarını başına yığıb həmin kəndi tutmaq üçün tədbir istədi. Xanın baş məsləhətçisi dedi:

— Nə qədər ki həmin kənddə ağıllı, dünyagörmüş adamlar var, oranı tutmaq çətin olacaq. Yaxşısı odur ki, əvvəlcə onları bəhanə ilə aradan götürək, sonrası asandır.

Xan bu təklifi bəyəndi, elə həmin günü öz adamlarını yanına çağırtdırıb tapşırıq verdi ki, nə təhər olur-olsun, gedib o kəndin başbilən adamlarını, qocalarını aldadıb bura gətirərsiniz.

90

Əsərdə üç başlıca obraz var: oğlan, qoca, padşah. Əsəri oxuyarkən oğlan və qoca haqqında verilən bütün məlumatlara diqqət edin. Onlar necə görünürdü? Cəmiyyətdə davranışları necə idi?

Qrupla oxu iş forması seçilir. Sinif ya 4, ya 6 qrupa bölünür. Qruplardan 2, yaxud 3-ü oğlan obrazını, digər 2–3-ü qoca obrazını araşdırır. Təqdimat zamanı uyğun fəaliyyətləri yerinə yetirən qrupların təqdimatları qarşılaşdırılacaq.

Şagirdlərdən biri oxuyur, digərləri diqqətlə dinləyib cədvələ uyğun göstəriciləri müəyyənləşdirirlər. Başqa bir şagird isə bərabər müəyyənləşdirilən səciyyəvi cəhətləri cədvələ daxil edir. İş prosesində vəzifələr dəyişə də bilər. Qruplarda vəzifə bölgüsünün aparılmasına xüsusi nəzarət edin. Əsərin oxusu zamanı kimin məzmun və ideyaya görə ifadəli oxuduğuna diqqət edin. Qeydlər aparın və həmin şagirdi fərdi stimullaşdırın.

Xanın adamları hamısı eyni vaxtda kəndə doluşub hərəsi bir qocanın evinə getdilər. Onlar hiyləyə əl atıb dedilər:

— Bizim xanımız bir məsələdə bərk çətinliyə düşüb. O, ümidini sizə bağlayıb kömək istəyir. Deyir ki, bircə günlüyə mənə məsləhət vermək üçün yanıma gəlsinlər.

Qocalar yarızor, yarıxoş əlacsız qalıb xanın adamları ilə getdilər.

Qocaların zindana salınması hansı hadisələrin olacağından xəbər verir?

Xan qocaların gətirildiyini görüb əmr elədi, hamısını zindana saldılar. Bu tərəfdən xan həmin kəndə getmək üçün atlı çağırdı, üç alma verib dedi:

— Bu almaların biri birillik, o biri ikiillik, üçüncü isə üçillikdir. Almaları apararsan həmin kəndə, camaatı meydana yığıb deyərsən ki, xan əmr eləyib ki, bunların neçə illik olduğunu tapsınlar. Onlara üç gün vaxt verirəm, tapa bilməsələr, onda kəndi talan edəcəyəm. Əgər bu sirri tapan olsa, həmin adam yanıma mənim xoşladığım heyvanla gəlməlidir, həm də o elə adam olmalıdır ki, boyca məndən hündür olsun, mən ona aşağıdan yuxarı baxım.

Çapar atlanıb xanın tapşırığını xəbər vermək üçün həmin kəndə gəldi. Camaatı bazar meydanına yığıb əhvalatı söylədi.

Çapar almaları verib geri qayıtdı. Kəndin camaatı nə qədər fikirləşdi, almaların sirrini tapa bilmədi.

Bu kənddə qoca bir qarının Əhməd adlı balaca nəvəsi var idi. O, çox ağıllı və qoçaq uşaq idi. Həmin gecə Əhməd səhərə kimi yata bilmədi, çox fikirləşdi, suallara cavab tapa bilmədi, axırda yadına düşdü ki, bu işdə böyüklərdən məsləhət almaq lazımdır.

Sizcə, böyüklərdən məsləhət almaq lazım idimi? Buna aid hansı atalar sözlərini bilirsiniz?

Nənəsindən xəbər aldı ki, kəndimizdə heç qoca, ağıllı kişilərdən qalan varmı? Qarı dedi:

— Bala, kəndin kənarında bircə nəfər yaşı yüzü ötmüş bir qoca qalıb, şikəst olduğu üçün xanın adamları onu aparmayıblar.

Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü bir nurani kişidir. Saç-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.

Əhməd ədəb-ərkanla qocaya salam verdi, onun yanına məsləhətə gəldiyini söylədi.

Qoca dedi:

— Oğlum, məndən nə məsləhət istəyirsən?

91

Təqdimatlar dinlənilən zaman uyğun fəaliyyətli qruplar bir-birinin təqdimatları ilə bağlı rəy və təkliflərini bildirirlər. Ehtiyac yarandığı halda dəqiqləşmələr də aparılır.

Şagird stimullaşdırılarkən təlim məqsədində nail olunması nəzərdə tutulmuş bacarıqlardan çıxış edin. Stimullaşdırma aşağıda qeyd edilən yollarla həyata keçirilə bilər:

1. Xoş sözlər
2. Valideynə təşəkkür məktubu
3. Gündəliyində "bu gün çox fəal idin", "afərin, belə davam et", "yaxşı fərziyyələr müəyyən edirsən", "müzakirələrdə çox fəalsan" və s. yazmaqla
4. Kiçik bir hədiyyə, karandaş, döş nişanı və s. verməklə
5. Yoldaşlarının alqışı
6. Sinif rəhbərinə şagird barədə məlumat çatdırmaqla

Qrup işləri qiymətləndiriləndən sonra kollektiv şəkildə oxudan sonra fəaliyyəti yerinə yetirilir. Əsərin ideyası üzərində düşünülür.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | Obrazlara münasibət | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Vəzifə bölgüsü | | | | | |
| 5. | Müzakirələrdə fəal iştirak | | | | | |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı prob-lemlərə reaksiyası<br>d) nikbin və ya bəd-bin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | | e) ağıllı<br>b) Həmin gecə Əhməd səhərə kimi yata bilmədi, çox fikir-ləşdi, suallara cavab tapa bilmədi, axırda yadına düşdü ki, bu işdə böyüklər-dən məsləhət almaq lazımdır.<br>c) Xan gördü, uşaq çox hazırcavabdır.<br>c) Balaca Əhməd öz ağlı, bacarığı və tədbiri ilə kəndi xilas etdi. |
| **Davranışı** | a) necə hərəkət et-diyi, nəzakətli, nə-zakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | | a) Meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə tökdü.<br>d) Ağacın altında qoyunun dərisinin içinə girib başladı iməkləyə-iməkləyə sürüyə tərəf getməyə.<br>d) Cəld özünü verdi qoyun-ların arasına.<br>d) Mən sualların cavabını düz tapsam, bizim kəndimizə toxunmamalısan, bir də zindana saldığın qocalarımı-zı azad eləməlisən, tapa bil-məsəm, nə istəyirsən elə. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | i) yaşı yüzdən ötmüş bir qoca<br>e) nurani kişi<br>e) şikəst olduğu üçün<br>c) saç-saqqalı ağappaq qar kimi<br>c) gözləri tutulub<br>e) qıçları şikəst<br>f) əlini alnına qoyub | a) balaca<br>h) qoçaq idi |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | | |
| **Müəllifin bunlara münasibəti** | | | |


Düşüncələri
1) xanın sirrini öyrənsin
Söylədikləri
1) Mən xandan qorxmuram. 2) Mən sualların cavabını düz tapsam, bizim kəndimizə toxunmamalısan. 3) Zindana saldığın qocaları azad eləməlisən.
Hərəkətləri
1) iməkləyə-iməkləyə sürüyə tərəf getdi
2) cəld özünü verdi qoyunların arasına
Hissləri
1) bir qədər yaxına gedib gördü keçinin buynuzlarını qızıla tutublar, boynuna qızıldan zınqırov taxıblar, üstünə tirmədən şal salıblar
Məqsədi
1) suallara cavab verib kəndi xatadan qurtarmaq
Təsviri
1) Əhməd adlı balaca nəvəsi var idi.
Başqalarının onun haqqında dedikləri
1) Əhməd adlı balaca nəvəsi var idi.
Başqa mühüm məlumatlar
1) Bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə töküb getdi. 2) Balaca Əhməd öz ağlı, bacarığı və tədbiri ilə kəndi xilas etdi.


Düşüncələri
Söylədikləri
Xanın şəhərinə keçərsən, çox ehtiyatla, tədbirlə bu sirri öyrənərsən
Hərəkətləri
Hissləri
Məqsədi
Təsviri
1) nurani kişi 2) saç-saqqalı ağappaq qar kimi
3) gözləri tutulub
4) qıçları şikəst olub
Başqalarının onun haqqında dedikləri
1) yaşı yüzdən ötmüş bir qoca 2) şikəst
Başqa mühüm məlumatlar


Əhməd
Siz bu obrazın yerinə olsaydınız, nə edərdiniz?
Əhməd ağıllı, cəsarətli bir oğlan idi
Öz kəndini xanın zülmündən qurtarmaq istəyirdi
Onun doğma kəndini xanın işğalından qurtarması üçün gördüyü işlər bütün uşaqlara örnəkdir
Dünyagörmüş qocadan məsləhət alması, yaşlı qadına kömək etməsi, ən çətin vəziyyətlərdən bacarıqla çıxması

## “Ağıllı uşaq”

*(Azərbaycan xalq nağılı)*

***(Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)***

**Təlim məqsədi**

1. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Əsərin qəhrəmanının təsviri və təhlili arasında fərqi izah edir (1.2.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 4. Müzakirələr zamanı ünsiyyət mədəniyyəti nümayiş etdirir (2.1.1., 2.1.2.). 5. Bədii nümunələri janr xüsusiyyətlərinə görə müqayisə edir (1.2.1.).

– Uşaqlar, siz keçən dərs “Ağıllı uşaq” nağılını oxudunuz. Əsərdə başlıca obrazlardan olan oğlan və qocanın həm xarici görkəmi, həm də cəmiyyətdə davranışı baxımından necə təsvir edildiyini araşdırdınız. Müəllim şagirdlərə müraciət edir: “Uşaqlar, kim deyər, daha hansı əsərdə qoca və oğlan obrazları ilə qarşılaşmısınız?” Cavablar dinlənilir. Müəllim bir daha bildirir:
– Siz təsviri xarakterli əsərləri öyrənəndə “Dəniz kənarıyla qaçan Alabaş” əsərindəki qoca və oğlan obrazlarını da beləcə araşdırmışdınız. İndi gəlin dəftərlərimizdə həmin obrazların yazıçı tərəfindən necə təsvir edildiyinə bir daha nəzər salaq. İki əsərdəki qoca və oğlan obrazlarını qarşılaşdıraraq müqayisə edək.

Əhməd xanın şərtlərini qocaya söyləyib ondan kömək istədi.

Qoca əlini alnına qoyub bir qədər fikirləşdi. Sonra sualların cavabını necə tapmağı Əhmədə öyrətdi. Axırda dedi:

— Oğul, bircə sirri mən bilmirəm, gərək onu özün tapasan. O da xanın hansı heyvanı xoşlamasıdır. Bunun üçün bircə çarə var, gərək bir yolla xanın şəhərinə keçəsən, çox ehtiyatla, tədbirlə bu sirri öyrənəsən. Əhməd dedi:

— Elə bu saat gedirəm həmin sirri öyrənməyə.

Əhməd qocadan çox razı qaldı. Evdən çıxıb getmək istəyəndə həyətdə bir qoca arvadın ocaq qalamaq üçün çör-çöp yığdığını gördü. Bu, qocanın bacısı idi. Qocanın bacısından başqa heç kimsəsi yox idi. Əhməd dedi:

— Ay qarı nənə, bu çör-çöpü neynəyirsən?

Qarı dedi:

— Oğul, odunumuz qurtarıb, meşəyə gedənimiz yoxdu, odur ki çör-çöp yığıram.

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən tapın.

Əhməd qarıdan balta, bir də **çatı** istədi. Qarı gətirib verdi. Əhməd gedib meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə töküb getdi.

Nə vaxtsa qocalara, kimsəsiz insanlara kömək etmisinizmi? Bu zaman hansı hissləri keçirmisiniz?

Əhməd gedə-gedə ürəyində fikirləşirdi, görsün nə yolla xanın sirrini öyrənsin. Elə ki şəhərin kənarına çatdı, gördü hər yüz addımdan bir əli qılınclı gözətçilər dayanıb, onların yanından keçmək mümkün deyil. Amma bir qədər kənarda xanın qoyun sürüsü göy çəmənlikdə otlayır, qoyunlar gah bu tərəfə, gah o tərəfə keçirlər. Əhməd bunu görüb kəndə qayıtdı. Kəndlərindəki çobanın yanına gedib, əhvalatı ona danışdı. Xahiş elədi ki, qoyunun birini kəssin, dərisini bütöv çıxarıb versin ona.

Çoban nə üçün Əhmədin bir sözü ilə qoyunu kəsib dərisini ona verdi?

Çoban beş dəqiqənin içində bir yekə qoçu kəsib dərisini bütöv çıxartdı. Əhməd dərini bir dəsmala büküb düz gəldi xanın sürüsü otlayan yerə. O bir ağacın altında qoyunun dərisinin içinə girib başladı iməkləyə-iməkləyə sürüyə tərəf getməyə, cəld özünü verdi qoyunların arasına, gedib bir xeyli aralıda dəridən çıxdı, dərini qatlayıb bükdü yenə dəsmala. Əhməd baxıb gördü, uzaqda sürünün çobanı göy otun üstündə uzanıb çoban

92

Müəllim “Ağıllı uşaq” nağılında oğlan obrazını araşdıran qruplara hər iki əsərdəki oğlan obrazını, qoca obrazını araşdıran qruplara isə hər iki əsərdəki qoca obrazını qarşılaşdırmaq tapşırığı verir.

Bu tapşırığı yerinə yetirmək üçün “Qarşılaşdırma-müqayisəetmə” cədvəlindən istifadə edilir.

QARŞILAŞDIRMA – MÜQAYİSƏETMƏ

| Oxşar | Fərqli |
|---|---|

Müəllim sinfə sualla müraciət edir: “Uşaqlar, siz iki mətndə oğlan və qoca obrazlarını qarşılaşdırdınız. Deyə bilərsinizmi, bu əsərlərdən hansında oğlan, ya qoca obrazı daha dərin, dəqiq və əhatəli təsvir edilmişdir?” Cavablar alınır. “Dəniz kənarıyla qaçan Alabaş” əsərindən parça təsviri xarakterli olduğundan orada təsvirlər daha əhatəlidir. Bu da mətnlərin fərqli məqsədlərindən irəli gəlir. Birinci mətndə məqsəd insanı, məkanı olduğu kimi oxucunun təsəvvüründə canlandırmaq, ikinci mətndə isə məqsəd baş vermiş hadisəni danışmaqdan ibarətdir.

bayatısı çalır, yanında da bir keçi var. Keçinin buynuzları, üst-başı par-par parıldayır, bir qədər yaxına gedib gördü keçinin buynuzlarını qızıla tutublar, boynuna qızıldan zınqırov taxıblar, üstünə tirmədən şal salıblar. Daha nə başınızı ağrıdım, keçini elə bəzəyiblər ki, adam baxanda məəttəl qalır. Əhməd başladı keçiyə baxmağa, çoban onu görüb dedi:

— Ay bala, nə çox baxırsan?

Əhməd dedi:

— Ay çoban qardaş, mən belə keçi görməmişəm, ona görə baxıram.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?

Çoban dedi:

— Sən bu şəhərin adamı deyilsən? Bu keçini görməyən adam yoxdur.

Əhməd gördü, çoban onu tanısa, işlər alınmaz. Odur ki dedi:

— Mən heç yerdən gəlməmişəm, elə bu şəhərdə oluram, amma nənəm məni bu vaxta kimi evdən heç yerə buraxmayıb, odur ki həmin keçini də görməmişəm.

Çoban dedi:

— Bala, onda bil və agah ol ki, bu bizim xanın keçisidir. O, uşaqlıqdan keçini çox xoşlayarmış. Həmin keçini xanın əmri ilə belə bəzəyiblər.

Necə fikirləşirsiniz, Əhməd məqsədinə nail oldumu?

Əhməd bu xəbəri eşidəndə sevindiyindən bilmədi neyləsin, tez qayıtdı geri. Bir az çobandan aralanandan sonra qoyun dərisini dəsmaldan açıb girdi içinə, özünü vurdu qoyunların arasına, sürünə-sürünə keçib gəldi öz kəndlərinə, gördü adamlar qalıblar əlləri qoyunlarında, bilmirlər nə eləsinlər. Həmin gün xanın suallarına cavab verməsələr, kəndləri əldən çıxacaq.

Əhməd irəli yeriyib dedi:

— Camaat, mənə bir hündür dəvə, bir də bir keçi verin, gedəcəyəm xanın şəhərinə, onun suallarına cavab verib kəndimizi xatadan qurtaracağam.

Sizcə, Əhməd camaatı inandıra biləcəkmi?

Əhmədin sözünə hamı gülüşdü, dedilər:

— Bala, yəqin, sənin ölümün yetib. Bəs qorxmursan ki, xanın qəzəbinə gələrsən?

Əhməd dedi:

— Mən xandan qorxmuram.

93

**A** Müəllim sxemin İKT varsa, əksini lövhəyə salır, yoxdursa, ya lövhəyə çəkir, ya da əvvəlcədən çəkdiyi böyük kağızı lövhədən asır. Həmin sxem üzrə sinifdə kollektiv iş aparır. Kollektiv iş zamanı ünsiyyət mədəniyyətinə riayət edilməsinə diqqət yetirilir. Obrazın təhlili sxemi bütün siniflə icra olunur:
– hər kəs danışanı dinləsin;
– bir-birinin sözünü kəsməsin;
– səs tonuna diqqət etsin;
– fərqli fikirlərə hörmət etsin;
– yeni öyrəndikləri sözləri nitqdə istifadə etsin.

Müəllim obrazın təsviri və təhlili üzrə aparılan işin fərqi üzərində şagirdləri bir daha düşünməyə sövq edir. Onlara aydınlaşdırılır ki, təsvir edərkən gördüklərimizi olduğu kimi əks etdiririksə, təhlil edərkən ayrı-ayrı məqamlardan qənaətlərə gəlirik. Məsələn, insanın söylədiklərindən nəyi müəyyən edirik? *(düşündüklərini)* Hərəkətlərindən nəyi aydınlaşdırırıq? *(məqsədlərini)* Görünüşündən, davranışından daha nəyi müəyyən etmək olar? *(keçirdiyi hissləri)* və s. müəyyən edirik.

Beləliklə, təsvir və təhlil arasında fərqli cəhətlərin dərk edilməsi üzərində iş aparılır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Təsvir və təhlil arasında fərqin izahı | | | | | |
| 2. | Obrazın davranış və əməllərinin şərhi | | | | | |
| 3. | Müqayisəetmə | | | | | |
| 4. | Müzakirələrdə fəallıq | | | | | |
| 5. | Ünsiyyət mədəniyyəti | | | | | |

# “Ağıllı uşaq”

*(Azərbaycan xalq nağılı)*

***(Nəqli məntnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)***

**Təlim məqsədi**

1. Əsərlə bağlı fikirlərini bildirərkən öyrəndiyi yeni sözlərdən istifadə edir (2.1.1.). 2. Əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 3. Əsərin qəhrəmanının təsviri və təhlili arasında fərqi izah edir (1.2.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 5. Əsərin ideyası üzrə müzakirələr zamanı əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.).

Müəllim şagirdləri əsərlə bağlı əvvəlki dərslərdə hansı işlərin aparıldığı üzərində düşünməyə sövq edir: əsər oxundu, oradakı başlıca obrazlar haqqında, onların görkəmi, cəmiyyətdə rolu və digər məsələlər barədə imkan daxilində (nəzərə almaq lazımdır ki, mətn təsviri deyil, nəqli xarakter daşıyır) məlumat toplandı. Bu dərsdə biz həmin məlumatlardan bəhrələnərək obrazlar haqqında qənaətlərə gəlməyin yollarını öyrənəcəyik. “Bunu bacarmaq sizə nə üçün lazımdır, uşaqlar?” Müəllim bu sualla uşaqları təlim məqsədi üzərində düşünməyə sövq edir: “Mən bu məsələni nə üçün öyrənirəm? Bu mənim nəyimə gərəkdir?” Bu, şagirdə ona görə lazımdır ki, o, həyatda qarşılaşdığı insanları müşahidə edərək, onların görkəmi, cəmiyyətdə davranışları və s. kimi məlumatlardan həmin insanlar haqqında təhlillər aparsın və qərarlar qəbul etsin: “Bu insanla münasibətləri hansı müstəvidə qurmaq lazımdır?”



***Tapşırıq 3.***

1. Əsərdəki başlıca obrazlar haqqında (oğlan, qoca) artıq sizə tanış olan sxem üzrə məlumat toplayın.
2. Əldə etdiyiniz məlumatları yoldaşlarınızla müzakirə edərkən öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin. Fərqli fikirlərə diqqətlə yanaşın.



Təsviri xarakterli mətnlərdə obrazın ***fərdi, özünəməxsus cəhətləri*** təsvir edilir. Oxucu həmin insanın “şəklini” gözləri önündə bu və ya digər formada canlandıra bilir. Məsələn:

*Onlardan ən yaşlısı — qəhvəyi sifətli, arıq, iri hülqumlu, üz-gözünü, əlalxüsus da boynunu dərin qat-qırış basmış, iri, kələ-kötür əlləri çat-çat olmuş qoca qayığın arxa tərəfində oturub çubuğunu ağır-ağır sümürərək sükanı idarə edirdi.*

Nəqletmə xarakterli bədii nümunələrdə obraz haqqında danışılarkən onun ***ümumi cəhətləri*** haqqında məlumat verilir. Məsələn:

96

Şagirdlərə yaradıcı tətbiqetmə imkanları verilir. Yaradıcı tətbiqetmə zamanı şagirdlərin işlədikləri vərəqləri alıb, yoxlayıb, onların portfoliosuna daxil edirsiniz. Bu, şagirdlərin inkişafının izlənməsində yardımçınız olacaq. Formativ qiymətləndirmənin analitik qiymətləndirmə sxemindən istifadə etməklə şagirdin inkişaf dinamikasını müəyyən edəcək və nəzarətdə saxlayacaqsınız.

Şagirdlər əvvəlki dərslərdə olduğu tərkibdə qruplara bölünürlər. Bu ona görə lazımdır ki, obraz haqqında əvvəlki dərsdə topladıqları məlumatlardan çıxış edərək qənaətlərə gələcəklər. Hər kəsin öz apardığı tədqiqatın üzərində işini davam etdirməsi baxımından qrup üzvlərinin dəyişməz olmasına diqqət etmək lazımdır.

*Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü bir nurani kişidir. Saç-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.*

Göründüyü kimi, qocanın saç-saqqalının ağ olması, ayaqlarının tutulması və gözlərinin görməməsi kimi xüsusiyyətləri əksər ixtiyar qocalara şamil etmək olar. Amma bütün qocaların rəngi qəhvəyi, sifəti arıq, əlləri kələkötür olmur.

***Tapşırıq 4.***

1. Obrazlar haqqında əldə etdiyiniz məlumatlardan çıxış edərək obrazları təhlil edin.

A




97

A

Şagirdlərə dərslikdə verilən sxemi iş vərəqinə çəkmək tapşırılır. Amma həmin sxemdəki sualları köçürmək deyil, onlara cavabları müvafiq damalara daxil etmək tövsiyə edilir. Bütün şagirdlərin qrup müzakirələrində fəal iştirak etməsinə diqqət edilməlidir. Bunun qiymətləndirmə meyarı olduğu elan edilir. Bütün qrup üzvlərinin razılığı olmayınca heç bir qərar iş vərəqinə yazılmır. Bu təlimat şagirdlərin bir-birini inandırmaq üçün daha tutarlı arqumentlər gətirməsi baxımından əhəmiyyətlidir.

Dərs prosesində xüsusi fəallıq göstərən şagirdlərin adları qeyd edilir və onlar müxtəlif üsullarla stimullaşdırılır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Obrazın səciyyələndirilməsi | | | | | |
| 2. | Təsvirə əsasən təhlilin aparılması | | | | | |
| 3. | Nitqində yeni sözlərdən istifadə | | | | | |
| 4. | İdeyaya münasibət bildirmə | | | | | |
| 5. | Fərqli fikirlərə hörmət | | | | | |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Dənizçi oğlan Kirisk** | **Əhməd** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | b) təlaş keçirirdi<br>b) zəhmli ağsaqqalın acığını tutdurmamaq üçün özünü güclə saxlayırdı<br>b) həyəcandan burun pərələri körük kimi qalxıb-yatır, üzünə xəfif çillər çıxırdı<br>a) yerindən qalxmaq, avar çəkənləri tələsdirmək, dəniz heyvanlarını ovlayacaqları adalara tez çatmaq üçün kürəklərdən yapışmaq<br>d) qəlbini coşduran sevinc və qürur | b) Həmin gecə Əhməd səhərə kimi yata bilmədi, çox fikirləşdi, suallara cavab tapa bilmədi, axırda yadına düşdü ki, bu işdə böyüklərdən məsləhət almaq lazımdır.<br>c) ağıllı<br>c) Xan gördü, uşaq çox hazırcavabdır.<br>c) Balaca Əhməd öz ağlı, bacarığı və tədbiri ilə kəndi xilas etdi. |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | a) altdan-altdan böyüklərə baxır<br>a) cüllüt kimi başını o tərəf-bu tərəfə çevirirdi<br>d) səbirsizlikdən yerində qurcalanırdı | a) Meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə tökdü.<br>d) Ağacın altında qoyunun dərisinin içinə girib başladı iməkləyə-iməkləyə sürüyə tərəf getməyə.<br>d) Cəld özünü verdi qoyunların arasına<br>d) Mən sualların cavabını düz tapsam, bizim kəndimizə toxunmamalısan, bir də zindana saldığın qocalarımızı azad eləməlisən, tapa bilməsəm, nə istəyirsən elə. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c)gündəlik məşğuliyyəti | b) ovçuluq peşəsinə alışırdı<br>a) peşəkar ovçularla ova gedir<br>b) dəniz ovçusu həyatına başlamalı idi | |
| **Müəllifin bunlara münasibəti** | | Ağıl–göydən, səriştə–uşaqlıqdan.<br>Çörək gətirməyən oğul nəslə yükdür. | |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Dənizçi oğlan Kirisk** | **Əhməd** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | i) 11-12 yaşlarında<br>c) qaragözlü<br>h) kayakın lap burnunda oturmuşdu<br>c) sağlam, qarabuğdayı yanaqları qıpqırmızı olmuşdu<br>c) vəcdə gəlmiş, fərəhnak, saf uşaq gözləri | a) balaca<br>h) qoçaq |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca Orqan** | **Nurani kişi** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | c) günəş şüasını əks etdirən sulara baxmaq üçün gözünü qıymaq | |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | c) gülümsəmək istədi, lakin xəfif təbəssümü gizlətdi<br>c) zəhmli ağsaqqal | |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | a) çubuğunu ağır-ağır sümürmək | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | a) qayığın sükanını idarə edir<br>c) qayığın hərəkətlərinə kor-koranə istiqamət vermək | |
| **Müəllifin bunlara münasibəti** | | | |

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca Orqan** | **Nurani kişi** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | c) qəhvəyi sifətli<br>e) arıq, iri hülqumlu<br>c) saç-saqqalı çallaş-mışdı, ağarmışdı<br>c) çal qaşları<br>c) yaşaran, qan sa-ğılmış gözlər<br>f) gözlərini adəti üzrə qıymaq<br>e) baxışları hərarət saçırdı | i) yaşı yüzdən ötmüş bir qoca<br>e) nurani kişi<br>e) şikəst olduğu üçün<br>c) saç-saqqalı ağappaq qar kimi<br>c) gözləri tutulub<br>f) əlini alnına qoyub |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqı-rarkən və s.) necə eşidildiyi | | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | d) iri, kələ-kötür əlləri<br>a) boynunu dərin qat-qırış basmış<br>c) əlləri çat-çat olmuş | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

## *Sinifdənxaric oxu*
## Nizami Gəncəvi. “Ovçu ilə itin və tülkünün hekayəti”

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 4. Əsərin ideyasını müəyyən edir, əsaslandırılmış münasibət bildirir (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.).

Yaxşı olar ki, məktəbdə belə bir ənənə yaradasınız: sinifdənxaric oxu dərsləri kitabxanada və ya kompüter laboratoriyasında keçirilsin. Çalışın ki, sinifdənxaric oxu məqsədilə dərsliyə daxil edilmiş bədii nümunə yeganə oxu materialına çevrilməsin. Dərsin təsadüf etdiyi tarixi gün, bayram, təbiətdə baş verən hadisələr sinifdənxaric oxu zamanı müraciət edəcəyiniz mövzunu müəyyənləşdirməkdə yardımçınız ola bilər.

**OVÇU İLƏ İTİN VƏ TÜLKÜNÜN HEKAYƏTİ**

Tez görən, uzaqgörən, usta bir ovçu vardı,
Gəzib biyabanları, ov yerini tapardı.

Bəd bir iti vardı ki, çeviklikdə şir, aslan,
Günəş şüalarını ceyran belində tutan.

Kərgədan tük salardı boynunun qüvvəsindən,
Çöl eşşəyi dişindən, dağ kəli zərbəsindən.

Yolçuluqda ovçunun dostu, arxadaşıydı,
Çox işinə yaramış vəfalı yoldaşıydı.

Gecə keşik çəkən it gündüz əmrə müntəzir,
Görərdin ki, onunçün qida gəzir, yem gəzir.

Bir gün aslan ovçunun yox oldu aslan iti,
Ovçunun göz yaşları ciyərlərini diddi.

Bildi ki, dərd əlindən qanə dönsə də ürək,
Ciyərini dişində tutub tab etmək gərək!

Ovçu dözdü, səbrinin misqal boyda arpası,
Bəlkə, bir dirhəm qədər xeyir gətirdi azı.

Ovçunun qarşısına bir tülkü çıxdı lapdan,
Dedi: — Səbir etmək olmaz, sən ey səbirli insan!

Eşitdim ki, eşsiz qüdrət, hünər yolçusu
Dünyadan köçüb gedib... Nə qəm, başın sağ olsun!

Bir anda yaxalardı yüz cüyürü, ceyranı,
Oldu zirəkliyinin, çəldliyinin qurbanı.

Bilirəm, sənin üçün bu dərd hər şeydən betər,
Ovladığın qəm-kədər sənə iki ay yetər.

210

Sinifdənxaric oxu dərsində hansı əsərə müraciət edilsin deyə, bir sual qarşısında qalarkən bu dərsin heç bir tarixi günə təsadüf etmədiyi aşkar ola bilər. O zaman bu günlərdə öyrənilən bacarıqlar üzrə iş baxımından əlverişli şərait yaradan, şagirdin yaş səviyyəsinə uyğun olan istənilən bədii nümunəyə müraciət edə bilərsiniz.

Sinifdənxaric oxu dərsləri öyrənilmiş məsələlərin digər mətnlər üzrə tətbiqinə şərait yaratmaqla yanaşı, şagirdlərin dünyagörüşünü genişləndirir və bu dərslər keçilərkən şagirdin marağı nəzərə alınır. Fəsillər və ya tədris vahidləri boyu öyrənilmiş bacarıqların tətbiqinə geniş imkan verən əsərlər seçilib əlavə oxu bölməsinə daxil edilmişdir.

Kitabxanadakı ədəbiyyatdan istifadə etməzdən əvvəl şagirdlərin kitabxananın üzvü olmasını təmin edin. Bu sahədə məktəb kitabxanaçısı ilə yaxından əməkdaşlıq etməlisiniz.

Bu əsərdə it və tülkü obrazları qarşılaşdırıla, onlara şagirdlərin münasibətləri müzakirə edilə bilər.

Qalx, bu ovdan kabab çək, ver könül ziyafəti,
Dərisi dərvişlərin, əti ovçu qisməti.

Bilirəm, çox yemisən dadlı, ləzzətli xörək,
Bir də yağlı tülkülər əlinə keçməyəcək.

Yağlıyıq, yavanıqmı? Düşündürmür heç səni,
Süfrəmizdən çəkmisən iştahının əlini.

Nə yaxşı ki uzağam daha sənin torundan,
Nə yaxşı ki azadam şikarından, darından.

Sirdaşından ayrısan, bəs bu nə cür vəfadır?
Qəm yemirsən... bəs nədən ciyərlərin yaradır?

Ovçu dedi: — Doğacaq... hamilədir bu gecə,
Qəmim bircə günlükdür, keçib gedər indicə.

Bircə bundan şadam ki, bu ölümlü dünyada
Sevinc, kədər həmişə bir-birini qovmada.

Bu boş, fani dünyada, bu dəyişən qəlibdə,
Xidmət, sərvət, səltənət elə gedib-gəlib də.

Hər şey keçib gedəcək: həm Ay, ulduz, həm fələk,
Rahatlıq da, möhnət də bir gün sona yetəcək.

Bir azca şadlanıram dərdim, qəmim olanda,
Çünki sevinc müjdəsi gətirir qəm cahanda.

Bu qəmdən Yusif kimi mən bəlaya uğradım,
Fəqət qurd deyiləm ki, dərddən dərimi yırtım.

Ey tülkü, şad olma ki, mənə dağ çəkdi fələk,
Hələ sənintək şikar əlimə çox düşəcək.

Ovçu bunu deyərkən yollar toza büründü,
Toz pərdəsi dalından cəsur köpək göründü.

211

Əvvəlcədən işinizin keyfiyyətli təşkili üçün kitabxanada olan ən yararlı bədii nümunələri müəyyənləşdirməlisiniz. Uşaqlara lazımi tövsiyələr vermək zərurəti yaranan zaman siz onların suallarına cavab vermək iqtidarında olmalısınız. Odur ki problem baxımından bir gün əvvəl kitabxanada araşdırmalar aparın və müvafiq qeydlər götürün.
Kitabxanada oxunu müxtəlif iş formalarında təşkil edə bilərsiniz: fərdi, cütlərdə, qruplarda, kollektiv.

Xeyir və şər, tənbəl və çalışqan, elmli və elmsiz, iradəli və iradəsiz və s. kimi qarşılaşdırma imkanı verən obrazlarla zəngin bədii nümunələr bu dərsdə oxunub müzakirə edilərsə, indiyə qədər əldə edilən bacarıqların (ideyanın, bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi, rolunun aydınlaşdırılması, hadisələrin ardıcıllığının, süjet xəttinin, mətnin elementləri xəritəsinin hazırlanması və s.) müxtəlif əsərlər üzrə iş şəraitində möhkəmləndirilməsi təşkil və təmin edilə bilər.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İdeyaya əsaslandırılmış münasibət bildirir | | | | | |
| 2. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 3. | Əməkdaşlıq | | | | | |
| 4. | Nitq bacarığı | | | | | |

## Nəriman Süleymanov. “Birinci cığır”

*(Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdəki obrazları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Qış tətilindən dönmüş şagirdlərlə “Tətili necə keçirdiniz?” mövzusunda qısa söhbət aparılandan sonra dərsin elə bu mövzuda olacağı deyilir: “Gəlin qışda baş verən bir hadisə haqqında oxuyaq. Görək qış tətilində başqa uşaqların başına hansı hadisələr gəlib? Sizin bu hadisələrə münasibətiniz çox maraqlıdır”.

Müəllim davam edir: “Uşaqlar, biz bu müddət ərzində bədii əsərləri həm təklikdə, həm cütlükdə, həm də qruplar formasında oxumuşuq. Yoldaşlarımızla birgə oxumağın üstünlükləri var. Heç olubmu ki, bir şeyi başqasına başa salanda özünüzün də əvvəlkindən daha yaxşı başa düşdüyünüzü hiss edəsiniz? Bu, doğrudan da, belədir. Odur ki gəlin bu əsəri cütlərlə oxuyaq”. (Belə söhbətlər şagirdlərə birgəfəaliyyətin əhəmiyyətini dərk etməkdə yardım edir, onların ictimailəşməsinə dəstək verir.)
Cütlərdə oxu şagirdlərin yalnız ictimai bacarıqlarının deyil, həm də dinləmə bacarıqlarının inkişafına xidmət edir.

**Obrazın təhlili** zamanı müəllifin obraz haqqında əsərə daxil etdiyi fakt və məlumatlar seçilib ayrılır, onlar üzərində düşünülüb nəticələr çıxarılır.

Obrazla bağlı fakt və məlumatlar nə qədər uğurlu **təsvir edilərsə** (təsviri xarakterli mətnlərdə) və ya onun **haqqında danışılarsa** (nəqli xarakterli mətnlərdə), təhlil imkanı da o qədər geniş olar.

***Tapşırıq 5.***

1. Bədii nümunələri janr xüsusiyyətlərinə görə müqayisə edin, öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin. Fərqli fikirlərə diqqətlə yanaşın.
2. 3-cü cədvələ əsasən (səh. 17) “Oxudan sonra” təlimatını yerinə yetirin.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağınıza uyğun olan bir mətni oxuyun. Təqdim edilmiş iş vərəqindən istifadə etməklə əsas obrazı təhlil edin.

**NƏRİMAN SÜLEYMANOV. “BİRİNCİ CIĞIR”**
**(ƏSƏRDƏKİ OBRAZLARIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ BAXIMINDAN MÜQAYİSƏSİ)**

Bəzi bədii nümunələrdə obrazlar xarici görünüşü, ictimai vəziyyəti baxımından incəlikləri ilə təsvir edilir. Bəzilərində isə obrazların iştirakı ilə baş verən hadisələr haqqında danışılır. Siz artıq təsviri xarakterli mətnlərdə təsvir edilən, nəqli xarakterli əsərlərdə haqqında danışılan obrazları araşdırmağın yollarını bilirsiniz. Siz, həmçinin obrazların xüsusiyyətlərini ümumiləşdirməklə onlar haqqında mühakimələr də yürütməyi öyrənmisiniz. İndi isə bir əsərdə iki obrazın təhlili ilə bağlı zəruri fəaliyyətləri yerinə yetirəndən sonra onlar haqqında gəldiyiniz qənaətləri qarşılaşdıracaq, mühakimələrinizi əsaslandıracaqsınız. Bu, insanların xüsusiyyətlərindən çıxış edərək onlar haqqında qənaətə gəlmək, münasibətinizi düzgün qurmaq üçün əhəmiyyətli həyati bacarıqdır. Elə əsərlər var ki, orada obrazlar dəqiqliklə təsvir edilmir. Sadəcə, onlar haqqında danışılır. Beləliklə, obrazlar oxucuya müxtəlif şəkildə təqdim edilə bilər.

98

Cütlərlə oxu üsulu ilə əvvəlki dərslərdə sinifdə işlər aparılıb. Cütlükdə şagirdlər oxuya hazırlıq işləri aparır və oxu prosesi başlanır. Birinci tərəf oxuyur, ikinci tərəf onu diqqətlə dinləyərək tapşırıq 1-də verilən “obraz haqqında məlumat” sxemi üzrə iş aparır. Sonra vəzifələr dəyişir.

Cütlərdən hər iki tərəf oxunu başa çatdırır. “Oxu zamanı” prosesində yerinə yetirilməli idraki fəaliyyətlər mətnin kənarlarındakı yardımçı sualların vasitəsilə tənzimlənir. Oxu bitəndən sonra cütlərdəki tərəflərin ayrılıqda topladıqları məlumatlar bir araya gətirilir. Onlar cütlükdə məlumatları qarşılaşdırır, müzakirə edirlər. Fərqli fikirlər üzərində düşünür, ortaq məxrəcə gəlirlər. Vahid təqdimat hazırlayırlar.

**BİRİNCİ CIĞIR**

Sizcə, söhbət hansı cığırdan gedir?

Südabə xala həmişə səhər tezdən durar, uşaqları qalxanadək lazım olan işləri görər, onlar üçün çay-çörək hazırlayardı.

Bu səhər də hamıdan qabaq oyandı. Qalxmaq istədi, amma gördü canı ağrıyır, durmağa da həvəsi yoxdur. Bildi ki, xəstələnib. Yerinin içində astadan öz-özünə danışdı:

— Mən durmasam, iş aşmaz. Gedim bulaqdan su gətirim. Çay qoymaq lazımdır. Hələ uşaqlar əl-üzlərini də yuyacaqlar.

Sən demə, evdə qoca nənə oyaq imiş.

— Ay Südabə, yaman qar yağıb, — dedi, — əynini qalın elə.

Canında üşütməsi olan Südabə xala dedi:

— Tərs kimi özüm də xəstələnmişəm.

— Eləsə, durma yerindən! — qoca nənə Südabə xalanın qalxmasına etiraz etdi.

— Bəs evin işi necə olsun?

— Maşallah, yekə uşaqlardır. İndi onları qaldıraram. Hərəsi bir işin qulpundan yapışar. Mən özüm də evdə...

Südabə xala razılaşıb yerinə uzandı. Qoca nənə durub geyindi. Sonra nəvələrindən birinin çarpayısına yaxınlaşdı və onu dümsüklədi:



100

Təqdimatlar dinlənilir.
Yanlış olduğunu bildiyiniz fikirlərə özünüz münasibət bildirməyin. Həmin fikirləri sinfin müzakirəsinə yönəldin:
“Daha kim bu fikirdədir?”
Əgər bu fikirdə olan başqaları da varsa, onlar da dinlənilir. Sonra müəllim: “Bu fikrə fərqli münasibəti olan var?” – deyə soruşur. Həmin fikirlər də dinlənilir. Fikrin yanlış və ya doğru olduğuna əminlik yaratmaq üçün şagirdləri daha dərindən düşündürən kiçik suallardan istifadə edilir.

Oxudan sonra fəaliyyəti üzrə iş aparıb şagirdləri əsərin ideyası üzərində düşündürməyi unutmayın.

Bu əsərin oxusunda əsas məqsəd obrazların qarşılaşdırılması olduğundan dinləyən tərəf iki, üç obraz baxımından sxem üzrə iş aparır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Nitqində yeni sözlərdən istifadə | | | | | |
| 4. | Obrazların səciyyələndirilməsi | | | | | |
| 5. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 6. | Fərqli fikirlərə hörmət | | | | | |
| 7. | Janr xüsusiyyətinə görə fərqləndirmə | | | | | |

# Nəriman Süleymanov. “Birinci cığır”
## *(Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi)*

**Təlim məqsədi**

1. Əsərdəki obrazları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Yeni sözlərdən təqdimatlarda istifadə edir (2.1.1.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim şagirdlərə müraciət edərək əsər üzərində hansı fəaliyyətlərin aparıldığını soruşur. Cavab alır *(İlkin biliklər)*.

Bəli, biz əsərdəki obrazlar haqqında məlumatlar topladıq, bəzi qənaətlərə də gəldik. İndi isə deyin, daha hansı işləri aparmaq istərdiniz? Cavablar alınır *(Öyrənmək istədikləri)*. Müəllim bildirir ki, biz məlumat toplayırıq, təhlillər edirik ki, qənaətlərə gələk, mühakimələr yürüdək, elədirmi? *Əks halda ya məlumat toplamaq, ya təhlillər aparmaq bizim nəyimizə gərək olardı?*

Şagirdlər təlimatlandırılır ki, keçən dərs obrazlarla bağlı üzərində məlumat topladıqları və təhlillər apardıqları sxemlərdən istifadə edəcəklər. Həmin obrazların əməl və davranışları barədə mühakimələr yürüdəcəklər *(Öyrənmənin məqsədi müəyyən edilir)*.

***Tapşırıq 2.***

1. Əvvəlki dərsdə oxuduğunuz əsərin obrazları haqqında məlumat toplamısınız. Həmin məlumatlara bir daha nəzər salın. Təqdim edilən sxemlərdən istifadə etməklə əsərin obrazlarını davranış və əməllərinə görə səciyyələndirin. Onlar haqqında əsaslandırılmış mühakimə yürüdün. Gəldiyiniz qənaətləri yoldaşlarınızla müzakirə edin, onların diqqətəlayiq fikirlərindən yararlanın.
2. Əsərdə və sxemdə qarşılaşdığınız yeni sözlərdən təqdimatlarınızda istifadə edin.







102

Əsərdəki obrazları xüsusiyyətləri baxımından müqayisə etmək əhəmiyyətli həyati bacarıqdır. İnsanları hər hansı xüsusiyyəti baxımından fərqləndirməklə, onlarla münasibəti necə quracağınız haqqında düşünərkən bu bacarıqlar yardımçınız olacaqdır.

**A**

Şagirdlər ikinci tapşırığın icrasına başlayırlar. Bu dəfə artıq obrazlar haqqında əldə olan məlumatlardan çıxış edərək onların xüsusiyyətləri ilə bağlı mühakimələr yürüdürlər.

**B**

Üçüncü tapşırığın icrası şagirdlərdən hər obrazla bağlı gəldikləri qənaətləri qarşılaşdırmaq və müqayisə etmək kimi fəaliyyət tələb edir. Bunun üçün də qarşılaşdırma-müqayisəetmə cədvəlindən istifadə etməyə istiqamətləndirilirlər.

***Tapşırıq 3.***

Siz artıq əsərdəki obrazların davranış və əməllərinə görə səciyyəvi cəhətlərini müəyyənləşdirmisiniz. Obrazları həmin cəhətlər baxımından qarşılaşdırın.

Bu zaman "Qarşılaşdırma-müqayisəetmə" formasından (cədvəl 6, səh. 20) istifadə edin və təqdim edilən sxem üzrə iş aparın.




***Tapşırıq 4.***

1. Çıxardığınız nəticələri yoldaşlarınızla müzakirə edin. Əsaslandırılmış fikirləri nəticələrinizə əlavə edin.
2. Müzakirə edərkən obrazlı sözlərdən və ifadələrdən nitqinizdə istifadə edin.

***Tapşırıq 5.***

"Oxudan sonra" təlimatını yerinə yetirin, oxuduğunuz mətni qiymətləndirin:

— Əsər hansı janrda yazılmışdır? Fikirlərinizi əsaslandırın.
— Fikirlər dəqiq ifadə edilmişdirmi? Ümumiyyətlə, fikrin ifadəsi sizi qane edirmi?
— Oxuduqlarınızı ətrafınızda baş verən hadisələr və digər oxuduğunuz mətnlərlə əlaqələndirin.
— Oxuduğunuz mətn üzərində düşünün. Bu əsərdən hansı qənaətə gəlmək olar?
— Mətnin sonunda nə kimi dəyişiklik etmək istərdiniz?

103

Cütlər son sxem üzrə gəldikləri qənaətləri yoldaşlarına təqdim edir, hər iki və ya üç obraza münasibətlərini bildirir, fikirlərini əsaslandırırlar.

Ev tapşırığı verin. "Siz ailədə hansı vəzifəni daşıyırsınız? O kiçik dövlətdə sizin məsuliyyətləriniz varmı? Bir dəfə öz vəzifənizi yerinə yetirən zaman hansı hadisə baş verdi?" Bu barədə nəqli esse yazın (3.1.1., 3.1.2., 3.1.3.).

Şagirdlərin müəlliflə tanışlığına şərait yaradılır. İKT-nin imkanlarından istifadə etməklə müəllif haqqında PP təqdimat edilə bilər.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Yeni sözlərdən nitqdə istifadə | | | | | |
| 2. | Obrazların səciyyələndirilməsi | | | | | |
| 3. | Müzakirələrdə fəal iştirak | | | | | |
| 4. | Əməkdaşlıq | | | | | |

## Nizami Gəncəvi. “Yaralı bir uşağın dastanı”
## Mirmehdi Seyidzadə. “Əqrəb və Çanaqlı bağa”
## *(Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində oxşar və fərqli cəhətlərin qarşılaşdırılması)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Fikirlərini əsaslandırmaq üçün əsərdən sitatlar gətirir (3.1.1.). 5. Bədii əsərləri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir (1.1.4., 1.2.1.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.).

Müəllim şagirdlərdən hansı tarixi günün yaxınlaşdığını soruşur. Cavab alandan sonra bu gün haqqında nə düşündüklərini sual edir: “Sizcə, bu gün xalqımızın tarixinə necə daxil olub?” Uşaqların cavablarından “qəhrəmanlıq salnaməsi kimi”, “azadlıq mübarizəsi kimi”, “müstəqillik mücadiləsi kimi” və s. variantlar təqdir edilir. “Matəm kimi”, “kədərli gün kimi” fikirlərinə sətiraltı ismarıc göndərilir. Əlbəttə, bu gün bizim igid oğullarımız həlak olsalar da, bu, Azərbaycan xalqının öz iradəsini və azadlığını nəyin bahasına olursa-olsun alacağını bildirdi. Bu səbəbdən bu gün bizim xalqın tarixində qürur duyduğumuz bir gündür.

İllərlə özünü bizə “qardaş” elan edənlərin törətdiyi qırğınlar bizi daha dərin düşünməyə sövq edir.

**NİZAMİ GƏNCƏVİ. “YARALI BİR UŞAĞIN DASTANI”**
**MİRMEHDİ SEYİDZADƏ. “ƏQRƏB VƏ ÇANAQLI BAĞA”**
**(TƏSVİRİ VƏ NƏQLİ XARAKTERLİ ƏSƏRLƏRDƏ OBRAZLARIN TƏQDİM EDİLMƏSİNDƏ OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİN QARŞILAŞDIRILMASI)**

Siz artıq hər hansı bir əsərdə iki obraz haqqında məlumat toplamağı, onlar əsasında mühakimə yürütməyi və qarşılıqlı müqayisə etməklə onlara əsaslandırılmış münasibət göstərməyi öyrənmisiniz. Bu dərsdə isə siz bu fəaliyyəti bir qədər fərqli şəkildə həyata keçirəcəksiniz. Ayrı-ayrı əsərlərin qəhrəmanlarını təqdim edilən xüsusiyyətlər baxımından araşdıracaq, əldə etdiyiniz məlumatlar əsasında onlar haqqında fikirlər yürüdəcəksiniz. Sonra həmin fikirləri qarşılaşdırıb müqayisə edəcəksiniz. Həcm baxımından daha geniş, süjet baxımından daha mürəkkəb əsərlərdəki obrazları bu şəkildə qarşılaşdırmaq və onlar barədə müqayisəli mühakimə yürütmək sizin əlaqələndirmək bacarığınızı daha da inkişaf etdirə bilər.

NÜMUNƏ




*Tapşırıq 1.*

1. Nizami Gəncəvinin “Yaralı bir uşağın dastanı” və Mirmehdi Seyidzadənin “Əqrəb və Çanaqlı bağa” başlıqlı əsərlərini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın.
2. Yardımçı sualları cavablandırmaqla bədii nümunələri oxuyun. Hər iki əsərdəki əsas obrazları müəyyən edin.
3. Əsərdəki obrazların təsvirində səciyyəvi cəhətləri və gəldiyiniz qənaətləri sxemə daxil edin.

105

İnsanlar gərək hər dost deyənin, həqiqətən, dost olub-olmadığını yoxlasın. Elə olur ki, dost seçərkən səhvlərə yol verilir, bunun çox gözlənilməyən nəticələri ola bilər. Bu gün biz sizinlə iki əsər oxuyacağıq. Söhbətimizi oxudan sonra davam etdirəcəyik.

Əsəri oxumaq üçün sinif iki yarımqrupa bölünür. Birinci yarımqrup bir əsəri, ikinci yarımqrup digər əsəri oxuyur.

Hər yarımqrup özü də iki qrupa bölünür. Hər qrup bir obrazı araşdırmaqla birinci iki qrup bir əsərdəki obrazları, o biri iki qrup isə digər əsərdəki obrazları araşdırır (dərslikdə təqdim edilən sxem üzrə).

Sonra bir əsər üzrə araşdırma aparan iki qrup birləşir. 2-ci tapşırığa verilən cədvəl üzrə araşdırılmış obrazları qarşılaşdırıb onların oxşar və fərqli cəhətlərini müəyyən etmək üçün aşkar etdikləri məlumatları və gəldikləri qənaətləri cədvələ daxil edir və bir yekun təqdimat hazırlayırlar.



**YARALI BİR UŞAĞIN DASTANI**

Sizcə, bu hekayətdə söhbət nədən gedəcək?

Azadə böyümüşlər cərgəsindən bir uşaq
İki-üç həmyaşilə çölə çıxdı kefi çağ.
Elə ki yola düşdü bu uşaq, birdən-birə,
Yüyürərkən ayağı sürüşdü, dəydi yerə.
Elə bərk yıxıldı ki, sındı birdən ayağı,
Qırılmışdı çox yaman varlığının dayağı.
Uşağın yaşıdları batdılar bundan qəmə,
Hey çarə axtardılar bu qəmə, bu matəmə.
Onu sevən bir uşaq dedi: "Çarə var gerçək,
Gəlin onu quyunun lap dibində gizlədək.
Ta ki bir gündüz kimi olmasın aşkar bu sirr,
Atasından xəcalət çəkmək yaxşı deyildir".
Ordakı uşaqlardan uzaqgörən bir nəfər
Şikəst olmuş uşağın düşməniydi müxtəsər.
Bu halı ölçüb-biçdi, sonra düşündü bir az,
Öz-özünə dedi ki, bu sirr gizlində qalmaz.
Mən ki həmin uşağın bir düşməniyəm, demək,
Bu işi eşidənlər, yəqin, məndən biləcək.
Uşağın atasına gedib tez verdi xəbər,
O da gəlib oğluna çarə gördü birtəhər.
Hər kimdə ki vardısa, ağıllılıq cövhəri,
O bacarır hər işi, parlar onun gövhəri.
Fələklərin bəndini açar ancaq o qoçaq
Ki, basa bilsin onun başına bir gün ayaq.
Fələyin az-çoxuna göz yuman gündən bəri,
Nizaminin işləri keçmişdir fələkləri.

***Nizami Gəncəvi***

Dostlarınızı dar günündə imtahan etmisinizmi?

Sizcə, burada bədii təsvir, yoxsa bədii ifadə vasitəsi işlənmişdir?

Oğlanın hərəkətini necə qiymətləndirirsiniz?

*Müəlliflə tanışlıq*

***Nizami Gəncəvi***
*Azərbaycanın böyük şair və mütəfəkkiri olmuşdur. Gəncə mədrəsələrində təhsil almış, şəxsi mütaliə sayəsində orta əsr elmlərini mükəmməl öyrənmişdir. Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Şərq ədəbiyyatı tarixində Nizami Gəncəvi ilk dəfə olaraq qadını yüksək insani keyfiyyətlərə malik ülvi varlıq kimi təsvir etmişdir. Şairə görə, yalnız əməkçi insan hörmət və məhəbbətə layiqdir. Nizami Gəncəvi həm də böyük vətənpərvər idi. Onun bütün əsərlərində öz xalqına böyük məhəbbəti aydın görünür. Dahi şairin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur.*

106

Hər yarımqrup öz araşdırdığı əsərdəki obrazlar barədə təqdimat edir. Fikirlərini əsərdən sitat və faktlar göstərməklə əsaslandırır.

Şagirdləri hər hansı məsələ ilə bağlı fikirlərini əsaslandırmağa sövq edin. Əgər şagird oxuduğu əsərdə ayrı-ayrı məsələlərə münasibət bildirərkən mövqeyini dəstəkləməyi bacarmırsa, oxuduğundan nəticə çıxara bilmirsə, bu o deməkdir ki, oxu üçün ayrılmış vaxt səmərəsiz sərf edilmişdir. Bu dörd fəaliyyət oxu prosesinin sonunda yerinə yetirilməli vacib fəaliyyətdir: 1) əsaslandırmaq; 2) münasibət bildirmək; 3) dəstəkləmək; 4) nəticə çıxarmaq.

İşçi vərəqlər yanaşı asılır. İki əsərdəki obrazların oxşar və fərqli cəhətləri müzakirə edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Öyrəndiyi yeni sözlərdən nitqində istifadə | | | | | |
| 2. | Obrazların əsas xüsusiyyətlərinin müəyyən edilməsi | | | | | |
| 3. | İfadəli nitq | | | | | |
| 4. | Fikrini sitatlarla əsaslandırma | | | | | |
| 5. | Müzakirə mədəniyyəti | | | | | |

## Nizami Gəncəvi. “Yaralı bir uşağın dastanı”
## Mirmehdi Seyidzadə. “Əqrəb və Çanaqlı bağa”
### *(Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində oxşar və fərqli cəhətlərin qarşılaşdırılması)*

**Təlim məqsədi**

1. Obrazları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 3. Yeni sözlərdən nitqdə istifadə edir (2.1.1.). 4. Bədii əsərləri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir (1.2.1.). 5. Müzakirələr zamanı ümumi rəyə gəlmək bacarığı nümayiş etdirir (2.2.1.).

**Müəllim üçün məlumat**

İnsanlar müxtəlif yollarla öyrənirlər. Elə şagirdlər var ki, onlar əsəri oxuyanda və ya hər hansı bir məsələni araşdıran zaman əvvəlcə onun hissələrini müəyyən edir, sonra onu tam şəkildə təsəvvür edə bilir. Elə şagirdlər də var ki, onlar məsələni birinci dəfədən tam şəkildə fəhm edir. Bu səbəbdən qabaqcıl pedaqoqlar birinciləri – “ağac insanlar”, ikinciləri – “meşə insanlar” adlandırırlar. Bu dərsdə də araşdırmalar xüsusidən ümumiyə doğru irəliləyib. Hər bir ağac haqqında aparılan araşdırmalar meşə haqqında təsəvvür yaradır.

**ƏQRƏB VƏ ÇANAQLI BAĞA**
*(Təmsil)*

Girmişdi Əqrəb bağa,
Gəlib Çanaqlı bağa
Əqrəblə sirdaş oldu,
Dost oldu, qardaş oldu.
İki əziz, mehriban
Yoldaş bağda bir zaman
Birlikdə yedi, içdi,
Günləri çox şən keçdi.
Bir gün qopdu bərk tufan.
Külək dostları bağdan
Götürüb çox şiddətlə
Atdı geniş sahilə.
Əqrəb dedi: — Dostum, sən
Üzüb çaydan keçərsən,
Mən burda qalaram tək.
Səndən ayrılmır ürək,
Olmuşuq yaxın həmdəm,
Qəlbimi sıxar dərd, qəm.
Bağa dedi: — Dostum, gəl,
Min arxama əlbəəl,
Çaydan keçirim səni.
Burax yersiz qüssəni,
Gedək başqa bir bağa.
Aldı mehriban Bağa
Arxasına Əqrəbi.
Bir az yol gedən kimi
Əqrəb sancdı dostunu.
Duyaraq Bağa bunu
Dedi: — Ay üzü qara,
Dost dosta vurar yara?
Əqrəb dedi: — Əzizim,
Qara olsa da üzüm,
Sancmaq məndə adətdir,
Sanma, bu, ədavətdir.
Baş vurdu suya Bağa
Söylədi: — Əqrəb qağa,

“Dostluq” dedikdə, nə başa düşürsünüz?

Siz onların dostluğuna necə baxırsınız?

Sizcə, Bağa dostunun sözlərini necə cavablandıracaq?

Dostlarınızın ağır günlərində onlara dəstək olmusunuzmu?

Sizcə, Əqrəb düzgün hərəkət etdimi?

107

Müəllim şagirdlərə müraciət edir: “Siz ötən dərs iki yarımqrupa ayrıldınız. Hər yarımqrup bir əsərdəki obrazları araşdırdı və nəticələrini təqdim etdi”.
Bu dərsdə isə kollektiv şəkildə aparılan iş davam etdiriləcək. Müəllim tapşırıq 3-də verilən cədvəli lövhəyə çəkir və ya İKT olan siniflərdə proyektor vasitəsilə lövhədə əks etdirir. Yarımqrupların ötən dərs apardıqları tədqiqatların nəticələri olan iş vərəqləri (obrazlar araşdırılan sxemlər) yenidən lövhədən asılır. Bu ona görə lazımdır ki, şagirdlər bir-iki gün əvvəl araşdırdıqları hər hansı məqamı unuda bilərlər və mühakimə yürüdərkən həmin məqamı nəzərdən qaçırarlar.

Kollektiv müzakirələr nəticəsində şagirdlər hər bir obraz haqqında mühakimələr yürüdürlər. Hər irəli sürülən fikir müzakirə edilir. Fikirlər fakt və sitatlarla əsaslandırılandan sonra müvafiq xanaya daxil edilir.
Beləliklə, hər iki əsərdəki əsas obrazlar haqqında (yaralı uşağa dost olan və dost olmayan oğlanlar, yaxud digər əsərdəki Çanaqlı bağa ilə Əqrəb) cədvəl 20-dəki beş suala cavab verilir.

Şagirdlərdən hər hansı birinin məsələ ilə bağlı müstəqil fikir yürütməsi və öz fikrini müdafiə etməsi müəllim tərəfindən yüksək qiymətləndirilməlidir. Belə fikirlər hörmətlə qarşılanmalıdır. Həmin məsələnin kollektiv müzakirəyə çıxarılması həm təlim, həm də tərbiyə baxımından böyük əhəmiyyət daşıyır.

Mənim də adətim bax  
Olub suya baş vurmaq.  
Əqrəbi atdı suya,  
Bağa çıxdı quruya.

***Mirmehdi Seyidzadə***

***Tapşırıq 2.*** N.Gəncəvinin “Yaralı bir uşağın dastanı” əsərinə əsasən verilən cədvəl üzrə tapşırığı yerinə yetirin. Obrazların oxşar və fərqli cəhətlərini müəyyən edin.

*Cədvəl 19*

| Araşdırılan məsələ | I uşaq | II uşaq | Münasibətiniz | |
|---|---|---|---|---|
| Davranışı | | | | |
| Söylədiyi | | | | |
| Hərəkəti | | | | |
| Hissləri | | | | |
| Məqsədi | | | | |
| Təsviri | | | | |
| Başqalarının söylədikləri | | | | |
| Müəllifin fikri | | | | |

***Tapşırıq 3.***

1. M.Seyidzadənin “Əqrəb və Çanaqlı bağa” əsərinə əsasən cədvəldəki tarşırıqları yerinə yetirin.
2. Obrazların əsas cəhətlərini müəyyənləşdirin və onlara münasibətinizi bildirərkən öyrəndiyiniz yeni sözlərdən istifadə edin.

*Cədvəl 20*

| | Əqrəb | | Çanaqlı bağa | |
|---|---|---|---|---|
| Bu obraz haqqında nə düşünürsünüz? | | | | |
| Onun hansı hərəkətləri belə düşünməyə əsas verir? | | | | |
| Bu obraza münasibətiniz necədir? | | | | |
| Bu obraz ən çox diqqətinizi nə ilə cəlb edir? | | | | |
| Siz onun yerinə olsaydınız, nə edərdiniz? | | | | |

108

Bu mərhələ bitəndən sonra müəllim şagirdləri hər iki əsərdəki obrazları qarşılaşdırıb, onların oxşar və fərqli cəhətlərini müəyyən etməyə dəvət edir.

Şagirdlər əsərlərin ideyası üzərində düşünməyə sövq edilir. Onlar, həmçinin əsərləri janr xüsusiyyətləri baxımından müqayisə edirlər.
Əsərlərdən biri mənzum hekayə, digəri təmsildir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Yeni sözlərdən nitqdə istifadə | | | | | |
| 2. | Obrazların xüsusiyyətlərini əlaqələndirmə və fərqləndirmə | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Janr xüsusiyyətlərinin müqayisəsi | | | | | |
| 5. | Ümumi rəyə gəlmə | | | | | |

## Sabir Əhmədli. “Dərs”

### *(Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri. Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsərin hissələrinə başlıq verir, planını tərtib edir, onların ardıcıllığını müəyyən edir (1.1.3.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 4. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.).

– Uşaqlar, yanvar ayının xalqımızın tarixinə azadlıq uğrunda mübarizə ayı kimi daxil olması barədə çox oxumuş, televiziyada bu hadisələrlə bağlı videomaterialları çox izləmişik. Bu gün isə biz bu məsələyə tamam başqa nəzər nöqtəsindən baxacağıq. O gün sizin kimi məktəbli uşaqlar nə edirdilər? Hansı hissləri yaşayırdılar? Cavablar dinlənilir *(İlkin biliklər)*. Həmin günlərdə məktəblilərin həyatında baş verən hadisələr haqqında daha nələri bilmək istərdiniz?
Həmin gün, sizcə, onların yaddaşında necə həkk olub? *(Əlaqələndirmə)* Gəlin Sabir Əhmədlinin “Dərs” əsərini oxuyaq, görək yazıçı həmin hadisələri bizə hansı ardıcıllıqda təqdim edir *(Oxu məqsədi müəyyən edilir)*.

*Müəlliflə tanışlıq*



***Mirmehdi Seyidzadə***

*Mirmehdi Seyidzadə Azərbaycan ədəbiyyatında görkəmli uşaq şairi kimi tanınır. O, uşaqlar üçün şeirlər, nağıllar, təmsillər yazmışdır. Əsərlərinin əsas mövzusunu Vətənə məhəbbət, dostluq, sədaqət kimi müsbət keyfiyyətlər təşkil edir. Şeirlərində insanın vətənpərvərlik duyğularını, saf məhəbbətini tərənnüm etmişdir. Şair uşaqları təbiət və canlı aləmlə yaxından tanış etmək məqsədilə xalq nağıllarına tez-tez müraciət etmişdir. Onun nağılları uşaqlar tərəfindən həmişə rəğbətlə qarşılanmış, maraqla oxunmuşdur. Şair təmsillərində də uşaqlar üçün əhəmiyyətli məsələlərə toxunub, mövzuların əxlaqi və tərbiyəvi olmasına fikir verib. Mirmehdi Seyidzadə tərcüməçi kimi də tanınmışdır. O, rus və Avropa ədəbiyyatının uşaq şeiri nümunələrini dilimizə tərcümə etmişdir. Bəstəkarlar şairin şeirlərinə musiqi bəstələmişlər.*

**SABİR ƏHMƏDLİ. “DƏRS”**
**(NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN QURULUŞU: MƏTNİN HİSSƏLƏRİ. NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRDƏ HADİSƏLƏRİN ARDICILLIĞININ MÜƏYYƏN EDİLMƏSİ)**



*Nə öyrənəcəksiniz?*
- İdeyanın müəyyən edilməsi mexanizmlərindən istifadə etməklə əsərin ideyasını müəyyənləşdirəcəksiniz.

Məktəbli dost! Əsərin hissələrini müəyyən etməyin nə qədər əhəmiyyətli bir bacarıq olduğunu aşağı siniflərdə qazandığınız təcrübədən bilirsiniz. Müxtəlif oxu fəaliyyətlərini yerinə yetirərkən həmin bacarıqlardan kifayət qədər bəhrələnmisiniz. Bu bacarıq oxuduğunuz əsərin məzmun və ideyasını sistemli dərk etməkdə sizə yardımçı olub. İndi isə həmin bacarıqları daha da inkişaf etdirmək istiqamətində işlər aparacaqsınız.

110

Şagirdlər (əsərdə baş verən hadisələrin sayı qədər) qruplara bölünür. Müəllim hadisələr baxımından hissələrə ayrılmış mətnin hər hissəsini bir qrupa verir. Bu parçanı oxuyub ona başlıq verməyi xahiş edir. Qruplarda oxu zamanı müəllim əsərdən parçanın ifadəli oxunmasına nəzarət edir. Yeri gəldikcə oxuyan şagirdlərə ifadəli oxu ilə bağlı düzəlişlər verir.

Müəllim dərslikdən istifadəyə icazə vermir. Şagirdlər onlara verilən əsərdən parçanı oxuyur və ona başlıq verirlər. Bütün qruplar fəaliyyəti başa çatdırandan sonra qrup liderləri gəlib hadisələrə verdikləri başlıqları lövhəyə yazırlar. Sonra ayrılıqda görüşür və hər kəs öz hadisəsi haqqında digər liderlərə məlumat verir. Ehtiyac duyulduqda liderlər hadisələrə verilən başlıqları müzakirə edib dəqiqləşdirmələr də apara bilərlər. Qrup liderləri öz qruplarına qayıdıb hər başlıqla bağlı hadisəni qısa şəkildə yoldaşlarına danışır.

Şagirdlər öz qruplarında hadisələrdən hansının birinci, hansının ikinci olduğu üzərində düşünürlər. Hər qrup öz təxmini hadisələr ardıcıllığı sxemini seçir (dərslikdə onlara üç sxem təqdim edilir), həmin sxemi iş vərəqinə çəkir və başlıqları həmin sxemə daxil edir. Qruplar öz variantlarını lövhəyə asır.

Keçən dərs ilindən bilirsiniz ki, nəqli mətnlər giriş, əsas hissə və nəticə çərçivəsində bir neçə hadisənin ardıcıl düzülməsi ilə yaranır. Oxuduğunuz bədii nümunələrdə hadisələri müəyyən etmiş, onların hansı ardıcıllıqla düzüldüyünü müəyyənləşdirmisiniz. Təcrübənizdən bilirsiniz ki, əsərdə hadisələrin ardıcıllığı ilə bağlı məlumatlılıq onun məzmununun nəqli işini də xeyli asanlaşdırır.

***Tapşırıq 1.***

1. Sabir Əhmədlinin "Dərs" hekayəsini oxumazdan əvvəl oxuya hazırlıq işi aparın. İlkin məlumatlardan çıxış edərək əsərdə hadisələrin ardıcıllığını və aşağıdakı sxemlərdən hansına uyğun gəldiyini müəyyənləşdirin. Hadisələrin ardıcıllığına uyğun gələn sxemi dəftərinizə çəkin və müvafiq qeydlər aparın.
2. Nəticələrinizi yoldaşlarınızla müzakirə edin, diqqətəlayiq fikirlərdən yararlanın, öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.









***Tapşırıq 2.*** Əsəri oxuyun. Əsərdə hadisələrə başlıq verin və uyğun gələn hadisələrin ardıcıllığının sxemini tərtib edin.

111

Tədqiqatlar növbəti dərsdə də davam etdiriləcəyindən və şagirdlərə özünüqiymətləndirmə imkanlarının yaradılması nəzərdə tutulduğundan təqdimatlar qiymətləndirilmir. Amma qrupların təqdimatları alınıb saxlanılır. Gələn dərs hər qrupun nəticəsi son doğru variantla müqayisə ediləcəkdir.

Növbəti dərsdə araşdırmaların davam etdiriləcəyi bildirilir və dərs başa çatır.

Qrup daxilində ayrı-ayrı şagirdlərin fəaliyyəti qiymətləndirilə bilər. Bu zaman qiymətləndirmə meyarlarından çıxış edilir.

Qrup üzvləri ilə bağlı qərarlar verərkən metodik vəsaitin 32–40-cı səhifələrində verilmiş təlimata əsasən aparılan tədqiqatdan çıxış edilməlidir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | Hissələrə başlıq verir | | | | | |
| 3. | Əməkdaşlıq | | | | | |
| 4. | Ümumi rəyə gəlmə | | | | | |

## Sabir Əhmədli. “Dərs”

***(Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri. Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)***

**Təlim məqsədi**

1. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 2. Əsərin hissələrinə başlıq verir, planını tərtib edir, onların ardıcıllığını müəyyən edir (1.1.3.). 3. Müzakirələr zamanı ümumi rəyə gəlir (1.2.2.).

– Uşaqlar, biz ötən dərsdə Sabir Əhmədlinin “Dərs” əsərində hadisələrin ardıcıllığının müəyyən edilməsi üzrə işlər apardıq. Bu gün bu istiqamətdə araşdırmalarımızı davam etdirəcəyik.
İndi isə gəlin birlikdə əsəri əvvəldən sona qədər oxuyaq.
Kollektiv şəkildə ucadan oxu keçirilir. Ayrı-ayrı hissələri fərqli şagirdlər oxuyur. Oxuduqca hər hadisəyə başlıq verilir və ardıcıl şəkildə lövhəyə yazılır.
Oxu başa çatana qədər bu proses davam etdirilir.

**DƏRS**

*(İxtisarla)*

Məktəbin direktoru çıxışda, pilləkən başında dayanıb gözünü darvazaya dikmişdi. Siniflər boşdu, yaxın evlərdən beş-on şagird gəlmişdi, onlar da eləcə dəhlizdə, həyətdə girlənib harasa itdilər.

İçəridə bir neçə müəllim vardı, budur, ikisi də gəldi. Rəngruhları qaçmışdı. Orası aydındır, niyə. Hər iki müəllim üst qapıdan gəldi. On-on beş dəqiqə qabaq orada, Şərifzadə küçəsinin Kiyev prospekti ilə kəsişdiyi yerdən avtomat atəşi qopmuşdu. Nəqliyyat işləmirdi, avtobus yox idi, deməli, piyada gəliblər.

Bu hadisələr haqqında daha nələri bilirsiniz?

— Nə atışma idi? — direktor soruşdu.

Müəllimin dilli-dilavəri söylədi:

— Tankdan atırdılar, tankın üstündə soldatlar vardı. Yerdə də atırdılar. Kimə atırdılar, nə üçün atırdılar, bilmək olur ki?! Bir “Jiquli” ötdü, onu vururdular, yoxsa küçədə kimisə...

— Hara gəldi, atırlar, — bu biri müəllim dedi.

Sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

— Heç ağlımıza gəlməzdi. Gündüzün günortasında bu qudurmuşlar... belə iş tutarlar. Bir də gördük, lap yaxınlığımızdaca **şilədilər**. Qaçıb birtəhər yaxındakı evin blokuna girmişik, neçəsi dükana, mağazaya soxuldu.

— Xətər yetirmədi?

— Vallah, bilmədik. Ötüb getdilər, biz də evlərin arası ilə qorxa-qorxa gəlmişik... Lap quduzlaşıblar. Ağına-bozuna baxmadan atəş açırlar. Qurtarmadı, qırdılar, ürəkləri soyumadı?

Direktor çönüb getdi və sifariş göndərib məktəbə gətirdiyi müəllimlərin bu hala düşməyində özünü təqsirkar bilsə də, üstünü vurmadı.

Müəllimlər direktorun ardınca içəri keçdilər.

Direktor “dərsə davamiyyət” adı altında bir ayaqüstü yığıncaq keçirəndə, iki rəfiqədən biri dilləndi:

— Nəqliyyat işləmir. Yollar qarışıqdır. Belə halda körpə uşaqların məktəbə gəlməyi təhlükəlidir.

— Hələ atışma da gedir bəzi yerlərdə.

— Alatavada bərk atışma olub. Elə ev yoxdur ki, ona bir xətər çatmasın. Neçəsini Şəhidlər xiyabanında dəfn ediblər...

— Məktəb işləməli, dərs keçilməlidir. Məsələ belə qoyulmuşdur. Xalqımızın başına müsibət gəlmişdir. Haqsız yerə qan tökülmüşdür. Evlərdə yasdır. Lakin bu bizim ruhumuzu öldürməməlidir.

112

Baş verən hadisələr qruplaşdırılır. Ola bilər ki, üç hadisə bir böyük hadisənin tərkib hissəsidir. Bu baxımdan müzakirələr davam etdirilir. Şagirdlərə müraciət olunur: “Uşaqlar, burada hansı hadisələr bir-biri ilə məzmun, hadisələrin baş verdiyi məkan və s. baxımından daha çox əlaqəlidir? Gəlin onları müəyyənləşdirək”.

Hadisələrin qruplaşdırılması üzərində də düşünüləndən sonra (ola bilər ki, bu əsərdə qruplaşmalar aparmaq mümkün olmasın. Yəni üç sxemdən yalnız ikisində qruplaşdırma mümkündür. Birində isə qruplaşdırma mümkün deyil) əsərdəki hadisələr ardıcıllığının “Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığı sxemləri”ndən hansına uyğun gəldiyi müzakirə edilir və qənaətlərə gəlinir.

Müəllim şagirdlərin ötən dərsdə təqdim etdikləri variantları asır və qrupları hər iki variantı qarşılaşdırmağa cəlb edir. Şagirdlər əsəri tam şəkildə oxumazdan əvvəl səthi məlumatlar əsasında gəldikləri qənaətlərlə əsəri dərindən araşdırandan sonra müqayisə edir, özlərinin fərziyyə yürütmə, proqnozlaşdırma bacarıqlarını bir daha dəyərləndirirlər. Bunun üçün özünüqiymətləndirmə cədvəli şagirdlərə təqdim olunur.

Axırıncı dərsləri keçmədilər ki, uşaqlar qaranlığa düşməsin. Belə dərsin bircəsi də bəsdi.

Çən-çiskinli havada müəllimə öz sinfi ilə birgə çıxdı. Düşdülər, müəllimə onları böyük işlək yolun o tayına keçirdi, dönə-dönə tapşırdı.

Xalqımızın başına gətirilən bu ağır faciədən bəhs edən hekayədən siz nə öyrəndiniz?

Alatavada uşaqlar keçmiş daş karxanasının yerində törənmiş Qanlıgölün yaxınından keçən torpaq cığırla uzaqlaşdılar. Tez getdilər. Yüngülləşmişdilər. Həm ürəkləri boşalmış, həm də çantalarında gətirdikləri gilizləri, qəlpə qırıqlarını, daş mərmiləri buradaca töküb vermişdilər məktəbə. Direktorun göstərişi vardı: atışmadan nə düşüb, nə qalıbsa, gətirsinlər.

Bir neçə də maşın gəlmişdi məktəbin qapısına. "Moskviç", "Jiquli"lərin qanadı əzilmiş, burnu ovulmuşdu. Salamat olanı da vardı, amma onların da elə içi düşmüşdü. Zədələnmiş qol-qanada, qapıya astar taxılmışdı. Gün ötəcək, quruyacaqdı. Üstdən öz rəngi çəkiləndə sezilməyəcəkdi.

***Sabir Əhmədli***

***Tapşırıq 3.*** "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17). Yoldaşlarınızla müzakirə edin: müəllif öz oxucusuna nə demək istəyib? Öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə etməyi unutmayın.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağınıza uyğun olan nəqletmə xarakterli bir bədii nümunə oxuyun. Hadisələrin ardıcıllığını müəyyən edin.

Əsərdə baş verən əhvalatlarda hər hansı dəyişiklik etməklə öz variantınızı yazın.

***Müəlliflə tanışlıq***



***Sabir Əhmədli***

*Sabir Əhmədli Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir. Yazıçı əsərlərində xalqın taleyində baş verən acılı-şirinli hadisələrin bədii təsvirini vermişdir. Onun əsərlərinin ana xəttini müasirlərinin arzu və düşüncələri, mübarizələri təşkil edir. Sabir Əhmədli televiziya müxbirinə 75 yaşdan sonrakı həyatının arzularını belə anlatmışdı: "Ürəyim düşmən tapdağında qalan Qarabağım, doğulduğum Cəbrayıl üçün nanə yarpağı kimi əsir. Ən böyük arzum doğma torpaqlarımızın azad olması, Cəbrayılda ömrümün sonunacan yaşayıb, onun torpağına qarışmaqdır..."*

116

| № | Proqnozlaşdırmanın qiymətləndirilməsi | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Hadisələrə verilən başlıqların dəqiqliyi | | | | | |
| 2. | Hadisələrin ardıcıllığının müəyyən edilməsi | | | | | |
| 3. | Hadisələrin qruplaşdırılması | | | | | |
| 4. | Dəqiq sxemləşdirmə | | | | | |

Şagirdlər oxudan sonra fəaliyyətini yerinə yetirməyə, əsərin ideyası üzərində düşünməyə sövq edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 4. | Müzakirələrdə ümumi rəyə gəlmə | | | | | |
| 5. | Obyektivlik | | | | | |

**Sabir Əhmədli. "Dərs" mətninin hissələrə ayrılması**

**21 Yanvar səhəri**

Yasamal təpəsində tikilmiş ikimərtəbə, eyvanları şüşəbənd məktəb atışma altında qalmasa da, bu məktəbdə çalışan müəllimlərin, orada oxuyan şagirdlərin ev-eşiyi, həyət-bacası yaylım atəşlərindən titrəmiş, Alatava yaman günə qalmışdı. Qanlıgölün o tayında yerləşən məhlə ayrı-ayrı ellərdən köçüb gəlmiş ailələrin yurdu idi, özləricə yastı-yapalaq daxmalar quraşdırmış, babatca dolanışıq düzəltmişdilər. Məhlə Salyan kazarması ilə qonşu idi. Şənbə gecəsi başlamış həmlənin odlu bir axını oradan, torpağa gömülmüş təki alçaqda, çökəkdə bozaran məhlənin arasından keçmişdi.

Məktəbin direktoru çıxışda pilləkən başında dayanıb gözünü darvazaya dikmişdi. Siniflər boşdu, yaxın evlərdən beş-on şagird gəlmişdi, onlar da eləcə dəhlizdə, həyətdə girlənib harasa itdilər.

Müəllimli, şagirdli min beş yüzlük bir ailənin himayədarı direktor elə bil üç gün gecə-gündüz şaqqıldayan atəşlərin sədasını eşitməmişdi, bu məktəbin də niyə belə boş qaldığı, yüzlərlə doğmasının, çalıb-çağıran oğlan-qızının səsinin kəsilməyi inanılmazdı.

İçəridə bir neçə müəllim vardı, budur, ikisi də gəldi. Rəng-ruhları qaçmışdı. Orası aydındı niyə. Hər iki müəllimə üst qapıdan gəldi. On-on beş dəqiqə qabaq orada, Şərifzadə küçəsinin Kiyev prospekti ilə kəsişdiyi yerdən avtomat atəşi qopmuşdu. Nəqliyyat işləmirdi, avtobus yox idi, deməli, ayaqla gəliblər.

– Nə atışma idi? – direktor soruşdu.

Müəllimənin dilli-dilavəri söylədi:

– Tankdan atırdılar, tankın üstündə soldatlar vardı. Yerdə də atırdılar. Kimə atırdılar, nə üçün atırdılar, bilmək olur ki? Bir "Jiquli" ötdü, onu vururdular, yoxsa küçədə kimisə...

– Hara gəldi atırlar, – dedi bu biri müəllimə.

– Heç ağlımıza gəlməzdi. Gündüzün günortasında bu qudurmuşlar... belə iş tutarlar. Bir də gördük, lap yaxınlığımızdaca şilədilər. Qaçıb birtəhər yaxındakı evin blokuna girmişik, neçəsi dükana, mağazaya soxuldu.

– Xətər yetirmədi?

– Vallah, bilmədik. Ötüb getdilər, biz də evlərin arası ilə qorxa-qorxa gəlmişik... Lap quduzlaşıblar. Ağına-bozuna baxmadan atəş açırlar. Qurtarmadı, qırdılar, ürəkləri soyumadı?

**Məktəb direktorunun tələbi**

Direktor dönüb getdi və sifariş göndərib məktəbə gətirdiyi müəllimlərin bu hala düşməyində özünü təqsirkar bilsə də, üstünü vurmadı.

Müəllimlər direktorun ardınca içəri keçdilər.

Otaqlar boşdu, müəllimlərin bir neçəsi alt mərtəbədə, bir qismi üstdə – siniflərin qarşısında, dəhlizdə gəzinir, boş sinfə girməyin mənasız olduğunu anlayıb pəncərədən həyətə, məktəbin qarşısından keçən küçəyə, su anbarının üstünü örtmüş, böyük futbol meydançasına bənzəyən çəmənliyə göz dikib qalmışdılar. Məktəbin yüzdən artıq müəllimi, tərbiyəçisi, texniki işçisi vardı. Hər biri şəhərin bir səmtində yaşayırdı. Hər kəs bir soraq yetirirdi, bundan da şənbə gecəsi Bakının başına nə gəldiyi barədə görüb bildikləri artırdı. Məktəb şagirdlərinin əksəriyyəti Alatava uşağı idi. Onların başına nə gəlmişdi, bircə bunu dürüst bilmirdilər. Ona görə də direktor "dərsə davamiyyət" adı altında bir ayaqüstü yığıncaq keçirəndə, iki rəfiqədən biri dilləndi:

– Nəqliyyat işləmir. Yollar qarışıqdır. Belə halda körpə uşaqların məktəbə gəlməyi təhlükəlidir.

– Hələ atışma da gedir bəzi yerlərdə.

– Alatavada bərk atışma olub. Elə ev yoxdur ki, ona bir xətər çatmasın. Neçəsini Şəhidlər xiyabanında dəfn ediblər...

– Məktəb işləməli, dərs keçilməlidir. Məsələ belə qoyulmuşdur. Xalqımızın başına müsibət gəlmişdir. Haqsız yerə qan tökülmüşdür. Evlərdə yasdır. Lakin bu bizim ruhumuzu öldürməməlidir. Həyat davam edir. Məktəbin işləməməyi nə deməkdir? Respublikada, Bakıda bir çox müəssisələr işi dayandırmışdır. Məncə, bunun yalnız ziyanı ola bilər. Biz, əgər respublikamızın suverenliyinə nail olmaq istəyiriksə, onda var gücümüzlə çalışıb, onun iqtisadiyyatını, kənd təsərrüfatını möhkəmləndirməliyik. Eləcə də bizim məktəb qapıları bağlı qala bilməz. Sabahımız, gələcəyimiz bu gün bizim elm öyrətdiyimiz, tərbiyə verdiyimiz gənclərdən, uşaqlardan asılıdır...

Daha nələr söylədi, amma o danışdıqca yaşlı, cavan, qadın, kişi müəllimlər direktorun öz halını düşündülər. Hamı bilirdi: komendant kəskin şərt qoymuşdu. Bütün maarif müəssisələri, uşaq bağçaları, körpələr evi işə başlamalıdır. Uşaqlar məktəbə gəlməli, bağçaya, körpələr evinə verilməliydi ki, valideynlər zavodlara, dəzgah arxasına getsinlər. Xəbərdarlıq edilmişdi: kim, hansı məktəb işləməsə, Bakı komendantlığı bunu itaətsizlik təki qiymətləndirəcək və həmin məktəb, həmin maarif şöbəsi barədə ölçü götürüləcək.

Direktor komendantın bu göstərişini qabartmasa da, onun boğulub-qaralmağı düşdüyü halın, aldığı əmrin kəskinliyini apaydın çatdırırdı. Doğrusu,

müəllim-tərbiyəçi həmkarlar onlara başçılıq edən direktorun halına da yanırdılar.

**Bir həftədən sonra məktəbdə**

İkinci növbənin uşaqlarının gəlişi daha çətindi, axırıncı dərs qaranlığa düşürdü. Gülzar müəllimənin sinfi ikinci növbə idi.

– Sənin uşaqların gəliblər! – dedi direktor, ürəyində müəlliməyə minnətdarlıq oyandı. Tapşırıq belə idi: söhbət aparın, uşaqları sakitləşdirin. Qaranlığa saxlamayın.

Guya, uşaqlar hamısı birdən itirilərdi, guya, onların bəstəboy, istəkli müəllimələri bir yayğın gülədən ölər, yaralanardı. Bəs niyə soraq tutmayıblar bu neçə gündə? Nə onlar bundan, nə bu onlardan.

Otuz iki uşaqdan on səkkizi gəlmişdi. Gəlməyənlərin yeri boşdu, sinif, boş qalmış partalar ah çəkirdi elə bil.

– Necə gəldiniz, uşaqlar?– soruşdu müəllimə. Elə bil nə qanlı atışmalar olmuşdu, nə bir həftə məktəbə gəlməmişdilər. Müəllimə həminki geyimində, sual da həmin ahənglə. Ona görə də uşaqlar çaşdılar.

Müəllimə sinfin ən danışqan oğlanına göz qoydu. Hə, bu başlasa, qatıb-qarışdıracaqdı. Amma hamı bilirdi ki, müəllimə onu çox istəyir, həm də sinifdə haçan nə baş versə, Gülzar müəlliməyə çatdıran bax, hamanca bu cıbıldız Məqsəd olurdu.

– Mən, Aydın, Sənubər bir gəlmişik, müəllimə.

– Sakitlikdirmi sizin məhlədə?

– Müəllimə, müəllimə! Bizim qapının lap ağzında... bir tank dayanıb.

– Bəs Sona niyə gəlməyib? – müəllimə Məqsədlə bir partada oturan qızı soruşdu.

Kimsə dilləndi, qəhərdənmi, qorxudanmı sinfə göz dolandırdı. Məqsəd dil-dodağı təpimiş halda tezcə dedi:

– Onun... müəllimə, Sonanın qardaşı ölüb!

İlk partada təkcə əyləşmiş Zivər soruşdu:

– Siz Şəhidlər xiyabanına getməmisiniz, müəllimə? Sonanın qardaşını orada dəfn ediblər. Şəkli də qəbrinin üstündə.

Bundan sonra hamı susdu. Müəllimənin indi ağlına gəldi; onun uşaqlarının əgər yaxın bir kəsi həlak olmuşdusa, ya elə hamının, xalqın dərdinə şərik olmaq rizası ilə gərək içəri gircək bir dəqiqə sükutla ayağa qalxıb dayana idilər. Bax bu, düz olardı.

İndi müəllimə başqa boş partalara baxmaqdan çəkinir, soruşmaqdan yayınırdı.

– Qədirin də əmisi Tiflis prospektində tankın altında qalıb, – dedi Məqsəd. – Geri qanrılıb arxasındakı boş partaya vurdu əlini.

– Qaraxəbər!– pıçıldadı Məqsədin sağındakı oğlan. O da Alatavadandı, Məqsədin çatdırdığını da, bəlkə, ondan yerli-yataqlı bilirdi. Amma bu məqamda, hamının kədərli, yaslı olduğu bir vaxtda Məqsədin yenə özünü gözə soxmağından acıqlanmışdı.

– Otur aşağı!– deyib acıqlandılar. Çökdü partaya.

Uşaqlar baxdılar müəlliməyə, müəllimə qaldı nə desin. Balacaların ürəkləri dolu idi, gözləri uşaq qəlbinin çəkə bilməyəcəyi ağrıdan, qorxudan böyüyüb, eləcə donuqlaşmışdı. Dindirsən, qan ağlayacaqlar. Bəs onda necə olsun? Elə et ki, müəllimə, onların qubarı azalsın. Sən adicə bir şeydən söz aç, qoy uşağın ürəyinə dolmuş qorxu-hürkü səngisin.

– Uşaqlar!..

Təmizlik komissiyasının başçısı Əfsanə lap arxadakı partadan ayağa qalxdı. Ağır, azdanışan qızdı, sinifdə hamı onu sayırdı.

– Müəllimə, – dedi, – qəzetlər düz məlumat vermir. Yalnız Bakıda ölənlərin sayı üç yüzdən çoxdur! Komendant gizlədir. Atam deyir, əgər toqquşmada ölənlərin sayı yüzdən artıq olsa, gərək bu işə BMT-də baxılsın.

Məqsəd tezcənək yerindən atıldı:

– Mən öz gözümlə görmüşəm, müəllimə. Bizim... atamla voyentorqa getmişdik. Gördüm, – uşağın gözləri kəlləsinə çıxdı, dil-dodağı pöştələndi, onsuz nitqi aydın deyildi, indi də lap pəltəklədi – bizim qonşu məhlədən... uşaq, balaca oğlan çıxdı eşiyə... o yanda bir tank dayanmışdı. Onun yanından bir qıpqırmızı soldat avtomatdan atdı. Uşağın atası qışqırıb haray saldı. Oğlan yıxılmışdı, güllə dəymişdi. Kişi yerdən daş götürdü, qışqıra-qışqıra yüyürdü soldatın üstünə... soldat onu da vurdu. Sonra müəllimə... kişinin arva... uşağın anası səs eşidib özünü eşiyə atdı. Gördü orada kişi də yıxılıb uşağın yanına. İkisi də ölmüşdü, vallah, Allaha and olsun, müəllimə!.. Anası dəli kimi yüyürdü. Onlara çatanda... bir güllə də ona vurdular. Dəyəndə yıxılmadı, yerində fır-fır fırlandı. Sonra o da üzüüstə düşdü onların üstünə...

**Sinifdə 20 Yanvar sərgisi**

– Müəllimə, atam canı, and olsun Allaha, öz gözümlə gördüm! Yalan demirəm. Niyə yalan deyirəm? Budur... – deyib çantasını dartışdırdı. Əlini soxub oradan qəzetə bükülmüş bir şey çıxartdı. Bir əlin gücü çatmadı, iki əliylə yapışdı; çantaqarışıq, birlikdə götürüb partadan çıxdı. İcazəsiz cumdu müəllimənin masasına. Əllərini soxub bürməni çıxartdı, taqqıltı ilə qoydu sinif jurnalının üstünə.

Hamı boylandı, müəllimə ehmalca qəzet bükülüsünü araladı, açdı.

– Bu nədir, Məqsəd?

– Bunları tankdan atırdılar! Hə, bizim küçədə çoxdur. Eləsi vardı, qana bulanmışdı. Onu gətirmədim. Evdə neçəsi var. Məhlədən yığmışıq.

Doğrusu, tankların daş atmağı müəlliməyə də uydurma təki gəldi.

Alatavadan başqa uşaq Məqsədin köməyinə çatdı:

– Atırdılar, düzdür. Bizim məhlədə də divarlara dəyib deşmişdi.

Bir qarış uzunu, biləkdən yoğun lülə-daşdı. İki başdan mişarla kəsilmişdi. Müəllimə onu tərpətdi, qaldırmaq istədi, ağırdı. Bir daş parçasını tək əllə qaldıra bilməyəcəyindən utanıb, ikiəlli də qaldırmadı. Hamar daş lüləsi təkər təki masa üstə dığırlananda, Məqsəd yenidən atılıb daşı saxladı. Düşsə, bircə adamın ayağına toxunsa, sındıracaqdı. Çox ağırdı, elə bil içinə qurşun doldurmuşlar.

– Müəllimə! Onu mən gətirmişəm... – bilirdi, müəllimə nigarandı. Məqsədin bu ağırlıqda daşı çantasına qoyub, uzun yolu piyadaca gətirməkdə məqsədini soruşacaqdı. Bu uşaq soruşmazdan cavab verəndi – ... sərgimizə qoyacayıq!

Hə, məktəbdə hər sinfin sərgi guşəsi vardı. Tapdıqları, düzəltdikləri maraqlı əşyaları oraya qoyur, saxlayırdılar.

– Bir də müəllimə, mən bir bayatı yazmışam.

– Get əyləş, – dedi müəllimə. Məqsəd daş mərmisini masanın üstə qoyub qayıtdı yerinə.

**Qanlı Yanvar soraqları**

– Uçastkovumuzu da öldürüblər, müəllimə!

Müəllimə istədi desin bilirəm. Bayaq kimdənsə eşitmişdi.

Uşaq elə bil qəsdən, bir də söylədi:

– Bizim məktəbə gəlirdi, ha! Kök kişi idi. Buraya baxırdı, bizim məktəb onun sahəsi idi.

– Müəllimə, bilirsiniz, necə olub?.. Bir oğlan keçirmiş. Soldat yaxınlaşıb qabağını kəsib. Avtomatın qundağı ilə elə vurub ki, oradaca yıxılıb yerə. Sahə müvəkkili öz maşınında ötürmüş oradan. Saxlayıb maşını, düşüb gəlib. Görüb... soldata deyib, niyə vurdun onu?! Soldat avtomatı çevirib, uçastkovunun da ortasından... iki güllə vurub.

– Dünən olub, müəllimə.

Müəlliməni qınamırdı uşaqlar, bilməyə bilərdi. Amma əgər bu qətl dünən baş vermişdisə, deməli, müəllimə anlamalıydı ki, xata sovuşmayıb.

Axırıncı dərsləri keçmədilər ki, uşaqlar qaranlığa düşməsin. Belə dərsin bircəsi də bəsdi.

Çən-çiskinli havada müəllimə öz sinfi ilə birgə çıxdı. Düşdülər, müəllimə onları böyük işlək yolun o tayına keçirdi, dönə-dönə tapşırdı.

Alatavada uşaqları keçmiş daş karxanasının yerində törənmiş Qanlıgölün yaxınından keçən torpaq cığırla uzaqlaşdılar. Tez getdilər. Yüngülləşmişdilər. Həm ürəkləri boşalmış, həm də çantalarında gətirdikləri gilizləri, qəlpə qırıqlarını, daş mərmiləri buradaca töküb, vermişdilər məktəbə. Direktorun göstərişi vardı: atışmadan nə düşüb, nə qalıbsa, gətirsinlər.

Bir neçə də maşın gəlmişdi məktəbin qapısına. "Moskviç", "Jiquli"lərin qanadı əzilmiş, burnu ovulmuşdu. Salamat olanı da vardı, amma onların da elə içi düşmüşdü. Zədələnmiş qol-qanada, qapıya astar yaxılmışdı. Gün ötəcək, quruyacaqdı. Üstdən öz rəngi çəkiləndə sezilməyəcəkdi.

## Sinifdənxaric oxu
## Aşıq Ələsgər. “Gərəkdi”

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən öyrəndiyi yeni sözlərdən, obrazlı söz və ifadələrdən istifadə edir (2.1.1., 2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Biz artıq insanın xarici görkəmi, ictimai varlıq olaraq davranış və əməllərinin təsviri zamanı hansı məsələlərə diqqət etməyin lazım olduğunu öyrənmişdik. İndi bu sinifdənxaric oxu dərsində öyrəndiklərimizi xatırlayacaq və tətbiq edəcəyik. Bu bacarıq gündəlik həyatımızda insanları qiyabi tanıyan zaman bizə lazım olan çox əhəmiyyətli bacarıqlardır. Bu gün sizinlə birlikdə insanın təsvirinə yer verilmiş bədii nümunələri araşdıracağıq.

**1) Mövcud bilikləri müəyyən etmək üçün suallar:**

1. İnsanın xarici görkəmi təsvir edilərsə, o zaman hansı səciyyəvi cəhətlərinə diqqət yetirilməlidir?
2. Bəs insan ictimai varlıq olaraq təsvir edilərsə, o zaman hansı cəhətlərə əhəmiyyət verilməlidir?

**SİNİFDƏNXARİC OXU**

**GƏRƏKDİ**

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqla ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

*Aşıq Ələsgər*

205

**3) Oxu məqsədinin müəyyən edilməsi üçün sual:**

– Bu gün oxuyacağımız əsərlərdə görək bunlardan hansı ilə qarşılaşacağıq?

**2) Əlaqələndirmə sualları:**

Sizcə, bu bacarıqlar bizim nəyimizə gərəkdir? Bu bacarıqları harada istifadə edə bilərik? *(Uşaqların fərziyyələri yazılır və ya dinlənilir.)*

Müəllim bu dərsi kitabxanada keçə bilər. Sinifdə keçərsə, şagirdlərə xatırladılır ki, onlar kitabxanadan insanın təsviri ilə bağlı əsərlər seçib gətirməlidirlər. Şagirdlər gətirdikləri əsərlərin sayı qədər qrup və ya cütlərə bölünür. Dərsliyə daxil edilmiş Aşıq Ələsgərin "Gərəkdi" qoşmasını da nəzərdən qaçırmayın. Hər qrup və ya cütlük əsəri oxuyub, orada təsvir edilən insan obrazını dərslikdə verilən cədvəllərdən biri, yaxud hər ikisi üzrə araşdırır və nəticələri əks etdirən təqdimat hazırlayır. Təqdimat hazırlığına başlamazdan əvvəl şagirdlərə xatırladılır ki, onların fikirlərini ifadə edərkən öyrəndikləri yeni sözlərdən istifadə etməsinə və fikirlərini obrazlı ifadə etməsinə xüsusi diqqət yetirilir. Şagirdlərə izah edilir ki, öyrəndikləri yeni söz və ifadələr, habelə bədii təsvir və ifadə vasitələri lüğət ehtiyatının zənginləşdirilməsi baxımından əhəmiyyətlidir.

*Müəlliflə tanışlıq*



***Aşıq Ələsgər***

*Azərbaycan xalq şeirinin ən böyük nümayəndələrindən Aşıq Ələsgər bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir. Hələ kiçik yaşlarından tez-tez müxtəlif məclislərə gedən aşıq dərvişlərin nağıllarına, aşıqların dastanlarına həvəslə qulaq asır. Güclü yaddaşı olduğundan eşitdiyi söhbətlərin hamısını hafizəsində saxlayaraq, heç bir çətinlik çəkmədən başqalarına danışardı. O, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır. Görkəmli Azərbaycan şairi Səməd Vurğun öz çıxışlarının birində belə demişdir: "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram altında Dədə Ələsgərdən bir nişanə görürəm". Aşıq Ələsgərin səsi, nəfəsi kimi, zahiri görkəmi də aşıqlıq sənəti üçün biçilmişdi. Müasirlərinin dediyinə görə o, ucaboy, enlikürək, bədəncə sağlam, qüvvətli imiş. Qara gözləri, qalın çatma qaşları, dolu sifəti, iri burnu varmış. Sazı sol əli ilə çalar, sağ əlini pərdələr üzərində gəzdirər, zil nazik səsi ilə çox şirin və məlahətli oxuyarmış.*

**QURBAN BAYRAMI**
*(Hekayə)*

Mən babamın yeganə nəvəsi idim. Atam Qarabağ savaşında şəhid olmuşdu. Babam bu qanlı savaşda oğlunu itirib, məni tapmışdı. Atam şəhid olanda mən iki yaşındaymışam. Mən atamın yoxluğunu beş yaşımda olanda başa düşdüm. Babam hərdən mənim əlimdən tutub kəndimizin məscidinə aparardı. O, orada taytuşları ilə söhbətləşəndən sonra məscidin minarəsinə çıxardıq. Babam əlimdən bərk-bərk yapışardı ki, minarənin dolama pilləkənlərindən yıxılmayım. Minarənin başına çatanda babam xeyli tövşüyərdi. Mənim də alnıma tər gələrdi. Babam dəsmalını çıxarıb alnımdakı təri silərdi.

— Bura Allahın evidi, — deyərdi, — müqəddəsdi, böyüyəndə tez-tez gəlib ibadət edərsən.

— Niyə, baba?

— Çünki Allah ona sədaqətli olan insanları çox sevir, — deyə babam köks ötürərdi. Sonra babam səssizcə dayanıb gözləri yaşa-

206

Əsərin sayı çoxdursa, təqdimata artıq vaxt saxlamaq lazımdır. Bu, iki məsələ baxımından əhəmiyyətlidir:
I. Şagirdlər daha çox insan təsvirinə yer verilmiş əsərlərlə tanış olur və insanın təsvirində mümkün imkanları müşahidə edirlər.
II. Tədqiqat əhatəli və geniş olduğundan təqdimatçılara kifayət qədər vaxt lazımdır ki, fikirlərini çatdıra bilsinlər.

**!**

Əsərin ideyası, təsvir vasitələri və onların əsərdə rolunun araşdırılması tapşırığın tərkib hissəsidir.

**Ev tapşırığı:** "Yaxşı şagird necə olmalıdır?" mövzusunda təsviri esse yazın. İstedadı olanlar bu mövzuda təsviri xarakterli şeir də yaza bilərlər. (3.1.1.,3.1.2., 3.1.3.)

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətdən istifadə | | | | | |
| 2. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 3. | Obrazın təsvirinin araşdırılması | | | | | |
| 4. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 5. | Təsvir vasitələrinin rolunun şərhi | | | | | |
| 6. | Qoşma haqqında məlumat | | | | | |
| 7. | Nitqdə yeni sözlərdən istifadə | | | | | |

## “Xan sarayı” *əfsanəsi*
## *(Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsərin hissələrinə başlıq verir, planını tərtib edir, onların ardıcıllığını müəyyən edir (1.1.3.). 3. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 4. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 5. Yoldaşları ilə ümumi rəyə gəlir (2.2.1.). 6. Əsərin janr xüsusiyyətini müəyyənləşdirir (1.1.4.).

– Uşaqlar, əvvəlki dərslərdə biz sizinlə Sabir Əhmədlinin “Dərs” əsərini oxuduq və həmin hekayədə baş verən hadisələrin ardıcıllığını müəyyən etdik. Sizcə, nəqletmə xarakterli əsərlərdə hadisələrin hər hansı ardıcıllıqda təqdim edilməsi çoxmu vacibdir? Hadisələr ardıcıl təqdim edilməsə, nə olar?
Cavablar dinlənilir.
– Bundan əvvəlki dərsdə hadisələrin ardıcıllığını müəyyən etdik, doğrudurmu? Hadisələrin ardıcıllığını dəyişsək, nə baş verərdi?
Cavablar dinlənilir.
Müəllim şagirdləri məsələ üzərində daha dərindən düşünməyə istiqamətləndirir.

**“XAN SARAYI” ƏFSANƏSİ**
**(NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRDƏ HADİSƏLƏRİN ARDICILLIĞININ MÜƏYYƏN EDİLMƏSİ)**

Siz nəqli mətnlərdə hadisələrin ardıcıllığını müəyyən etmək üzrə işlər apardınız. Bir-biri ilə bağlı hadisələrin ardıcıl inkişafı əsərin süjetini təşkil edir.




Məşhur filosof Aristotel göstərirdi ki, hər hansı əsəri yaradarkən ən çox əsərin süjetinə diqqət yetirilməlidir. O hesab edirdi ki, əsərin süjeti, hətta oradakı obrazlardan daha əhəmiyyətlidir. İstənilən süjetin girişi, əsas hissəsi və nəticəsi olmalıdır. Əsəri təşkil edən hadisələr də xronoloji və səbəb-nəticə ardıcıllığı ilə əlaqələndirilməlidir.

***Tapşırıq 1.***

**1.** “Xan sarayı” əfsanəsini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın. Yardımçı sualları cavablandırmağa, əsəri düşünərək oxumağa çalışın. Mətndəki hadisələri və onların ardıcıllığını müəyyən edin. Əlavə №2-dən (səh. 229) istifadə etməklə hadisələri adlandırın.

**XAN SARAYI**
*(Əfsanə)*

Şəki xanı bir gün ustanı yanına çağırıb deyir:
— Qocalmışam, istəyirəm adımı əbədiləşdirən bir saray tikdirəm. Gərək dünyada ona bərabər ikinci bir saray tapılmasın.

117

İndi gəlin “Xan sarayı” əfsanəsini oxuyaq, görək həmin əsərdə hansı hadisələr baş verir. Diqqətli olaq, görək yazıçı həmin hadisələri bizə hansı ardıcıllıqda təqdim edir. *(Oxu məqsədi müəyyən edilir)*

Şagirdlər mətnin fərdi, sakit oxusuna cəlb edilirlər. Oxu zamanı onlar dərsliyin əlavə bölməsində verilən “Hadisələrin ardıcıllığını müəyyən edərkən” təlimatına əməl edirlər. Həmin təlimatdan çıxış edərək şagirdin oxuyub-oxumadığını, tapşırıqları yerinə yetirib-yetirmədiyini nəzarətdə saxlaya bilərsiniz. Diqqətli olun ki, verilmiş doqquz bəndli təlimatı şagirdlər yerinə yetirərək oxusunlar.

Sıraların arasında gəzir, qeydlər aparmayan şagird gördükdə (onlar hər hissəyə başlıq verməlidirlər) səbəbini araşdırır, ehtiyac olduqda lazım olan dəstəyi verirsiniz. Oxu başa çatandan sonra şagirdlər qruplaşdırılır. Şagirdlər hadisələrin ardıcıllığı ilə bağlı apardıqları qeydlərlə birlikdə qruplarda fəaliyyətlərini davam etdirirlər. Hadisələrə verdikləri başlıqları müzakirə edir, verilən iş vərəqində sxem çəkir, müəyyənləşdirdikləri başlıqları sxemdəki **A** xanasına daxil edirlər. Yalnız bundan sonra onlar dərsliyin əlavə bölməsindən əsərin süjetinin xüsusiyyətlərinə dair təlimatın oxusuna cəlb edilirlər. Təlimatdan çıxış edərək gördükləri işə tənqidi yanaşır, ehtiyac yarandıqda hazırladıqları iş vərəqində düzəlişlər aparırlar.



Xan ustaya istehza ilə gülür:

— Yaradan əlləri kəsdirmişəm, onlar bir də qurub-yaratmayacaq.

Qoca usta əllərinin ağrısını unudur, xandan betər istehza ilə gülür:

— Sənə elə gəlir ki, mənim əllərimi kəsmisən. Amma buna sənin gücün çatmaz. İndi mənim əllərim şəyirdlərimdədir. Məndən sonra onlar qurub-yaradacaqlar.

— Gərək əvvəlcə dilini kəsəydim, sonra əllərini. Gec də olsa, səhvimi düzəldərəm.

Ustanın sözləri haqqında nə düşünürsünüz?

Xan böyük, tarixi abidələr yaradan bir sənətkarı öldürtdürür.

**2.** Süjetin beş hissəsinin xüsusiyyətlərini nəzərə almaqla əsərdəki hadisələri süjet xətti üzrə yerləşdirin. Nəqli mətnin süjetini tərtib edin. Nəticəni yoldaşlarınızla müzakirə edin. (Əlavə №4, səh. 230)

***Bunu bilməlisiniz!***

***Əfsanə*** — müasir ağlın, düşüncənin uydurma, fantastika kimi qəbul etdiyi qeyri-adi hadisələrin təsvir edilməsidir. Əfsanələrdə insan quşa, heyvana, səma cisimlərinə çevrilir, dağlar, çaylar, çiçəklər dil açıb danışır.

***Tapşırıq 2.***

1. “Oxudan sonra” fəaliyyətini yerinə yetirin (cədvəl 3, səh. 17).
2. Əsəri fakt və sitatlarla zənginləşdirin:

a) hansı məqama əlavə etməyin mümkün olduğunu müəyyənləşdirin; b) əlavə edəcəyiniz söz və ifadəni bir tərəfi yapışqanlı kiçik qeyd vərəqinə yazın; c) vərəqi əsərdə münasib bildiyiniz yerə yapışdırın; e) əsərin janr xüsusiyyətlərini müəyyənləşdirərkən fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından öz marağınıza uyğun olan nəqletmə xarakterli bədii nümunələrdən birini seçin. Əsəri oxuyun. Yuxarıda təqdim edilən sxem üzrə əsərin süjetini müəyyənləşdirin. Sinifdə əldə etdiyiniz bilik və bacarıqları möhkəmləndirmək məqsədilə dərsdənkənar vaxtda müstəqil şəkildə öyrənməni davam etdirin.

119




Qrup təqdimatları dinlənilir, nəticələr kollektiv müzakirə edilir. Şagirdlər oxudan sonra fəaliyyətinə cəlb edilirlər. Qrup işlərinin nəticələri qiymətləndirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | Hadisələrin müəyyən edilməsi | | | | | |
| 3. | Əsərin ideyasının müəyyən edilməsi | | | | | |
| 4. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 5. | Janr xüsusiyyətlərinin müəyyənləşdirilməsi | | | | | |
| 6. | Ümumi rəyə gəlmə | | | | | |

## Mir Cəlal. “Dərsimi yaz” və Zahid Xəlil. “Zeynalabdin”
*(Nəqletmə xarakterli əsərlərin elementlərinin müqayisəsi)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Süjetli bədii nümunəni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir (1.1.3.). 4. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən yararlanır (2.2.1.). 6. Dialoqda və təqdimatlarda öyrəndiyi yeni sözlərdən istifadə edir (2.1.1.).

– Uşaqlar, sizin neçə yaşınız var? Siz gənc hesab edilirsiniz? Siz yeniyetmə hesab edilirsiniz. Amma tezliklə siz də Azərbaycan gənclərinin sırasına qoşulacaqsınız. Amma bu heç də o demək deyil ki, 2 fevral tarixində qeyd edilən Azərbaycan Gənclər günü hələ sizə aid deyil. Siz ölkəmizin gələcəyisiniz. İnsan gənc yaşından öz üzərində çalışmalıdır, hər hansı bir ixtisasa, peşəyə sahib olmalıdır ki, sonrakı dövrdə həm öz ailəsi üçün, həm də ətrafdakılar üçün faydalı olsun və mənalı ömür yaşasın. Bu gün iki əsər oxuyacağıq. Nəqli xarakterli bədii nümunənin elementlərini müəyyən edəcəyik. Bu bacarıq istənilən hadisəni sistemli nəql etməkdə sizə yardım edəcək. Biz iki gənclə bağlı olan hadisələri qarşılaşdırarkən əsərləri həm də elementləri baxımından müqayisə edəcəyik.

**MİR CƏLAL. “DƏRSİMİ YAZ” VƏ ZAHİD XƏLİL. “ZEYNALABDİN”**
**(NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN ELEMENTLƏRİNİN MÜQAYİSƏSİ)**

Nəqli mətnlərin, əsasən, beş elementdən ibarət olduğunu artıq bilirsiniz. İndi isə həm ötən dərs ili öyrəndikləriniz, həm də bu dərs ilində yeni nail olduğunuz bilik və bacarıqlarınızı tətbiq etməklə maraqlı bir bədii nümunənin elementlərini müəyyən edəcəksiniz. Siz həm də ayrı-ayrı mətnlərin xəritələrini qarşılaşdırmaqla müqayisə edəcək, onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirəcəksiniz. Bu bacarıqlar əsərin mahiyyətini dərk etmək baxımından çox əhəmiyyətlidir.

***Tapşırıq 1.***

1. Mir Cəlalın “Dərsimi yaz” və Zahid Xəlilin “Zeynalabdin” başlıqlı əsərlərini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın. Əsəri oxuyun.
2. 22-ci cədvəldən istifadə etməklə mətnin elementlərini müəyyən edin.

*Cədvəl 22*

| Əsər | Obraz | Hadisənin baş verdiyi zaman və məkan | Problem | Problemin həlli | Mövzu | Süjet |
|---|---|---|---|---|---|---|
| I əsər | | | | | | |
| II əsər | | | | | | |

120

Sinif 4 qrupa bölünür. Şagirdlərə istiqamət verilir ki, onlar nəqletmə xarakterli əsərlərin elementləri ilə bağlı təlimatlarla bir daha tanış olmaq istəsələr, həmin məlumat “Əlavə” bölməsinə daxil edilmişdir.

Qruplar işi başa çatdırdıqdan sonra eyni əsəri araşdıran iki qrup birləşir və nəticələr müzakirə olunur. İki qrupun araşdırmalarının nəticələrindən bir ortaq variant hazırlanır. Müəllim bu prosesdə müzakirələrin gedişinə diqqət yetirməlidir. Dəyərləndirmə aparmalıdır. Şagirdlər daha səmərəli fikirləri qəbul etməyə hazırdırlarmı, ya özləri yaradıblar deyə zəif variantların saxlanmasında inadcıllıq nümayiş etdirirlər? Bu məqam qrup qiymətləndirmələri aparılan zaman nəzərə alınmalıdır.

Bir əsəri oxuyan iki qrupun işinin nəticələrinin müzakirəsi başa çatandan sonra onlar müəllimin lövhəyə çəkdiyi və ya asdığı cədvələ əsərin elementləri ilə bağlı gəldikləri qənaətlərini daxil edirlər. Bu cədvəl dərslikdə təqdim edilmişdir. Cədvəl vasitəsilə əsərlərin elementlərinin müqayisəsi asanlaşır.



Dərs hazırlamağa gələndə də Tofiq özünü xoşbəxt gördü: hesabını bir bacı, yazısını başqası, coğrafiyasını o birisi hazırlayıb dərsə yola salırdı. Uşaq elə öyrəndi ki, müəllimin dediyi tapşırıqları bacılarına təhvil verib, səhər də hamısını hazır istəyirdi. Bəzən də hökmünü dürüst yerinə yetirməyəndə hirslənir, qışqırırdı:

— Ay qız, Lalə, götür mənim dərslərimi yaz!

— Bənövşə, sən də məsələləri hazırla!

— Yasəmən də elə misalı toplasın, niyə durmusunuz, tez olun!

Olubmu ki, siz dərslərinizi hazırlayarkən kimsə sizə kömək etsin?

Tofiqin anası hər kəsdən əvvəl qızları danlayırdı:

— Ay yaramazlar, aman-zaman bir qardaşdır, onun ürəyini niyə qırırsınız, götürüb dərsləri hazırlasanız! Di tez olun, gedin qardaşınızın dərslərini hazırlayın!

Qızlar, doğrudur, bilirdilər ki, bu dərslər Tofiqə verilib, ondan soruşulacaq, onun özü hazırlamalıdır. Ancaq qardaşlarının xətrinə, analarının xahişinə bu işlərə boyun əyirdilər. Aşağı siniflərdə Tofiqin dərslərdən kütlüyünü, tənbəlliyini biləndən sonra anasına xəbər verdilər, məsuliyyəti boyunlarından atdılar.

122

Oxudan sonra fəaliyyətinə cəlb edilən şagirdlər əsərlərin ideyası üzərində düşünməyə sövq edilirlər. Əsərlərə janr xüsusiyyətləri baxımından da diqqət yönəldilir.

Növbəti səhifədəki şəkillərdən qrup işində istifadə edin.

İki qrup bir əsəri oxuyur, digər iki qrup isə o biri əsəri. Əsər oxunmazdan əvvəl oxuya hazırlıq işlərinin aparılması tövsiyə edilir. Oxu zamanı qruplar əsərin elementlərini əks etdirən xəritə üzərində iş aparırlar.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğət üzrə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Əsərin hissələrə ayrılması | | | | | |
| 4. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 5. | Fikirlərdən yararlanır | | | | | |
| 6. | Nitqində yeni sözlərdən istifadə | | | | | |

**ZEYNALABDİN**
*(İxtisarla)*

Deyə bilərsinizmi, bu hekayədə nədən söhbət gedəcək?

Elə bil ki nəhəng bir təndiri başı üstünə çevirmişdilər. Göydən günün şüaları əvəzinə nəhəng alov dilləri uzanırdı. Zeynalabdinə elə gəlirdi ki, bu saat Bibiheybət mədənləri od tutub yanacaq və onu söndürmək üçün Xəzərin suyunu əndərsən də, xeyri olmayacaq. Hər tərəfdə torpaq qapqara idi. Elə bil gecənin bir parçası Abşerona çökmüş, onu əbədi zülmətə çevirmək istəmişdi. Uzaqlarda görünən kiçik daxmalardan çıxıb harasa tələsən adamlar da qapqara idi və onları beləcə qaraldan neftdən ümid gözləyirdilər.

Burada hansı bədii ifadə vasitəsi işlənmişdir?

Adamlar hər gün təzə bir xəbər sorağı ilə yuxudan ayılırdı. Elə bil Zeynalabdinin özü də hər gün Bibiheybətdə şərikli aldığı bu torpaqdan neft çıxacağı ümidi ilə yaşayırdı. Səhərdən axşamacan quyunun içində əlləşir, amma bir şey çıxmırdı. Dünən şəriki çıxıb getdi.

— Bu yerdən heç su da çıxmaz. Havayı özümüzü əziyyətə salmışıq.

Zeynalabdin borc pul tapıb şərikinin haqqını verdi, onu yola saldı. İndi torpağa verdiyi pullar da, quyu qazmağa çəkdiyi xərc də, özünün əziyyəti də havayı gedirdi. Qulağını quyuya dirədi ki, görsün oradan bir hənirti gəlirmi. Amma oradan səs-zad gəlmirdi.

Zeynalabdin qara bir daşın üstündə oturub ötən günlərini yada saldı. Atası Tağı kişi hələ on il əvvəl ona öz yanında işləməyi təklif etmişdi:

Siz hansı sənəti daha çox sevirsiniz?

— Gəl yanımda pinəçilik elə. Sağ olsun camaatı, bizi birtəhər dolandırar.

— Yox, ata, mən **bənna** olmaq istəyirəm. Əlim-ayağım sağ, qolumda da gücüm. Nə üçün **pinəçi** olmalıyam?

Qara hərflərlə verilmiş sözlərin mənasını lüğətdən tapın.

Atası Zeynalabdinin tərsliyini bilirdi. Dediyindən dönməyəcəkdi. Buna görə də dillənmədi.

Anası Anaxanım öləndən sonra atası evlənmişdi və təzə arvadından beş uşağı olmuşdu. Kişinin vəziyyətinin ağırlığını Zey-

124



Bu xalq hikmətinin mənasını hər milyonçu başa düşməz. Zeynalabdin deyirdi ki, yəni bu evi özüm üçün tikmirəm ha. Mən dünyadan köçəndən sonra xalqıma lazım olacaq. O, haqlı imiş, indi bu evdə Azərbaycan tarixi muzeyi yerləşir. Dünyanın hər tərəfindən gələn qonaqlar içəri girən kimi əvvəlcə heyrətlə bu gözəl binanın quruluşuna baxır, sonra ayaqlarına xüsusi ev ayaqqabıları geyinirlər ki, onun gözəl döşəməsini xarab etməsinlər.

İndi isə sənə qız məktəbinin tarixini danışım. Bu bina 1898-ci ildə tikilməyə başladı. 1900-cü ilə hazır oldu. Amma bu vaxtacan Zeynalabdin Həcc ziyarətinə getmişdi. Bakının 150 kilometrliyindən Şollar su kəmərini çəkdirmişdi. Çox-çox işlər görmüşdü və üç dəfə qız məktəbi açmaq barədə yuxarılara müraciət etmişdi. Amma imperator III Aleksandr bu işə razılıq verməmişdi. Elə ki III Aleksandr ömrünü sizə bağışladı və II Nikolay taxta çıxdı, Hacı Zeynalabdin Tağıyev fürsəti itirmədən Nikolayın arvadı Aleksandra Fyodrovnaya bahalı bir hədiyyə göndərdi, bunun üstündən az bir vaxt keçəndən sonra Nikolaydan xahiş etdi ki, Bakıda qız məktəbi açmasına icazə versin. Onu da bildirdi ki, həmin məktəbə Aleksandra Fyodrovnanın adı veriləcək.

127

| Əsər | Obraz | Hadisənin baş verdiyi zaman və məkan | Problem | Problemin həlli | Mövzu | Süjet |
|---|---|---|---|---|---|---|
| I əsər | Tofiq | İndiki və gələcək zaman hörmətli bir ailə | Ailədə övladla münasibətlərin düzgün qurulmaması | Montyorluq sənətini öyrənib həyatda özünə bir yol seçdi | Ailədə tərbiyənin düzgün qurulmasından bəhs olunur | |
| II əsər | Zeynalabdin | Yay, Bibiheybət | Ailənin maddi vəziyyətinin ağırlığı | | | |


Tofiqin məktəbi atması
Bacıların qayğısı
Məktəbə getməsi
Tofiqin ailədə ərköyün böyüməsi
Hər şeyin ifratı ziyandır
Bacıların tədbiri
Tofiqin montyorluq kursuna daxil olması


Quyunun fontan vurması
Zeynalabdinin tək qalması
Vəziyyətdən çıxmağın yolları
Zeynalabdinin ailəsinin ağır güzəranı
Qız məktəbi
Müasir şəhər
Təhsilli həmvətən
Elm və mədəniyyət carçısı

## İvan Krılov. “Ağac”
### *(Nəqletmə xarakterli əsərlərin nağıl edilməsi, nəticələrin çıxarılması)*

**Təlim məqsədi**

1. Əsəri ideya-məzmuna uyğun ifadəli oxuyur (1.1.2). 2. Öyrəndiyi sözləri müzakirələrdə istifadə edir (2.1.1.). 3. Süjetli bədii nümunəni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir (1.1.3.). 4. Təmsilin janr xüsusiyyətini müəyyənləşdirib digər əsərlə müqayisə edir (1.1.4., 1.2.1.). 5. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır (1.2.4., 3.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

– Uşaqlar, biz ötən dərs ilində də şahidi olduğumuz hadisələri olduğu kimi çatdırmağın bəzi hallarda çox böyük əhəmiyyət daşıdığı barədə söhbət açmışdıq. Bu haqda nə bilirik? *(İlkin biliklər)* Bir hadisəni olduğu kimi nəql etmək üçün hansı məsələlərə əhəmiyyət vermək lazımdır? *(Sual vermə)* Elə hadisələr olar ki, onların baş vermə ardıcıllığının düzgün təqdim edilməsi bir insanın şərəfini, ləyaqətini, hətta həyatını xilas edə bilər. Sizcə, bu necə hadisələr ola bilər? *(Əlaqələndirmə)* Haqqında oxuduğun, yaxud şahidi olduğun hadisənin nəql edilməsi ciddi bilik və bacarıqlar tələb edir. Bu bacarıqlarımızı daha da inkişaf etdirmək üçün maraqlı bir əsər üzərində iş aparacağıq. *(Oxu məqsədi)*


**İVAN KRILOV. “AĞAC”**
**(NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN NAĞIL EDİLMƏSİ, NƏTİCƏLƏRİN ÇIXARILMASI)**

Şahidi olduğunuz hadisəni olduğu kimi çatdırmaq və müsahibinizdə tam təsəvvür yaratmaq əhəmiyyətli həyati bacarıqdır. Bunu edə bilmək üçün yalnız zəngin söz ehtiyatına malik olmaq kifayət deyil. Fikrinizi təşkil etmək, mərhələ-mərhələ müsahibinizə çatdırmaq müəyyən bilik, bacarıq tələb edir. Siz ötən dərs ilində sadə bədii nümunələr üzərində belə fəaliyyətlər yerinə yetirmisiniz. Bu il daha mürəkkəb bədii nümunələr üzərində həmin bacarıqlarınızı tətbiq edəcəksiniz. Nəqletmə zamanı hadisələrə əsaslandırılmış münasibət bildirəcək, gəldiyiniz qənaətləri yoldaşlarınızla bölüşəcəksiniz.

***Taşırıq 1.***

Təqdim edilən sxemə əsasən nəqletməni oxuduğunuz əsər üzrə müvafiq ardıcıllıqla təşkil edin.

**Əsərdə hadisələr** ______________________________
______________________________(məkanda)
______________________________(zamanda) **baş verir.**
**Əsərdəki əsas obrazlar** ______________________________
______________________________
**Hadisələr ondan başlanır ki,** ______________________________
______________________________
**Əsərdə əsas ziddiyyət** ______________________________
______________________________
**Əhvalat belə oldu ki,** ______________________________
______________________________
**Sonra** ______________________________
______________________________
**Daha sonra** ______________________________
______________________________
**Sonda** ______________________________
______________________________
**Ziddiyyət belə həll olur ki,** ______________________________
______________________________

131

Sinif dörd-beş qrupa bölünür. Müəllim təmsilə dair növbəti səhifədə təqdim edilən şəkilləri şagirdlərə verir. (Hər qrupa 1 dəst). Şəkildə hansı hadisə haqqında danışıldığını müəyyən etməyi tapşırır. Şagirdlər şəkilləri məntiqə əsasən ardıcıl düzürlər. Yanlışlıqlar olarsa, müəllim müdaxilə etmir. Kitabdan da istifadəyə icazə vermir. Şagirdlər ardıcıl düzdükləri şəkillərə əsasən nağıl qururlar. Şəkilləri xətlə iki hissəyə bölünmüş cədvələ yapışdırıb, onun yanında nağılın uyğun hissəsini yazırlar.

İş başa çatandan sonra təmsilin kollektiv oxusu aparılır. Oxu prosesində qrup üzvləri öz iş vərəqlərinin doğru tərtib edilib-edilmədiyi üzərində düşünürlər və düzəlişlər aparırlar. Düzəlişlər aparılandan sonra qruplar əsərin nəqlinin təşkili üçün dərsliyə daxil edilmiş iş vərəqini yerinə yetirirlər. Tərtib etdikləri iş vərəqi üzrə əsaslandırma, münasibət bildirmə, dəstəkləmə və nəticə çıxarma ilə bağlı dərslikdə verilən göstərişlərə əməl etməklə nağıl edirlər.

*Tapşırıq 2.*

Tərtib edilmiş işçi vərəq üzrə aşağıdakı məqamları nəzərə almaqla nəql edin.

**Əsaslandırmaq:** əsərdə baş verənləri əsaslandıraraq danışmaq (əsərə istinadlar, əsərdən sitatlar);

**Münasibət bildirmək:** onlardan nəyin doğru, nəyin yanlış olması ilə bağlı fikirlər yürütmək;

**Dəstəkləmək:** doğru hesab etdiklərinizi əsərdən nümunələr gətirməklə və ya şərhlər verməklə dəstəkləmək;

**Nəticə çıxarmaq:** buradan hansı qənaətə gəldiyinizi bildirmək.

*Tapşırıq 3.* 1. Təmsil və nağılın oxşar və fərqli cəhətlərini müəyyənləşdirin. 2. Təmsilin ideya və məzmununu müəyyənləşdirdikdən sonra yenidən ifadəli oxuyun.

*Müəlliflə tanışlıq*



***İvan Krılov***

*İvan Andreyeviç Krılov teatrda opera tamaşasına baxırdı. Yanındakı kürsüdə əyləşənin musiqisevər olduğunu anlamaq çətin deyildi. O, teatrda yalnız olmadığını unudub, tamaşa başlayandan bəri ifaçılarla birlikdə oxuyurdu. Cana yığılmış Krılov sakitcə:*

*– Biabırçılıq! – dedi.*

*– Bu söylədiyiniz mənə aiddir? – yanında əyləşən oxumağını saxlayıb ondan soruşdu.*

*– Siz necə belə düşünə bilərsiniz, – Krılov cavab verdi, – bu, səhnədəki cənablara aiddir, onlar sizi dinləməyə mane olurlar.*

*İ.A.Krılovun yaradıcılığı rus təmsilinin zirvəsi səviyyəsinə yüksəlmişdir. Onun təmsillərinin böyük tərbiyəvi əhəmiyyəti vardır. O, atalar sözü, nağıl və məsəllərdən məharətlə faydalanmış və əsərləri rus ədəbi dilinin inkişafında mühüm rol oynamışdır. İ.A.Krılovun əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Təmsilləri Azərbaycanda da geniş yayılmışdır.*

133

Mətnin kollektiv oxusu keçirilərkən diqqətli olun ki, mətnləri həmişə eyni şagirdlər oxumasınlar. Əgər belə hallar müşahidə etsəniz, fəallıq göstərməyən şagirdləri oxuya cəlb edin. Hər bir şagirdə oxumaq imkanı verilərsə, bu onların məsuliyyətini artırar və oxu bacarıqlarının inkişafına şərait yaradar.

Şagirdlər kollektiv şəkildə "Oxudan sonra" fəaliyyətini yerinə yetirirlər. Bu zaman əsərin ideyası üzərində düşünülür. Bədii nümunənin hansı janra aid olduğu müzakirə edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğət üzrə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Əsərin hissələrə ayrılması | | | | | |
| 4. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 5. | Səmərəli fikirlərdən bəhrələnmə | | | | | |
| 6. | Əsərin janra görə müqayisəsi | | | | | |

Qrup işinin təşkili üçün tövsiyə edilən şəkillər vəsaitə 6 nüsxədə daxil edilmişdir. Hər qrupa 1 dəst şəkil verməklə təlim fəaliyyətini təşkil edin.



































































## “Çahargah əfsanəsi”
## *(Müstəqil iş)*

**Təlim məqsədi**

1. Süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir (1.1.3.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 3. Bədii əsərdəki başlıca fikri anladığını nümayiş etdirir (1.2.4.).

Müstəqil iş hər bir şagirdin nailiyyətini müəyyənləşdirmək imkanı verir. Belə işlər şagirdin bilik və bacarıqlarının kompleks şəkildə dəyərləndirilməsinə imkan yaradır. Şagirdlərin fəaliyyətindəki problemlərin nəzərə alınması və həmin istiqamətdə işlərin aparılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Şagirdlərə elan edilir ki, əgər iki şagirdin bir-birindən köçürdüyü aşkar edilərsə, hər iki şagirdin nəticəsi ləğv ediləcəkdir. Bu elanla şagirdin müstəqil düşünmək və çalışmaq baxımından potensialının maksimum dərəcədə səfərbər edilməsinə nail olacaqsınız.


“ÇAHARGAH ƏFSANƏSİ”
(MÜSTƏQİL İŞ)

*Tapşırıq*

1. Oxuya hazırlıq aparmaqla əsəri oxuyun. Təqdim olunan sxemdən istifadə etməklə əsərin elementlərini müəyyənləşdirin:



ÇAHARGAH ƏFSANƏSİ
*(Əfsanə)*

Deyə bilərsinizmi, bu əfsanədə söhbət nədən gedə bilər?

Qədim zamanlarda bir alim yaşayırdı. O öz gözəl əməlləri ilə xalqın rəğbətini qazanmışdı. Alimin sorağı yaşadığı ölkənin hökmdarına da çatır. O, saraya cəlb etmək məqsədilə alimi çağırtdırır və öz

134

Müəllim aşağıdakı qaydada müstəqil iş təşkil edə bilər. Məktəbin maddi-texniki bazası imkan verirsə, “Əsərin elementlərini əks etdirən xəritə”nin və “Nəqletməni təşkil etmək” üçün istiqamətləndirici cədvəlin kserosurəti şagirdlərin sayı qədər artırılır və müstəqil çalışmaqdan ötrü onlara təqdim edilir. Adlarını, soyadlarını yazmaq üçün vərəqdə yer müəyyən edilir. Məlum olduğu kimi, bu iş vərəqləri hər şagirdin portfoliosunda saxlanacaqdır.

Məktəbin maddi-texniki bazası imkan vermədiyi halda şagirdlər cədvəlləri adi şagird dəftərinə çəkməklə iş aparırlar. Birinci sxemi çəkmək o qədər çətin olmasa da, ikinci cədvəli çəkmək şagirdlərdən xeyli vaxt apara bilər. Odur ki onlara dərsliyin "Əlavələr" bölməsinə daxil edilmiş cədvəllərdən istifadə edərək dəftərlərində iş aparmaq tövsiyə edilir.

yanında qalmağı ona təklif edir. Alim qərara gəlmək üçün möhlət istəyir, hökmdar alimə üç gün möhlət verir.

> Sizcə, alim hökmdarın təklifinə razı olacaqmı?

Vaxt yetişəndə alim saraya gəlir və hökmdara deyir:

— Böyük hökmdar, sizin saray üçün dərin, dərrakəli alim lazımdır. Mən isə onların səviyyəsində dayana bilmirəm.

Bu sözləri deyib alim qayıdır. Öz xeyirxah işləri ilə yenidən xalqa kömək etmək istəyir.

Alimin cavabı, dikbaşlığı, açıq sözü hökmdarı hirsləndirir. Şah səxavətinin, firavan saray həyatının qiymətləndirilməməsini nankorluq hesab edir.

Hökmdar vəziri yanına çağırıb ondan alimin hərəkətlərinə tədbirlə cavab verilməsini tələb edir.

Vəzir deyir:

— Alimin əvvəlcə cahilliyini sübut edib xalqın gözündən salmaq lazımdır.

Vəzirin niyyəti çətin suallarla alimi çıxılmaz vəziyyətə salıb xalqın gözündə kiçiltmək idi. Sualları hazırlamaq üçün vəzir qırx gün möhlət istəyir. Qırx gün keçdikdən sonra suallar hazır olur.

Hökmdar adamları meydana toplayır. Alimi çağırırlar. Hər şey hazır olur. Alim təmkinlə hökmdarı dinləyir.

> Bundan sonra hansı hadisələrin baş verəcəyini deyə bilərsinizmi?

Hökmdar alimə deyir:

— Sən öz **əllaməliyinlə** xalqı aldadırsan, sən heç də alim deyilsən. Sənə vəzirim suallar hazırlayıb. Sən bu suallara cavab versən, alimliyini sübut etmiş olacaqsan.

> Lüğətdən istifadə etməklə sözün mənasını müəyyənləşdirin.

Alim cürətlə deyir:

— Buyurun, suallarınızı verin.

Hökmdar vəzirinə işarə edir. Vəzir suallara başlayır:

— Ulu dağın başından buraxılmış bir qoz Zümzümə bulağına qədər neçə dəfə fırlanar?

Alim gülə-gülə deyir:

— Mən sualın cavabını verməyə hazıram. Siz isə Ulu dağdan Zümzümə bulağına qədər olan yolun nə qədər olduğunu, dağın nə qədər maili olmasını, bir də qozun həcmini deyin.

Camaat alimin cavabını alqışlayır. Hökmdar və vəziri alimlə bacarmayacaqlarını görüb məyus olurlar. Artıq sual vermək fikrindən vaz keçirlər, biabır olmaq istəmirlər.

135

Ev tapşırığı verilir. Əsəri Z.Xəlilin "Zeynalabdin" hekayəsi ilə janr xüsusiyyətlərinə görə müqayisə edin və inşa yazın (3.1.2., 3.1.1., 3.1.3.).

Müstəqil iş olduğundan fərdi iş üsulunu seçmək məsləhətdir. Müstəqil iş hər bir şagirdin mühüm məsələləri hansı səviyyədə etdiyini, şagirdlərin təlimində hansı problemlərin olduğunu müəyyən etmək imkanı verir. Müəllim problemi ona görə aşkar etmir ki, şagirdi danlasın, yaxud onu nədəsə günahlandırsın. Müəllim boşluqları aşkar edir ki, onların aradan qaldırılması üçün tədbirlər görsün. Tədbirlər müxtəlif xarakterli ola bilər:

– şagirdin mənəvi-psixoloji problemləri ilə bağlı (ailədə, sinifdə və ya dostları ilə);
– müəllimin pedaqoji-psixoloji yanaşmalar baxımından şagirdlə münasibətdə nəzərdən qaçırdığı məqamlar, yaxud yol verdiyi nöqsanlarla bağlı;
– metodikada problemlərlə bağlı;
– həmçinin şagirdlərin fiziki-fizioloji problemləri ilə bağlı və s.

Müstəqil iş aparmaq mövcud vəziyyəti açıq şəkildə görməyə imkan verir.

Müstəqil işin nəticələrinin sinif jurnalına daxil edilməsi hər bir şagirdin nəticələrini nəzarətdə saxlamaq baxımından faydalıdır. Qiymətləndirmə diaqnostik qiymətləndirmədə təqdim edilən nümunə kimi aparıla bilər (səh. 70–71).

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Əsərin hissələrə ayrılması | | | | | |
| 2. | Məzmunun yığcam nəqli (yazılı) | | | | | |
| 3. | Fikrin ifadəsi | | | | | |

## KSQ
## “İsgəndər quş dili öyrənir”
### *(Azərbaycan xalq nağılı)*

**Əsər oxunur. Verilən tapşırıqlar yerinə yetirilir.**
1. Əsərdə hadisələrin ardıcıllığını müəyyən edin.
2. Əsərin süjet xəttini müəyyənləşdirin.
3. Əsərin elementlərini müəyyən edin.
4. Əsərin ideyasını şərh edin.

| | |
|---|---|
| **Yaranmış problem** | **Quşların qarıldaşması** |
| **Hadisə 1** | **İsgəndərin tələbi** |
| **Hadisə 2** | **Tacir qızının vəzirə məsləhəti** |
| **Hadisə 3** | **Qocanın vəzirlə görüşü** |
| **Hadisə 4** | **İsgəndərin qocadan dərs alması** |
| **Hadisə 5** | **Qarğaların söhbəti** |
| **Hadisə 6** | **İsgəndərin səfəri** |
| **Hadisə 7** | **Tərəflərin döyüşü** |
| **Hadisə 8** | **Xalqın zülmdən azad olması, uzaqgörən hökmdar** |

**Şagirdin adı, soyadı** ______________________________

**Müəllifin adı** ______________________________

**Əsərin adı "İsgəndər quş dili öyrənir" (Azərbaycan xalq nağılı)**




Hadisələrin baş verdiyi məkan və zaman

Səhər tezdən, hovuz kənarı, Xalxal vilayəti

Mətndə əsas obrazlar

İsgəndər, vəzir, tacir qızı, qoca, Bəlq pəhləvan

Mətnin mövzusu

İnsanlar üçün dil öyrənməyin vacibliyindən danışılır.

Mətndə problem (ziddiyyət)

Ədalət, zülmkarlıq

Mətnin hissələri

1. Quşların qarıldaşması
2. İsgəndərin tələbi
3. Tacir qızının məsləhəti
4. Qocanın vəzirlə görüşü
5. İsgəndərin qocadan dərs alması
6. Qarğaların söhbəti
7. İsgəndərin səfəri
8. Tərəflər arasında döyüş
9. Xalqın zülmdən azad olması, uzaqgörən hökmdar

Digər qeydlər

## TEST

*("İsgəndər quş dili öyrənir". Azərbaycan xalq nağılı)*

**1. Mətndə hadisələrin ardıcıllığını müəyyən edin:**

1. Quşların qarıldaşması, İsgəndərin tələbi
2. Tacir qızının vəzirə məsləhəti, qocanın İsgəndərə yol göstərməsi
3. İsgəndərin qocadan dərs alması, qarğaların söhbəti
4. İsgəndərin Xalxal vilayətinə səfəri, vəzirin meşədə qoca ilə görüşü
5. Xalqın zülmdən azad olması, uzaqgörən hökmdar

A. 1,3,5 B. 2,4,5 C. 1,3,4 D. 1,2,4

**2. Mətnin növünü müəyyənləşdirin:**

A. Nəqli
B. Təsviri
C. Mühakimə
D. Məlumatlandırıcı

**3. Mətndə verilmiş *qaravaş* sözünün mənasını tapın:**

A. Tərbiyəçi
B. Keşikçi
C. Qulluqçu qadın
D. Dost

**4. Əsərdə bu hadisə baş vermir:**

A. İsgəndərin tacir qızı ilə görüşü
B. İsgəndərin Xalxal vilayətini zülmdən qurtarması
C. Quşların şikayət etməsi
D. İsgəndərin quş dilini öyrənməsi

**5. İsgəndər vəzirdən nə tələb etdi?**

A. Xalxal vilayətinə getməyi
B. Quş dilini öyrənməyin yolunu tapmağı
C. Tacir qızından məsləhət almağı
D. Bəlq pəhləvanla döyüşməyi

**6. Mətndə verilmiş *"dəsgah"* sözünün mənasını tapın:**

A. Böyük iş, təşəbbüs, qeyri-adi mənzərə, birgə iş
B. Tamaşa, hərəkət, oyun
C. Tədbir, əyləncə, təşəbbüs
D. Kələk, tamaşa, oyun

**7. İsgəndər nə üçün quş dili öyrənmək istəyirdi?**

A. Dil öyrənmək istəyirdi
B. Qarğaların dərdinə çarə tapmaq istəyirdi
C. Yeni torpaqlar əldə etmək istəyirdi
D. Tacir qızına kömək etmək istəyirdi

**8. İsgəndər qarğaların qarıldaşmasını eşidəndə hansı hissləri keçirirdi?**

A. Qəzəb
B. Qorxu
C. Ümid
D. Kədər

**9. Mətndə verilmiş: *"Dünyada hər dili bilmək min padşahlığa dəyər"* – sözləri kimin tərəfindən deyilir?**

A. Qocanın
B. İsgəndərin
C. Tacir qızının
D. Bəlq pəhləvanın

**10. İsgəndər Bəlq pəhləvanı məğlub etməklə nəyə nail oldu?**

A. Xalqın əmin-amanlığına
B. Xərac almağa
C. Xalqı öz əsarəti altına aldı
D. Torpaqlarını genişləndirdi

***"İsgəndər quş dili öyrənir"* mətni üzrə testin doğru cavabları:**

**1 – A 2 – A 3 – C 4 – A 5 – B 6 – A 7 – B 8 – B 9 – B 10 – A**

## Nəqli essenin yazısına hazırlıq:
## mətnin elementlərinin yaradılması

**Təlim məqsədi**

1. Yazının planını tərtib edir (1.1.3.). 2. Obrazların səciyyəvi cəhətlərini müəyyənləşdirir (1.2.2., 3.1.1.) 3. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 4. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2., 3.1.3.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən yararlanır (2.2.1.).

– Uşaqlar, bilirsiniz ki, dünya yaranandan xeyirlə şər, yaxşılıqla pislik, mərdliklə namərdlik, ədalətlə ədalətsizlik mübarizədədir. Biz cəmiyyətdə yaşayırıq. Əfsuslar olsun ki, ətrafımızda olan insanların hamısı xoşniyyət, xeyirxah və ədalətsevər olmur. Elə hallar olur ki, biz ədalətsizliklə üz-üzə qalırıq. Demokratik bir cəmiyyətin vətəndaşı kimi ədalətin təmin edilməsində hər bir vətəndaş dövlətimizə dəstək olmalı və öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Siz həyatınızda hər hansı bir ədalətsizliklə üz-üzə qalmısınızmı? Əgər siz belə hadisələrlə qarşılaşmamısınızsa, o zaman ailə üzvləriniz, dostlarınız düşdükləri vəziyyətdə ədalətin təmin olunmasına necə nail oldular? Bu gün həmin hadisə haqqında kiçik bir nəqli esse yazacağıq.



NƏQLİ ESSENİN YAZISINA HAZIRLIQ:
MƏTNİN ELEMENTLƏRİNİN YARADILMASI

Məktəbli dost! Siz nəqli essenin yazısına verilən tələbləri bilirsiniz və ötən dərs ilində sizdən cəsarətli olmağı tələb edən bir hadisə ilə bağlı esselər də yazmısınız. Belə mətnlərin, əsasən, beş elementdən ibarət olduğunu da artıq bilirsiniz. Nəqli esse yazan zaman bu elementlərin nəzərə alınması zəruridir. Bu dərsdə bütün xüsusiyyətlərini nəzərə almaqla nəqli esse yazacaqsınız.

*Tapşırıq.*

1. Siz həyatda ailə üzvlərinizin, yoldaşlarınızın, qonşularınızın münasibətində ədalətsizliyin şahidi olmusunuzmu? Ədaləti bərpa etmək üçün nə etmisiniz? Bu hadisə barədə bir esse yazın.
2. Yazıya başlamazdan əvvəl hazırlıq işləri aparın:

Qeydlər aparmaq üçün zəruri məsələləri unutmamısınız ki?
— Hadisələr harada və nə zaman baş verir?
— Hadisələrin əsas iştirakçıları kimlər olacaq?
Bu elementi siz artıq əvvəlki yazıya hazırlıq mərhələsində işləmisiniz. Həmin qeydlərinizi nəzərə alın;
— Essedə nədən bəhs ediləcəyi barədə qeydlər götürün. Nədən bəhs edildiyini aydınlaşdırarkən essenin mövzusunu müəyyən etmiş olacaqsınız;
— Oxucunun diqqəti hansı problemə və onun həllinə yönəldiləcək? Bu problem nəyə görə sizin üçün əhəmiyyətlidir?
— Essenin süjet xəttini necə təsəvvür edirsiniz? Bu elementi də siz yazıya hazırlıq mərhələsində artıq işləmisiniz. Tərtib etdiyiniz həmin nümunəyə bir daha nəzər salın. Hər hansı dəyişiklik, yaxud təkmilləşmə işlərinə ehtiyac duyularsa, yerinə yetirin. Bundan sonra həmin qeydləri elementlərdən biri kimi daxil edin.

143

**Yazıdan əvvəl** aparılacaq işlərlə bağlı dərslikdə şagirdlərə təlimatlar verilmişdir. Bu istiqamətdə onların fəaliyyətinin təşkilinə şərait yaradın. Yazıya hazırlıq da yazının aparılması kimi fərdi iş formasında həyata keçirilir. Bu dərsdə şagird yazacağı essenin elementlərini tərtib edir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Plan tərtibi | | | | | |
| 2. | Obrazların səciyyələndirilməsi cədvəli | | | | | |
| 3. | Mövzu və ideyanın müəyyənləşdirilməsi | | | | | |
| 4. | Yoldaşlarınızın fikirlərindən yararlanın | | | | | |

## Nəqli essenin yazısının təşkili

**Təlim məqsədi**

1. 1–1,5 səhifə həcmində nəqli esse yazır (3.1.3.). 2. Yazını faktlarla zənginləşdirir (3.1.1.). 3. Müzakirə zamanı yoldaşlarının fikirlərindən yararlanır (2.2.1.; 3.1.2.).

**Yazının təşkili** ilə bağlı dərslikdə verilən tövsiyələrdən yararlanmaqlarını təmin edin.

**Yazıdan sonra** şagirdlərin öz yazılarını və yoldaşlarının yazılarını mübadilə edib qarşılıqlı yoxlaması üçün müvafiq şərait yaradın. Şagirdin qarşılıqlı məsləhətləşmələrdən bəhrələnməsi, işin keyfiyyətinin yüksəldilməsi özü də öyrənmənin davam etməsi kimi dəyərləndirilməlidir.

**ESSENİN BAŞLANĞICI**

**Hadisənin baş verdiyi zaman və məkan**

**Əsərdə iştirak edən obrazlar**

**ƏSAS HİSSƏ**

**Ziddiyyətin yaranması**

**Ziddiyyətin açılması**

**ESSENİN SONU**

**O zaman nə hiss edirdim, indi nə hiss edirəm**

**NƏQLİ ESSENİN TƏŞKİLİ**

***Tapşırıq 1.*** Ədalətsizliyə qarşı mübarizəni əks etdirən hadisə ilə bağlı qeydlər aparmısınız. Həmin qeydlər əsasında hadisəni yazılı nəql edin. Bunun üçün əvvəlcə esseni planlaşdırın:

— Yazıya hazırlaşarkən apardığınız qeydlərdən çıxış edərək essenin xəritəsini tərtib edin;
— Yazının planını tutun;
— Həmin hadisəyə maraqlı və cəlbedici giriş verin;
— Qaralamada ilkin variantınızı yazın;
— Açar sözlərdən, indiyə qədər öyrəndiyiniz yeni sözlərdən yeri gəldikcə istifadə edin;
— Yeri gəldikcə dialoqlara yer verin;
— Düşündürücü bir nəticə ilə esseni başa vurun.

***Tapşırıq 2.*** Yazdığınız esseni yoldaşlarınızla müzakirə edin. Onların fikirlərini nəzərə almaqla essedə təkmilləşdirmə işləri aparın.

144

Nəzərə almaq lazımdır ki, bu dərslərdə aparılan yazı işi yoxlayıcı deyil, öyrədici xarakter daşıyır.

Yazıdan sonra iki mərhələdə yoxlama aparılır. Birinci mərhələdə essedə istifadə edilmiş məlumatlar, fikir ardıcıllığı, inşanın planı yoxlanılır. Ehtiyac yaransa, təkmilləşdirmə işləri gedir. Qaydalar baxımından yazı yoxlanılır. Həmçinin orfoqrafik, qrammatik səhvlər aradan qaldırılır. Öz yazılarını verilən təlimata əsasən yoxlamaq kimi bir təlim fəaliyyəti özünüqiymətləndirmə yolu ilə şagirdin tənqidi təfəkkürünün inkişafına səbəb olur.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 2. | Ümumi rəyə gəlmə | | | | | |
| 3. | Essenin yazısı | | | | | |
| 4. | Təqdimat mədəniyyəti | | | | | |

## Sinifdənxaric oxu
## "Tülkü ilə qurd"
## *(təmsil)*

**Təlim məqsədi**

1. Öyrəndiyi sözləri müzakirələrdə istifadə edir (2.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Süjetli bədii nümunəni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir (1.1.3.). 4. Haqqında danışılan əsərin janr xüsusiyyətini müəyyənləşdirir (1.1.4.). 5. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Bundan əvvəlki dərslərdə sinifdənxaric oxu dərsinin keçirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.
Qeyd edilmişdir ki, bu dərslərin məktəb kitabxanasında və ya kompüter laboratoriyasında keçirilməsi məqsədəuyğundur. Şagirdlər verilən mövzulara aid digər bədii nümunələr də əldə edə bilərlər. Bu sinifdənxaric oxu dərsi üçün tövsiyə edilən bədii nümunə "Tülkü ilə qurd" təmsilidir. Amma bu, yeganə oxu materialı olarsa, həmin dərsin digər dərslərdən heç bir fərqi müşahidə edilməz.

**TÜLKÜ İLƏ QURD**

*(Təmsil)*

Qış düşmüşdü. Hər yeri qar örtmüşdü. Qurd payızdan hər tədarükü görüb, azuqəni evinə toplamışdı. Amma tülkü tədarükzad görməmişdi.

Acından qarnı quruldayırdı. Tülkü qurdun mağarasının qapısına getdi, qapıdan baxdı, gördü qurdun kefi kökdü, ocağın qırağında oturub dəm alır. Tülkü qurda dedi:

— Ay qurd lələ, soyuqdan ölürəm, məni evinə burax, isinim.

Qurd dedi:

— Səninlə mənimki tutmaz. Acığım tutar, səni yeyərəm.

Tülkü yalvar-yapış elədi. Qurdun ona rəhmi gəldi, evinə buraxdı. Tülkü ocağın qırağında oturdu. Bir az söhbət elədilər. Qurd yıxılıb yatdı. Tülkü bərk acmışdı. Yerdən durub evi axtarmağa başladı. Gördü evdə bir küpə yağ, bir boşqab da halva var. İstədi yesin. Öz-özünə dedi: "Birdən qurd ayıq olar, məni tikə-tikə elər". Tülkü gedib qapını taqqıldatdı. Qurd yuxudan oyanıb dedi:

— Qapını taqqıldadan kimdi?

Tülkü ona cavab verdi:

— Qonşun çolaq dovşandı, səni qonaq çağırır.

Qurd dedi:

— Mənim bərk yuxum gəlir, getmirəm.

Qurd başını yerə qoyub yatdı. Tülkü baxdı, gördü qurd lap bərk yatıb. Gedib yağla halvanı yedi, gəlib yatdı. Qurd tezdən yerindən durdu, istədi halvanı gətirib yesin. Gördü halva yoxdu, yağı yemək istədi, gördü o da yoxdu. Tülkünün üstünə qışqırıb dedi:

— Yağı, halvanı sən yemisən? Səni tikə-tikə eləyəcəyəm.

Tülkü and-aman eləyib dedi:

— Mən yeməmişəm.

Qurd onun sözünə inanmadı. Tülkü ona dedi:

— Ocağın qırağında yataq. Hansımız yağı, halvanı yeyibsə, oda tərəf olan yerinin yağı əriyəcək.

Qurd razı oldu. Hər ikisi böyrü oda tərəf uzandı. Tülkü gözlədi, qurd yuxuya getdi. Tez ayağa qalxdı, küpədə qalan yağı

213

Məlumdur ki, minlərlə gözəl bədii nümunələr var ki, onların hamısını dərsliyə daxil etmək bu və ya digər səbəblərdən mümkün deyil. Amma şagirdlər eyni dərsdə qarşılıqlı şəkildə bir-birlərini bədii nümunələrlə tanış edə bilərlər. Bu da məhz sinifdənxaric oxu dərslərinin qarşısında duran vəzifədir. Yalnız bu yolla şagirdə kitabxananın fəal istifadəçisi olmağın zövqünü yaşatmaq və anlatmaq olar.

Beləliklə, bu dərs qış fəslinə təsadüf edir və şagirdlər qışla bağlı bədii nümunələrin oxusuna cəlb edilirlər. Belə əsərlər arzu olunan haldır ki, nəqletmə xarakterli olsun. Amma əgər şagirdiniz qışa aid gözəl bir təsviri nümunə tapıb onu yoldaşlarına ifadəli oxumaq istəyirsə, onun arzusuna və bədii zövqünə hörmətlə yanaşmaq lazımdır.

Unutmayın!
Təlimatlar verilərkən bütün şagirdlərin diqqətinin sizdə olduğuna əmin olun. Hər bir kəsin təlimatı başa düşdüyünə əmin olandan sonra tapşırığın icrasına başlamağı tapşırın. Əgər tapşırıq şagirdə aydın olmasa, tapşırığın icrası üçün ayrılmış vaxt səmərəsiz istifadə edilmiş olacaqdır.

gətirdi, qurdun böyrünə sürtdü, yıxılıb yatdı. Bir şər yatandan sonra yuxudan ayıldılar. Böyürlərinə baxdılar, gördülər qurdun böyrü yağlıdı.

Tülkü dedi:

— Yağı, halvanı özün yemisən, mənim üstümə atırsan.

Qurd bir söz demədi. Çox hirsləndi. Hirsindən evdən çıxıb getdi. Ev tülküyə qaldı. Tülkü isti evdə keflə qışı keçirtdi.

214

Dərsin sonunda ən fəal şagirdlər qiymətləndirilirlər. Ən passiv oxucu şagirdlər isə fəallarla birgə fəaliyyətə cəlb edilirlər.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Mövzuya uyğun əsərin müəyyən edilməsi | | | | | |
| 2. | İfadəli oxu və ya nəqletmə | | | | | |
| 3. | Əsərin ideyasının şərhi | | | | | |
| 4. | Əsərin janr xüsusiyyəti | | | | | |

# *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR-NƏQLETMƏ*

## Əli Səmədli. “Qanlı bənövşə”

### *(Bədii əsərlərdə təsvir və nəqletmə)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Mətni ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərdə bədii ifadə və təsvir vasitələrini müəyyənləşdirir, onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 4. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.). 7. Əsəri janr xüsusiyyətləri baxımından müqayisə edir (1.2.1.).

Siz artıq bir çox təsviri və nəqletmə xarakterli bədii nümunələri oxumuş, onları səciyyəvi cəhətləri, quruluşu, dil xüsusiyyətləri baxımından araşdırmısınız. Deyə bilərsinizmi, təsviri xarakterli bədii nümunələrlə bağlı biz nə öyrəndik? *(İlkin biliklər) (Alınacaq cavablar: əsərin ideyasını müəyyən etmiş, fikrin obrazlı ifadəsi üçün istifadə edilən müxtəlif növ təsvir və ifadə vasitələrinin əhəmiyyətini aydınlaşdırmış, bu növ bədii nümunələrin quruluşunu öyrənmişik.)* Bəs nəqletmə xarakterli bədii əsərləri oxuyarkən hansı bacarıqlara yiyələndik? *(Məsələ ilə bağlı ilkin biliklər) (Proqnozlaşma aparmağın yollarını öyrənmiş, obrazların başlıca xüsusiyyətlərini müqayisələr aparmaqla təhlil etmiş, habelə ayrı-ayrı əsərləri qarşılaşdırmaqla müxtəlif parametrlər üzrə onların oxşar və fərqli cəhətlərini müəyyən etmişik.)*



*BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR-NƏQLETMƏ*

Siz artıq bir çox təsviri və nəqletmə xarakterli bədii nümunələri oxumuş, onları səciyyəvi cəhətləri, quruluşu, dil xüsusiyyətləri baxımından araşdırmısınız. Təsviri xarakterli əsərlərin ideyasını müəyyən etmiş, fikrin obrazlı ifadəsi üçün istifadə edilən müxtəlif növ təsvir və ifadə vasitələrinin əhəmiyyətini aydınlaşdırmış, bu növ bədii nümunələrin quruluşunu öyrənmisiniz. Siz həmçinin nəqletmə xarakterli bədii əsərləri də oxuyarkən proqnozlaşma aparmağın yollarını bilirsiniz. Obrazların başlıca xüsusiyyətlərini müqayisələr aparmaqla təhlil etmiş, habelə ayrı-ayrı obrazları qarşılaşdırmaqla müxtəlif parametrlər üzrə onların oxşar və fərqli cəhətlərini müəyyən etmisiniz.

Elə düşünmək doğru olmazdı ki, bədii nümunələr yalnız nəqletmə, yaxud təsviri xarakterli olmalıdır. Hər iki növ mətnlərin xüsusiyyətlərini özündə daşıyan bədii nümunələr saysız-hesabsızdır. Bu fəsildə siz belə bədii nümunələrlə tanış olacaq, təsviri və nəqletmə xarakterli mətnlərin xüsusiyyətlərinin həmin əsərlərdə öz əksini necə tapdığını öyrənəcəksiniz.

**ƏLİ SƏMƏDLİ. “QANLI BƏNÖVŞƏ”**
**(BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VƏ NƏQLETMƏ)**

*Tapşırıq 1.*

1. Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın. Düşündürücü suallara cavab verməklə əsəri oxuyun.
2. **Düşünün:** Bu bədii nümunə təsviredici, ya nəqletmə xarakterlidir?

145

Elə düşünmək doğru olarmı ki, bədii nümunələr ya yalnız nəqletmə, ya da yalnız təsviri xarakterli olmalıdır? *(Sualın qoyuluşu) (Cavablar dinlənilir.)* Bu dərsdə “Qanlı bənövşə” əsərinin oxusu zamanı bu sualın cavabını araşdıracağıq. *(Oxu məqsədinin müəyyən edilməsi.)*

Kitabınızı açın. Bir dəqiqə vaxtınız var. Əsərin birinci, sonuncu abzaslarını oxuyun, şəkillərinə baxın və kitabınızı örtün. Verdiyiniz vaxta ciddi riayət edin. Sual verin: “Sizcə, bu əsərdə nədən söhbət gedir?” Cavabları alın. Münasib cavablardan birindən başlayaraq: “Bəli, uşaqlar, bu günlərdə biz görünməmiş bir faciənin ildönümünü qeyd edəcəyik. Kim deyər bu hansı faciədir? Xocalı soyqırımı – oxuyacağımız əsər də məhz bu barədədir”, – deyin. Şagirdlərin diqqətini bu tarixi günə cəlb edin.

**QANLI BƏNÖVŞƏ**

Deyə bilərsinizmi, bu hekayədə söhbət nədən gedir?

Zərif bugecəki kimi qorxunc yuxu görməmişdi. Həmişə üzünə gülümsəyən, onu xoş sözlərlə dindirən Siranuş xala yuxuda əcinnə sifətində onu boğurdu. Suren dayının əlində tutduğu iti qılıncdan damla-damla qan süzülürdü. Bu qan onun üst-başına və ən çox da gözlərinə çilənmişdi. Əlində qan süzülən qılınc olan Suren dayının gözləri qan süzülən qılıncdan çox-çox qorxunc görünürdü. Onların qızları olan Süsən və Rozanın əlləri, ətəkləri daşla dolu idi. Hamısını da Siranuş xalanın əlində boğulan Zərifin başına yağdırmağa hazır idilər. Bütün bu dəhşətlərin hamısına dözmək olardı, təkcə Zərifin səsi çıxıb, “Ana!” — deyə çağıra bilsəydi. Yaxşı ki, qızcığaz yuxudan tez ayıldı. Yoxsa ürəyi partlayacaqdı. Gözünü açanda özünü qan-tər içində gördü. Bu əzab və işgəncənin yuxu olduğuna sevindi, heç kimi səsləmədi. Bilirdi ki, səhərlər ata-anası onu yuxuda qoyub işə gedirlər. Yatağından qalxmaq istədi, ancaq qalxa bilmədi. Elə bil üstünə daş qalamışdılar. Acı-ağrıdan əl-qolunu tərpədə bilmirdi. Handan-hana özünü ələ alıb yatağından qalxdı.

Qara rəngdə verilmiş sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Günəş çoxdan çıxmışdı. Havada yazın nəfəsi duyulurdu. **Eşikdə** sərçələrin civiltisindən qulaq tutulurdu. Eşiyə çıxdı ki, əl-üzünü yuyub, toyuqlarına dən səpsin. Əlini eyvanın qırağındakı **lüləkli parça** aparanda gördü ki, bomboşdur. Axı anası səhərlər onu doldurub qoyur ki, qızı əl-üzünü yusun. Gördü ki, yer yaşdır, kimsə onun suyunu yerə boşaldıb. Parçı doldurmaq üçün həyətə düşəndə gördü ki, atasının dünən əkdiyi qızılgül kollarını kimsə sındırıb, əzib. Əl-üzünü yuyub, anbardan bir **sini** dən götürüb toyuqları **düdülədi**. Toyuqlar gəldi. Ancaq Ları xoruzla Papaqlı fərə gözünə dəymədi. Axtardı, axtardı, tapa bilmədi.

Sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Çay-çörəyini yeyib küçəyə çıxdı. Süsəngilin **doqqazına** yanaşdı. Süsənlə Roza, iki bacı həyətdə oynayırdılar.

— Süsən, ay Süsən! Süsən, ay Süsən!

Zərifin beş addımlığında olan nə Süsən, nə də Roza ona hay verdilər. Zərif həyətə keçdi, onlara yanaşdı.

— Bizim Ları xoruzla Papaqlı fərə sizin həyətə gəlməyib?

146

Bir nəfər istedadlı, bir nəfər çətinliyi olan uşağı cütlərdə birləşdirməklə şagirdləri oxuya cəlb edin. Zəif şagird mətni oxuyur. İstedadlı şagird faktları aşkar etdikcə onu saxlayır, faktları göstərir, qeydlər aparır və oxunu davam etdirirlər. Müəllim cədvəli böyük formatda lövhəyə çəkir. Cütlərdən xahiş edir ki, hər cütdən bir nəfər gəlib müxtəlif məsələlərlə bağlı aşkar etdiyi faktı cədvələ daxil etsin. Hər cüt bir fakt daxil edə bilər. Yazılmış faktı təkrar yazmaq olmaz.

Cədvəl üzrə iş başa çatandan sonra kollektiv müzakirə başlanır. Əsərdə həm nəqli, həm də təsviri mətnin səciyyəvi cəhətlərinin olduğu vurğulanır. Bu səbəbdən belə mətnlərə nəqli-təsviri mətnlər deyilir.

Oxudan sonra fəaliyyəti yerinə yetirilir. Şagirdlər əsərin ideyası üzərində düşünməyə sövq edilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Yeni sözlərin nitqdə istifadəsi | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Bədii ifadə və təsvir vasitələrinin müəyyən edilməsi | | | | | |
| 4. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 5. | Ümumi rəyə gəlmə | | | | | |

## Cabir Novruz. “Mən bizim anaları Günəşlə tən tuturam”
## “Ana rəhmi” *əfsanəsi*
## *(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Şeiri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.).

–Uşaqlar, biz artıq neçə müddətdir ki, sizinlə təsviri xarakterli və nəqletmə xarakterli bədii nümunələri oxuyur, onların xüsusiyyətlərini öyrənirik. Deyə bilərsinizmi, təsviri xarakterli mətn deyərkən nə başa düşürsünüz? *(Cavablar alınır, qeydlər aparılır)* Bəs nəqletmə xarakterli mətnlər haqqında nə deyə bilərsiniz? *(Cavablar alınır) (İlkin biliklər)* Uşaqlar, heç düşünmüsünüzmü ki, bu iki mətn növü arasında hansı oxşar və fərqli cəhətlər var? *(Sual vermə)* Kim təsviri xarakterli əsərlərə aid bir nümunə göstərər? Bəs nəqletmə xarakterli əsərə aid? Bu gün biz iki bədii nümunə ilə tanış olacağıq. Oxuyarkən diqqət edək: bu nümunələr nəqletmə xarakterlidir, ya təsviri? Fikirlərinizi bildirərkən onları əsaslandırmalısınız: Nə üçün belə düşünürsünüz? *(Oxu məqsədi)*

**CABİR NOVRUZ. “MƏN BİZİM ANALARI GÜNƏŞLƏ TƏN TUTURAM”**
**“ANA RƏHMİ” ƏFSANƏSİ**
**(TƏSVİRİ VƏ NƏQLETMƏ XARAKTERLİ BƏDİİ NÜMUNƏLƏRİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ)**

***Tapşırıq 1.***

Əsərləri oxumazdan əvvəl oxuya hazırlıq işi aparın. Düşünərək oxumaq üçün təqdim edilən yardımçı sualları cavablandırmaqla əsərləri oxuyun.

Bu şeirdə nədən bəhs edilə bilər?

**MƏN BİZİM ANALARI GÜNƏŞLƏ TƏN TUTURAM**

Mən bizim anaları Günəşlə tən tuturam,
Onlara gül çələngi məhəbbətdən tuturam,
Əlvan qövsi-qüzehdən min cür rəng istəyirəm
Onlara od verirəm ürəyimin odundan.
Övladların adından, oğulların adından
Əyilməz analara əyilmək istəyirəm.

Burada hansı ifadə vasitəsi var?

Söz qoşmaq istəyirəm ən cavan analara,
Ömrünü bizə verib qocalan analara,
Bizə laylalarıyla xoş həyat verənlərə,
Bizə tale bəxş edib, bizə ad verənlərə,
Toyumuzu görəndə yüz il gəncləşənlərə,
Qadın adlı xilqətə, ana adlı bəşərə
Sevgi dolu mahnılar oxumaq istəyirəm,
Nə qədər ki səsim var, oxumaq istəyirəm.

Bu misralar sizdə hansı hissləri oyatdı?

Oğulları döyüşdən geri dönməyənləri,
Fəqət ürəklərində ümid sönməyənləri,
Bir gecədə saçını ağappaq hörənləri,
Bir gözüylə ağlayıb, birilə gülənləri,
Keçmiş qanlı davadan hər gün söz salanları,
Gəlinsiz olanları, nəvəsiz qalanları
Övlad məhəbbətilə isitmək istəyirəm,
Ürək hərarətilə isitmək istəyirəm.

Siz bu barədə nə düşünürsünüz?

152

– Uşaqlar, tanış olacağımız mətnlərdən birincinin adı “Mən bizim anaları Günəşlə tən tuturam”, ikincinin adı isə “Ana rəhmi”dir. Hər iki əsərdə nədən bəhs edilir? Kimin haqqında söz açılır? *(Cavablar alınır)* Deyə bilərsinizmi, bu gün biz nəyə görə məhz bu mövzuda bədii nümunələrə müraciət edirik? Uşaqlardan cavab alınır və təsdiq edilir. Bəli, bu günlərdə biz əziz analarımızın bayramını qeyd edəcəyik. Odur ki gəlin analar haqqında oxuyaq, həyatımızda onların rolu haqqında düşünək.

Əvvəlcə oxuya hazırlıq fəaliyyətini həyata keçirmək üçün şagirdlərə (fərdi şəkildə) 5 dəqiqə vaxt verilir. İşin təşkili proseduru şagirdin yadından çıxıbsa, o, dərslikdəki "Oxudan əvvəl" cədvəlinə (dərslikdə səh. 14) yönəldilir. Bu mərhələ başa çatandan sonra sinif şagirdlərin sayından asılı olaraq 2 və ya 3 böyük qrupa bölünür. Hər böyük qrup 2 yarımqrupa ayrılır. Böyük qruplardakı yarımqruplardan biri əfsanəni, ikincisi isə şeiri "Oxu zamanı" cədvəlini (dərslikdə səh. 15) yerinə yetirməklə və yardımçı sualları cavablandırmaqla oxuyur. Oxu başa çatandan sonra "Oxudan sonra" (dərslikdə səh. 17) fəaliyyəti yerinə yetirilir.

Bu misralar sizdə hansı hissləri oyatdı?

Mən bizim analara həyat səsi deyirəm,
Bir ümman dərinliyi, dağ zirvəsi deyirəm.
Hər əzaba tab edən, hər zəhmətə qatlaşan,
Torpaq ilə döyüşdə tunclaşan, poladlaşan,
Qabarlı əlləriylə bizə şöhrət gətirən,
Şərəfli ad gətirən, sonsuz hörmət gətirən
O əlləri qızıla mən tutmaq istəyirəm,
Onların heykəlini yaratmaq istəyirəm.

Mən bizim anaları Günəşlə tən tuturam,
Onlara gül çələngi məhəbbətdən tuturam,
Əlvan qövsi-qüzehdən min cür rəng istəyirəm
Onlara od verirəm ürəyimin odundan.
Əslimizin adından, nəslimizin adından
Əyilməz analara əyilmək istəyirəm.

Bu şeirdən siz nə öyrəndiniz?

***Cabir Novruz***

Sizcə, əfsanədə nədən bəhs edilə bilər?

**ANA RƏHMİ**

*(Əfsanə)*

Natəvan oğlu Mehdiqulu ilə qızı Xanbikənin əlindən tutub seyrə çıxmışdı. Yazın yaxşı vaxtı idi. Yal-yamacın tamaşasından doymaq olmurdu. Qarlı quzeylərin ağlayan, güllü güneylərin gülən günləri idi. Bulaqların, çayların qah-qah çəkən, uğunub gedən anları idi.

Birdən onların qarşısına bir atlı çıxdı. Qucağında da bir əlik. Ovçu tüfəng-tapançalı, yay-oxlu, qılınc-qalxanlı, şahqatarlı idi.

Atdan endi.

Siz necə, Natəvanı tanıyırsınızmı?

Natəvanı yaxşı tanıyırdı. Onun qəzəllərini az əzbərləməmiş, kefinin kök vaxtı dərələrdə, meşələrdə avazla az oxumamışdı.

— Xanım, — dedi, — bugünkü ovum sizin qismətinizdir. Uşaqlar əl-ayağı bağlı əliyə qorxa-qorxa yaxınlaşdılar, əllərini ehtiyatla toxundurdular. İlk təmasdan diksinən əlik tumara tez yatdı, xoşhallandı. Ölüm vahiməsi yaşlı gözlərindən çəkildi. Çapaladı, sanki Natəvandan imdad istədi, onu köməyə çağırdı: "Əl-qolumu aç, — dedi, — mən də anayam, mən də balalarımın yol-

153

Oxu başa çatandan sonra yarımqruplar öz qruplarında birləşir, oxuduqları ayrı-ayrı əsərlər haqqında qarşılıqlı fikir mübadiləsi edir, işlənmiş cədvəllərdən çıxış edərək biri digərini sistemli şəkildə məlumatlandırır. Beləliklə, fərqli əsərləri oxuyan yarımqruplar qrupda birləşib bir-birini məlumatlandırır ki, bu da şagird-şagird öyrətməsinin təşkili baxımından əhəmiyyətli fəaliyyətdir. Çünki insanlar öyrədən zaman daha yaxşı öyrənir.

Təqdimatlar aşağıdakı kimi aparılır: I qrup birinci əsər haqqında məlumatı təqdim edir ("Oxudan əvvəl", "Oxu zamanı", "Oxudan sonra" cədvəllərindən çıxış edərək), ikinci qrup ikinci əsər haqqında məlumatı təqdim edir. III qrup ekspert qrupdur. I və II qrupların əsər haqqında məlumatlarındakı boşluqları göstərir və onlarla bağlı şərhlər verir. Qruplar qiymətləndirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Müzakirələrdə ümumi fikrə gəlmə | | | | | |
| 4. | Təqdimat | | | | | |

## Cabir Novruz. “Mən bizim anaları Günəşlə tən tuturam”
## “Ana rəhmi” *əfsanəsi*
### *(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*

**Təlim məqsədi**

1. Əsərdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 2. Öyrəndiyi yeni sözlərdən müzakirələrdə istifadə edir (2.1.1.). 3. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (1.2.2.).

– Uşaqlar, keçən dərs qruplarda ayrı-ayrı əsərləri oxuduq, sonra bir-birimizə oxuduğumuz əsərdə nədən bəhs edildiyi, yazıçının nə demək istədiyi haqqında danışdıq. Sizcə, biz nə üçün belə etdik? *(Cavablar alınır) (İlkin bilik)* Bəli, hamımız hər iki əsərlə yaxından tanış olduq. Sizcə, bu bizə nə üçün lazımdır? *(Cavablar alınır)* Müəllim davam edir: “Biz bu əsərləri oxuyub onları dəyərləndirməliyik: bu əsərlərdən hansı nəqli, hansı təsviri xarakter daşıyır? Hansı əsəri oxuyan zaman onun hansı mətn növünə aid olduğunu müəyyən etmək  həmin mətnin quruluşundan çıxış edərək öz oxu strategiyamızı qurmaqda bizə yardımçı olar?
İndi gəlin yenə ötən dərsdəki tərkibdə qruplara və yarımqruplara bölünək”.

larda qalan gözlərini özlərinə yığmaq, həsrətli gözlərinin sel yaşlarını qurutmaq istəyirəm”.

Natəvan baxıb gördü ki, ana əlikdir, süd verən vaxtıdır. Ovçuya dedi:

— Əliyin əl-ayağın aç, balaları yolunu gözləyir.

Ovçu pərt oldu. Dinmədi. Uşaqlar anasının ətəyinə sarmaşdılar:

— Yox, ana, — dedilər, — qoy evimizə aparaq, biz onu saxlamaq istəyirik.

Natəvan çox dedi, uşaqlar az eşitdi. Ayaqlarını yerə döyə-döyə zar-zar zarıdılar, yalvardılar. Ana gördü ki, əmrlə, hökmlə nə əliyi onların əlindən ala biləcək, nə də balalarının ürəyini sındırmağa dilindən var gələcək. Oturdu. Uşaqların hərəsini bir dizinin üstünə alıb onlara maraqlı, təsirli bir əhvalat danışmağa başladı:

Sizcə, övladları Natəvanı razı sala biləcəkmi?

— İnişilin söhbətidir. Siz onda lap balaca idiniz. Sizi yatırmışdım. Bax, o dağın dalına aşdım ki, qantəpər çiçəyi yığım, gətirib beşiyinizin başından asım. Qantəpərin ətri uşağın üzünə lalə rəngi gətirir, otaq, ev düz bir həftə müşkənbər qoxuyur... Bir də gördüm, meşədən bir dəstə atlı çıxdı. Atlarını çapdılar. Üstümü aldılar.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?

Barmaqlarımda qızıl üzüklər, biləyimdə bilərziklər, qulağımda qiymətli sırğalar, boynumda boyunbağı, belimdə gümüş kəmər vardı. Bu quldurlar məni meşəyə aparıb öldürmək istədilər. Sonra da daş-qaşımı soyub aparacaqdılar. Axı kəsik baş dilsiz olar... Məni xeyli sürütlədilər. Qulağıma sizin səsiniz gəldi. Elə bildim, oyanmısınız, məni çağırmısınız, sizə hay verməmişəm. Ağlaya-ağlaya, “ay ana!” deyib məni çağıra-çağıra çöllərə düşmüşsünüz. Dartındım, quldurların əlindən çıxdım. Özümü qayalardan ata-ata qaçdım. Gəlib gördüm siz, doğrudan da, yetim quzu kimi mələyirsiniz, səsiniz dağlara ün salıb. Mənim balalarım, bu əlik də anadır, balaları var, görmürsünüzmü, südlüdür? Siz istərsinizmi, əliyin balaları yetim qala?

Uşaqların hərəsi bir yandan Natəvana sarmaşdılar:

— Yox, ana, — dedilər, — yox, yox!..

Ovçu əliyin əl-ayağını açıb buraxdı. Uşaqlar onun qaçmağına baxa-baxa sevinirdilər.

Bu əfsanədən siz nə öyrəndiniz?

154

Təsviri əsəri (şeiri) oxuyan yarımqruplar birinci tapşırığı, nəqli əsəri oxuyan yarımqruplar ikinci tapşırığı yerinə yetirməyə cəlb edilirlər. Şagirdlərin qruplarda yerinə yetirəcəyi iş dərslikdəki tapşırıqlarda maddələrlə aydın verilmişdir.

Tapşırıqların icrası başa çatandan sonra yarımqruplar öz qruplarında birləşir və yerinə yetirdikləri tapşırığın nəticələri barədə əvvəlki kimi qarşılıqlı məlumat mübadiləsi aparırlar.
Birlikdə əldə etdikləri nəticələri təsviri mətnin və nəqli mətnin tərtibinə verilən tələblərlə əlaqələndirirlər. Şagird-şagird öyrətməsi başa çatandan sonra qruplar qrup təqdimatı hazırlayırlar.

Keçən dərs ekspertlik edən qrup təsviri mətnlə bağlı yerinə yetirilmiş tapşırığın nəticələrini təqdim edir. Keçən dərs təsviri mətnlə bağlı məlumat verən qrup bu dərs ekspertlik edir. Beləliklə, vəzifə dəyişikliyi baş verir və bütün şagirdlərin hər bir məsələ üzərində dərindən düşünməsi üçün şərait yaradılır.

***Tapşırıq 2.*** “Oxudan sonra” təlimatına riayət edin (cədvəl 3, səh. 17).

**Yaradıcı tətbiqetmə:**

Azərbaycanda bitən bir neçə dərman bitkisi haqqında məlumat toplayın, onları təsvir edin.

***Tapşırıq 3.***

1. İnsanlar hər hansı bir işi görərkən qarşılarına müəyyən məqsədlər qoyurlar. Sizcə, bu əsərlər yazılarkən müəlliflərin məqsədi nədən ibarət olub?
2. Cabir Novruzun “Mən bizim anaları Günəşlə tən tuturam” şeirindən çıxış edərək aşağıda təqdim edilən suallara cavab verin.
— Müəllif əsərin əvvəlində oxucunun diqqətini cəlb edən, marağına səbəb olan hansı məqamlara toxunub?
— Şair nəyi (insan, məkan, əşya və hadisəni) təsvir edib? Onların səciyyəvi cəhətlərini necə təqdim edib?
— Müəllif oxucuda hansı əhvali-ruhiyyəni yarada bilib?
— Şair əsəri həyatla əlaqələndirmək üçün nə edib?
3. **Düşünün:** Bu cavablar təsviredici mətnin səciyyəvi cəhətləri ilə necə əlaqəlidir?

***Tapşırıq 4.*** “Ana rəhmi” əfsanəsindən çıxış edərək aşağıda təqdim edilən suallara cavab verin.

— Əsərdəki obrazların məqsədlərini, düşüncələrini, hisslərini, maraqlarını, dünyagörüşünü, ictimai vəziyyətini müəyyən edin.
— Əsərdə dialoqlara yer verilibmi? Dialoq kimlərin arasında baş verir və nə məqsəd daşıyır?
— Dialoqlarda obrazların söhbəti hansı zamanda baş verir?
— Əsərdə hər hansı təsvirə yer verilibmi? Bu təsvir ümumi xarakter daşıyır, yoxsa obrazın səciyyəvi cəhətlərini incəlikləri ilə əks etdirir?
**Düşünün:** Bu cavablar nəqletmə xarakterli mətnin xüsusiyyətləri ilə necə əlaqəlidir?

***Tapşırıq 5.***

1. Cabir Novruzun “Mən bizim anaları Günəşlə tən tuturam” şeirinin dil xüsusiyyətlərini aşağıda təqdim edilən suallara əsasən araşdırın:

155

Təqdimatlar dinlənilir və nəticələr qiymətləndirilir.

**Ev tapşırığı:** “Bir dəfə anamla (nənəmlə, bibimlə, xalamla) qonaq getmişdik”. Mətnin ardını yazın. Getdiyiniz evi, oradakı insanları təsvir edin. Mətndə əsas ideyanı kiçik fikirlərlə ifadə edin. Bədii təsvir faktlarına və hisslərin təsvirinə yer verin. Həmin evdə baş verən hadisələri yazaraq nağıl edin. (3.1.1., 3.1.2., 3.1.3.)

**!** Təqdimat etmək üçün şagirdlərin hazırladıqları iş vərəqlərini saxlayın. Gələn dərs onlar üzərində iş nəzərdə tutulub.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 2. | Nitqində yeni sözlərdən istifadə | | | | | |
| 3. | Müzakirələrdə ümumi fikrə gəlmə | | | | | |
| 4. | Əməkdaşlıq | | | | | |

## Cabir Novruz. “Mən bizim anaları Günəşlə tən tuturam”
## “Ana rəhmi” *əfsanəsi*
## *(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*

**Təlim məqsədi**

1. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 2. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Biz artıq iki dərsdir ki, “Ana rəhmi” *(əfsanə)* və Cabir Novruzun “Mən bizim anaları Günəşlə tən tuturam” əsərlərini araşdırdıq. Gəlin bir daha düşünək: “Ana rəhmi” əfsanəsində əsas məqsəd nədir və “Mən bizim anaları Günəşlə tən tuturam” şeirini yazan şair oxucusuna nə demək istəyir? *(Cavab dinlənilir)* Necə bilirsiniz, məqsədlərin fərqli olmasının əsərlərin səciyyəvi cəhətlərinə təsiri varmı? *(Cavablar dinlənilir)* *(İlkin bilik)* Sizcə, əsəri yaradarkən müəllifin məqsədi əsərə daha hansı məsələlər baxımından təsir edir? *(Sual vermə)* Həyatda da belədir. Məqsədlərimiz fəaliyyətlərimizə, münasibətlərimizə və bir çox digər məsələlərə təsir edir. *(Əlaqələndirmə)*

Bu gün həmin əsərlər üzərində araşdırmalarımızı davam etdirəcəyik.

— Əsərdə ananın portreti təsvir edilir, yoxsa onun haqqında nağıl edilir? Fikirlərinizi əsaslandırın.

— Bunun üçün müəllif hansı söz və ya söz birləşmələrindən istifadə etmişdir?

— Əsərdə hansı məqamlar əsas fikrin çatdırılmasına xidmət edir?

— Şeirdə müəllif hisslərin (eşitmə, görmə, qoxu, dad, toxunma) təsvirinə yer veribmi? Cədvəl 11-ə baxın, təqdim edilən göstəricilərdən hansının ananın xarici görkəmində nəzərə alındığını müəyyən edin.

— Şair hansı bədii təsvir (təşbeh, epitet), yaxud ifadə vasitələrindən (mübaliğə, bədii sual) istifadə etmişdir?

— Oxucunu təsvir edilən “məkana aparmaq”, “insanla görüşdürmək” üçün hansı feillərdən və isimlərdən istifadə edilmişdir?

2. Bu sual və cavablara əsasən təsviri xarakterli bədii nümunələrin dil xüsusiyyətlərini müəyyən edin.

***Tapşırıq 6.***

1. “Ana rəhmi” əfsanəsi ilə bağlı digər məqamları aşağıda təqdim edilən suallara əsasən araşdırın:

— Əsərdə hadisələr hansı zamanda baş verir və neçənci şəxsin dilindən söylənilir?

— Əsərin bir parçasında hadisələr I şəxsin dilindən danışılır. Həmin parçanı bir daha oxuyun. Obrazın hissləri və düşüncələri sizdə hansı təəssüratları yaradır?

— Müəllif fikirlərini ifadə edərkən hansı cümlə quruluşuna (sadə, mürəkkəb) üstünlük verib?

2. Bu sual və cavablara əsasən nəqletmə xarakterli bədii nümunələrin dil xüsusiyyətlərini müəyyən edin.

***Tapşırıq 7.*** Cabir Novruzun “Mən bizim anaları Günəşlə tən tuturam” şeiri və “Ana rəhmi” əfsanəsi üzrə iki dərsdir ki, verilən suallara cavab hazırlamısınız. Həmin cavabları 24-cü cədvəllə qarşılaşdırın. Uyğun gələn məqamları müəyyənləşdirin. Uyğun gəlməyənlərlə bağlı yoldaşlarınızla müzakirə aparın.

156

Görək ki, müəllifin fərqli məqsədi əsərə daha hansı məsələlər baxımından təsir edə bilər. *(Öyrənmə məqsədi)*

Tapşırıqların icrası başa çatandan sonra təqdimatlar dinlənilmədən yarımqruplar öz qruplarında birləşir və nəticələrini qarşılaşdıraraq onların təkmilləşdirilməsi üzrə işlər aparırlar. Bu işlər də başa çatandan sonra artıq şagirdlər həm təsviri, həm də nəqletmə xarakterli bədii nümunələri məqsədi, səciyyəvi cəhətləri, dil xüsusiyyətləri baxımından araşdırmış olurlar. Əvvəlki dərsdə üzərində tədqiqatlar apardıqları iş vərəqləri qruplara qaytarılır. Müəllim şagirdləri 3-cü tapşırığın icrasına sövq edir. Bu zaman şagirdlər iki dərs ərzində apardıqları tədqiqatların nəticələrini verilən cədvəllə qarşılaşdıracaqlar.

*Cədvəl 24*

| Təsviri mətnlər | Nəqli mətnlər |
|---|---|
| **Məqsədi** | |
| İnsan, məkan, əşya və hadisəyə dair aydın təəssürat yaratmaqla oxucunu əyləndirmək, düşündürmək. | Oxucunu əyləndirmək, öyrətmək, məlumatlandırmaq, hər hansı məsələyə onun münasibətini formalaşdırmaq, dəyişmək. |
| **Səciyyəvi cəhətləri** | |
| — oxucunun diqqətini cəlb edir;<br>— insan, məkan, əşya və hadisənin səciyyəvi cəhətlərini təqdim edir;<br>— müəyyən əhvali-ruhiyyə yaradır;<br>— yazını həyat hadisələri ilə əlaqələndirir. | — obrazlar məqsədləri, düşüncələri, hissləri, maraqları, dünyagörüşü, ictimai vəziyyəti müəyyən edilmiş fərd kimi təqdim edilir;<br>— dialoqlar daxil edilir;<br>— dialoqlarda zaman keçmişdən indiki və ya gələcək zamanlarda dəyişə bilir;<br>— ümumi təsvirlərə yer verilir. |
| **Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər** | |
| — İnsan, məkan, əşya, hadisə haqqında danışılmır, onun necə olduğu göstərilir;<br>— Xüsusi söz ehtiyatlarından istifadə edilir;<br>— Ancaq o məqamlardan söz açılır ki, həmin məqam əsas fikrin çatdırılmasına xidmət etsin;<br>— Hisslər (eşitmə, görmə, qoxu, dad, toxunma) təsvir edilir;<br>— Bədii təsvir vasitələrindən istifadə edilir;<br>— Oxucunu təsvir edilən “məkana aparmaq”, “insanla görüşdürmək” üçün təsirli feillərdən və dəqiq seçilmiş isimlərdən istifadə edir. | — Əsasən, keçmiş zamanda III şəxsin dilindən yazılır;<br>— İndiki zamanda I şəxsin dilindən də yazılan nümunələrə rast gəlmək olur. Bununla yazıçı oxucusunu yaratdığı obraza daha da yaxınlaşdırır. Oxucu əsərin qəhrəmanının duyğu və düşüncələrini hiss edir;<br>— Fikrin ifadəsində hansı cümlə quruluşuna üstünlük verilir;<br>— Belə mətnlərdə üstünlük isimlərə, feillərə verilir. |

157

Beləliklə, hər iki bədii nümunə dərslikdəki cədvəldə verilən parametrlər baxımından qarşılaşdırılır.

Bu zaman hər qrup fəaliyyətini özünüqiymətləndirmə ilə yekunlaşdırır. Şagirdlər iki dərsin tədqiqatlarının nəticələrini müqayisə apardıqları prosesdə özləri dəyərləndirirlər. Şagirdlərdən xahiş edilir ki, verilən cədvəl üzrə öz fəaliyyətlərini hər meyar baxımından qiymətləndirsinlər.

Şagirdlər ötən dərsdə olduğu kimi qruplar və yarımqruplara bölünürlər. Hər yarımqrup əvvəlki dərslərdə araşdırdıqları əsərlə bağlı tapşırıq 1 və 2 üzrə verilən göstərişlərə əsasən tədqiqatlarını davam etdirir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Əsərlərin məqsədləri arasında fərq | | | | | |
| 2. | Əsərlərin səciyyəvi cəhətlərinin fərqi | | | | | |
| 3. | Əsərlərin dil xüsusiyyətlərinin müqayisəsi | | | | | |

# “Koroğlu” dastanından “Düratın itməyi” qolu
## *(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim lövhədən bir mənzərə şəkli (mümkün qədər geniş ölçülü) asır və ya İKT vasitəsilə monitorda nümayiş etdirir. Sual verir: “Burada nə görürsünüz? Gəlin bu gördüyümüzü təsvir edək”. Şagirdlər mənzərəni təsvir edirlər. Sizin bu kiçik mətniniz necə mətn adlana bilər? *(Cavablar alınır)* Müəllim bir qədər kənarda bir hadisəni əks etdirən ikinci şəkli asır. Bu, cizgi filmdən illüstrasiyalar ola bilər. “Uşaqlar, sizcə, bu şəkildə hansı hadisə baş verir?” *(Cavablar alınır)* Uşaqlar həmin hadisə ilə bağlı şərhlər verirlər. Müəllim hadisə ilə bağlı şəkli götürüb mənzərə şəklinin üzərinə qoyur: “Uşaqlar, bu hadisə bu məkanda ola bilər?” *(Cavablar alınır)* Müəllim uşaqların fikirlərini təsdiqləyir: “Əlbəttə ki, ola bilər”.

**“KOROĞLU” DASTANINDAN “DÜRATIN İTMƏYİ” QOLU**
**(TƏSVİRİ-NƏQLİ BƏDİİ NÜMUNƏLƏRDƏ TƏSVİRİLİK VƏ NƏQLETMƏ XÜSUSİYYƏTLƏRİ)**

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq təlimatını yerinə yetirin. Düşünərək oxunu təmin edən yardımçı suallara cavab verməklə əsəri oxuyun.

**DÜRATIN İTMƏYİ**
*(Dastan)*

Deyə bilərsinizmi, bu dastanda nədən bəhs edilir?

Yenə də yaz ayları gəlmişdi. Çənlibeldə başqa bir aləm var idi. Hər tərəf al-yaşıla bürünmüşdü. Elə idi, elə idi ki, gül gülü, bülbül bülbülü çağırırdı. Necə deyərlər, lalələr bənövşələrə göz vururdu. Sıldırım qayalarda xınalı kəkliklər qaqqıldaşırdı. Bülbüllər Koroğlunun səsinə səs verirdi. Çənlibelin ətəklərində ot adamboyu qalxmışdı. Koroğlunun ipə-sapa yatmayan, qoruq-qaytaq bilməyən ayğırları ilxı ilə göy ota buraxılmışdı. Koroğlu bu yaz Düratı da ilxıya qatdırmışdı.

Dürat ola, çöl ola, xam dəli ayğırlar ola. Olmuşdu dəlisov bir şey. Day bir at ilə yola getmirdi. Çəçikləşirdi, qapışırdı, vuruşurdu. Day, o necə deyərlər, ilxını götürmüşdü başına, eləmişdi **ləlik-giryan**.

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Yenə də günlərin bir günündə Düratın nadincliyi tutdu. Atların birini vurdu, birini qapdı, axırda hamısını qabağına qatdı, Çənlibeldən aşağı töküb qovmağa başladı. İlxının ağzı düşdü çöllü bərrü-biyabana. Gethaget, gethaget, ilxı dağlar aşdı, düzlər keçdi, yamaclar dırmandı, enişlər endi, gəlib Ballıcada Qara xan deyilən bir xan var idi, onun qoruğuna doldu. İndi eşit Qara xandan.

Qara xan əzazil bir xan idi. Çox az adam tapılardı ki, onun əlindən sinədağlı olmasın. Özü də yaman tamahkar idi. Kimdə bir yaxşı şey görsəydi, ya xoşla, ya hiylə ilə, ya da ki bunların heç birisi baş tutmayanda zorla tutub əlindən alardı. Day camaat onun əlindən zinhara gəlmişdi. Hər yerdə özünü elə göstərirdi ki, guya, İran padşahının qohumudur. Odur ki qorxudan heç kəs ona bir söz deyə bilmirdi.

159

Müəllim şagirdlərə müraciət edir: “Biz öyrənmişdik ki, nəqletmə xarakterli əsərlərin elementlərindən biri də... Kim o elementləri sadalaya bilər? *(Cavablar alınır)* Bəli, məkan və zamanın göstərilməsidir. Əgər biz hadisənin baş vermə məkanını qeyd edərkən həmin məkanı incəliklərinə qədər təsvir etsək, o zaman bu əsər nəqli olur, ya təsviri?” *(Sual vermə)* Cavablar dinlənilir. “Deməli, bu əsərdə həm nəqletmə var, həm də təsviretmə. O zaman bu əsər hansı xarakteri daşıyır?” Uşaqlardan cavab alınır: “Təsviri-nəqli xarakterli bədii nümunə adlanır”.

Həm Azərbaycan, həm də dünya ədəbiyyatında belə əsərlər saysız-hesabsızdır. Bu gün nəqli-təsviri xarakterli bədii nümunə üzərində müxtəlif məsələləri bir neçə dərs araşdıracağıq. Bu hansı əsər ola bilər? *(Uşaqlar dərsliyə baxıblarsa, bu cavab səslənə bilər.)* Nə üçün məhz "Koroğlu" dastanından bir parça öyrənirik? Müəllim səslənən fikirləri dinləyir. Onun çatdırmaq istədiyi fikirlə əlaqəli fikir varsa, həmin fikirdən başlayır. "Mart ayı bizim üçün bayramlar ayı hesab edilir. Bu ayda hansı bayramlarımız var?" *(Beynəlxalq Qadınlar Günü, Novruz bayramı, bu ayda, demək olar ki, hər çərşənbə axşamı da bayram kimi qeyd edilir.)*



Elə ki Koroğlunun ilxısı gəlib onun qoruğuna doldu, nökərlər gəlib əhvalatı Qara xana xəbər verdilər, Qara xan o saat hökm elədi ki, ilxını haylayıb gətirsinlər.

Qara xanın adamları ilxını aparmaqda olsunlar, sənə kimdən deyim, Koroğludan.

Burada hansı cəhət var ki, nağılda ona rast gəlmək olmaz?

Koroğlu Çənlibeldə idi. Ələmqulu xanın yanından qayıdandan sonra hələ bir səfərəzada getməmişdi. Bir də ilxıçı başılovlu gəldi ki, bəs ilxı itib. Koroğlu əvvəl-əvvəl buna əhəmiyyət vermədi. Elə ki eşitdi ki, bəs Dürat da itib, qəzəbləndi. Elə bir nərə çəkdi ki, bütün Çənlibel titrədi. Dağlar, daşlar səs-səsə verdi. Dəlilər hamısı tökülüb gəldilər.

Aldı Koroğlu nə dedi:

Mübaliğənin rolunu aydınlaşdırın.

Hoydu, dəlilərim, hoydu, oğullar,  
Hardasa Düratım, tapılsın gərək!..  
Aman çəksin əlimizdən yağılar,  
Müxənnət obası çapılsın gərək!..

160

Bu sevincimizlə yanaşı, mart ayında bizim bir hüzn-kədər günümüz də var *(31 Mart Azərbaycanlıların Soyqırımı Günü)*. Xalqımız qonaqpərvər, duz-çörəkli olduğundan tarixən belə kədərli hadisələrlə də üz-üzə qalıb. Amma bu vəziyyətdən xalqı çıxaran qəhrəman oğullarımız da hər zaman olub. Məhz bu səbəbdən bu günlərdə elə bir əsər öyrənəcəyik ki, orada həm bizim adət-ənənələrimiz əks etdirilsin, həm xalqımızın rifahı üçün döyüşən oğullarımızdan söz açılsın *(Əlaqələndirmə)*. İndi dərsliyinizi açın, oxuya hazırlaşın ki, oxuya başlayaq. Şagirdlər səh. 14-dəki cədvəl üzrə iş aparır. Kollektiv oxu başlanır. Şagirdlər növbə ilə oxuyurlar. Tanımadıqları sözlərin mənasını lüğətdən aydınlaşdırırlar. Yardımçı suallar cavablandırılır. Oxu zamanı aparılması lazım olan fəaliyyətlər də nəzərdən qaçırılmır.

Oxu başa çatandan sonra kollektiv şəkildə "Oxudan sonra" fəaliyyəti (səh.17) cədvəl üzrə yerinə yetirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğətlə iş | | | | | |
| 2. | İfadəli oxu | | | | | |
| 3. | Müzakirədə fəallıq | | | | | |

## “Koroğlu” dastanından “Düratın itməyi” qolu
### *(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*

**Təlim məqsədi**

1. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5., 1.2.3.). 2. Əsərin janr xüsusiyyətlərini müəyyənləşdirir (1.1.4.). 3. Öyrəndiyi yeni sözlərdən bədii əsərlərlə bağlı diskussiya və təqdimatlarda istifadə edir (2.1.1.). 4. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 5. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Biz ötən dərs “Koroğlu” dastanını birlikdə oxuduq. Dastan xoşunuza gəldimi? Deyə bilərsinizmi, dastan nədir? Bu əsərin nümunəsində siz dastanın hansı cəhətlərini müşahidə etdiniz? *(İlkin biliklər) (Təxmini cavablar alınır.)* Müəllim şagirdlərin variantlarını ümumiləşdirməklə onları dərsliyə yönəldir. Dastan haqqında ucadan oxunur. “Nə fikirləşirsiniz, dastan nəqletmə xarakterlidir, ya təsviredicidir?” *(Sual vermə)* Fikirlər dinlənilir. Cavab ala bilməsəniz, kiçik suallar verin: “Burada hər hansı hadisə baş verirdimi? Burada problem var idimi və onun həll edilməsi üçün hər hansı bir işlər görülürdümü? Burada məkan təsviri var idimi? Bəs insan təsviri?” *(Əvvəl öyrəndikləri ilə əlaqələndirmə)* Müəllim suallarını ümumiləşdirir: “Gördüyünüz kimi, burada həm nəqletmə, həm də təsviri xarakterli əsərlərin xüsusiyyətləri vardır. O zaman dastan təsviredici xarakter daşıyır, ya nəqletmə xarakteri? Dastan bir janr olaraq həm nəqletmə, həm də təsviredici xarakter daşıyır. Gəlin birlikdə əsəri bu məsələ baxımından dərindən araşdıraq”. Şagirdlər qruplara bölünürlər.

Durub mərd meydanda göstərrəm hünər,
Qənimlər nərəmdən eyləyər həzər,
At üstə sağ-sola işlədək şeşpər,
Qoşun qayalara səpilsin gərək!..

Qoç igid yalıyar özü öz qanın,
Koroğlu, hər yana işlər fərmanın,
İndi bəy, paşanın, xotkarın, xanın
Dərisinə saman təpilsin gərək!..

Dəli Mehtər tez atlandı. Dəlilərdən, mehtərlərdən də bir neçəsini yanına alıb ilxını axtarmağa getdi. Amma sən de ki, ilxı hayanda idi? İlxı odu Qara xanın qoruğunda, Dəli Mehtər axtarır Çənlibelin kövşənlərini. Hər yeri bir-birinə vurdular. Dağı-daşı əldən-ayaqdan saldılar. Axırda kor-peşman Çənlibelə qayıtdılar.

Koroğlunun dərdi bir idi, oldu min. Dəlilər başladılar ona ürək verib yoşutmağa ki:

— Ay Koroğlu, niyə bu qədər cəza-fəza eləyirsən? İlxıdı, görəsən, ağzı hayana düşüb, çıxıb gedib. İtməyəcək ki? Harada olsa tapılacaq. Qorxudan kim sənin ilxına gözünün ucu ilə baxa bilər?

Dəlilər çox dedilər, Koroğlu az eşitdi. Nə qədər elədilər, yoşumadı ki, yoşumadı. Elə olmuşdu, elə olmuşdu ki, acığından bığlarını gəmirirdi. Nigar gördü yox, Koroğlu soyumaq bilmir. Elə bil ki yanmış kürədir, getdikcə qızır. Axırda dedi:

— Ay Koroğlu, hirslənəndə soyumaq bilmirsən. İndi nə olub axı? İlxıdı, itib, tapılar da...

Koroğlu Nigarın cavabında aldı görək nə dedi:

Nigar, Düratın itməyi
Yandırır məni, yandırır...
Əməyim zaya getməyi
Yandırır məni, yandırır...

Alnımdakı qalın qatlar,
Düşmən görsə, bağrı çatlar,
Candan əziz **bədöy** atlar
Yandırır məni, yandırır...

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

161

Tapşırıq 3-ü yerinə yetirmək üçün sinif 6 qrupa bölünür.
Dərslikdəki cədvəldə təqdim edilən üç məsələdən hər birinin icrasına 2 qrup cəlb edilir:
**I–IV qruplar** – əsərin məqsədi
**II–V qruplar** – əsərin səciyyəvi cəhətləri
**III–VI qruplar** – əsərin dil xüsusiyyətləri

Qruplarda araşdırmalar başa çatandan sonra uyğun mövzuları araşdıran 2 qrup birləşir, gəldikləri nəticələr müzakirə edilir. Vahid təqdimat hazırlanır.

Şagirdlərin təqdimatları dinlənilərkən "Təqdimat etmək mədəniyyəti" parametrlərinə diqqət edin.

Sinəmin düyünü, dağı,
Müxənnət, meydan açmağı,
Mən dəliyə sataşmağı
Yandırır məni, yandırır...

Yaradan hoyuma yetə,
Bu müşkül mətləbim bitə,
Dürat da Qıratdan ötə
Yandırır məni, yandırır...

Koroğluyam, deyim düzü:
Saymaram əllini, yüzü,
Hərcayının tənə sözü
Yandırır məni, yandırır...

Sizcə, Koroğlu hansı tədbirləri görəcək?

Söz tamama yetişdi. Nigar dedi:

— Yaxşı da... Axır acıqlanmaqdan, dodaqlarını çeynəməkdən ki bir şey çıxmayacaq. Tədbirin nədi, onu de!

Koroğlu sazı döşünə basıb, bir dəfə dəlilərə baxdı, dedi:

İndi bir mərd dəli gərək,
Tapsın mənim Düratımı.
Bəslənəndə quzu kimi,
Miniləndə kür atımı.

Kişnəyib meydanda gəzən,
Hərdən sağa-sola süzən,
Düşmanın başını üzən
Bir əsrəmiş nər atımı.

Həmişə olan gücündə,
Şeşpər atıla üstündə,
Hünər göstərib dar gündə
Düşürməyən ər atımı.

Koroğluyam, yol güdərəm,
Düşman bağrını didərəm,
Atlannam, özüm gedərəm,
Çəkin mənim Qıratımı!..

162

Vaxtdan səmərəli istifadə çox əhəmiyyətli bir keyfiyyətdir. Bu baxımdan sinifdə müvafiq tərbiyə işi aparılması zəruri hesab edilir. Müəllim tapşırığın icrası üçün optimal vaxt ayırmalı, şagirddən də həmin vaxt çərçivəsində işin icrasını gözləməlidir. Bu, 45 dəqiqə vaxtın səmərəli istifadəsi ilə nəticələnir. Verilmiş vaxt çərçivəsində tapşırığın yerinə yetirilməsi ayrıca meyar kimi holistik qiymətləndirmə sxeminə daxil edilə bilər.

Müəllim təqdimatları ümumiləşdirir: – Dastan, həqiqətən, həm təsviri, həm də nəqli mətnin xüsusiyyətlərini daşıdığından belə mətnlər nəqli-təsviri mətnlər adlanır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Bədii ifadə və təsvir vasitələrindən istifadənin rolunun şərhi | | | | | |
| 2. | Nitqində yeni öyrəndiyi sözlərdən istifadə | | | | | |
| 3. | Müzakirələrdə fəallıq | | | | | |
| 4. | Janr xüsusiyyətlərinin şərhi | | | | | |

## “Koroğlu” dastanından “Düratın itməyi” qolu
### *(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*

**Təlim məqsədi**

1. Əsərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Əsərdə bədii ifadə və təsvir vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 3. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 4. Dastanı hissələrə ayırır, plan tərtib edir (1.1.3.) 5. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 6. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim şagirdlərə müraciət edir: “Uşaqlar, biz sizinlə “Koroğlu” dastanının təsviri-nəqli xarakterli bədii nümunə olduğunu araşdırdıq və əmin olduq ki, bu, həqiqətən də, belədir. İndi gəlin əsəri təhlil edək. Əsəri təhlil etmək üçün hansı məsələlərə yer verməliyik? *(İlkin biliklər)* Hansı məqsədlər baxımından əsəri hissə-hissə araşdırmalı və nəticələrə gəlməliyik?” *(Cavablar alınır) (Sual vermə)*

– Əsərin ideyasının müəyyən edilməsi;
– Bədii ifadə və təsvir vasitələrindən istifadə;
– Əsərdə başlıca obrazın təsviri və bu göstəricilərdən çıxış edərək təhlili;
– Əsərin quruluşu;
– Əsərin elementləri.

Biz əvvəlki dərslərimizdə bu fəaliyyətləri yerinə yetirməyin yollarını öyrənmişik, doğrudurmu? *(Əlaqələndirmə)*

Sinif beş qrupa bölünür. Hər qrupa bir tapşırıq verilir. Tapşırıqların bu şəkildə bölünməsi sizə imkan verir ki, bir dərsdə əsərin müxtəlif məsələlər baxımından təhlilini aparasınız.

Nərəm davada, qızğın nər,
Dünyada göstərdim hünər,
Boyandı əlimdə şeşpər
Qana, deyim, Telli Nigar!

Müxənnətin üzü gülməz,
Namərd dostun qədrin bilməz.
Koroğlu hünəri gəlməz
Sana, deyim, Telli Nigar!

***Bunu bilməlisiniz!***

***Dastan*** şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrıdır. Dastandakı əhvalat nəsrlə söylənilir və yeri gəldikcə mövzu ilə bağlı şeir parçaları da verilir. Dastanlarda müəyyən bir dövrdə baş vermiş əhvalat həyati həqiqət kimi söylənir. Dastanlarda bəzən faktlar şişirdilir, mübaliğədən çox istifadə olunur. Burada bəzən əfsanəvi və sehrli qüvvələr də iştirak edir. Azərbaycan şifahi xalq ədəbiyyatında onlarca dastan var. Dastanları ideya-mövzu cəhətdən iki qrupa bölmək olar:

— qəhrəmanlıq dastanları;
— məhəbbət dastanları.

Qəhrəmanlıq dastanlarında xalq içərisindən çıxmış igid oğul və qızların azadlıq, haqq, ədalət uğrunda mübarizəsi təsvir olunur.

***Tapşırıq 2.*** “Oxudan sonra” təlimatı üzrə iş aparın (cədvəl 3, səh. 17). Müzakirələr zamanı öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.

***Tapşırıq 3.***

1. Təsviri-nəqletmə xarakterli bədii nümunələrin səciyyəvi cəhətlərini nəzərə alaraq oxuduğunuz dastanı 25-ci cədvəldən istifadə etməklə araşdırın. Aşkar etdiyiniz xüsusiyyətlərlə bağlı qeydlərinizi aparın. Onların faydalı fikirlərindən yararlanmaqla işinizin keyfiyyətini yüksəldin.
2. Nəticələrinizi yoldaşlarınızla müzakirə edin. Fikirlərinizi əsaslandırın.

168

Düşünmək olar ki, şagirdlər əsəri bütün məsələlər baxımından təhlil etmirlər. Bu dərsdə hər şagird qrupu “əsərin tam təhlili” kimi bir problemin bir hissəsini yerinə yetirməklə ümumi işə öz töhfəsini verdi. Təqdimat edərkən yoldaşlarını öyrətdi və onların da təqdimatından öyrəndi.

Növbəti dərsdən başlayaraq bir əsər hər kəs tərəfindən tam təhlil ediləcək.

Qrup təqdimatlarının bütün şagirdlər tərəfindən diqqətlə dinlənilməsi dərsin ən əhəmiyyətli mərhələsidir. Şagird apardığı tədqiqatların nəticəsində əldə etdiyi yeni məlumatları yoldaşları ilə mübadilə edir. Bu zaman tədqiqat aparan şagird və ya şagirdlər qrupu tədqiqatlarının nəticələri haqqında digər yoldaşlarına məlumat verirlər. Beləliklə, onları öyrədir və onların da düşündürücü suallarından bəhrələnirlər. Bunun üçün təqdimatlar eyni zamanda alınır ki, bir şagird təqdimat edərkən digərləri başqa işlə məşğul olmasınlar.

Hamının diqqətinin təqdimatçıda olmasını təmin etmək üçün müəllim ən narahat uşaqların yanında durmalıdır. Təqdimatçıdan bir qədər uzaq durmaqla onun səsinin tonunun da ucalığını elə tənzimləyir ki, danışan şagirdin səsini sinifdəki hər şagird eşidir.

*Cədvəl 25*

| Təsviri-nəqli mətnlər | |
|---|---|
| **Məqsədi** | |
| Oxucunu<br>— əyləndirmək;<br>— öyrətmək;<br>— məlumatlandırmaq;<br>— hər hansı məsələyə onun münasibətini formalaşdırmaq;<br>— hər hansı məsələyə onun münasibətini dəyişdirməkdir. | |
| Bu zaman haqqında danışılan insan, məkan, əşya və hadisənin səciyyəvi cəhətlərinə dair dolğun təsvirlər oxucuda zəngin təəssüratlar yaradır. | |
| **Səciyyəvi cəhətləri** | |
| — Hadisənin baş verdiyi zaman və məkan göstərilir;<br>— Burada baş verən hadisəyə oxucunun diqqətini cəlb etmək üçün təsvirlərə geniş yer verilir;<br>— İnsan məqsədləri, düşüncələri, hissləri, maraqları, dünyagörüşü formalaşmış bir fərd kimi təqdim edilir;<br>— Onun xarici görkəmi və ictimai vəziyyəti təsvir edilir;<br>— Məkan, əşya və hadisələrin səciyyəvi cəhətləri təqdim edilir;<br>— Oxucuda müəyyən əhvali-ruhiyyə (kədər, sevinc, mübarizə, əzmkarlıq və s.) yaradılır;<br>— Obrazlar dialoqa daxil olur;<br>— Əsərdə bir və ya bir neçə problem yaradılır ki, sonda müəyyən yollarla həmin problemlər öz həllini tapır.<br>Beləliklə, təsviri-nəqli xarakterli mətnlərdə beş elementin olması təmin edilir (hadisənin baş verdiyi zaman və məkan; obrazlar; əsərin mövzusu; ziddiyyət (problem); süjet) | |

169

Tapşırıqları yerinə yetirmək üçün həmin mövzulara uyğun cədvəllər və sxemlər şagirdlərə təqdim edilir.
Qrup təqdimatları qiymətləndirilir.

**Ev tapşırığı:** "İsgəndər quş dili öyrənir" nağılını bir daha oxuyun. "Koroğlu" dastanı ilə janr xüsusiyyətlərinə görə müqayisə edin (1.2.1.).

**!**

Məs.: Obrazı araşdıran qrup onun xarici görkəmini, ictimai rolunu təsvir edib, bundan sonra həmin obraz haqqında mühakimələr yürütməlidir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Hər qrup öz tapşırığının icra keyfiyyəti baxımından qiymətləndirilir | | | | | |
| 2. | Qarşılıqlı qrup qiymətləndirilməsi də aparıla bilər | | | | | |
| 3. | Tapşırığın icrası üçün ən əhəmiyyətli məqamlar meyar kimi götürülür | | | | | |
| 4. | Obrazların səciyyələndirilməsi | | | | | |

## TEST

**1. Aşağıdakı abzasdan əlaqələndirilmiş təsvir vasitələrini müəyyənləşdirin:**

Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarım kilometrliyindən axan Quruçay şırıldayır, elə bil ki axıb gəldiyi qalın meşələrdən bizə qəribə əfsanələr hekayət edir. Qurbağalar aramla səslənir. Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur.

A. Yer, görmə
B. Yer, eşitmə
C. Tarix, yer
D. Say, eşitmə

**2. Mətnin növünü müəyyənləşdirin:**

A. Nəqli-təsviri
B. Təsviri
C. Mühakimə
D. Nəqli

**3. Mətndə verilmiş *“sapand”* sözünün mənasını tapın:**

A. Ox
B. Kəsici alət
C. Daş atmaq üçün qədim silah
D. Qamçı

**4. Aşağıdakı cümlədə hansı bədii təsvir vasitəsi hisslərlə əlaqələndirilmişdir?**

*Daş qoyub atanda tapança kimi şaqqıldayırdı.*

A. Epitet, dad
B. Təşbeh, eşitmə
C. Epitet, qoxu
D. Təşbeh, toxunma

**5. Mətndə hadisələrin ardıcıllığını müəyyənləşdirin:**
1. Zəmidə oxuyan turac, ovçuluğa maraq
2. Turacın yaralanması, Quruçayın səsi
3. Həsənin inadı, ana turacın fəryadı
4. Nənənin yardımı, eşidilməyən nəğmə

A. 2, 4  B. 1, 3, 4  C. 1, 2, 4  D. 1, 2, 3

**6. Mətndə verilmiş *“heybə”* sözünün mənasını tapın:**

A. Xurcun
B. Yol çantası
C. Torba
D. Zənbil

**7. Aşağıdakı cümlədə hansı təsvir vasitələri əlaqələndirilmişdir?**

*Turac bir qədər havaya millənib, sonra qurğuşun kimi yerə düşdü.*

A. Epitet, say
B. Təşbeh, yer
C. Epitet, ad
D. Təşbeh, ad

**8. Mətndə hansı hadisələr baş vermir?**
A. Uşaqlar quşcuğaza kömək etdilər.
B. Zəmidən turac səsi eşidilirdi.
C. Uşaqlar Quruçayın şırıltısına tamaşa edirdilər.
D. Körpə bala anasına baxıb hey civildəyirdi.

**9. Quşcuğazın körpə balasına baxan Həsən hansı hissləri keçirirdi?**

A. Qorxu
B. Sevinc
C. Qəzəb
D. Təəssüf

**10. Əsərin nəticəsində bu hadisə baş vermir:**

A. Uşaqlar turac ovuna hazırlaşırlar.
B. Yaralı turac ürkək nəzərləri ilə bizə baxırdı.
C. Yaz gecəsi yenə öz əfsanəsini söyləyirdi.
D. Evimizin arxasındakı zəmidən daha turac nəğməsi eşidilmirdi.

**“Zəmidə bir turac səslənirdi” mətni üzrə testin doğru cavabları:**

**1 – B 2 – A 3 – C 4 – B 5 – B 6 – A 7 – D 8 – C 9 – D 10 – A**

## Sinifdənxarix oxu.
## "İki qardaş" (nağıl)

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını aydınlaşdırır. (1.1.1.) 2. Öyrəndiyi sözləri müzakirələrdə istifadə edir. (2.1.1.) 3. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur. (1.1.2.) 4. Süjetli bədii nümunəni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir. (1.1.3.) 5. Əsərin ideyasını müəyyən edir, fikirlərini əsaslandırır. (1.2.4; 3.1.2.) 6. Əsərin janr xüsusiyyətini müəyyənləşdirir. (1.1.4.) 7. Yoldaşları ilə ümumi rəyə gəlir. (2.2.1.)

Tədris olunan əvvəlki dərslərimizdən sinifdənxaric oxu dərsinin keçirilməsi ilə bağlı tövsiyələrlə artıq tanışsınız. Bu sinifdənxaric oxu dərsi üçün tövsiyə edilən bədii nümunə "İki qardaş" nağılıdır. Mənəvi zənginliyi və fiziki kamilliyi özündə birləşdirən kamil şəxsiyyətin formalaşmasına təsir göstərən amillər sırasında mütaliənin xüsusi yeri vardır. Zəngin ideya mənbəyi olan kitab insan tərbiyəsinin əvəzsiz vasitəsidir. Kitablar tarixi keçmişi öyrənməyə, müasirliyi düzgün qavramağa və gələcəyi qabaqcadan görməyə yardımçı olur. Məhz ona görədir ki, tarixin bütün dövrlərində bəşəriyyətin ən qabaqcıl, mütəffəkir şəxsiyyətləri həm bilik mənbəyi olan kitaba, həm yazılı abidələrimizi mühafizə edən kitabxanaya, həm də insan mənəviyyatını zənginləşdirən mütaliəyə yüksək qiymət vermiş, cəmiyyətdə onların hər birinin rolunu layiqincə dəyərləndirmişlər.

### İKİ QARDAŞ NAĞILI

Bir şəhərdə iki qonşu var imiş, biri tacir imiş, o biri əkinçi. Bunların hərəsinin iki oğlu var imiş. Tacirin oğlanları həm fərasətsiz, həm də yaman dəcəl imişlər. Elə işləri, peşələri ona-buna sataşmaq imiş. Amma əkinçinin oğlanları ağıllı, zəhmətkeş, başıaşağı imiş. Bu kişinin bütün var-dövləti bircə cüt öküzü var imiş. Kişinin böyük oğlu evli imiş, kiçiyi subay.

Ay dolanır, il keçir, kişi canını oğlanlarına tapşırıb ölür. Ataları öləndən sonra iki qardaş bir müddət bir yerdə dolanırlar. Amma böyük qardaşın arvadı hey ərinin baş-beynini aparıb giley eləyir:

— Qardaşın böyüyüb yekə oğlan olub. Nə vaxtacan bizimlə bir yerdə qalacaq. Ona de ki, çıxıb getsin. Özünə ayrı yerdə ev-eşik düzəltsin.

Arvad nə qədər deyirdisə, əri qardaşından ayrılmaq istəmirdi. Amma arvad əl çəkmirdi ki, çəkmirdi. Axırda əri əlacsız qalıb kiçik qardaşına dedi:

— Qardaş, görürəm bu arvad səni yola verməyəcək, mən də öhdəsindən gələ bilmirəm. Yaxşısı budur gəl səni ayırım, sənin də canın rahat olsun. Mən də onun danlağından qurtarım. Arxayın ol, səni ayırsam da, gözüm üstündə olacaq.

Kiçik qardaş razı oldu. Var-yox, atalarından qalan iki öküzləri var idi. Onu da bölüşdülər, hərəsinə biri düşdü. Qardaşlar bir neçə ay ayrı yaşadılar.

Ay dolandı, gün keçdi, əkin əkmək vaxtı gəlib çatdı. Böyük qardaş baxıb gördü bir öküznən heç bir iş görə bilməyəcək. Əlacı kəsilib gəldi kiçik qardaşının yanına, dedi:

214

**Tövsiyə 1.** Müəllim bir dərs əvvəl qabaqlayıcı tapşırıq da verə bilər. Şagirdlər məktəb kitabxanasından, internetdə elektron kitabxanalardan mövzu ilə bağlı bədii nümunələr əldə edə bilərlər.
Hər ehtimala qarşı dərsliyin "Əlavə oxu" bölməsinə sinifdənxaric oxu materialı daxil edilmişdir.

**Tövsiyə 2.** Şagirdlərin hamısının məktəb kitabxanasının üzvü olmasına nəzarət edin. Sinifdənxaric oxu dərslərində onların kitabxanada işləməsini tapşırın. Ümumiyyətlə, bu dərslərin kitabxanada keçirilməsi daha məqsədəuyğundur. Lakin belə hallarda müəllim əvvəlcədən mövzu ilə bağlı kitabxanada hansı ədəbiyyatın olduğunu özü araşdırmalıdır ki, dərsin vaxtı yalnız əsər axtarmağa sərf edilməsin.
**Tövsiyə 3.** Şagirdlər artıq onlarca əsəri ideyasının, bədii təsvir və ifadə vasitələrinin, quruluşunun müəyyən edilməsi kimi məsələlər baxımından araşdırmış, zəruri bilik və bacarıqlara yiyələnmişlər. Odur ki əsərin təhlili üzrə iş apararkən bu məsələləri nəzərə alın.

— Qardaş, indi əkin vaxtı gəlib, bir öküzlə nə sən iş görə bilecəksən, nə mən, gəl birlikdə əkib-becərək, nə götürsək, tən yarı bölərik.

Kiçik qardaş razı oldu. Həmin gündən iki qardaş arpanı, buğdanı əkib, biçib döydülər. Hərəsi öz payını taya kimi bir yerə yığdı. İstədilər evə daşısınlar, gördülər qaranlıq düşüb. Hərə öz taxılının yanında uzanıb yatdı ki, səhər açılanda işıq gözü durub daşıyarıq. Böyük qardaş yuxuya gedəndən bir az sonra kiçik qardaş durub öz-özünə bərkdən dedi:

— Bu heç insafdan deyil, böyük qardaşımın arvad-uşağı var. Külfəti böyükdü, amma mən təkəm. Taxılı da tən yarı bölmüşük. Gərək mən çox hissəsini böyük qardaşıma verəydim.

Oğlan sözünü qurtarıb kürəyi aldı əlinə, öz arpa-buğdasının yarısını tökdü qardaşının payının üstünə. Sonra yenə yıxılıb yatdı. İndi də böyük qardaş yuxudan ayıldı. O da ucadan öz-özünə dedi:

— Heç insaf deyil. Mən taxılı kiçik qardaşımla tən yarı bölmüşəm. Əvvəla, mən haqsızlıq eləyib onu ayırdım. Sonra da öküzünü verməsəydi, mənə kömək eləməsəydi, bu qədər taxılı hardan ala bilərdim.

Bu qardaş da kürəyi əlinə alıb öz arpa-buğdasının tən yarısını kiçik qardaşının payının üstünə tökdü. Sonra da yıxılıb yatdı.

Qardaşlar səhər yuxudan ayılıb görürlər ki, taxıllarının üstü qızılla doludur. Onlar bu işə məəttəl qalırlar. Öz aralarında götür-qoy eləyirlər ki, bəlkə, bizi şərə salmaq üçün qızılları bura töküblər. İstəyirlər ki, qızılları götürməsinlər. Baxıb görürlər ki, taxıl tayasının üstündə bir kağız var. Kağızı açıb oxuyurlar: "Ey Allahın təmiz ürəkli bəndələri, mən bilirəm ki, siz bu qızılları aparmaq istəməyəcəksiniz, qorxmayın, aparın. Öz malınız kimi halaldı. Gecə sizin hər ikinizin söhbətini, elədiyiniz işi gözümnən gördüm. Bu iş mənə çox xoş gəldiyinə görə bu qızılları sizə bağışlayıram. Aparın, halal xoşunuz olsun". Kağızı oxuyandan sonra qardaşlar taxıl və qızılları yığışdırıb apardılar evlərinə. Özlərinə gözəl imarət tikdilər.

Qonşu tacirin oğlanları bunların bu cah-calalını görüb paxıllıqları tutdu. Tacirin böyük oğlu atasının nə qədər var-dövləti var idisə, hamısını kef-damağa verib, xərcləyib qurtarmışdı. O, bir gün atasının yanına gəlib dedi:

215

**Tövsiyə 4.** Şagirdlərə qeyd edilən tapşırığı verin:
1. Nağıl haqqında məlumat vermək üçün onun xəritəsini hazırlayın.
2. Nağılda əsas ideyanı müəyyən edin və münasibət bildirin.
3. Fikrin obrazlı ifadəsi üçün istifadə olunan bədii ifadə və təsvir vasitələrinə bir neçə nümunə göstərin.
4. Əsərin quruluşunu müəyyən edin.
Dərsin sonunda ən fəal oxucuları qiymətləndirin. Bu da şagirdlərə bir stimul verir. Onların kitaba olan sevgisini daha da artırır. Bəzən şagirdlər özlərini əsərin qəhrəmanına bənzətməyə çalışır. Mütaliə bir növ həyat dərsidir. Şagirdlərin həm şifahi nitqini, həm də onların mühakimə yürütmə bacarığını formalaşdırır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğət üzrə iş | | | | | |
| 2. | İfadəli oxu və ya nəqletmə | | | | | |
| 3. | İfadəli oxu və ya nəqletmə | | | | | |
| 4. | Əsərin janr xüsusiyyətləri | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
### *(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərin oxusu üzrə iş)*

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsərlə bağlı fikirlərini bildirərkən yeni öyrəndiyi sözlərdən istifadə edir (2.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim müxtəlif yollarla şagirdlərin ilkin bilikləri haqqında məlumat toplaya bilər.
I. Dədə Qorqudun şəklini asıb: “Bu kimin şəklidir?” – soruşa bilər
II. “Dədə Qorqud” filmindən bir fraqment nümayiş etdirə bilər: “Bu hansı filmdəndir?”
III. İKT olmayan sinifdə “Dədə Qorqud” filminə bəstələnmiş, Yalçın Rzazadənin ifa etdiyi mahnını maqnitofon, DVD, əl telefonu vasitəsilə səsləndirə bilər. “Bu mahnını eşidəndə yadınıza nə düşür?” və s.

**“KİTABİ-DƏDƏ QORQUD” DASTANINDAN**
**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ BƏDİİ NÜMUNƏNİN TƏHLİLİ ÜZRƏ İŞ)**

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq təlimatını yerinə yetirin (cədvəl 1, səh. 14).
2. Əsəri proqnozlaşdırmaqla oxuyun.

| Proqnoz | Əsərdə verilən variant |
| --- | --- |
| | |
| | |
| | |
| | |

**BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY**

Bir gün oğuzların yurdlarına düşmən basqın etdi. Onlar gecəylə qorxub köçdü. Qaçıb gedərkən Aruz qocanın körpə oğlu düşüb yolda qaldı, bir şir tapıb götürdü, bəslədi...

Bir müddətdən sonra oğuz camaatı yenə yurduna qayıtdı. Oğuz xanın ilxıçısı gəlib xəbər gətirdi. Dedi: “Xan, qamışlıqdan bir şir çıxır, sıçrayıb qaçmağı adam kimidir, atı vurub-basır, qanını sümürür”.

Aruz dedi: “Xan, bu, bəlkə, yerimizdən qaçanda düşüb itən körpə oğlumdur?” Bəylər atlandılar. Şirin yatağı üzərinə gəldilər. Şiri qaçırıb oğlanı tutdular. Aruz oğlanı evinə gətirdi. Şadlıq etdilər. Yemək-içmək oldu. Amma oğlanı nə qədər saxlayıb-ovundurdularsa, durmadı, şirin yataq yerinə qaçdı. Yenidən tutub gətirdilər.

Dədə Qorqud haqqında nə bilirsiniz?

Dədəm Qorqud gəldi. Dedi: “Oğlum, sən insansan. Heyvanla həmsöhbət olma. Gəl yaxşı atlar min, yaxşı igidlərlə birgə çap! Böyük qardaşının adı Qıyan Səlcikdir, sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versin!”

173

İlkin biliklər alınandan sonra: “Bu əsər haqqında daha nələri bilmək istərdiniz?” – sualını verin. Cavablar alınandan sonra əsər haqqında danışın: “Bu əsər xalqımızın qəhrəmanlıq salnaməsidir. Xalqımızın qədim mədəniyyətini, adət-ənənələrini əks etdirən, dəyəri heç nə ilə ölçülməyən sərvətidir. Bu əsər torpaqlarımıza sahib çıxmaq istəyənlərə qarşı silahımızdır. *(Əlaqələndirmə)* Bu günlərdə biz “Kitabi-Dədə Qorqud” dastanından “Basatın Təpəgözü öldürdüyü boy”u oxuyacaq, əsərin tam təhlili üzərində bir neçə dərs iş aparacağıq”.

Şagirdlər əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparırlar. Mətnin oxusuna hazırlıq işləri bitəndən sonra kitabların örtülməsi xahiş edilir. Bu, şagirdlərə hadisələri proqnozlaşdırma şəraiti yaratmaq baxımından zəruridir. Oxu kollektiv formada proqnozlaşdırmaqla keçirilir. Müəllim nəzərə almalıdır ki, əsərin həcmi bir qədər böyükdür. Odur ki proqnozlaşdırma aparmaq üçün şagirdlərə müraciət edərkən vaxt itkisinə yol verməməyə çalışmalıdır.

| Proqnoz | Əsərdə verilən variant |
|---|---|
| | |



götürüb yerə çırpdı. Dedi: “Oğlan, qurtuldunmu?” Basat dedi: “Tanrım qurtardı”. Təpəgöz dedi: “Ay oğlan, al bu barmağımdakı üzüyü barmağına tax, sənə ox və qılınc kar eyləməsin”. Basat üzüyü alıb barmağına keçirdi. Təpəgöz dedi: “Oğlan, üzüyü alıb taxdınmı?” Basat dedi: “Taxdım”. Təpəgöz Basatın üzərinə atılıb, xəncərlə vurub-kəsdi. Basat sıçrayıb kənarda durdu, gördü ki, üzük yenə Təpəgözün ayağı altına düşüb qalıb.

Təpəgöz dedi: “Qurtuldunmu?” Basat dedi: “Tanrım qurtardı”. Təpəgöz dedi: “Oğlan, o günbəzi görürsənmi?” Dedi: “Görürəm”. Təpəgöz dedi: “Mənim xəzinəm var. Get möhürlə, o qocalar götürməsinlər!” Basat günbəzin içinə girdi. Gördü ki, qızıl, gümüş yayılmışdır. Təpəgöz dedi: “İndi elə vurum ki, günbəzlə bir yerdə darmadağın olasan”. Basat: “Lailahə ilallah, Məhəm-

178

Əvvəlcədən şagirdləri proqnozları verməyə yönəldən sualları tərtib edib, bir başlığı yapışqanlı kiçik dəftərxana vərəqinə yazıb mətnin müvafiq hissələrinə yapışdırın ki, oxu zamanı o suallar üzərində şagirdləri düşündürmək nəzərinizdən qaçmasın.

Oxudan sonra fəaliyyətinin yerinə yetirilməsinə tələsmək lazım deyil. Çünki bir neçə dərs əsərin üzərində araşdırmalar aparılacaq. Araşdırmalardan sonra şagirdlər oxuduqları materiallarla bağlı gəldikləri nəticələri dəqiqləşdirə biləcəklər.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Lüğət üzrə iş | | | | | |
| 2. | İdeya məzmununa uyğun oxu | | | | | |
| 3. | Yeni sözlərdən istifadə | | | | | |
| 4. | Müzakirələrdə fəal iştirak | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
## *(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: ideyanın müəyyən edilməsi)*

**Təlim məqsədi**

1. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

İdeyanın müəyyən edilməsi sxemini şagirdlərə təqdim edin: “Uşaqlar, bu sxem sizə tanışdırmı?” Şagirdlərin fikirləri dinlənilir. *(İlkin biliklər)* Bu sxem vasitəsilə bir sıra əsərlərin ideyasını müəyyən etmişik. İndi bərabər “Kitabi-Dədə Qorqud” dastanından “Basatın Təpəgözü öldürdüyü boy”un əsas ideyasını müəyyən edəcəyik. Hər bir əsərdə oxucuya çatdırılması nəzərdə tutulan ismarıclar var. Oxucu əsəri oxuyarkən o ismarıcları aydınlaşdırmalı və onlardan nəticə çıxarmalıdır. Oxucuların intellektual səviyyələri, ətrafda baş verənlərə münasibəti və s. eyni olmadığı kimi, onların oxuduqları əsərlərdəki ismarıcları aşkar etmək bacarıqları da fərqli ola bilər. İnsanlar bir əsas fikri müəyyən edərkən də fərqli nəticələrə gələ bilərlər.

Qafalı-papaqlı başını kəsməyincə,
Al-qanını yer üzünə tökməyincə,
Qardaşım Qıyanın qanını almayınca
Qoyarammı sağ qalasan, — qoymaram!

Təpəgöz bir daha söyləyib demişdir:

Ağ saqqallı qocaları çox ağlatmışam,
Ağ saqqallın qarğışımı tutdu ola, gözüm, səni?
Ağ birçəkli qarıları çox ağlatmışam,
Anaların göz yaşımı tutdu ola, gözüm, səni?
Bığ yeri tərləmiş cavanları çox yemişəm,
Cavanlıqlarımı tutdu ola, gözüm, səni?
Əlləri xınalı qızcığazları çox yemişəm,
Ovucları-qarışları tutdu ola, gözüm, səni?
Belə ki mən çəkirəm gözümün göynəmini!
Heç kimə verməsin Allah göz yükü, göz qəmini!
Gözüm, gözüm, ay gözüm! Yalnız gözüm!

Burada hansı ifadə vasitəsinin işləndiyini deyə bilərsinizmi?

Basat hirsləndi, yerindən durub gəldi. Təpəgözü nər dəvə kimi dizi üstünə çökdürdü. Təpəgözün öz qılıncı ilə boynunu vurdu. Başını yayın kirişinə taxdı, sürüyə-sürüyə mağara qapısına gəldi.

Bu cümlədə hansı təsvir vasitələri əlaqələndirilmişdir?

Basat Bunlu qoca ilə Yapaqlı qocanı oğuz elinə muştuluqçu göndərdi. Onlar ağ-boz atlar minib çapdılar. Qalın Oğuz ellərinə xəbər çatdı.

At ağızlı Aruz qocanın evinə çapar gəldi. Ona Basatın sevinc xəbərini verdi: “Muştuluq! Oğlun Təpəgözü öldürdü!”

Qalın oğuz bəyləri yetişdilər. Salaxana qayasına gəldilər. Təpəgözün başını ortaya gətirdilər.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Mərd igidlərin başına nə gəldiyini dedi-danışdı. Eləcə də Basata xeyir-dua verdi:

— Qara dağa yetəndə sən, keçid versin!
Aşqın-daşqın sular keçəsən, keçid versin!
İgidliklə qardaşının qanını aldın!
Qalın oğuz bəylərini fəlakətdən qurtardın!

180

İnsanlar bir məsələyə müxtəlif bucaqlardan baxa bilərlər. Mühüm olan odur ki, onlar həmin məsələyə həqiqəti aşkar etmək arzu və məqsədilə baxsınlar. Düşüncələr arasındakı müxtəlifliyi məhz həqiqəti tapmaq arzusu tənzimləyəcək.






Bu dastanın sizin üçün hansı tərbiyəvi əhəmiyyəti oldu?

Qadir Allah üzünü ağ etsin, Basat! — dedi.
Sizə də xeyir-dua verək:
— Ölüm gəldikdə sizi pak imandan ayırmasın!
Günahınızı adı əziz Məhəmməd Mustafaya bağışlasın, xan hey!

**Mətni sadələşdirdi:** ***Samət Əlizadə, Fərhad Zeynalov***

**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN İDEYASININ MÜƏYYƏN EDİLMƏSİ)**

Məktəbli dost, siz təsviri xarakterli bədii nümunələrin ideyasını müəyyən etmək yollarını öyrənmisiniz. Bilirsiniz ki, əsərin mövzusu və ümumiləşdirilmiş kiçik fikirlər onun ideyasının müəyyən edilməsində əsas rol oynayır. Nəqli və nəqli-təsviri bədii nümunələrin də ideyası müəyyən edilərkən bu mexanizmlərdən istifadə olunur. Sadəcə, bu əsərlərdə “kiçik fikir” “hadisələr”lə əvəzlənir. Sxemdəki dəyişikliklərlə 1-ci tapşırığı yerinə yetirən zaman tanış olacaqsınız.

***Tapşırıq 1.*** İdeyasını müəyyən etmək məqsədilə əsəri bir daha nəzərdən keçirdin. Bədii nümunəni təşkil edən hadisələri bir-birindən ayırıb onlara başlıq verin. İdeyanı müəyyənləşdirərkən verilmiş sxemdən istifadə edin.

Əsərin mövzusu + Əsərin ideyasını formalaşdıran fikirlər [I hadisə, II hadisə, III hadisə, və s.] = İdeya

181

Ayrı-ayrı qruplar əsərin ideyasını müəyyən edərkən eyni nəticəyə gəlməyə də bilərlər. Bu sizi narahat etməsin. Fərqli fikirlərin müzakirəsi zamanı hər qrup öz fikrini əsaslandıracaq və yoldaşlarını inandırmağa çalışacaq. İnandıra bilmədikdə öz nəticələri üzərində yenidən düşünmək lazım gələ bilər.

Qrup işləri aparılır. Nəticələr təqdim edilir. Müzakirələrdə üstünlüklər və boşluqlar aşkar edilir.

Müəllim dərsi 7 aprel Ümumdünya Sağlamlıq günü ilə əlaqələndirir. Çox yeməyin başa bəla olduğunu bildirir. Çox yemək arzusu insana nəinki fiziki baxımdan ziyandır, həm də onu ictimai təhlükəli varlığa çevirir. İnsan öz tamahının sahibi olmalıdır ki, həm sağlam, həm də digərlərinə faydalı birisi olsun.

Bu gün gəlin qruplaşaq və artıq oxuduğumuz əsərin ideyasını müəyyən etmək üçün birlikdə çalışaq.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 2. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 3. | Ümumi nəticələrə gəlmə | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
### *(Təsviri-nəqli xarakterli əsərdə bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili)*

**Təlim məqsədi**

1. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim obrazların təsviri və təhlili ilə bağlı cədvəl və sxemləri şagirdlərə bir-bir təqdim edir. Təqdim etdikcə onlardan necə yararlandıqlarını soruşur: “İndiyə qədər hansı əsərlərdəki obrazları bu cədvəl və sxemlər vasitəsilə araşdırmışıq? *(İlkin bilikləri müəyyən etmək)* “Basatın Təpəgözü öldürdüyü boy”da hansı obrazı araşdırmaq istərdiniz? *(Sual vermə)* Uşaqlar, obrazları bu qədər dərindən təhlil etməyi öyrənəndən sonra onu həyatda necə tətbiq edə bilərsiniz? Bu bacarıqlar sizə necə lazım ola bilər? *(Əlaqələndirmə)*” Cavablar alınır. “İndi isə gəlin obrazın təhlili ilə bağlı bütün öyrəndiklərimizi tətbiq edib Basat və Təpəgöz obrazlarını araşdıraq”.
Bütün sxem və cədvəlləri əvvəlcədən komplektləşdirmək, habelə qrupların tərkiblərini müəyyənləşdirmək lazımdır ki, dərs vaxtı səmərəli istifadə edilsin.

**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRDƏ OBRAZLAR ÜZRƏ İŞ)**

***Tapşırıq.*** Əsərdə obrazların başlıca xüsusiyyətləri barədə məlumat toplayın, onların xarici görkəminin və ictimai vəziyyətinin təsvirini araşdırın. Obrazın xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimələr yürüdün.




a) Obrazların başlıca xüsusiyyətləri barədə məlumat toplayın.
b) Obrazın ictimai vəziyyətinin necə təsvir edildiyini müəyyən edin.

| İctimai varlıq | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Şəxsiyyət** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibəti | |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | |

182




– təlimdə çətinliyi olan şagirdlər
– istedadlı şagirdlər

**Təlimdə çətinliyi olan şagirdlər**
Qrup tərkibində uşaqlar əyləşərkən çalışırlar ki, çətinliyi olan uşaqlar ən istedadlıların yanında əyləşsinlər. Uşaqların bu cür yerləşdirilməsi hər kəsin müzakirəyə cəlb edilməsinə şərait yaradır.

Sinif üç qrupa bölünür. Hər qrup iki yarımqrupa ayrılır. Qrupların vəzifələri elan edilir:
**I qrup** Basat və Təpəgöz obrazlarını xarici görkəm baxımından və ictimai varlıq kimi təsvir edəcək *(cədvəllərdən istifadə etməklə)*;
**II qrup** Basat və Təpəgöz obrazlarını təhlil edəcək *(müvafiq sxemlərdən istifadə etməklə)*;
**III qrup** Basat və Təpəgöz obrazları ilə bağlı mühakimələr yürüdəcək *(müvafiq sxemlərə əsasən)*.

| İctimai varlıq | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | |
| **Müəllifin bunlara münasibəti** | | |

c) Obrazların xarici görkəminin necə təsvir edildiyini müəyyən edin.

| Hiss üzvləri baxımından | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |

183

Qrupları təşkil edən yarımqrupların da vəzifələri elan edilir. I yarımqrup verilən tapşırığı Basat obrazı, II yarımqrup həmin tapşırığı Təpəgöz obrazı baxımından yerinə yetirir. Nəticələri təqdim edirlər.
Əvvəlcə obrazları təsvir edən qrup təqdimat edir. Sonra obrazları təhlil edən qrup təqdimat edir. Sonda isə mühakimə yürüdən qrup təqdimat edir.

Şagirdlərin təqdimatlarını saxlayın. Gələn dərs onlardan resurs kimi istifadə edəcəksiniz.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Obrazlar üzrə iş | | | | | |
| 2. | Fikirlərin obrazlı ifadəsi | | | | | |
| 3. | Müzakirədə ümumi fikrə gəlmə | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
### *(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: obrazların təsviri və təhlili)*

**Təlim məqsədi**

1. Bədii əsərlərdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir (1.2.2.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

– Uşaqlar, biz sizinlə ötən dərs Basat və Təpəgöz obrazlarını araşdırdıq. Bəziləriniz onların xarici görkəmlərini və cəmiyyətdə rollarını müəyyənləşdirdiz, bəziləriniz onların müxtəlif səciyyəvi cəhətlərini üzə çıxarıb onlar əsasında təhlillər apardız, bəziləriniz isə ümumi mənzərəni dəyərləndirib onlar haqqında mühakimə yürütdüz.

Bu gün ötən dərsdəki təqdimatlarınızı sizə yenidən qaytarıram. İki yarımqrup birlikdə fəaliyyət göstərəcək. Təpəgöz və Basat obrazlarını araşdırmalar apardığınız məsələ baxımından qarşılaşdıracaqsınız.

| Hiss üzvləri baxımından | Göstəricilər | Nümunələr |
|---|---|---|
| Qoxusu | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu<br>c) adətindən irəli gələn qoxu | |
| Müəllifin bunlara münasibəti | | |

d) Obrazların xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimələr yürüdün və onları müqayisə edin.




184

Bütün sxem və cədvəlləri əvvəlcədən komplektləşdirmək, habelə qrupların tərkiblərini müəyyənləşdirmək lazımdır ki, dərs vaxtından səmərəli istifadə edilsin.

Sinif üç qrupa bölünür. Hər qrup iki yarımqrupa ayrılır. Qrupların vəzifələri elan edilir:
**I qrup** xarici görkəmləri baxımından və ictimai varlıq kimi təsvir etdikləri Basat və Təpəgöz obrazlarını qarşılaşdırıb oxşar və fərqli cəhətlərini müəyyənləşdirəcək *(cədvəllərdən istifadə etməklə)*;
**II qrup** təhlil etdikləri Basat və Təpəgöz obrazlarını qarşılaşdırıb oxşar və fərqli cəhətlərini müəyyənləşdirəcək *(müvafiq sxemlərdən istifadə etməklə)*;
**III qrup** Basat və Təpəgöz obrazları ilə bağlı yürütdükləri mühakimələri qarşılaşdırıb onların fərqli və oxşar cəhətlərini müəyyənləşdirəcək *(müvafiq sxemlərə əsasən)*.

e) Yürüdülmüş mühakimələrə əsasən obrazları müqayisə edin.







185

Yarımqruplarda ötən dərs yerinə yetirilmiş tapşırığın nəticələri qruplarda qarşılaşdırılır və müqayisələr aparılır. Onların oxşar və fərqli cəhətlərini müəyyən edirlər.

Təqdimatlar dinlənilir, problemli məqamlar şagirdlərin müzakirəsinə verilir. Qrup işlərinin nəticələri qiymətləndirilir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Obrazlar üzrə iş | | | | | |
| 2. | Fikirlərin obrazlı ifadəsi | | | | | |
| 3. | Müzakirədə ümumi fikrə gəlmə | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
***(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş: əsərdə bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi)***

**Təlim məqsədi**

1. Əsərdə təsvir və bədii ifadə vasitələrini müəyyənləşdirir, onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı sözlərdən və öyrəndiyi yeni sözlərdən istifadə edir (2.1.1., 2.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

– Uşaqlar, biz bir çox əsərlərdə fikrin obrazlı ifadəsi ilə bağlı araşdırma aparmışıq. Deyə bilərsinizmi, fikrin obrazlı ifadəsi üçün hansı vasitələrdən istifadə edilir və biz onlar haqqında nə bilirik? *(İlkin biliklərin müəyyənləşdirilməsi)* Fikri obrazlı ifadə etmək üçün nə üçün bu təsvir və ifadə vasitələrindən istifadə edilir? *(Sual vermə)* Siz heç evdə, məktəbdə ünsiyyətdə olan zaman təsvir vasitələrindən, ifadə vasitələrindən istifadə edirsiniz? *(Cavablar alınır) (Əlaqələndirmə)* Bu gün yenə “Basatın Təpəgözü öldürdüyü boy” üzrə araşdırma aparacağıq. Amma bu gün həmin əsərin dil xüsusiyyətlərini tədqiq edəcəyik.

**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRDƏ BƏDİİ TƏSVİR VƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİ)**

***Tapşırıq.***

**1.** a) Əsərdə təsvir və ifadə vasitələrini, hisslərin və faktların təsvirini müəyyən edin.

| Abzas, bənd | Nümunə | Təsvir və ya ifadə vasitəsinin növü |
|---|---|---|
| *Bədii təsvir vasitələri (epitet, təşbeh)* | | |
| | | |
| | | |
| *Bədii ifadə vasitələri (mübaliğə, bədii sual)* | | |
| | | |
| | | |
| *Təsvir edilən hiss (görmə, eşitmə, qoxu, dad, toxunma)* | | |
| | | |
| | | |
| *Faktların (şəxs, zaman, məkan) təsviri* | | |
| | | |
| | | |

b) Əlaqələndirilmiş təsvir vasitələrini müəyyən edin.

| | |
|---|---|
| Hiss və bədii təsvir | |
| Fakt və bədii təsvir | |
| Fakt və hissin təsviri | |
| Hiss, fakt və bədii təsvir | |

186

| Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər | |
|---|---|
| **Göstəricilər** | **Nümunələr** |
| Əsasən, keçmiş zamanda baş verən hadisələr haqqında danışılır | |
| Konkret zamanda və məkanda əşya, hadisə, insanı təsvir edərkən feillər və dəqiq seçilmiş isimlərlə yanaşı, sifət və zərflərdən də geniş istifadə edilir | |
| Hadisələr həm keçmiş zamanda III şəxsin, həm də indiki zamanda I şəxsin dilindən yazılır. Bununla oxucu obraza daha da yaxınlaşdırılır | |
| Oxucu haqqında danışılan zaman və məkana “aparılır”, insanlarla “görüşdürülür” | |
| Dialoq zamanı hadisələr keçmişdən indiyə və ya gələcəyə dəyişilə bilir | |

Sinif beş qrupa bölünür:
**I qrup** bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyən edir;
**II qrup** hisslərin (görmə, eşitmə, toxunma, qoxu, dad) təsvirini müəyyən edir;
**III qrup** faktların (ad, say, yer) təsvirini müəyyən edir;
**IV qrup** bədii ifadə vasitələrini (mübaliğə, bədii sual) müəyyən edir;
**V qrup** əlaqələndirilmiş təsvir vasitələrini müəyyən edir.

2. Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələləri izah edin.

| Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər | |
|---|---|
| **Göstəricilər** | **Nümunələr** |
| — Əsasən, keçmiş zamanda baş verən hadisələr haqqında danışılır; | |
| — Konkret zamanda və məkanda əşya, hadisə, insanı təsvir edərkən feillər və dəqiq seçilmiş isimlərlə yanaşı, sifət və zərflərdən də geniş istifadə edilir; | |
| — Hadisələr həm keçmiş zamanda III şəxsin, həm də indiki zamanda I şəxsin dilindən yazılır. Bununla oxucu yaradılan obraza daha da yaxınlaşdırılır; | |
| — Müəllif oxucusunu haqqında danışılan zaman və məkana "aparır", insanlarla "görüşdürür"; | |
| — Dialoq zamanı hadisələr keçmişdən indiyə və ya gələcəyə dəyişə bilir. | |

**"BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY"**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN HİSSƏLƏRİ: HADİSƏLƏRİN ARDICILLIĞI VƏ SÜJET)**

***Tapşırıq 1.***

Əsərdə ayrı-ayrı hadisələrin ardıcıllığını müəyyən etmək üçün təqdim edilən modelləri nəzərdən keçirdin. Hadisələrin ardıcıllığı bu modellərdən hansına uyğun gəlir?

187

Əsərin dil xüsusiyyətləri ilə bağlı öyrəndiklərimizdən çıxış edəcəyik. Əsərdə təsvir vasitələri: təşbeh, epitet; hisslərin təsviri: görmə, eşitmə, toxunma, qoxu, dad; faktların təsviri: ad, tarix, say; bədii ifadə vasitələri: mübaliğə və bədii sualları müəyyənləşdirəcəyik.

Qruplar araşdırmalar aparır, tədqiqatların nəticələrini təqdim edir. Müzakirələr başa çatandan sonra müəllim qrup qiymətləndirmələri aparır.

Araşdırmaların nəticələrini ümumiləşdirir və nəticələri yekunlaşdırır.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi | | | | | |
| 2. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 3. | Səmərəli əməkdaşlıq | | | | | |

| “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Basat** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | d) “Qardaşımdan ayrıldım!”, – deyə çox ağladı, zarıldadı.<br>d) Atasının əlini öpdü, anasının əlini öpdü<br>d) Ağlaşdılar, hönkürdülər.<br>d) Ox çıxardı, qurşağına keçirdi, qılıncını da qurşandı.<br>d) Çəkmənin boğazını yarıb içindən çıxdı.<br>d) Basat: “Lailahə ilallah, Məhəmmədən – rəsulallah!” – dedi.<br>d) Nər dəvə kimi diz üstünə çökdürdü.<br>a) Süngünü Təpəgözün gözünə elə basdı ki, gözü məhv oldu. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | |
| **Müəllifin bunlara münasibəti** | | |

| “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Basat** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | c) Qaranlıq çökmüş gözləri yaşla doldu. |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | |
| **Müəllifin bunlara münasibəti** | | |

| “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Təpəgöz** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif yoxsa güclü, zəngin yoxsa, kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | a) Uşaqlardan birinin burnunu, birinin qulağını yeməyə başladı.<br>a) Yol kəsdi, adam oğurladı, böyük quldur oldu.<br>d) Bir ağac qoparıb yerindən atdı, əlli-altmış adam həlak etdi. İgidlərin başçısı Qazana elə zərbə vurdu, dünya başına daraldı.<br>d) Əlini-əlinə çalıb qah-qahla güldü.<br>d) Basatı qabağına qatıb tutdu. Boğazından yapışıb yatağına gətirdi. Çəkməsinin boğazına soxdu.<br>d) Təpəgöz elə nərə çəkdi ki, elə hayqırdı ki, dağ-daş əks-səda verdi. |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | |
| **Müəllifin bunlara münasibəti** | | |

| “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy” | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Təpəgöz** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | c) Təpəsində bir gözü var idi.<br>e) Gövdəsi adam gövdəsi<br>e) Gözündən başqa ayrı yerdə ət yoxdur.<br>e) Gözü ətdəndir. |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | |
| **Müəllifin bunlara münasibəti** | | |

# “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
## *(Təsviri-nəqli xarakterli əsərin hissələri: hadisələrin ardıcıllığı və süjet)*

**Təlim məqsədi**

1. Əsəri hissələrə ayırır, plan tutur (1.1.3.). 2. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.1., 2.1.2.). 3. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim hadisələrin ardıcıllığı sxemlərini şagirdlərə təqdim edir: “Uşaqlar, bu sxemlər sizə nəyi xatırladır?” *Cavab alır.* “Bu sxemlərdən istifadə edib həm bu il, həm ötən il hansı əsərlərdə hadisələrin ardıcıllığını müəyyən etmişik? *(İlkin biliklərin müəyyən edilməsi)* Sizcə, “Basatın Təpəgözü öldürdüyü boy”da hadisələrin ardıcıllığı bu sxemlərdən hansına uyğun gəlir? *(Sual vermə)* Görürsünüzmü, uşaqlar, siz əsərin ardıcıllığı ilə bağlı proqnozlar verirsiniz. *(Əlaqələndirmə)* Amma əsl doğru cavab araşdırmalarımız başa çatandan sonra məlum olacaq. O zaman aydın olacaq ki, kimin proqnozları həqiqətə daha uyğundur”.

**2.** Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələləri izah edin.

| Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər | |
|---|---|
| **Göstəricilər** | **Nümunələr** |
| — Əsasən, keçmiş zamanda baş verən hadisələr haqqında danışılır; | |
| — Konkret zamanda və məkanda əşya, hadisə, insanı təsvir edərkən feillər və dəqiq seçilmiş isimlərlə yanaşı, sifət və zərflərdən də geniş istifadə edilir; | |
| — Hadisələr həm keçmiş zamanda III şəxsin, həm də indiki zamanda I şəxsin dilindən yazılır. Bununla oxucu yaradılan obraza daha da yaxınlaşdırılır; | |
| — Müəllif oxucusunu haqqında danışılan zaman və məkana “aparır”, insanlarla “görüşdürür”; | |
| — Dialoq zamanı hadisələr keçmişdən indiyə və ya gələcəyə dəyişə bilir. | |

**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN HİSSƏLƏRİ: HADİSƏLƏRİN ARDICILLIĞI VƏ SÜJET)**

***Tapşırıq 1.***

Əsərdə ayrı-ayrı hadisələrin ardıcıllığını müəyyən etmək üçün təqdim edilən modelləri nəzərdən keçirdin. Hadisələrin ardıcıllığı bu modellərdən hansına uyğun gəlir?

187






Sinif beş qrupa bölünür:
Bütün qruplara eyni tapşırıq verilir: “Əsərdə hadisələrin hansı ardıcıllıqla düzüldüyünü müəyyən edin”.

Qruplara sxemlərin hər üçü təqdim edilir və ya sxemləri kitablarından bir vərəqə çəkmək xahiş olunur.




*Tapşırıq 2.* Əsəri təşkil edən ayrı-ayrı hadisələrə başlıq verin. Hadisələrin inkişaf xətti üzrə başlıqları sxemə daxil edin.

188

Qrup tərkibində vəzifə bölgüsü aparmaq tövsiyə edilir. Qruplardakı şagirdlərdən bəziləri ardıcıl, bəziləri ziqzaq, bəziləri zəncirvari sxem baxımından araşdırmalar aparır.

Hadisələrin ardıcıllığı müəyyən ediləndən sonra onlara başlıq verilir və kollektiv müzakirədə süjet xətti üzrə hadisələrin inkişaf ardıcıllığı da müəyyənləşdirilir.

Müəllim vəzifə bölgüsünün aparılmasına meyar müəyyən edir və təlim prosesində onun icrasına nəzarət edir.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi | | | | | |
| 2. | Fikrin obrazlı ifadəsi | | | | | |
| 3. | Səmərəli əməkdaşlıq | | | | | |
| 4. | Vəzifə bölgüsü | | | | | |

## “Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”
### *(Təsviri-nəqli xarakterli əsərin elementləri və nəqletmənin təşkili)*

**Təlim məqsədi**

1. Dastanı hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir (1.1.3.). 2. Əsərdə bədii ifadə vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 3. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.1., 2.1.2.). 4. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Müəllim əsərin elementlərini əks etdirən sxemi *(buna əsərin xəritəsi də deyirik)* şagirdlərə təqdim edib soruşur: “Uşaqlar, burada nə görürsünüz? Bu şəkil sizə tanışdırmı?” (*Cavablar dinlənilir) (İlkin biliklər)* “Üzərində araşdırmalar apardığımız “Basatın Təpəgözü öldürdüyü boy”un bu sxem üzrə elementlərini tərtib etmək istərdinizmi? *(Cavablar dinlənilir) (Sual vermə)* Yadınızdadırmı əsərin elementlərini müəyyən edəndən sonra nəqletmənin təşkilində o bizə nə qədər yardım edirdi? *(Əlaqələndirmə)* Bu məqsədlə gəlin bu əsərin də elementlərini müəyyən edək”.

**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN ELEMENTLƏRİ VƏ NƏQLETMƏNİN TƏŞKİLİ)**

***Tapşırıq 1.*** Əsərin xəritəsini tərtib edin.




***Tapşırıq 2.***

1. “Nitqin təşkili” cədvəlinə əsasən əsərin məzmununun yığcam nağıl edilməsinə hazırlaşın.
2. “Oxudan sonra” təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17).

189

Bu fəaliyyətin yerinə yetirilməsi üçün əgər “Cütlərlə oxu” üsuluna üstünlük versəniz, hər bir şagirdin qarşısında “əsərin xəritəsi” sxemi olsun. Üsula əsasən bir şagird mətni oxumalı, digər şagird verilən sxemə lazım olan göstəriciləri daxil etməlidir. Amma nəzərə alınsa ki, əsərin həcmi xeyli böyükdür, şagirdlər növbə ilə əsəri oxuyar və eyni zamanda bir-birinə qərarları haqqında məlumat verməkdən qeydlərini apara bilərlər.

Bu fəaliyyət başa çatandan sonra kollektiv şəkildə əsərin nəqledilməsinin təşkili cədvəli üzərində iş aparıla bilər. Əslində, bu iş vərəqi üzrə yerinə yetiriləcək fəaliyyətlərin əksəriyyəti "əsərin xəritəsi"ndə öz əksini tapır. Sadəcə, bu vərəqin tərtibi nitqin təşkili zamanı qeydlərin aparılması baxımından yararlıdır.

**Əsərdə hadisələr** ______________________________
______________________________(məkanda)
______________________________(zamanda) **baş verir.**

**Əsərdəki əsas obrazlar** ______________________________

**Hadisələr ondan başlanır ki,** ______________________________

**Əsərdə əsas ziddiyyət** ______________________________

**Əhvalat belə oldu ki,** ______________________________

**Sonra** ______________________________

**Daha sonra** ______________________________

**Sonda** ______________________________

**Ziddiyyət belə həll olur ki,** ______________________________

190

Bu dərsdə "Kitabi-Dədə Qorqud" dastanının "Basatın Təpəgözü öldürdüyü boy" üzərində ədəbiyyat dərslərində iki il ərzində öyrənilmiş bütün bacarıqlardan çıxış edərək geniş təhlil işi aparıldı. Şagirdlər bir bədii nümunənin təhlili zamanı hansı məsələlərin nəzərdə tutulduğunu kompleks şəkildə dərk edib və bu prosesin iştirakçısı olaraq öyrəndiklərini tətbiq etdilər. Bu genişmiqyaslı təhlilin uğurla başa çatmasında hər bir şagirdin rolunu vurğulamaqla onları təbrik edin. Səy və zəhmətsevərliklərinə görə onlara təşəkkürünüzü bildirin. Xüsusi fəallıq nümayiş etdirən şagirdlərin adlarını çəkməklə onların çalışqanlığının nəzərinizdən qaçmadığını diqqətə çatdırın.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | Əsərin hissələrə ayrılması | | | | | |
| 2. | Əsərin planının müəyyən edilməsi | | | | | |
| 3. | Əsərin elementlərini əks etdirən xəritənin tərtibi | | | | | |
| 4. | Nəqletmənin təşkili vərəqinin hazırlanması | | | | | |

# LAYİHƏ

**Təlim məqsədi**

1. Lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyən edir (1.1.1.). 2. Əsəri ideya-məzmununa uyğun ifadəli oxuyur (1.1.2.). 3. Əsəri hissələrə ayırır, planını tutur (1.1.3.). 4. Əsərdə bədii ifadə və təsvir vasitələrini müəyyənləşdirir və onların rolunu aydınlaşdırır (1.1.5.,1.2.3.). 5. Əsərin ideyasını müəyyən edir (1.2.4., 3.1.2.). 6. Əsərlə bağlı fikirlərini bildirərkən obrazlı söz və ifadələrdən istifadə edir (2.1.2.). 7. Müzakirələr zamanı yoldaşlarının fikirlərindən bəhrələnir (2.2.1.).

Layihənin yerinə yetirilməsi üçün sinif 4 qrupa ayrılır və bədii nümunələr üzrə araşdırmalara cəlb edilir. Bunun üçün dərsliyə aşağıda adları qeyd edilən əsərlər daxil edilib:

1. Sevinc Nuruqızı. “Ağabəyim ağa”;
2. Mirzə İbrahimov. “Bağban Rövşən”;
3. Əli Vəliyev. “Nənənin söhbəti”;
4. Hüseyn Abbaszadə. “Barıt iyi”;

Şagirdlər maraqlarına uyğun olan bir bədii nümunəni seçməyə üstünlük verərlərsə, o zaman həmin dərsin məktəb kitabxanasında keçirilməsi faydalı olar.

### L A Y İ H Ə

**I.** Yaxşı olardı ki, problemin həllinə nail olmağa imkan verən əsəri özünüz müstəqil şəkildə seçəsiniz. Oxu qaydalarına əməl etməklə əsəri oxuyasınız. Sonra isə təqdim edilən məsələlər baxımından araşdırmalar aparasınız. Əgər uyğun bədii nümunə tapmaqda çətinlik çəksəniz, növbəti səhifələrdə verilmiş bədii nümunələrdən birini seçib layihə üzərində işləyin.

**II.** Araşdırmalar apararkən istifadə etdiyiniz bütün iş vərəqlərini, cədvəl və sxemləri qovluqda toplayın. Həmin nəticələrdən çıxış edərək adi və ya elektron təqdimat (Power Point və b.) hazırlayın. Tədqiqatlarınızın nəticələrini yoldaşlarınıza təqdim edin. Qarşılıqlı dinləmədən sonra qruplardan birinin araşdırmalarının nəticələrinə dair rəy-inşa hazırlayın. Bölgünü elə aparın ki, hər qrupun layihəsinə dair rəy-inşa yazılmış olsun. Rəyləriniz oxunandan sonra fikir mübadiləsi aparın.

**III.** Altı qrupa bölünün. Əsərlər nəqletmə-təsviri xarakterlidir.

- Əsərləri proqnozlaşdırma aparmaqla oxuyun.
- Əsərin ideyasını müəyyən edin.
- Əsərdəki obrazların başlıca xüsusiyyətlərini aydınlaşdırın.
- Əsərdə bədii təsvir və ifadə vasitələrini, hisslərin və faktların təsvirini müəyyən edin.
- Əsərdə hadisələrin ardıcıllığını göstərin.
- Əsəri hissələrə ayırın.
- Əsərin elementlərini müəyyən edin və xəritəsini tərtib edin.
- Nəticələrinizi əks etdirən təqdimat hazırlayın.

### AĞABƏYİM AĞA

Üzü pəncərəyə dayanmış Ağabəyim ağa əlindəki zərif tikməli ipək dəsmalla gözlərinin yaşını sildi. Günəş gah buludların arxasından çıxıb azacıq özünü göstərir, gah da yenidən buludun arxasına çəkilib gizlənirdi. Günəş yox olan kimi də qapqara bulud layı sakitcə irəliyə çıxaraq yamyaşıl çəmənin bir parçasına qara kölgə çəkirdi. Ağabəyim ağa diqqətlə günəşlə buludun yerdəyişməsini seyr edir, özlüyündə bu mübarizəni xeyirlə şərin oyununa bənzədirdi. Pəncərənin önündəki ağaca qonmuş sərçələr də qara kölgə yaxınlaşanda məyus-məyus ətrafa boylanır, boz quyruqlarını ağa-

191

Qruplar seçdikləri əsər üzərində işləyir və təqdimat edirlər. Hər bir qrup əsərin ideyasını, əsərdə təsviri, obrazları, bədii təsvir və ifadə vasitələrini müəyyən etməlidir. Bütün bu fəaliyyətlərə ümumilikdə 8 saat ayrılır. Saatlardan 4-ü əsər üzərində işləmək, 4 saatı isə təqdimat və layihələr barədə rəylərin bildirilməsi üçündür. Layihə aşağıdakı plan üzrə yerinə yetirilə bilər.

1. Əsərin ideyasının müəyyən edilməsi. 2 saat
2. Əsərdə təsvir. 2 saat
3. Əsərdə bədii təsvir və ifadə vasitələri. 2 saat
4. Əsərdə obrazlar. 2 saat

Qruplara təqdim edilən iş vərəqlərinə aşağıdakı tapşırıqlar yazıla bilər.

**I. Əsərin ideyasının müəyyən edilməsi**

1. Əsərin mövzusunun müəyyən edilməsi.
2. Əsərin ideyasını formalaşdıran fikirlər:
   - 1-ci fikir:
   - 2-ci fikir:
   - 3-cü fikir və s.
3. İdeya

cın tilişkəli gövdəsinə çırpıb darayırdılar. Günəş görünəndə isə cikkildəşə-cikkildəşə sanki "günəş gəldi, günəş gəldi", — deyə sevinc müjdəsi yetirir, günəşdə parıldayan dimdiklərini bir-birinə yaxınlaşdırıb sevindiklərini anladırdılar. Ağabəyim ağa gözünün yaşını quruda bilməyən tikməli dəsmalını gümüş belbağısının altına keçirdib pəncərəni açdı. İpək kimi ovcunda tutduğu çörək qırıntılarını irəli uzatdı.

Sərçələr uçub Ağabəyim ağanın ovcuna qondular. Xanımın kədərli üzünə ani bir sevinc gəldi. Dodaqları təbəssümdən işıqlandı.

Bu vaxt Ağabəyim ağanın qapısını döydülər. İpək əlin içindən həvəslə çörək ovuntuları dənləyən sərçələr səksəndilər. Pırıldayıb bir göz qırpımında yoxa çıxdılar. Ağabəyim ağa sonuncu tikələrini yeməyib uçan sərçələrin ürkəkliyinə güldü. Dəməşq xarasından tikilib, qızılı saplarla işlənib, güləbətinlə bəzənmiş donunu xışıldada-xışıldada qayıdıb masasının arxasına keçdi. Amiranə səslə:

— Buyurun, — dedi.

Gələn İran hökmdarı Fətəli şah idi. O, İbrahim xanın qızı Ağabəyim ağanın həyat yoldaşı idi. Heç vaxt qapını döyməmiş onun otağına girməzdi. Fətəli şah irəli yeridi. Ağabəyim ağanın bir az açılmış bənizi yenə tutuldu. Sanki üzünün günəşi getdi. Qara buludların kölgəsi çəkildi bənizinə:

— Nə əmr edirsiniz?

— Əmr etməyə gəlməmişəm. Əmr edilən kəsin hüzuruna gəlməzlər. Onu hüzura gətirdərlər.

— Şahdan əmr olsaydı, gələrdim.

— İstərdim ki, bu sözləri başqa cür eşidim.

— Təxminən necə?

— Təxminən belə — şahdan əmr olsaydı, sevərdim.

— Şahım, bu böyüklükdə səltənətin tək hakimisiniz. Məgər indiyədək yəqin etməmisiniz ki, əmrlə sevmək olmaz. Qürbətdə Vətən həsrəti bütün sevgilərin üzərinə kölgə çəkir.

O bunu dediyi anda günəş yenə buludların arxasında gizləndi. Otağa qaranlıq çökdü.

Ağabəyim ağa pəncərəyə yaxınlaşdı. Günəş son şəfəqlərini yığıb buludun arxasında gizlənmişdi:

192

**II. Əsərdə təsvir**

1. Məkanın təsviri
2. İnsanın təsviri
   - xarici görkəmi
   - ictimai varlıq kimi

**III. Əsərdə bədii təsvir və ifadə vasitələri**

1. Bədii təsvir vasitələri
2. Bədii ifadə vasitələri
3. Təsvir vasitələrinin əlaqələndirilməsi

**IV. Əsərdə obrazlar**

1. Əsas və köməkçi obrazlar
2. Obrazların əsas xüsusiyyətləri
3. Obrazların qarşılaşdırılması və müqayisəsi

Ehtiyac yaranarsa, şagirdlər müəllimlə məsləhətləşmələr da apara bilərlər. Yaxşı olar ki, dərs kompüter laboratoriyasında keçirilsin. Şagirdlər PP təqdimatlar hazırlamaq və digər məqsədlərlə İKT-nin imkanlarından istifadə etsinlər.

İKT imkanları olmayan siniflərdə şagirdlər qrup təqdimatlarını kağızlar üzərində tərtib edəcəklər. Bunun üçün onlara əvvəlcədən xatırladın ki, gələn dərs flamasterlərə, karandaşlara, müxtəlif vəsaitlərə ehtiyac duyacaqlar. Odur ki dərsə gələndə öz əşyalarını gətirsinlər.

| № | Qiymətləndirmə meyarları | 5 | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|---|---|
| 1. | İdeyanın müəyyən edilməsi | | | | | |
| 2. | Obrazların təsviri | | | | | |
| 3. | Obrazların təhlili | | | | | |
| 4. | Bədii təsvir və ifadə vasitələrinin müəyyən edilməsi | | | | | |
| 5. | Hadisələrin ardıcıllığının müəyyən edilməsi | | | | | |
| 6. | Elementlərin müəyyən edilməsi | | | | | |

<table>
<tr><th colspan="3">Qiymətləndirmə meyarları</th><th>5</th><th>4</th><th>3</th><th>2</th><th>1</th></tr>
<tr><td rowspan="2">Təsviri-nəqli xarakterli əsərin ideyasının müəyyən edilməsi</td><td colspan="2">Kiçik başlıqların dəqiqliyi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Ümumiləşdirmənin aparılması</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="4">Təsviri-nəqli xarakterli əsərdə obrazların təsviri və təhlili</td><td rowspan="2">Obrazın təsviri</td><td>İctimai varlıq kimi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Xarici görkəmi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Obrazın təhlili</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Obrazla bağlı mühakimənin yürüdülməsi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="7">Təsviri-nəqli xarakterli əsərin dil xüsusiyyətləri</td><td rowspan="4">Təsvir vasitələri</td><td>Bədii təsvir</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Hisslərin təsviri</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Faktların təsviri</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Əlaqələndirilmiş təsvir vasitələri</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="2">İfadə vasitələri</td><td>Mübaliğə</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Bədii sual</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Əsərin dilinin digər xüsusiyyətləri</td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="2">Təsviri-nəqli əsərlərin hissələri: hadisələrin ardıcıllığı və süjet</td><td colspan="2">Əsərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Süjetin müəyyən edilməsi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td rowspan="2">Təsviri-nəqli əsərlərin elementləri və nəqletmənin təşkili</td><td colspan="2">Əsərin elementlərinin müəyyən edilməsi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="2">Nəqletmə vərəqinin işlənməsi</td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

## DƏRSLİK KOMPLEKTİNDƏ İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

| Dərslik üçün ədəbiyyat | Əlavə oxu üçün ədəbiyyat | Müəllim vəsaiti üçün mətnlər |
|---|---|---|
| 1. Rəşid bəy Əfəndiyev. Seçilmiş əsərləri. (“Elm tükənməz xəzinədir”). “Şərq-Qərb” nəşriyyatı, Bakı, 2006, səh. 89–90. http://www.azadliq.info/siyast/31160-qori-seminariyasının-parlaq-tlbsi-rid-by.html | 1. Aşıq Ələsgər. Əsərləri. (“Gərəkdi”) “Şərq-Qərb”, Bakı, 2004, səh.50. http://az.wikipedia.org/wiki/Aşıq_Ələsgər http://azerdict.com/izahli-luget | |
| 2. “Şah Abbas və iki vəzir”. “Cazibə qüvvəsi”. “Fərdi İnkişaf” jurnalı http://cazibe.info/ham-vern-hekaylr/63-brtamiz-hekay.html | 2. “Tülkü və qurd” (təmsil), Azərbaycan şifahi xalq ədəbiyyatı (Antologiya) XXI YNE Bakı, 2001, səh.244–245. | |
| 3. Yusif Balasaqunlu. “Qutadqu bilik – səadət gətirən elm”. Bakı, 2003, səh.39–41. http://www.anl.az/down/meqale/adalet/2012/iyun/602.htm | | |
| 4. Mikayıl Rzaquluzadə. “Yaz günəşi” (“Gözəlliyin keşiyində”). “Gənclik”, Bakı, 1977, səh.237–238. | 3. Nizami Gəncəvi. “Lider” nəşriyyatı, Bakı, 2004. (“Ovçu ilə itin və tülkünün hekayəti”), səh.121–124. http://www.ganca.net/aze/nizami.html | |
| 5. Bəxtiyar Vahabzadə. “Payız düşüncələri” (“Qocalar”). “Yazıçı”, Bakı, 1981, səh.112–113. | 4. Mustafa Çəmənli “Qurban bayramı”. | |
| 6. Mirvarid Dilbazi. (“Müəllimim)”. “Yazıçı”, 1982, səh 81. http://www.anl.az/down/meqale/azerbaycan/2012/avqust/257446.htm | 5. Azərbaycan nağılları. V cild (“İki qardaş”) “Şərq-Qərb”, Bakı, 2005, səh.239–244. | |
| 7. Çingiz Aytmatov. “Seçilmiş əsərləri” (“Dəniz kənarıyla qaçan Alabaş”). “Öndər” nəşriyyatı, Bakı, 2004, səh. 311–312. http://www.kepeztv.az/?q=%C3%Açingiz-aytmatov-0 | 6. İsmayıl Şıxlı. “Mənim rəqibim”. “Sənə aslanım deyən”. “Gənclik”, Bakı, 1975, səh. 190 | |
| 8. Abdulla Şaiq. Seçilmiş əsərləri. I cild. (“Köç”). “AVRASİYA PRESS”, Bakı, 2005. | http://www.clb.az/files/mv/AShaiq.pdf | |

| | | |
|---|---|---|
| 9. Əliağa Kürçaylı.<br>“Vətənə nəğmə çələngi” (“Vətən”). “QOLİAF” Nəşriyyat Evi, Bakı, 2011, səh.238–239. | http://www.anl.az/down/meqale/medeniyyet/2010/dekabr/148350.htm | |
| 10. Məmməd Araz. “Vətənə nəğmə çələngi” (“Azərbaycan–dünyam mənim”). “QOLİAF” Nəşriyyat Evi, Bakı, 2011, səh.182–183. | http://www.memmedaraz.az/?menu=142 | |
| 11. Hikmət Ziya. “Seçilmiş əsərləri” (“Qarabağda”). Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi – “Azərnəşr”, Bakı, 1992, səh.7–8. | Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı<br>Bakı, 2007<br>Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı, Bakı, 2007 | |
| 12. Aleksandr Düma. Fransız ədəbiyyatı antologiyası, I cild. (“Qafqaz səfəri: Bakı”). “Şərq-Qərb”, Bakı, 2007, səh. 273–278. | http://news.lent.az/news/105756<br>Reyhan Mirzəzadə | |
| 13. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. II cild. (“Gerbimiz – qəlbimiz”). “Şərq-Qərb”, Bakı, 2005, səh .90. | http://sia.az/az/news/event/303207 | |
| 14. http://azadqadin.az/index.php?cstart=2&newsid=5905#.UVmzvpYfDD<br>Kimdir əlil:<br>Kamal Turan. “Gül ətirli hekayələr” (“Üç nəfərin imtahanı”). “Xəzər Nəşriyyatı” MMC, səh.115–118. | | |
| 15. Məzmməd Namaz .“Günəş ömürlü insan” ( “Hamının günəşi”). Bakı, 2012, səh.10–11. | Qara Namazov.<br>Azərbaycan uşaq ədəbiyyatı<br>Bakı, 2007<br>Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı, Bakı, 2007 | |

| | | |
|---|---|---|
| 16. Azərbaycan şifahi xalq ədəbiyyatı (Antologiya "Ağıllı uşaq"). İki kitabda – ikinci kitab, Bakı, 2001, səh.131–135. | | |
| 17. Nəriman Süleymanov. "Tək çiçək" ("Birinci cığır"). "Gənclik". Bakı, 1979, səh.105–106. | Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı, Bakı, 2007 Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı, Bakı, 2007 | |
| 18. Nizami Gəncəvi (şeir: "Yaralı bir uşağın dastanı"). Azərbaycan uşaq ədəbiyyatı antologiyası. II cild. "Öndər" nəşriyyatı, səh. 29-30. Mirmehdi Seyidzadə. "Xatırlayarsan məni" ("Əqrəb və Çanaqlı bağa"). "Gənclik", Bakı, 1978, səh.140–141. | Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2007 Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı, Bakı, 2007 | |
| 19. Sabir Əhmədli. Yanvar hekayələri ("Dərs"). Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1982, səh.70–71. | http://az.wikipedia.org/wiki/ | |
| 20. Azərbaycan xalq əfsanələri ( "Xan sarayı" əfsanəsi). Bakı, "Yazıçı", 1985, səh. 204–205. | | |
| 21. Mir Cəlal. "Şəfəqdən qalxanlar" ("Dərsimi yaz"). "Gənclik", 1972, səh. 237–239. | http://www.azadliq.info/ğcomponent/content/article/357-kiv/31221-soez-v-qlm-xyant-etmyn-yazc.html | |
| 22. Zahid Xəlil "Seçilmiş əsərləri" ( "Zeynalabdin"). Bakı, 2009, səh. 303–310. | http://www.muallim.edu.az/arxiv/2012/17/21.htm | |
| 23. İvan Krılov. ( "Ağac"). Seçilmiş təmsillər. "Gənclik", Bakı, 1988, səh. 40–41. | http://az.wikipedia.org/wiki/İvan_Krılov | |
| 24. Azərbaycan xalq əfsanələri ("Çahargah əfsanəsi"). "Yazıçı", Bakı, 1985, səh.199–201. | | |

| | | |
|---|---|---|
| 25. Azərbaycan nağılları ("İsgəndər quş dili öyrənir"). "TURAN" nəşrlər evi, Bakı, 2003. səh. 221–225. | | |
| 26. Əli Səmədli. ("Qanlı bənövşə"). "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1996, səh.25–29. | Qara Namazov. Azərbaycan uşaq ədəbiyyatı, Bakı, 2007<br>Rafiq Yusifoğlu. Uşaq ədəbiyyatı, Bakı, 2007 | |
| 27. Cabir Novruz. "Seçilmiş əsərləri" ("Mən bizim anaları Günəşlə tən tuturam"). "Yazıçı", 1982, səh.143–144. | http://www.cabirnovruz.gen.az/heyati.ph | |
| 28. "Yurdumuzun əfsanələri" ("Ana rəhmi"). "Gənclik", Bakı, 1976, səh.42–43. | | |
| 29. "Azərbaycan dastanları". "Lider" nəşriyyatı. ("Koroğlu" dastanından "Düratın itməyi" qolu). Bakı, 2005, səh. 239–247. | | |
| 30. İlyas Əfəndiyev. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. III cild ("Zəmidə bir turac səslənirdi"). "Öndər" nəşriyyatı, Bakı, 2005, səh. 226–228. | http://az.wikipedia.org/wiki/İlyas_Əfəndiyev | |
| 31. Azərbaycan şifahi xalq ədəbiyyatı. (Antologiya) ("Kitabi-Dədə Qorqud" dastanından "Basatın Təpəgözü öldürdüyü boy"). Bakı, 2001, XXI YNE, səh. 291–305. | | |
| 32. Mirzə İbrahimov ("Bağban Rövşən"). "Yazıçı" nəşriyyatı, Bakı, 1978, səh.161–164. | http://www.muallim.edu.az/arxiv/2011/39/18.htm<br>7 Oktyabr 2011 – №39 | |
| 33. Əli Vəliyev. Azərbaycan uşaq ədəbiyyatı antologiyası, III cild ("Nənənin söhbəti"). "Öndər" nəşriyyatı, Bakı, 2005, səh.184–187. | http://www.anl.az/down/meqale/adalet/2011/dekabr/223291.htm | |
| 34. Hüseyn Abbaszadə. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası ("Barıt iyi"). "Gənclik", Bakı, 1976, səh.212–214. | http://www.milli.az/news/culture/153232.html | |
| 35. Sevinc Nuruqızı ("Ağabəyim ağa"). "Aspoliqraf ", Bakı, 2010. səh. 3–6. | | |

*Bunu bilməlisiniz!*

**Hekayə, şeir, təmsil, povest, roman** və s. yazılı ədəbiyyatın nümunələridir. Yazılı ədəbiyyatın müəllifi olur.

Hekayədə insan həyatının konkret bir səhnəsi və ya müəyyən bir hadisə yığcam şəkildə təsvir edilir. Burada qəhrəmanların sayı az olur. Hekayələr mövzu cəhətdən müxtəlif olur. Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Y.V.Çəmənzəminli və başqa ədiblər hekayə janrında gözəl nümunələr yaratmışlar. Bu dərslikdə müasir Azərbaycan yazıçılarının hekayələri ilə tanış olacaqsınız.

**Əfsanə**, əsasən, xalqın tarixini, xəyal və arzularını özündə əks etdirir. Azərbaycan əfsanələri rəngarəngdir. Heyvanlar, quşlar, ağaclar, güllər, çaylar, göllər, qalalar, abidələr, müxtəlif yer adları, tarixi şəxsiyyətlər və s. haqqında əfsanələr var. “Hüt-hüt quşu”, “Şirin qala”, “Daş gəlin”, “Kəklik”, “Turac” və s. belə əfsanələrdəndir.

Nizami Gəncəvi, Səməd Vurğun, Süleyman Rəhimov, Cəfər Cabbarlı bəzi əsərlərini əfsanələr əsasında yazmışlar.

**Şeir** söz sənəti nümunəsidir. Şeir fikrin vəznli, obrazlı, qafiyəli ifadəsidir. Bilirsinizmi, heca vəzni nə deməkdir? Əgər bu ifadəni birinci dəfə eşidirsinizsə, əvvəlcə “heca” və “vəzn” sözləri üzərində düşünün. “Heca” sözünü çox eşitmisiniz. Yəqin, bilirsiniz ki, heca sözlərin asanlıqla bölünə bilən hissəsinə deyilir. Amma “vəzn” sözü sizə aydın olmaya bilər. “Vəzn” ərəb sözü olub “ölçü” deməkdir. Heca vəznində yazılmış şeirlərdə hecaların sayı şeirin ölçüsünü müəyyən edir. Həmin şeirlərin birinci misrasında neçə heca varsa, qalan misralarda da o qədər sayda heca olmalıdır. Bir misrada 5,7,8,11,12 heca ola bilər.

**Qoşma** xalq arasında ən çox yayılmış, şöhrət tapmış ən qədim şifahi şeir nümunələrindən biridir. Qoşma, adından da göründüyü kimi, ağızdan-sinədən deyilən, qoşulan, insanın sevgisini, kədər və iztirabını tərənnüm edən şairanə lirik nümunələrdir. Üç, bəzən də beş bənddən ibarət olur. Bəndləri və misraları bir-birinə ahəng, kompozisiya bütövlüyü, fikir və musiqi axarı bağlayır. Bu janrda ilk bəndin birinci və üçüncü misraları bəzən bir-biri ilə qafiyələnir, bəzən də sərbəst buraxılır. İkinci və dördüncü misralar isə öz aralarında qafiyələnir.

**Hekayə** həm nəzmlə, həm də nəsrlə yazılır. Nəzmlə yazılan hekayələrə mənzum hekayələr deyilir. Hekayət sözünün sonundakı “ət” cəm şəkilçisidir. Klassiklərimizin yaradıcılığında belə hekayətlərə çox rast gəlmək olar.

**Nağıllar** şifahi xalq ədəbiyyatının çox qədim, həm də geniş yayılmış janrlarından biridir. Nağıllarda xeyirlə şər, işıqla qaranlıq, həyatla ölüm, haqla nahaq mübarizə aparır və həmişə xeyir şərə, haqq nahaqa, işıq qaranlığa qalib gəlir. Nağıllar mövzusuna və məzmununa görə çox zəngindir. Nağılları sehrli nağıllar, heyvanlar haqqında nağıllar, ailə-məişət nağılları kimi qruplaşdırırlar.

**Esse nədir?**

“Esse” fransız sözü olub, mənası təcrübə, sınaq, oçerk deməkdir. Essenin ilk nümunəsini fransız yazıçısı və filosofu M.Monten yazmışdır. Esse ədəbiyyatda bir janr olub, müəllifin hər hansı mövzu ilə bağlı düşüncələrini və hisslərini şərh edən kiçik bədii nümunədir. Essenin dili həm danışıq dilinə yaxın, həm də obrazlı olur. Esse müxtəlif xarakterli olur: nəqli, təsviredici, tədqiqat, mühakimə.

**Təmsil** tənqidi və nəsihətamiz məzmunda, satirik, təsviri əsərlərə deyilir. Çox vaxt nəzm şəklində yaranır. Nəsr şəklində də təmsillərə rast gəlmək olar. Təmsil yığcam və lakonik qurulur. Təmsilin ən başlıca xüsusiyyəti alleqoriya, yəni heyvan, bitki, cansız əşya surətlərinin şəxsləndirilməsi, insana xas əlamətlərlə təsvir edilməsidir. Təmsilin ikinci xüsusiyyəti odur ki, burada alleqoriya ilə yanaşı, bədii gülüşdən də istifadə olunur. Təmsilin üçüncü xüsusiyyəti nəsihətamiz səciyyə daşımasıdır. Azərbaycan ədəbiyyatında A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, A.Səhhət, H.Ziya və başqa sənətkarların yaradıcılığında təmsilin gözəl nümunələrinə rast gəlirik.

**Dastan** şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrıdır. Azərbaycan ədəbiyyatında dastana epos da deyilir. Dastandakı əhvalat, hadisə nəsrlə söylənilir və yeri gəldikcə mövzu ilə bağlı şeir parçaları da verilir. Dastanlarda müəyyən bir dövrdə baş vermiş bir əhvalat həyati həqiqət kimi söylənilir. Ancaq dastanlarda faktlar böyüdülür, tilsimdən, əfsun və sehrdən istifadə olunur. Azərbaycan şifahi xalq ədəbiyyatında onlarca dastan var. Bu dastanları ideya-mövzu cəhətdən qəhrəmanlıq, yaxud məhəbbət dastanlarına bölmək olar. Qəhrəmanlıq dastanlarında xalq içərisindən çıxmış igid oğul və qızların azadlıq, haqq, ədalət uğrunda zalımlara və işğalçılara qarşı mübarizəsi təsvir olunur.

| Qiymətləndirilən suallar | Məsləhətlər | Yoxlama üsulları, texnikaları |
|---|---|---|
| *1. Girişdə çatdırılması nəzərdə tutulan əsas fikir üçün zəmin yaradılıbmı?* | Girişdə çatdırmaq istədiyiniz əsas fikrə zəmin yaradan cümləni tapın və onun altından xətt çəkin. Əgər tapa bilmirsinizsə, o zaman həmin fikri formalaşdırıb yazın. | Giriş hissəyə elə bir cümlə əlavə edin ki, o, əsas fikir üçün zəmin yaratsın. |
| *2. Bütün təsvir vasitələrindən istifadə edilibmi?* | Mətni oxuduqca hiss və duyğuları təsvir edən nümunələrin üzərində "H", faktları təsvir edən nümunələrin üzərində "F", bədii təsvir vasitələrinin üzərində "B" yazın. Nəzər salın. Bunlardan hansılarının üzərində iş aparmağa ehtiyac var. Elə edin ki, "H"lər həddən artıq çox, "F" və "B"lər həddən artıq az olmasın. | Müxtəlif hisslərin təsvirinə yer verilməsinə diqqət edin. Hansı yoxdursa, əlavə edin. Əsas fikri çatdırmağa yardım edən bədii təsvir vasitələrinin olmasına xüsusi diqqət yetirin. Əgər yazıda təsvir vasitələrinə az yer verilibsə, uyğun nümunələr yaratmaqla digər fikirləri onlarla əvəz edin. |
| *3. Təsviri mətndə müəllifin düşüncələri və hissləri öz əksini tapıbmı?* | Birinci şəxs əvəzliklərinin yanında ulduz (mən, biz) yazın. Əgər hər abzasda ən azı bir ulduz görməsəniz, düzəliş aparın. | Elə edin ki, birinci şəxsin düşüncələri təsvir vasitələrilə (bədii, hiss və faktlar) öz əksini tapsın. |
| *4. Mətn məkanda təsvir edilənlərin ardıcıllığı, yaxud da təqdim edilən məsələlərin əhəmiyyətliliyi baxımından təşkil edilibmi?* | Mətndə istifadə edilmiş vasitələri sıra ilə düzün. Sonra təsvir edilən məkanın sözlə sadə xəritəsini çəkin. Siyahıya aldığınız vasitələri orada yerləşdirin. Yoxlayın. Siyahıdakı nümunələrdən yararsızlarını kənarlaşdırın və ya düzəliş etməklə münasib yerdə yazın. | Yenidən təşkil edin.<br>• Müşahidə edilən, yaxud təsəvvür olunan məkanda təsvir edilənlərin ardıcıllığına riayət edin (uzaqdan yaxına, yüksəkdən aşağıya və s.).<br>• Təqdim edilən məsələlərin əhəmiyyətliliyi baxımından ardıcıllığı gözləyin (az əhəmiyyətlidən çox əhəmiyyətliyə doğru və ya çox əhəmiyyətlidən az əhəmiyyətliyə doğru). |
| *5. Nəticədə çatdırmaq istədiyiniz fikri yekunlaşdırın.* | Fikirlərinizi yekunlaşdıran cümləni mötərizəyə alın. Əgər belə bir cümlə yazmamısınızsa, həmin fikri formalaşdırıb yazın. | Əsas fikri yenidən vurğulayan elə cümlə əlavə edin ki, apardığınız təsvir işini yekunlaşdırsın. |

**BURAXILIŞ MƏLUMATI**

**ƏDƏBİYYAT 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Ədəbiyyat fənni üzrə dərsliyin (qrif nömrəsi: 2021-041)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Afət Yaqub qızı Süleymanova**<br>**Təranə Böyükxan qızı Bağırova** |
| Redaktor | **Arif Əzizbəyli** |
| Nəşriyyat redaktoru | **Aida Quliyeva** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səadət Quluzadə, Zahid Məmmədov** |
| Korrektor | **Ülkər Tağıyeva** |

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 14,3. Fiziki çap vərəqi 15,0. Formatı $70x100^1/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 240.
Şriftin adı və ölçüsü: məktəb və jurnal qarnituru, 10-12 pt.
Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: _______________**

Çap məhsulunu nəşr edən:
**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a, (149))

Çap məhsulunu istehsal edən:
**"Radius" MMC**
(Bakı, AZ 1054, Binəqədi şosesi, 53)

PULSUZ

